**Sədnik Paşa Pirsultanlı**

# Ozan-aşıq yaradıcılığına dair araşdırmalar

## II cilddə

### II cild

**Pirsultan-2002**

Elmi redaktor: ***Sabir Əliyev***
*filologiya elmləri doktoru, professor*

Nəşriyyat direktoru: **Ramiz Təmkin**

**S.P.Pirsultanlı**
**“Ozan-aşıq yaradıcılığına dair araşdırmalar”**

**“Pirsultan” nəşriyyatı – 2002**

Tədqiqatçı alim Sədnik Paşa Pirsultanlının ikicildlik “Ozan-aşıq yaradıcılığına dair araşdırmalar” kitabının 2-ci cildinə türk aşıqlarından və mütəffəkkirlərindən Hacı Vəli Bəktaşi, Pir Sultan Abdal və Aşıq Veysəl haqqında, XIX əsrin böyük sənətkarı Güvəndikli Əhməd, Ağdabanlı Qurban, Sənətkar Abdulla, Aşıq Aqil, Tifil Əsəd, Ayrım Əhməd, Əli Bimar, Seyfəli Aşıq Pənah, Aşıq Nabat və başqa sənətkarlar haqqında portret-oçerklər və digər nəzəri məsələlərə aid nəzəri məqalələr daxil edilmişdir.

İnanırıq ki, bu tədqiqatlar və araşdırmalar ali məktəb müəllim və tələbələri üçün çox faydalı olacaqdır.

**DQ 03 02 A1 – 08**

**© 2002**

# Müəllifdən

İkicildlik «Ozan-aşıq yaradıcılığına dair araşdırmalar» kitabının birinci cildində ön söz yazılmışdır. Müqəddimə «Araşdırmaların məcrası» adlanır, ona görə ki, birinci cilddə Sədnik Paşa Pirsultanlının, Sədnik Paşayevin, S. Qoşqardağlının yetmişinci illərdən bəri mərkəzi, yerli qəzet və jurnallarda, hətta türk mətbuatında çap olunmuş məqalələri cəmlənmişdir.

2002-ci il sentyabr ayının 16-da çap edilmiş birinci cilddən sonra ikinci cild çapa hazırlanmışdır. İkinci cilddə toplanan məqalələr içərisində, hətta 60-cı illərə aid nümunələr də vardır. İkinci cild türk filosofu Hacı Vəli Bəktaşi, Pirsultan Abdal və Veysəllə açılır. İkinci cildin də əhatə dairəsi, coğrafiyası genişdir. Burada hələlik adları ədəbiyyat tarixinə düşməmiş nadir sənətkarlardan, çalğı alətlərindən, musiqi havalarından, ahəng və qaydalarından söz açılır. Bu ikicildliyin bir əhəmiyyəti də odur ki, ozan-aşıq yaradıcılığına dair hansı problemlər 30-40 il bundan əvvəl mətbuatda qaldırılmış və onun əks-sədası nədən ibarət olmuşdur.

Qəzet və jurnallarda pərakəndə şəkildə qalan elmi məqalələrdən oxucuların, araşdırıcıların bir küll halında tanış olması, səmərəli şəkildə faydalanması çətinlik törədirdi. Biz bu, ikicildliyin hazırlanıb, kitab şəklində çap olunması zərurətini hiss etdik və qəlbimizdən gələn səsə qulaq asdıq.

«Ozan-aşıq yaradıcılığına dair araşdırmalar» kitabının ikinci cildində «Hacı Bektaş Veli, Bektaşilik ve Ozan-aşık sanatı», «Pir Sultan Abdal», «Pirsultan dağdımı, kənddimi, şəxsiyyətdimi?», «Aşık Veyselin şiirlerindeki özgünlük», «Güvəndikli Aşıq Əhməd», «Aşıq Bəsti», «Böyük el sənətkarı» (Hüseyn Cavan haqqında), Aşıq

Ələsgər haqqında, Ağdabanlı Qurban haqqında silsilə məqalələr, «Sənətkar Abdulla», «Ağbulaqlı Aşıq Aqil», «Tifil Əsəd», «Ayrım Əhməd», «Əli Bimar», Səməd Vurğun və Aşıq Şəmşir haqqında, «Seyfəli Aşıq Pənah», Aşıq Pəri məclisi, şair Bəhmən və Kəlbəcərin el şairləri, «Aşıq Nabat», «Səməd Vurğun və aşıq sənəti», «Təmbur və Tala mahnıları», Güney Azərbaycan və Türkiyə xatirələri və digər folklorla, ozan-aşıq yaradıcılığı ilə bağlı yazılar daxil edilmişdir.

# Hacı Bektaş Veli, Bektaşilik ve Ozan-Aşık Sanatı

Hacı Bektaş Veli'nin ilginç yaşam öyküsü oldukça fazla araştırmaya konu olmuştur. Adı Mehmet olan bu evliya, Horasan'ın Nişabur şehrinde, Bektaş Mahallesinde doğmuştur. Anne babası Türk soyundandır. Annesi Şeyh Ahmed'in kızı Hasem Hatun, Babası ise Seyid Sultan Sani'dir. Bazı kaynaklara göre 1248'de doğmuş ve 1337'de vefat etmiştir. Kimi kaynaklarda ise, bu tarihler (1209-1271) olarak gösterilmektedir fakat, bizim için önemli olan başlıca gerçek şudur: Hacı Bektaş Veli XIII. yüzyılda Horosan'dan Anadolu'ya geçmiştir.

Babası, Hacı Bektaş Veli'yi daha çocukken Nişabur'un meşhur evliyalarından ve Ahmet Yesevi dervişlerinden olan Lokman-ı Perende (Lokman-ı Horasani)nin yanına vermiş, bilim ve marifet öğrenmesi için hocadan ricada bulunmuştur. Hacı Bektaş Veli, Hoca Yesevi'nin yolunu, tarikatını çok iyi bir şekilde öğrenmiş, onun fikir ve felsefesini benimsemiştir. O zamanlarda Nişabur şehri bilim ve sanat yönünden önemli bir ortam oluşturuyorsa da, seyahat etmek ve dünyayı görmek, bir ilim ve irfan adamı için çok büyük bir avantajdı. Bu nedenle Hacı Bektaş Veli önce hocasının tavsiyesi üzerine Bedehşan şehrine gitmiş, oradaki okumuş ve ermiş şahıslarla görüşmüş, sonra da Nişabur'a dönmüştür.

Nihayet onun Anadolu'ya geçmesi uygun görülmüştür. Bir rivayete göre; Hoca Ahmed Yesevi kendisine görünerek: «Sulucakarahöyük'ü sana yurt verdik» demiştir. Bu Sulucakarahöyük, bugünkü Nevşehir'in Hacıbektaş ilçesidir.

Hacı Bektaş Arap alimleriyle görüşebilmek için Basra, Bağdat, ve Necef'e gitmiş, oradaki bilim ve irfan

ehliyle temaslarda bulunmuştur. Necef-i Eşref'de bulunan Hz. Ali'nin türbesinde 40 gün çile çıkartmıştır. Üç yıl Mekke'de kalmış ve Hac görevini de üç kere yerine getirmiştir. Oradan Hazreti Peygamber efendimizi ziyaret amacıyla Medine'ye geçmiş ve burada da «çile» çıkartmıştır.

«Çile» çıkarmak; insanın nefsini terbiye etme ve Hak'ka yakın olmak amacıyla kırk gün bir hücrede ibadet etmek, az besinle yetinmek gibi şartları içerir.

Son olarak, Hacı Bektaş Veli, Kudüs'e geçmiş oradan Haleb'e uğramıştır. Burada Cami-i Kebir'deki Davud Peygamberin türbesinde ve Elbistan Eshab-ı Kehf Mağaralarında çile çıkarmıştır.

Bu seyahat ve ziyaretleri sırasında Hacı Bektaş Veli zamanının, bir çok ünlü bilgin ve evliyaları ile tanışma ve konuşma fırsatı bulmuş, 13. yüzyılda da ermiş sıfatıyla Anadolu'ya dönmüştür. Bu dönemde Türk toprağı olan Anadolu zor şartlar altında idi. Bir yandan Moğol istilasına karşı direniyor, diğer taraftan Türk birliklerinin zayıflamasını fırsat bilip karışıklık yaratan etnik guruplarla uğraşıyordu.

Bu dönemde Anadolu'nun manevi mimarları olan Mevlanalar, Yunus Emreler, Hacı Bektaş Veliler, Ahi Evranlar meydana çıkarak Anadolu Türk Birliğinin oluşturulması için büyük qayret göstermişlerdir. Bu birliği, kuvveti, dostluk ve kardeşliği yaratan da elbetteki Hoca Ahmed Yesevi tarikatıdır. Bu ekol doğrultusunda Hacı Bektaş Veli'nin Anadolu'daki manevi ve edebi gelişmeler çok önemli katkıları mevcuttur. «Bilimle ışıklanmayan yolun sonu karanlıktır» diyen Hacı Bektaş Veli sadece bir tarikat kurucusu olarak kalmamıştır. Daha XIII. yüzyılda «Bir olalım, iri olalım, diri olalım» sözleriyle gelecek yüzyıllara seslenmiştir. Bu mesajı bugün de yarın da gücelliğini koruyacaktır.

Biliyoruz ki, tarikat Arapçada yol anlamına gelmektedir. Peki, İslam kadar mühteşem ve bir tek gerçek yol olduğu halde yeni bir tarikata, yeni bir yola ne gerek vardı? diyebilirsiniz. Üstelik Aleviler de, Bektaşiler de, Ebubekir, Ömer ve Osman'ın da aziz peygamberimiz için sevgili kızı Fatime Annemizin eşi Ali kadar kıymetli ve aziz olduğunu biliyorlardı. Peki bu yelpaze nedir? Neden mezhep ve tarikatlar ortaya çıkmıştır? Bizce, Alevilik ve diger tarikatlar genellikle Arap egemenliğine karşı bir tepkinin sonucudur. Arap Halifelerinin, haksız tutumları Horasan ve Bağdat'ta tepkilere yol açmıştı. Türkler ve Farslar'ın Araplaştırılma çabası da ayrı bir tepkiye neden oluyordu. Üstelik Arap dili ve kültürüne karşı tepki, Anadolu'da bir de Türklüğü korumak isteyen kesimlerde görülmektedir. Burada Farsça'ya tepki de söz konusudur. Bize göre, 1270 yılında Horasan'lı erenlerden Hacı Bektaş Veli'yi Anadolu'ya getiren bir neden de bu idi. Anadolu'daki ulusal ve dinsel arayışlara katılmak ve buradaki uygun sosyal bazı kullanmak için o, Anadolu'yu seçmişti. Genelde Hacı Bektaş Veli Alevilik yanlısı değildi. Bakın ne diyordu: «Her Bektaşi, Alevidir, ama her Alevi tarıkatımıza dahil olmadığından Bektaşi değildir».

Hacı Bektaş Veli'den kalan velayetnamelerden Şerh-i Besmele'de kendisinin başlıca savları ve düşünceleri yer almaktadır. Veli'ye göre, Türk Milletinin Alevi ve Sünni çocuklarının ortak manevi değeri Ehl-i Beyt sevgisi'dir. Bu sevgi, Hazreti Peygamberimize ve onun soyundan gelenlere duyulan ve beslenen yüce sevgidir. Kutsal bağlılıktır. Bu sevgide Osman'a, Ömer'e, Ebubekir'e ve Ali'ye de yer vardır.

Hacı Bektaş Veli'nin fikir dünyasında Türk kimliği açıkça kendini göstermektedir. Şu sözüne dikkat edelim «Türk'ün karakteri, hiçbir zaman zalimin yanında yer almaya izin vermez. İnsanlığın vicdanını kanatacak her bir

hareket Türk vicdanında unutulmaz ve derin yaralar açacaktır.»

Bir folklor uzmanı ve halk edebiyatı araştırmacısı olarak beni daha çok ilgilendiren Hacı Bektaş Veli düşüncelerinin ve ekolünün halk şiirine etkisidir.

Ozanların, halk şairlerinin ilahi bir sevgiyle hak aşığı olduklarına dair rivayet ve efsaneler Hacı Bektaş Veli'den çok daha önce de mevcuttu. Bir rivayete göre, Musa-Aleyhisselam Tur-i Sina'da Tanrı'yla konuşur. Tanrı da yaptıkları konuşmanı sır olarak kalmasını ister. Musa, dağdan dönerken bir ozanın bir az önce kendisinin Tanrıyla yapdığı konuşmayı kopuz çalıp, söylediğini görür, Musa telaş içinde geri dönüp, durumu Tanrıya iletir. Tanrı ise Musa'ya şöyle der:

-Sen bu meseleye karışma! Benimle ozanlar arasında sevgi ve gönül bağları var. Onlar benim söylediklerimi himen duyar ve bilirler.

Hacı Bektaş Veli'nin ozan Sanatı ve Halk Şairliğine yaklaşımı açısından bana göre kendisinin Yunus Emre'yle sohbeti çok ilginçtir Veli'nin Halk Ozanlarına bakışı bu konuşmada açıklanmaktadır. Hacı Bektaş Veli'nin Yunus Emre'ye «Sorun bakalım buğdaymı himmet mi? istiyor,» dediği rivayet edilmektedir. İşte Hacı Bektaş Veli'nin Anadolu'ya gelişinin asıl amacı himmet dağıtmak, iman ve sevgi saçmaktı. Türk İslam birliği, bütünlüğü Hacı Bektaş Veli için önemli manevi hedef olmuştur.

Tapduk Emre ile Yunus Emre arasındaki kırdan getirilmiş ve ibadetten geri kalmış tek çiçeğin derilmesi olayı da geleceğin büyük ozanının manevi dünyasını belirleyen güzel bir örnek sayılmalıdır.

Hacı Bektaş Veli'nin «Şerhi-Besmele» eserini (İzmir 1985) yayına hazırlayan bilim adamı Rüştü Şardağ halk ozanlarının Bektaşilikle büyük bir manevi bağı

bulunduğunu dile getirmiştir. Hatta yayında Yunus Emre'nin şiirlerinden de örnekler verilmiştir:

Murtaza'dır, güneş ile görünen
Yüreklerden tutan, duyan Ali'dir.

Yunus dini bütün bir Müslüman için tek Allah, tek Peygamber ve de tek kitabın, Kuran-ı Kerim'in olduğunu şiirlerinde dile getiriyordu:

Kaf dağı zerrem değil
Ayla Güneş bana kul
Haktır aslım, şek değil
Mürşittir Kuran bana.

Yunus Emre'nin yolunda yürüyen bazı halk şairleri kendi şiirlerinde Hacı Bektaş Veli'nin fikirlerini, felsefesini ve inancını dile getirmişlerdir. Hatta bunlar arasında Hacı Bektaş Veli'nin adını şiirlerinde redif olarak kullananlar da olmuştur. Haydar Baba, Kaygusuz Abdal, Seyrani, Hasan Dede, Miskin Arif, Abdal Musa, Perişan baba, Zeynal Baba, Sersem Ali, Vahit Lütfü Salcı ve diğer ozanlar sık sık Bektaşilik fikirleri doğrultusunda eserler yazmışlardır.

Örnek olarak Sersem Ali'nin bir şiirine bakalım:

Yedi iklim, dört guşeyi dolandım
Hünkar Hacı Bektaş pirim hu deyü
İndim eşiğine, niyaz eyledim
Hünkar Hacı Bektaş pirim hu deyü

Meydanda oturan mertlerin merdi
Her sabah okunan erenler virdi
Hak Muhammet, Ali Pirimin ceddi
Hünkar Hacı Bektaş pirim hu deyü

Haktan geldi, yaşıl ferman göründü
Rum'un yerlerine cümle okundu
Karaca Ahmet Sultan bendesi oldu
Hünkar Hacı Bektaş pirim hu deyü

Şair Veli'den bir örnek:

Saadetlü Sultan'ın nazar kıldığı
İlleri var Hacı Bektaş Veli'nin
Horasan'dan sökün edip geldiği
Yolları var Hacı Bektaş Veli'nin

Şeyhleri var, atlas giyer, al giyer
Düldül atları var, altun çul giyer
Dervişleri hırka giyer, şal giyer
Şalları var Hacı Bektaş Veli'nin

Bektaşı Şeyhlerinin, Müritlerinin giyimi, yaşam biçimi ve davranışları Abdal denen dervişleri hatırlatır. Vahit Lütfü Salcı «Hünkar Hacı Bektaş Veli» semaisinde onu şöyle açıklamıştır.

Velilerin velisisin
Hünkar Hacı Bektaş Veli
Er Türklerin birisisin
Hünkar Hacı Bektaş Veli

Horasan elinden geldin
Osmanlıya öğüt verdin
Dört guşeye yetip erdin
Hünkar Hacı Bektaş Veli

Sen inkılapçı bir ruhsun
Sevgililer gibi şuhsun

Bize ikinci bir Nuh'sun
Hünkar Hacı Bektaş Veli

Karahöyük'de oturdun
Anadolu oldu yurdun
Sen milli bir devlet kurdun
Hünkar Hacı Bektaş Veli

Pirim Ahmet Vesevi'dir
Yerin kalbimin evidir
Kulun Vahit Alevi'dir
Hünkar Hacı Bektaş Veli

Azeri Türklerinin Ozan ve Halk Şairleri de Hacı Bektaş Veli'nin manevi dünyasından etkilenmişlerdir. Bu şairlerin eserlerinde Bektaşilik, Dervişlik Abdallık motifleri kendini göstermektedir. Hazreti Ali sevgisi bu açıdan ağırlık kazanmıştır.

XVI. yüzyılın halk şairlerinden Miskin Abdal da Bektaşilik noktasından hareket etmiştir ve dini içerikte şiirler yazmıştır.

Her kim eğer şerde şerri bilmese
Gökte efzel Gazanfer'i bilmese
Her kim ki Alı'yi Veli bilmese
Onun başın Zülfükar'a veresen

Kadir Mevlam nazar salıp her yana
Fark  koymayıp beye, hana, sultana
Abdal da sığınıp kadir süphana
Sen de meylin beyle yara veresen.

Miskin Abdal'dan sonra sanat dünyasında görülen Pir Sultan Abdal da aynı yol ve felsefeyi benimsemiştir.

Pir Sultan Abdal'ım ağladı güldü.
Kabe'yi şerinden bir nida geldi.
Hakkın emriyle dört kitap indi.
Okuyan Muhammet, yazan Ali'dir.

Ayrıca, XVI. yüzyılda yaşamış Dirili Kurbani de aynı içerikte koşmalar dizmiştir.

Horasan'da, kızıl gümbet ağası
Gözüm senin intizarın çekibdi.
Hakkı buyurdu, Habip gitti Mirac'a
Ona peşkeş ol Kurbani çekibdi.

Yeri gelmişken burada aynı dönem şairlerinden olan Pir Sultan Abdal'la Dirili Kurbani'nin şiirlerinde «şah» kelimesinin yorumu üzerinde durmak istiyorum. Pir Sultan Abdal'ın bir dörtlüğü şöyledir:

Gönül çıkmak ister Şahın köşküne
Can boyanmak ister Ali müşküne
Pirim Ali, on iki imam aşkına
Açılın kapılar, Şaha gidelim.

Tabi ki burada konu olan Şah İran Şah'ı değildir. Bize göre burada Şah kelimesi Tanrı anlamına gelmektedir. Çünkü Allah anlamında kullanılan Şah kelimesi XIV. yüzyıldan beri bizim edebiyatımızda sık sık görülmektedir. Örneğin Şirvanlı İmadetdin Nesimi'de, bunları görüyoruz. Şah denince bütün varlıkların ve mevcut olan her şeyin hakimi yüce Allah kastedilmektedir. Şimdi bir de Dirili Kurbani'nin bir şiirine bakalım:

Yerde gök yokken, bir nazar kıldı.
Eritti gevheri, dürr eyledi Şah

Yok yerden alemi berkarar etdi
Cismini kandilde nureyledi Şah

Getirdi kelamı cümle cahana
Kırkları gösterdi ehl-i irfana
Peygamber hitabın getdi dehana
Habibin sohbetin şur eyledi Şah

Dirili Kurbani, götür din indi
Boynundadır mehebbetin kemendi
Derya üste oynatırdı semendi
Özün Cebrail'e per eyledi Şah.

Bu durumda fazla yoruma gerek kalmıyor. 18. yüzyılın ünlü Halk Şairlerinden Tufarkanlı Abbas'da dini daha doğrusu Tasavvuf şiiri yazmaya meraklıydı.

Kör olasan a gözlerin
Ağan burdan hara getdi?
Üç aylık beşik içinde
Kılınç çalan hara getdi?

Zülfükar'ı çekti daşa
Bulak çıktı, koşa koşa
Ejdahanı baştan başa
İki bölen hara getdi?

İsterem sırrı sübhanı
Natik okuyan Kuran'ı
Abbas kimi binevanı
Ağlar koyan hara getdi?

XVII. yüzyılın büyük ismi, Karacaoğlan ilk bakışta dini temaları işlemiyor gibi görünse de şiirleri dikkatle

incelendiği zaman onun dine olan sevgisi ve bağlılığını açıkça görebiliriz:

Karacaoğlan der ki, ismim öyerler
Acı oldu bildiğimiz şekerler
Güzel sever  diye isnad ederler
Benim Hak'tan  gayrı sevdiğim mi var?

Karacaoğlan'ın şiirlerinden birinde Hacı Bektaş Pir'in adından da söz edilir. Bize göre XIX. yüzyılın büyük şairi Aşık Elesker Göğçeli din konusunda daha çok dünyevi bir tutum içinde kalarak mezhep ve tarikat etkisinde kalmamıştır. O Ömer, Ali, Ebubekir ve Osman'ı aynı derecede yüce tutmuş, onları Allah'ın ve Peygamber'in dostu gibi terennüm etmiştir.

Altı günde halk eyledi
Alemi sübhani merd
Aya, güne karar koydu.
Dolandı dünyayı merd.

Geldi Muhammed şahnına
Doksan bin kelime tamam
Osman yazdı cem eyledi
Otuz cüz Kuran'ı merd.

«Dede Korkud ve Selman-ı Farsi» adlı bir rivayete göre Salman-ı Farsi Peygamber Efendimizin dostuymuş. Ülkede meydana gelen bütün önemli olaylar hemen Selman-ı Farsi'ye ulaştırılıyormuş. Bir gün Salman-ı Farsi'ye haber gelir. Korkud adında bir ozan halk arasında dolaşarak Kuran Ayetlerini nazma dizip, kopuzla çalıp, söylemektedir. Selman-ı Farsi Korkud'u kopuzuyla beraber yanına alıp Peygamper Efendimize götürür ve ozanın

yaptıklarını kendisine anlatır. Muhammed Peygamber, ozana kızmaz ve hak verir: «Ona dokunmayınız zira o ozandır. Yaptığı da küfür sayılmaz. Bırakın halk içinde kutsal ayetleri yaysın, şiirle anlatsın. Halk onu dinliyorsa, Kuran'ı anlatması dinimize hizmettir.» O alkışa layıktır.

Aslında Bektaşi tarikatının uzun süre halk içinde etkili oluşunun bir sebebi de tarikat neferlerinin halk şiirini kullanarak «propaganda» yapmalarıdır. Ozan dili ve sıfatıyla halka giden Bektaşiler tabii ki başarılı oluyorlardı.

Azerbaycan'a gelince, Bektaşilik sadece Nahçıvan bölgesinde etkili olmuştur. Nahçıvan'da Bektaşi soyu da bilinmektedir. Örneğin merhum qazeteci ve Yazar Kamil Bektaşi ve Filoloji Doktoru, profesör İnayet Bektaşi söz konusu soylu ailenin temsilcileridir. Nahçıvan'da bu soy hatırı sayılır bir mevkiye sahiptir.

*«Halk ozanlarının sesi» dergisi,*
*Sayı: 2, Mart 1993*

# Pir Sultan Abdal

1928-ci ildən üzü bəri Fuad Köprülü, Sadəttin Nuzhət (1929), Pərtəv Naili Boratav və Abulbaqi Kölpinarlı (1943), Cahit Öztelli (1985) ayrı-ayrı dövrlərdə türk şair-ozanı Pir Sultan Abdalın şerlərini toplayıb nəşr etdirmişlər.

Cahid Öztellinin 1985-ci ildə İstanbulda yayım-ladığı «Pir Sultan Abdal» əsəri onun yazdığına görə, şairin həyatını və şerlərini tam əhatə edən mükəmməl nəşrlərdəndir. Mən bu kitaba münasibətimi bildirməzdən əvvəl Pir Sultan Abdal haqqında bir-iki söz demək istərdim. Mənim yaşadığım Gəncə şəhəri yaxınlığında Pirsultan dağı var, mən həmin dağın ətəyindəki kiçik bir köydə doğulmuşam. Bu dağın adı ilə bağlı rəvayətləri ilk dəfə ana nənəm Leylidən eşitmişəm. Nənəm deyərdi ki, bu yazıq Pirsultan allanmış, bir türk oğlu kimi öz yurdunun içinə boylanmaq əvəzinə kənara boylanmış, axşam-sabah «Sultanım, sultanım» deməkdənsə, «şahım, şahım» söyləmiş. Bu da yuxarıların xoşuna gəlməmiş və boğazından asılmasına fərman verilmişdir. Pir Sultanı dar ağacından asmışlar. Lakin yerə düşərkən, əbasının içərisində cəsədi olmamış, qeybə çəkilmiş, əvəzində əbanın içərisindən bir göyərçin pırıldayıb uçmuş və qənşərdəki dik daşın üstünə qonmuşdur. Həmin göyərçin Pirsultan soyuna mənsub pərən-pərən düşmüş ailələrin bir qisminə bələdçilik edib Yıldız dağının bənzəri olan Təbrizə və Gəncəyə yaxın olan dağlara aparmışdır. Gəncə yaxınlığında şair-ozan adını daşıyan Pirsultan dağı olduğu kimi, Təbrizin 60 km-də Qasım dağları arasında Pirsultan köyü və Pirsultan məzarı mövcüddür.

Leyli nənəm Pir Sultan Abdalın şerlərindən bircə bənd bilirdi və ən qəmli vaxtlarında o şeri zümzümə edirdi.

Sivas ellərində zilim çalınır,
Camlıbellər bölüm-bölüm bölünür,

Mən dostdan ayrıldım, bağrım dəlinir,
Katib, əhvalımı şaha böylə yaz.

Sonralar həmin qoşmanı bütövlükdə şair-tədqiqatçı Məmməd Aslanın 1980-ci ildə nəşr etdirdiyi «Türk xalq şerindən seçmələr» kitabında oxudum.

Bütün bunlardan sonra Cahid Öztellinin «Pir Sultan Abdal» (1985) kitabını, oradakı qeydləri, mülahizələri, şerləri, şərhləri oxudum, ağıl süzgəcindən keçirdim.

Kitabda yeddi ələvi şairləri sırasında Nəsiminin də adı çəkilir. Əhməd Yəsəvinin (1103-1166) Türküstandan Xorasana, Anadoluya müridlər göndərdiyi, XIII əsrdə Hacı Vəli Bəktaşinin Anadoluya gəlişi tarixdən məlumdur. Hər Əlinin adını çəkən ələvi deyildir. Nəsiminin adı çəkilən ələvi şairlərdən fərqli olaraq onun sistemli yaradıcılıq konsepsiyası vardır. İstilaçı Teymurləngin islami əqidəsindən fərqli şəkildə «Quran»ı şərh etməyə başlamış, öz hürufi əqidəsinə görə, belə hesab etmişdir ki, Nəsimi «Quran»ı daha düzgün başa düşüb, islami əqidəyə o daha yaxındır. O, şəriət, təriqət, mərifət və həqiqətin dəyərlərinə yiyələnməklə adamların mənəvi cəhətdən insani kamilliyə yüksəlməsi əqidəsini müdafiə edirdi. İnsanı mənəvi ucalığa çağırırdı. Nəsimi ələvi şairi deyil, bütövlükdə şərqin, eləcə də türk dünyasının böyük şairidir. Yunis İmrə, Qazi Bürhanəddinə qədər, bəlkə də bir az da artıq türk dilinin inkişafı tarixində Nəsiminin xidmətləri vardır. Nəsimi ilə ələvi şairləri təsəvvüf ədəbiyyatının nümayəndəsi kimi bir nöqtədə birləşirlər. Nəsimi ilə Pir Sultan Abdalı və ya başqa ələvi hesab etdiyimiz şairləri uzun bir zaman, əsrlər ayırdığı kimi, dünya görüşləri, şerləri də o qədər fərqlidir. Orta Asiyadan, Türküstandan Anadoluya gəliş, qayıdış çox güclü olmuşdur. Bu izlər bu gün də ozan-aşıq sənətində yaşamaqdadır. Məsələn, Yıldız dağı Türkiyənin

Sivasındadır, «Yıldız dağ Koroğlu» saz havası isə türkmən baxşıları (ozanları) arasında geniş yayılmışdır.

O ki qaldı Pir Sultan Abdalın «Dönən dönsün, mən dönməzəm pirimdəm» ideyası Nəsimidən yox, Şah İsmayıl Xətaidən gəlir. Şah İsmayılın babası Şeyx Cüneyd də, atası Şeyx Heydər də hakimiyyəti dinin gücü ilə ələ almağa səy göstərdilər, lakin mümkün olmadı. Gilanda Şərif xanın, Lələ Hüseynin dini tərbiyəsi ilə böyüyən və hakimiyyətə gələn Şah İsmayıl Xətai bütövlükdə Azərbaycanı, İran İraqını, Mərəşi, Diyarbəkir vilayətini, Bağdadı tutan, Xorasanı İrana birləşdirən Şah İsmayıl Xətai sonra da gözünü qonşu dövlətlərə tikir. Allahın, «Quran»ın və Peyğəmbərin bir olması, islam əqidəsi bu işdə ona rəvac verir. 28 yaşlı Şah İsmayıl Xətainin şairliyindən, yumşaq təbiətindən bacarıqla istifadə edən din xadimləri Şeyx Heydərin vaxtı ilə başladığı «Qızılbaş hərəkatı»nı yenidən dirçəldirlər. Bu məqsədlə Şah Xətainin Abdalları gəzəngi şair-ozanları meydana çıxır.

Xətainin sağlığında bilavasitə onun özündən tapşırıqlar alan Miskin Abdal, Çoban Abdal (Samux bölgəsi), Sarı Abdal (Oğuz bölgəsi), Eşq Abdal (Ağdam bölgəsi) kimi şair-ozanlar Anadoluya yayılıb İslam dini içərisində müxalifət mövqeyində dayanaraq iki qardaş arasında zərərli toxumlar səpirlər. Hacı Vəli Bəktaş törənlərində, cəm gecələrində oxunan «nəfəslər» də bunlara rəvac verir. Böyük türk toplusu arasında Yezidə, Müaviyyəyə bərabər Həzrət Əli düşmənləri axtarılır.

Bu ənənələrə möhkəm bağlanan Pir Sultan Abdalın faciəsi belə başlanır və nəticədə bu faciənin qurbanı olur. Sivasda Xızır Paşanın əli ilə boğazından asılır. Burada bir həqiqəti söyləmək yerinə düşər ki, türk yurdunun bütövlüyünə kəc baxan, bu yolda suçu olan Pir Sultan Abdalı həmin Xızır Paşa olmasa da, gec-tez İstanbuldan gələn fərmanla başqa bir Xızır Paşa boğazından

asdıracaqdı. Burada başqa bir həqiqəti də söyləməyi borc bilirəm. Pir Sultan Abdal «Açılın qapılar, şaha gedəlim» dedikdə İran şahını yox, Şahi-Mərdan Əlini nəzərdə tuturdu. Pir Sultan Abdal Həzrət Əli ilə bağlı əvvəl Yezidin düşmən obrazını yaradır və bundan istifadə edərək mövcud quruluş haqqında istədiyi mənfi fikirləri onun timsalında söyləyir və bunu da oymaq-oymaq gəzə-gəzə sazının-sözünün gücündən istifadə edib yayır. Bu şair-ozanın səhvidir, yanlışlığıdır, faciəsidir və bu faciənin qurbanı olması da təbiidir. Bu inkar edilməz bir fakt olduğu kimi, bu da bir həqiqətdir ki, müxalifət olmadan, ölkədə açıq fikrə də meydan ola bilməz.

Dahi şairimiz Nizami Gəncəvi deyir ki, bir ayna səni pis göstərsə, onu sındırma, özünü düzəlt, çünki səni başqa bir ayna da əyri göstərəcəkdir. Məlumdur ki, Pir Sultan Abdal o dövrdə asılan, sürgün olunan sonuncu şair olmamışdır.

Mən Türkiyənin çox şəhərlərində, köylərində, şənliklərində oldum, elə saz-söz məclisi görmədim ki, orada Pir Sultan Abdalın şeri oxunmasın, bəstəsi çalınmasın. Hətta uzun illər keçməsinə baxmayaraq, Pir Sultan Abdal faciəsinin qəlbləri göynətdiyinin də şahidi oldum. Pir Sultan Abdal şerlərində yaşantı var. Onda bir həyat çağlayır.

Gəl, bizim bağçaya, edəlim seyran,
Bülbül aşiq olmuş bir gülə heyran,
Səni məndən bir gün ayırar dövran,
Ayrılıq ortaya düşməmiş gəl-gəl.

Pir Sultan Abdal bəzən inad etsə də, səhvini də başa düşür. «Gecikmiş karvanım yollarda qaldı», «Dibi bir qərarsız göllərdə qaldım» deyərək, öz təəssüfünü də bildirir. «Çıxaram, baxaram, bülbülüm ötməz» deyən sənətkar daxilən ağlayır.

Bütün bu deyilənlərlə yanaşı, Pir Sultan Abdala münasibət bu gün də duru deyil. Bir pinar kimi, bu gün Pir Sultan Abdalın şer çeşməsindən içib feyziyab oluruq. Amma, ona başqa don geydiririk.

«Pir Sultan Abdal» kitabının 25-ci səhifəsində oxuyuruq ki, Pir Sultan Abdal asılır, əbasının içərisindən şairin cəsədi əvəzinə köpək çıxır.

Başqa bir rəvayətə görə, Pir Sultan Abdal İrana qaçır, şahın qızı Sənəmlə evlənib başqa bir adla Sivasa qayıdır. Qız Sivasda Xızır Paşanı gördükdə ona aşiq olur. Xızır Paşa ilə dönük qız birləşib, Pir Sultan Abdalı yenidən məhv edirlər. «Vərqa və Gülşa», «Arzu-Qəmbər» dastanlarında sevgililər öz müqəddəsliklərinə görə, təzədən dirilib bir-birlərinə qovuşurlar. Türk folklorunda da belə müqəddəs ənənələrin olduğu bizə məlumdur.

Otuz ildən artıqdır ki, Azərbaycanda, Gürcüstanda, Ermənistanda, Dağıstanda, Qazaxstanda və Orta Asiyada folklor toplamaqla məşğulam, otuzdan artıq kitabın müəllifiyəm. Düşmən tərəfindən uydurulmuş Pir Sultanın ölümü kimi  yaramaz nümunələrə az rast gəlmişəm. Onu söyləyən qocalara da, cavanlara da ar olsun demişəm. Xalqı, onun nümayəndələrini ucaldan, bizə məğrurluq gətirən nümunələri toplayıb qələmə almışam.

Anadolunun mənəvi memarlarından biri olan «Piri», yəni Pir Sultan Abdalı köpəyə, itə çevirmək nə dərəcədə ədalətli  səslənir. Saxta şəkildə, süni surətdə düzəldilən dastanda ağıla batan odur ki, Pir Sultan Abdal çox qoca, ixtiyar çağlarında asılmışdır. Pir Sultanın İrandan gətirdiyi şah qızının yox, atasının ölümü zamanı saçlarını yolan qızının adı Sənəmdir. Sənəmin ağı deyən səsi, sözləri az qala bu gün də insanın qulağında səslənir və insanın  qəlbi daş olsa da onun gözündən yaş çıxarır.

Uzundur, usuldu dədəmin boyu,
Yıldızdır yaylası, Banazdır köyü,
Yaz-bahar ayında bulanar suyu,
Sular çağlar, çağlar Pir Sultan deyə.

Pir Sultan qızı idim mən də Banazda,
Qanlı yaş axıtdım baharda, küzdə,
Dədəmi asdılar qanlı Sivasda,
Dar ağacı ağlar Pir Sultan deyə.

Hər şeydən əvvəl, Pir Sultan Abdal türk oğlu türkdür. Bəlkə də, Təbriz yaxınlığındakı Pirsultan köyünün, eləcə də Gəncə yaxınlığındakı Pirsultan dağının ozan Pir Sultanla heç bir əlaqəsi yoxdur, elə-belə ad oxşarlığıdır. Bizə gəldikdə isə sadəcə olaraq köyümüzün üst yanındakı dağın və nəsil-soyumuzun adı ululardan «Pirsultan»dır. Hər necə olur-olsun Pir Sultan Abdal türk dünyasının həmişəyaşar ozanıdır, şairidir. Onun adını bir şair kimi, ulu ozan kimi uca tutmaq hamımızın borcudur. Nizami Gəncəvinin bir sözü qoy biz folklorçulara öyüd, nəsihət və vəsiyyət olsun. O, deyir ki, ağzına pis söz gəldikdə onu yazma. Varağı ağ, bəyaz buraxmaq ondan gözəldir.

Ən önəmlisi odur ki, harada Pir Sultan Abdalın adı tutularsa, o göy, o dağ, o daş, o yer türk camesi qədər müqəddəs yerdir, pirdir, ocaqdır, xalqın tapındığı, ziyarət etdiyi yerdir.

Pir Sultan Abdal tədqiqatçıları gah onun Yəməndən və ya Xorasandan, Xoydan gəldiyini qeyd edirlər. Bu yanlışdır. Folklorun özünəməxsus ənənələri vardır. Bunları dərindən duymadan, bilmədən onu həqiqətə uyğun şəkildə araşdırmaq olmaz. Birincisi, Qaraman-Anadolu boylarında boy-boya vermiş köylərin əhalisi özünə türkmən deyir. Onların türkmənliyindən neçə-neçə yüz illər keçib. Bu gördüyümüz köylərdəki insanların hamısı türk torpağında

törəmiş, artmış, həqiqi türk vətəndaşı kimi boy atmışdır. Türküstandan XIII yüzillikdə gələn bu insanların arxasınca alim-şair Əhməd Yəsəvi müridlər göndərmiş, onların dini-əxlaqi talelərini Hacı Vəli Bəktaşilərə, Tapdıq İmrələrə tapşırmışdır. Onların başçılıq etdikləri toplumda Yunis İmrələr, Pir Sultan Abdallar yetişib meydana çıxmışlar. Ən azı bunlar türk dünyasının mənəvi memarlarıdırlar. Bunlarsız türkün şer və musiqi dünyası boş görünər. Pir Sultan Abdal İmam Rzanın məzarını ziyarət üçün Xorasana gedə bilər, oradan Xoya da keçə bilər. Bu coğrafi məkanlarda milyonlarla Azəri türkləri yaşayır. Yəmən də Həzrət Əlini sevən bir ölkədir.

Göyçənin Kərkibaş kəndində doğulmuş Ağ Aşıq (Allahverdi), XIX əsrdə yaşayıb yaratmışdır. O, Qafqazdan kənara çıxmamış, Yəməni isə heç görməmişdir. Lakin yazdığı təcnisin cinas kəlmələrinə uyğun gəldiyi üçün Yəmənin adını şerə salmışdır. Ağ Aşıq yazır:

Geynibsən yar qəddinə buxara
Necə bulbul baxar bağda bu xara?
Gəzdim İstanbulu, Bağdad, Buxara,
İndi də gəlişimiz a Yəməndədir.

Əslində Ağ Aşıq bu şəhərlərin heç birində olmamışdır. Pir Sultan Abdal Sivasın Banaz köyündə doğulmuş, ürəyi qədər sevdiyi Yıldızdağ kimi o da, o torpağın bitili bir qayasıdır. Türkün əski bir Ata sözü var: «Əsl türk əcdadının doğulduğu yeri vətən bilər. Törəmə türk qarnının doyduğu yeri vətən bilər». Pir Sultan Abdalın vətəni Türkiyədir. Ona hörmət əlaməti olaraq ölümündən sonra Təbrizin 60 km-də bir köyə Pirsultan adı vermişlər. Gəncənin 60 km-də də bir əzəmətli dağa Pirsultan dağı adı verilmişdir. Bu yalnız Pir Sultana olan dərin hörmətlə, məhəbbətlə bağlıdır.

Pir Sultan Abdal bütün varlığı ilə Həzrət Əliyə və Kərbəla müsibətində məhv olmuş on iki imama sonsuz məhəbbət bəsləyir. Hətta bu sevgi o dərəcəyə çatır ki, islam dininin öndəri olan Məhəmməd Peyğəmbəri bu yolda vəzir, Həzrət Əlini isə padşah hesab edir. O, islamın gücünü Həzrət Əlidə, onun atı Düldüldə və qılıncı Zülfüqarda görür. İmam Hüseynə olan məhəbbəti isə heç nə ilə müqayisə oluna bilməz. Pir Sultan Abdalın şerlərindəki «şah» nə Allahdır, nə də Şah Xətai və başqaları. Onun könül verdiyi şah – Şahi-Mərdan Əlidir. Pir Sultan Abdalın Şah İsmayıla olan məhəbbəti də Həzrət Əli ilə bağlıdır. Şah Xətai Əlini sevir, bu səbəbdən də Pir Sultan da onu sevir. Pir Sultan nə şiədir, nə də qızılbaş. O, Hacı Vəli Bəktaşiyə şerlər yazmış, məhəbbətini bildirmişdir. Pir Sultan Abdal Bəktaşi də deyil. Bütün bəktaşilər ələvi olsalar da, bütün ələvilər bəktaşi deyillər.

Ədəbiyyatşünaslara məlumdur ki, Şah İsmayıl Xətai bir neçə təxəllüslə – şair Xətai, Sultan Xətai, Miskin Xətai, Xəstə Xətai təxəllüsləri ilə şerlər yazmışdır. Şah İsmayıl Xətainin sağlığında Abdal Hüseyn – Miskin, Türkiyədə Qoca Heydər – Pir Sultan, sonralar isə Tikmə-daşlı Qasım – Xəstə təxəllüsləri ilə şerlər yazmışdır. Bu adlar da Şah İsmayıl Xətaiyə Həzrət Əlidən gəlir. Xətaiyə görə, Əli dinin Sultanıdır, Xətai Həzrət Əli xəstəsidir, onun miskin müridlərindən biridir. Gör nə qədər ədalətsizlikdir ki, Həzrət Əlinin övladlarını məhv etdiyi üçün Pir Sultan Abdal Yezidi qınayır, söyür. Tədqiqatçı yazır ki, Pir Sultan Abdal Yezidin timsalında Osmanlı dövlətini söyür. Pir Sultan yaradıcılığı bu mövqedən təhlil və tədqiq olunduğundan xətalar yapılır, yanlış nəticələr çıxarılır. Tarixdə bizim tanıdığımız bir Pir Sultan Abdal var. Türk araşdırıcıları gah onun sayını dördə, gah da altıya çatdırır. Türkdilli xalqların belə bir ənənəsi var. Hər nəsil-soy tanınmış şair və qəhrəman oğullarını zaman-zaman

yaşatmaq üçün onların adını nəvə-nəticəyə qoyurlar. Bu adı daşıyan adamlar da öz babaları kimi şair və qəhrəman olmaq istəyir, onun yolunu izləyir, ona oxşamağa çalışır.

Xoşa gələn odur ki, Ankarada, İstanbulda, İzmirdə, Malatiyada, Xətayda – Pir Sultan Abdalın adını daşıyan cəmiyyətlər fəaliyyət göstərir. Ankarada Pir Sultan Abdal kültür və tanıtma dərnəyinin yayım orqanı olaraq «Pir Sultan Abdal» dərgisi çap olunur.

Mənim təşəbbüsümlə Gəncədə «Türk dünyası folklor əlaqələri cəmiyyəti» fəaliyyətə başlayacaq və bu cəmiyyətin orqanı olaraq «Pirsultan» adlı dərgi yayımlanacaqdır.

Mənə görə, yeni eradan, yeni əsrdən etibarən Pir Sultan Abdalın yaradıcılığına yeni duru münasibət göstəriləcək və araşdırmalar düzgün istiqamətdə aparılacaqdır.

*«XXI əsr» ədəbi, publisistik, elmi toplu,*
*Gəncə, «Əsgəroğlu», 2001-ci il.*

# Pirsultan dağdımı, kənddimi, şəxsiyyətdimi?

Pirsultan Gəncə yaxınlığında dağdı, Təbriz yaxınlığında kənddi, Türkiyədə isə şair-aşıqdır. Həmçinin müqəddəs övlüyyadır. Pirsultan Abdal Türkiyənin Sivas vilayətinin Banaz köyündə (kəndində) dünyaya göz açmış, orada böyümüş, şair olmuş, tanınmış, qoşmaları saz aşıqlarının dillərində əzbər olmuş və həmin ərazidə dünyasını dəyişmiş və Banaz köyündə də dəfn olunmuşdur. Bu nəhəng ozanın olum və ölüm tarixini süni sürətdə irəli-geri çəksələr də, danılmaz bir həqiqətdir ki, o, XVI əsrdə yaşayıb yaratmış və şair Şah İsmayıl Xətainin şahlığına yox, şairliyinə vurğun olmuş, onun saf türkcəsini-azəri ləhcəsini ürəkdən bəyənmişdir. Pir Sultan Abdalın həyatda iddiası şahlıq yox, şairlik qüruru olmuşdur. Pir Sultan Şah İsmayıl Xətainin Həzrət Əliyə, onun övladlarına olan məhəbbətini təqdir etmiş, eyni zamanda özü də bu yolla getmişdir. Pir Sultan Abdalın Həzrət Əliyə məhəbbəti, Yezidə nifrəti Türkiyədə birmənalı qəbul edilməmişdir. Nəticədə Xızır Paşa yuxarılarla razılaşaraq, Pir Sultan Abdalı doğma yurdunda boğazından asdırmışdır. Pir Sultan Abdal dar ağacının altında da əqidəsindən dönməmiş, hər kəsdən öncə ölüm ayağında Şah İsmayıl Xətaini xatırlamışdır:

Sivas ellərində zilim çalındı,  
Çamlıbellər bölüm-bölüm bölündü,  
Mən dostdan ayrıldım bağrım dəlindi,  
Katib, əhvalımı şaha böylə yaz!

Pir Sultan Abdalı hələ körpə çağlarımdan bu şer bəndini oxuya-oxuya mənə yüz otuz il ömür sürmüş ana nənəm Leyli tanıtmışdır. Leyli nənəm mənə ağlım kəsən zamanlarda, xəlvətdə anladırdı ki, Pir Sultan Abdal türkdü.

Sovet dövləti bu ismi sevmir. Bu adın üstündə neçə-neçə igid övladlarımız yox yerdən bada getdi. Biz Gəncənin Bağbanlar hissəsində Pirsultan məhəlləsinin, Pirsultan dağının ətəyindəki Pirsultan köyünün adını batırdıq, yaddaşlardan sildik. Pirsultandan çox sonra yaranmış, Qazax rayonunun Ağköynək, Qıraqkəsəmən və Kosalar kəndlərindən gəlib, burada Qazaxyolçular adlı kənd salmış elata qarışdıq. Əllərimizlə uçulub dağılmış Pirsultan köyünün adı o gündən "Hörgülü daş" qaldı.

Qayınatam belə söyləyirdi ki, Pir Sultan Abdal boğazından asılarkən onun tayfasından bir neçə ailə Türkiyədən Güney Azərbaycanın Qasım dağlarının ətəyindəki Pirsultan kəndinə köçüb gəlmiş, bu ailələrdən də on iki ailə gəlib əvvəlcə Gəncənin Bağbanlar hissəsində məskunlaşmış, sonra isə Gəncə yaxınlığındakı Şah İsmayılın Pirsultan adı verdiyi dağın ətəyinə köçüb, orada Pirsultan kəndini salmışlar. Çox kiçik olan Pirsultan kəndi, ondan xeyli iri olan Qazaxyolçular kəndi içərisində əriyib getmiş, tək bir nəsil Pirsultan tayfası adını özündə yaşatmışdır.

Sovet dövləti dağılandan sonra bizim Pirsultan tayfamız bir az sərbəstləşdi, qorxu hissini unutdu və bu adı yaradıcı insanlarımız yenidən şairlik təxəllüsü kimi qəbul etdilər. Pirsultanlılar tayfasında yaradıcı insan kimi tanınan dayım Əbdülkərim, mən və həyat yoldaşım, mərhum Səfurə xanım olmuşdur. Biz isə, elmi əsərlərimizi, qədim yaradıcılığımızı uzun illər Paşayev soyadı ilə davam etdirmişik.

Gəncədə və Gəncəbasarda Pirsultan soyadını bu gün daşıyıan təkcə bizim ailədir. On ildən artıqdır ki, elmi və bədii əsərlərim Sədnik Paşa Pirsultanlı adı ilə çap olunur. Səfurə Pirsultanlının "Dünya, səndə nəyim qaldı?", "Ağ yağış", "Şerim, sözüm qalar" şer və nəsr əsərləri bu imza ilə nəşr olunmuşdur. Mən etiraf etməliyəm ki, bu ad Səfurə

Pirsultanlının ölümündən sonra Gəncədə və Gəncəbasarda abidələşdirildi. Səfurə Pirsultanlının Gəncə şəhərinin yuxarı hissəsindəki "Səbiskar" deyilən məzarıstandakı abidə-məzarı, məzarın qənşərində mərhumənin ehsanına tikilmiş "Pirsultan Ana" bulağı bu adı Gəncə məkanında əbədiləşdirmişdir.

Sədnik Paşa Pirsultanlı, Səfurə Pirsultanlı Pir Sultan Abdala, Pirsultan dağına, Banaz köyünə, onun məşhur Yıldız dağına neçə-neçə şerlər həsr etmişlər. İstər Pir Sultan Abdal haqqında yazılan elmi məqalələrdə, istərsə də silsilə şerlərdə ona yüksək məhəbbət ifadə olunur.

Bu kiçik yazı ilə yanaşı, toplunun bu nömrəsində Pir Sultan Abdala, Pirsultan dağına şerlər həsr etmişlər.

Uzun illər Gəncə radiosunda işləmiş, yerli Bağbanlı Məmməd müəllim deyərdi ki, XIX əsrin əvvəllərində indiki Balabağban məscidinin həndəvərində Pirsultan nəslinə məxsus Eynal və Sultan adlı iki qardaş yaşamışdır. Başqa gəncəlilər, bağbanlılar kimi yazın burnu qanayan kimi bu qardaşlar da köç arabalarını qoşub, yaylağa çıxarmışlar. Eynalın köçü Muşavaq kəndinin qənşərindəki "Eynaltaxtı" adlanan düzə, Pirsultanın köçü isə "Pirsultanın tac qayası" deyilən ocağın yaxınlığına düşərmiş. "Pirsultanın tac qayası" əl ilə düzəldilmişdir. İri qaya daşlarından çevrələnmiş bu ocağa insanlar ziyarətə gələr, tapınar və qurbanlar kəsərdilər. Sultan deyilən şəxs yaz-yay aylarında bu ocağa mücövürlük etmiş və buna görə də o, Pirsultan adını qazanmışdır.

Ümumiyyətlə, Pirsultan dağı gəncəlilərin, xüsusilə bağbanlıların dədə-baba yaylaqları olmuşdur. Hətta, Bağbanlılar qış aylarında da Pirsultana, dədə-baba yurdlarını ziyarətə gedirlər. Böyük Bağbanlardan olan Cəfər Rüstəmov hər il qış aylarında Gəncədən başının dəstəsi ilə ata yurduna ziyarətə gedir. Pirsultan dədə-babadan Bağban camaatının yaylağıdır. Sultan, Pirsultanı övliyya kimi

tanıtmağa çalışmışdı. Lakin Leyli nənəm onu daha çox istedadlı şair kimi tanıyırdı. Doğrudur, nənəm onun ölüm səhnəsini əfsanə və mif kimi danışırdı. O deyirdi:

-Sivasda Pirsultanı asırlar. Lakin onun cəsədi qeybə çəkilir, əbanın içindən bir göyərçin çıxır. Həmin göyərçin bir dəstə Pirsultan nəslinə məxsus insanlara bələdçilik edib, Təbrizin altmış kilometrliyindəki Pirsultan kəndinə, onların bir qismini Gəncəyə, oradan da Gəncə yaxınlığındakı Pirsultan dağının vadisində olan "Hörgülü daş" deyilən yerə gətirir. Pirsultan və Xoşbulaq yaylağı gəncəlilərə məxsusdur. Yazın burnu qanayan kimi, yəni qızılgüllər açan kimi, gəncəlilər köç arabalarını qoşub Gülazar yolu ilə Pirsultan və Xoşbulaq yaylaqlarına qalxardılar. Sübh tezdən arabaları qoşar, günortaya Gülazar bulağına, ya da Naltökən deyilən yerdəki bulağın başına çatardılar. Arabaları açıb, səhərə qədər dincələrdilər. Bu yerlər çox səfalıdır, qayalıqlar, yaşıl meşələr bu yerlərə xüsusi gözəllik verir. İkinci gün Pirsultan və Ziyarət dağlarının bulaqlarını özündə birləşdirən Hamam çayının sahilində, dağlar arasında dincələrdilər. Üçüncü gün Pirsultan yaylağında qalan qalardı, qalmayan da Sarıyoxuşdan enib Xoşbulaq, Nağara və Piristavlıq yaylaqlarına gedərdilər. Bu yerlərdə gəncəlilərin özlərinə məxsus dədə-baba yurdları var. Əlbəttə, söhbət yerli gəncəlilərdən gedir. Gəncənin təbii gözəlliklərini, qonağa münasibətini təsvir və tərənnüm edən Səfurə Pirsultanlı, onun coğrafi məkanı haqqında da sözünü deyir:

İncidi, mərcandı, sədəfdi, dürdü,
Səfurə, kim baxdı, bir cənnət gördü,
Bir yanı Ziyadlı, bir yanı Kürdü,
Ulu Pirsultandı başı Gəncənin.

*«Pirsultan» toplusu*
*«Pirsultan» -2002-ci il.*

## Aşık Veysel'in şiirlerindeki özgünlük

Yunus Emre, Pir Sultan Abdal, Karacaoğlan, Aşık Ömer, Dadaloğlu, Aşık Emrah, Aşık Şenlik, Summani, Dertli ve Aşık Veysel gibi ünlü halk ozanları, Azerbaycan'da çok yakından tanınırlar. Aşık Emrah'ın edebi mirası yurdun her yanında bilinmekle birlikte, Aşık Şenlik'in şiirleri Ağbaba ve Borçalı'da, Karacaoğlan'nın koşma, hikaye ve destanları ise Gence Sirvan ve Mugan bölgelerinde çok yaygındır.

Sözünü ettiğimiz yörelerde, bütün bu ozanların şiirlerini ezber bilmeyen aşık yoktur. 1980 yılında Mehmet Aslan'ın Bakü'de «Gençlik Neşriyatı»nca yayımlanan «Türk Halk Şiirinden Seçmeler» ve yine Bakü'de 1982 yılında «Yazıcı Neşriyatı»nca yayımlanan «İki Zirve» (Yunus Emre ve Aşık Veysel) adlı kitaplarından sonra, Aşık Veysel'in şiirleri büyük ilgi çekmiş ve aşıkların repertuarında yer almıştır. Öncelikle, «Atatürk», «İnleyen», «Kara Toprak», «Dağlar», «Dumanlı Dağ», «Eğer Görse İdim Göz İle Seni», «Sazım» adlı şiirleri dillerden düşmez.

Aşık edibiyatının usta şairleri arasında yer alan Veysel Şatıroğlu, 1894 yılında Sivas'ın Sivrialan kasabasında doğmuştur. 7 yaşındayken çiçek hastalığına yakalanır, bir gözü kör olurken, diğer gözü de az görür. Daha sonra, bahçedeyken babasının yanına geldiğini hissederek arkasını döner, bir ağaç dalı az gören gözüne batar. Böylelikle Veysel tamamen kör olur.

Saza, söze, halk destanlarına meraklı olan Veysel'in babası, oğlunun avunması için onu sazla tanıştırır. Zamanla Veysel, gönlünü dost olduğu sazına verse de içinin sızısını sanatına yansıtir.

«Sazım, turnadan mı aldın bu sesi
Pençe vurup gümüş teli sızlatma»

İlk aşkı Esma'nın 6 aylık bir kız çocuğunu onun üstüne atıp gitmesi de Veysel'in acı kaderine eklenir. Yeniden evlenir, iki oğlu ve bir kızı dünyaya gelir. 79 yıl yaşayan Veysel, arkasında zengin bir edebi miras bırakarak vefat eder. Onun şiir dünyasında daha çok koşma ve semayiler yer alır.

Veysel, icraatının ilk dönemlerinde zengin ile yoksul arasındaki eşitsizliği dile getirmiş, şiirleriyle bu duruma karşı olduğunu yansıtmaya çalışmıştır. «Kardeşim» semayisinde, «Sen altınsan ben tunç muyum?» sorusuna şöyle cevap verir:

«Tabiata Veysel aşık,
Topraktan olduk kardeşiz,
Aynı yoldayız, yoldasız
Sen yolçuysan ben baçmıyım?»

Türk ozanları arasında ayrı bir yeri olan Yunus Emre, «Üstad var can içinde», «Bir ben vardır bende, benden içeri» derken, Veysel bu isteği daha farklı bir tarzda anlatarak kendisini teselli eder:

«Bir küçük dünyam var içimde benim,
Kaygım, ziynetim bana kafidir.»

Veysel, vatanıyla, milletiyle övünür, hayata ve insana bağlılığını şiirleriyle dile getirir:

«İstemem dünyanın saltanatını,
Tahtını, tacını, arap atını
Bilirim Türklüğün var kıymetini
Vatanım, milletim bana kafidir»

Veysel, insanın yaratılışını insanın, topraktan alınıp geri toprağa verileceği inancını, toprağa bağlılığını ve

sevgisini de şu dizelerle anlatarak edebiyat dünyasına unutulmaz bir şiir kazandırmıştır.

«Ademden bu yana neslim getirdi
Bana türlü türlü meyva getirdi (yetiştirdi)
Her gün beni başı üste götürdü
Benim sadık yarım kara topraktır

Karnını yardım kazmaylan belinen,
Yüzünü yırttım tırnaklan, elinen,
Yine beni karşıladı gülünen,
Benim sadık yarım kara topraktır

Gün gelir Veysel'i bağrına basar
Benim sadık yarim kara topraktır»

Toprak sevgisinin yanısıra ağaçlara ve dağlara kısacası doğaya olan hayranlığını da şiirlerine ustalıkla yansıtmıştır. «Meşe» semayisinden bir kıta:

Meşeler her yurdun süsü,
Hem küçüğü, hem irisi,
Her dalda bir kuş sesi
Meşedeki varlığa bak

«Ağaçlar» şiirinden bir kıta:

Kalem olup her insan gibi okuyor
Ana sesi ciğerimi yakıyor
Dalında çeşitli kuş şakıyor
Türlü türlü seda verir ağaçları

«Dağlar» koşmasından bir örnek:

Yüce dağlar birbirine göz eder
Rüzgar ile mektuplaşıp naz eder

Kah duman basar, kah yaz eder
Dereli, tepeli döşeli  dağlar

Veysel, dağların eşsiz güzelliğinin yanısıra tarihi olayların şahiti olduğuna ve pek çok şairin, kahramanın yaşamından izler taşıdığına inanır. «Dumanlı Dağ» koşmasında bu duygularını şöyle anlatır:

Yıldız Dağı, Pir Sultan'ın yaylası
Kılıç, kalkan, kurak bellerin süsü
Deydi kulağıma Köroğlu sesi,
Derildim de dumanlı dağa sığındım

Veysel, vatanını seven, koruyan Köroğlu, Atatürk gibi kahramanlardan da şiirlerinde övgüyle söz eder. Türk askeri için topraktan daha değerli hiçbir şey yoktur. Türk ölüme giderken türkü söyleyerek gider gibi düşüncelerini, bir askeri marşı ya da savaş türkülerini anımsatan şu dizelerle yansıtır:

Türküz, Türkler yoldaşımız,
Hesaba gelmez yaşımız,
Harda olsa savaşımız
Türküz türkü söyleriz.

İnler Veysel arı gibi
Turnalar katarı gibi
Türküz türkü söyleriz.

Türkiye toprakları her Türk insanı için aynı değerdedir. Türklerin kişiliğinde ikiyüzlülük yoktur:

Birleşiriz bir bayrağın altında
Biz Türklerin ikilik yok zatında

Yanıp tutuşuruz doğma vatanda
Hepimiz bu yurdun evlatlarıyız.

Türkiye'nin ölüm kalım savaşı anında yetişen cesur ve akıllı önder Atatürk'ten kıvançla söz eden Veysel, düşüncelerini «Atatürk» koşmasında anlatır:

«Atatürk, Türkiye'nin ihyası
Kurtardı vatanı düşmanımızdan
Canını bu yolda eyledi feda
Biz dahi geçelim öz canımızdan»

«Atatürk'ün ölümüne» adlı şiirinde ise üzüntüsünü şöyle dile getirir:

«Zannetme ağlayan gülmez
Aslan yatağı boş kalmaz»

Aşık Veysel, şiirlerinde Atatürk'ün çabalarından gururla söz ettiği gibi, Türklerin geçmişindeki fatihleri de anmayı unutmaz:

«Fatih Sultan Mehmet  temelin kurdu,
Sen oldun o çağdan Türklerin yurdu
Edirne'den gelen o büyük ordu…
Ay yıldızlı bayrak nurun, İstanbul»

Veysel, asker olup savaşamadığına ve vatan uğruna şehit düşemediğine  üzgünlüğünü şöyle dile getirir:

«İftihar ettiğim büyük muradım,
Türk oğluyum, temiz Türktür ecdadım,
Şehit ismi yazılsaydı soyadım,
Kanım ile mezarımın taşına.»

Sonuçta, Aşık Veysel gamdan, kaderden uzak değildir, ülkedeki çatışmalar ve eşitsizliklerden yana çok dertlidir. Aşık Veysel ve ondan önce ya da sonraki dönemlerde yaşayan sanatçılar; kadere ve dünyaya dair yazdıkları şiirlerinde, yüzlerini gökyüzüne ve dünyaya çevirseler de, onların asıl vurgulamak istedikleri mevcut düzendir:

«Veysel, böyle dedi dünyanın hali,
Kimi hasır dokur, kimi de halı,
Tam çalgıya karıştırdık kavalı
Davul belli değil, saz belli değil.»

Veya:

«Kaldırsam perdeni desem suçunu
Aceb bu işime ne dersin dünya?»

Aynı koşmanın son bentlerinde Veysel, bu sorulara şöyle yanıt verir:

«Nice zenginlerin çarkını çevirdin
Nice kahramanı teptin, devirdin
Bunca fakirleri kestin, kavurdun
Herkese bir türlü giydirirsin dünya»

Aşık Veysel'in, 17 yy. şairlerinden Tufarganlı Abbas ve Tikmetaşlı Hasta Kasım'ın iyi bir takipçisi olduğunu, edebi mirasından anlaya biliriz.

Bu özelliği yansıtan bir iki örnek verecek olursak:

Aşık Abbas der:

«Adam var, dolanır sehranı düzü
Adam var döşürer (toplar) gülü, nergizi

Adam var giymeye bulamaz bezi
Adam var al giyer, şalı beğenmez

Adam var çok işler irada (kusur)
Adam var ki eremez murada
Adam var ki çörek bulamaz dünyada
Adam var yağ yer, balı beğenmez»

Aşık Veysel ise aynı düşünceyi şöyle yansıtır:

«Kimine at verip, eştirir gezer,
Kimine aşk verip, coşturur gezer,
Kimine mal vermiş, koşturur gezer,
Sanki beni zengin etmek zor gibi

Birinin aklı yok dedi divane
Bir kısmı muhtaçtır acı soğana
Bir kısmını zengin etmiş yan yana
Kimisinin kalbi yanar kor gibi»

Hasta Kasım'ın koşması ile Aşık Veysel'in «Olur» redifli koşması aynı anlamda ve havadadır.
Hasta Kasım der:

«Hasta Kasım yazlarımız yazlanır
Kızıl güller peydahlanır nazlanır
Yiğit daldasında (gizli yer) yiğit gizlenir
Tilki daldasında hiçbir zat olmaz.»

Aşık Veysel ise:

«Yüce dağlar çöl gibi düzlenmez
Veysel mühennetten Kerem gözlenmez
Tilki gölgesinde aslan gizlenmez
Yiğidin gölgesi kendisinden olur.»

Aşık Veysel'in şiirleri arasında Hasta Kasım'ın şiirlerini yansıtan örneklere sık sık rastlanır.

Hasta Kasım:

«Selvi ağacı her ağaçtan yücedir
Aslı kıttır, dalında meyva olmaz.»

beyitini, Aşık Veysel şöyle dile getirir:

«Kar suyundan süzen çeşme kol olmaz,
Gül dikende biter, diken gül olmaz;
Vızıldayan her böcekte bal olmaz,
Peteksiz arının balı yalandır.»

Veysel'in «Seni» redifli koşması da en güzel lirik şiirlerinden birisidir:

«Sen bir ceylan olsan, ben bir avcı
Avlasam çöllerde saz ile seni…
Bulunmaz dermanı yoktur ilacı
Varsam yaralasam söz ile seni»

Dağlardan, bundan özge sormak olur.

Güney tarafında Kurban pınarı
Kalır mı Mezarlı Boynu'nun karı
Garip öter meşelerin kuşları
Körpe şahin yuvasından uçtu mu?

Bu tip şiirlere başka bir örnek:

«Veysel ördek olsun, sen de gel yarim
Besti (sığınılan yer) bana kerem eyle gel yarim,

Lale, sümbül, mor, menekşe, gül yarim
Sen bir çiçek olsan, ben bir yaz olsam»

Aşık Veysel'in şiirlerinde her ne kadar hüzün ve keder varsa da, doğası gereği yine de, ümidini yitirmeyen bir insandır. «Aslıma karışıp toprak olunca» mısrası ile başlayan koşması, onun yaşam felsefesini anlatır:

«Aslıma karışıp toprak olunca
Çiçek olup mezarımı süslerim
Dağlar yeniş giyer, bulutlar ağlar
Gök yüzünde dalgalanır seslerim.»

Aşık Veysel'in ölümünün üzerinden 22 yıl gibi kısa bir süre geçmesine karşın, onun sözünün, sazının sesi sırf doğduğu yer Sivas'ta değil bütün dünyada duyulur. Onun, toprağı, insanı ve bütün güzellikleri sevmeye davet eden yaşam dolu şiirlerinin daha güzele erişeceğinden ümitliyiz.

*«Bütün yönleriyle Aşık Veysel*
*yaşamı sanatı şiirleri»,*
*«Ayyıldız», kasım, 1994.*

# Güvəndikli Aşıq Əhməd

Güvəndikli Əhməd klassik aşıq poeziyasında Yəhya bəy Dilqəmlə adı yanaşı qoyula biləcək bir sənətkardır. Əslində hər iki ustad eyni dövrdə, XIX əsrin ortalarında yaşayıb yaratmış və həm də yaxın dost olmuşlar.

Dilqəm sevgilisi Telli (Dostu) xanımın ayrılığına, Əhməd isə nəsil düşmənçiliyinə görə narahat güzəran keçirmişlər. Elin söz bilicisi şair Cavad onların bir yerdə Dostu xanımı axtardıqlarını, dağlara ün saldıqlarını, düşməndən qaçdıqlarını, onların qəminin, ahu-zarının hələ də dağların yaxasından tutub getmədiyini poetik ruhda, tarixən olmuş hadisə kimi bizə çatdırır:

Bahardan ayrılıb çəkəndə zarı,
Cəhd edir qayıda göysünə sarı.
Əhmədnən Dilqəmin qəmi, ah-zarı,
Tutub yaxasından getmir dağlardan.

Yəhya bəy Dilqəmin kədər dolu qoşmaları "Dilqəmi"ni yaratdığı kimi, Əhmədin şerləri də "Əhmədi-Kərəm" kimi qəmli saz havalarının yaranmasına səbəb olmuşdur. "Dilqəmi" ilə "Əhmədi" saz havalarının fərqi ondadır ki, "Dilqəmi" "Ruhani" saz havası kimi bölgü ilə, "Əhmədi"isə bölgüsüz, bayatı kimi deyilir. Qəmlə, kədərlə, göz yaşı ilə doğulmuş "Əhmədi" və "Əhmədi- Kərəm" saz havalarına Borçalı aşıqları daha çox meyl edirlər.

Bəzən elə təsir bağışlayır ki, Güvəndikli Əhmədin qoşmalarını Dilqəmin şerlərindən ayırmaq çətin olur. "Dilqəmi" ilə "Əhmədi" və "Əhmədi-Kərəm" saz havaları bir kök üstündə kökləndikləri kimi.

Dilqəmlə Əhmədin yaradıcılığının fərqi ondadır ki, biri öz sözünü qismən deyə bilmişdir, o biri isə yox. Əhməd

sevgidə olduğu kimi, sözünü demək istədikdə də dünyadan nakam getmişdir.

Güvəndikli Əhmədin tərcümeyi – halını, şerlərinin yurdunu bilmədən, onun yaradıcılığını layiqincə qiymətləndirmək, qoşmalarının dərin ictimai məzmununu açmaq çətindir.

Güvəndikli Əhməd Tovuz rayonunun (Şəmşəddin elinin) Güvəndik kəndində dünyaya göz açmışdır. Həmin Güvəndik indi Çeşməli kəndinin yuxarı hissəsi ilə birləşmişdir. Lakin bununla belə, ilk adını bu gün də qoruyub saxlıyır. Əhmədi və qardaşı Paşanı anası Tükəzban ürəkli böyütmüşdü. Əhməd elin gözəl qızı Yamənə nişanlanır. Lakin Əhmədin faciəli həyatı onları qovuşmağa qoymur. Çar üsul-idarəsindən və yerli bəylərdən narazı olduqları üçün, folklorşünas Ə.Axundovun yazdığına görə, Əhməd qardaşı Paşa ilə qaçaq düşmüş, ömrünün çoxunu bir çiynində saz, bir çiynində tüfəng dağlarda, meşələrdə keçirmişdir. Bu gün də Çoban dağında, Göyyurdda, Qaşqaçayda, Ağqayada, Xatıncan və başqa dağlarda Əhmədin, qardaşı Paşanın adı ilə bağlı yurdlar, nişanələr qalmaqdadır.

Bəylər tərəfindən Əhmədin qardaşı Paşa öldürtdürülür. Əhməd bu qanı yerdə qoymur, düşmən tərəfindən adam öldürür və bundan sonra ömürlük qaçaq düşür. Uzaqlardan Çobandağından, Qaşqaçaydan Yamən xanıma şerlər yazıb göndərir. Elə həsrət, yara həsrət Əhməd sevgilisini "yarpağı solmamış gülə" bənzədir.

Mən neynirəm xoryat üzən qönçəni,
Yarpağı solmamış gül istər könül.

Yamən xanıma yeddi il nişanlı qalan Əhməd axır vaxtlar Qaşqaçayın Seti dərəsi deyilən yerdə tək-tənha el köçəndən sonra yaylaq damlarında yaşayırdı. Hərdənbir

təkcə əmisi oğlu Namaz Əhmədi axtarır və ona azuqə aparırdı. Düşmən Namazın izinə düşüb, Əhmədin yerini öyrənir. İki əmi oğlu hal-əhval tutur, bir yerdə nahar edir, sonra Əhməd sazı bağrına sıxıb yana-yana oxuduğu zaman düşmənin gülləsi bacadan açılır və onun boğazını ağır yaralayır. Namaz silahlı bayıra çıxır, bir adam da görə bilmir. Əhmədin yarasını güc bəla ilə bağlayır. Əhməd deyir:

- Namaz, mən bu yaradan sağalan deyiləm. Get, kəndin adamlarına de, kim istəsə səninlə gəlsin, məni buradan aparıb öz qəbiristanlığımızda qardaşım Paşanın yanında dəfn edin.

Əhməd savadlı idi, mədrəsə təhsili görmüşdü. O güclə özünü ələ alıb anası Tükəzbana və sevgilisi Yamənə aşağıdakı məzmunda bir məktub yazır (məktubu ixtisarla veririk):

Namaz, gedər olsan bizim ellərə,
Deynən, mənim üçün ellər ağlasın.
Viranə bəxtimə, kəm taleyimə,
Qarışsın ümmana sellər ağlasın.

Bu məktub, bu qara xəbər Əhmədin anası Tükəzbanı, sevgilisi Yaməni sarsıtsa da, içəridən göynətsə də, kənddə səs çıxarmırlar. Tükəzban deyir:

- Namaz, sən bu axşam qal,adam tap, hazırlıq gör. Geciksən də olar. Əhməd ölüb-ölüb, qalıb-qalıb. Biz vaxt itirmədən Yamənlə atlanıb yola çıxmalıyıq. Düşmənin qabağını kəsib intiqam almalıyıq. Geciksək, qan yerdə qalar.

Tükəzbanla Yamən kişi paltarı geyib silahlanır, atlanıb dağlara çıxırlar.

Əhmədin düşmənləri daha heç kəsdən ehtiyat etmirdilər. Çünki Əhmədgilin yurdundan başıpapaqlı

qalmamışdı. Ona görə də Xatıncan dağı yaxınlığında iki silahlı atlıya rast gələndə onlar heç məhəl qoymadılar. Ötüb keçdilər. Təkcə arxadan güllələr açılanda Tükəzbanın və Yamənin səsini, nərəsini eşitdilər. Əhmədi öldürən üç kişi beləcə qadın gülləsi ilə cəzasına çatdırıldı.

Sizə kimdən deyim, Əhməddən. Əhməd gördü yaman üşüyür. Dağlarda qar havası hiss etdi. Qarşıdakı üstə qar düşmüş dağlara baxanda qəlbi qubarlandı.

Görürsənmi qarşı duran dağları,
Deyən, o dağlarda qar havası var.
Gözüm görüb, könlüm sevib, almışam,
Xalqın mənim ilə nə davası var?

Əhməd dağlara, çaya, onun ətrafındakı qamışlığa baxırdı. Gördü ki, bir cüt tərlan uça-uça gəlib qamışlığa qondu. Əhməd bir az əvvəl yuxuda gördüyü sevgilisi Yamən xanımı, bu bir cüt tərlanı, qarşıdakı qarlı dağları xəyalında canlandırdı, qəlbi təlatümə gəldi:

Bir cüt tərlan gəldi qondu qamışa,
Onun barmaqların tutam gümüşə.
Həsrət çəkən, iki könül görüşə,
Görən deyər, burda el duası var.

Əhmədin yarası sızıldadı, gördü ki, ölür, qəlbinə belə bir qara fikir gəldi ki, düşmənlər yolda Namazı da öldürə bilərlər. Bəlkə heç ölüm xəbərim kəndə çatmadı. Bu səbəbdən Əhməd də öz yeri-yurdu ilə bağlı bir qoşma yazıb damın dirəyinə yapışdırdı ki, heç olmasa buraya gələn ovçular bilsinlər ki, bu cəsəd kimindir. Məhz Əhmədin "Dağlar" qoşması belə bir düşüncənin, duyğunun ifadəsi kimi yarandı, yaylaq damından pərvazlandı, saza qovuşdu, məclislərdə səsləndirildi:

Əslim Güvəndikli, Şəmsəddin elim,
Qəm məni atıbdır buraya, dağlar!
Hayana baxıram vətən görünmür,
Pilləkən düşübdü araya, dağlar.

Qaşların cəlladdır, kipriyin almaz,
Haramdan oxlasan, oram sağalmaz,
Yüz min təbib gəlsə dərdimi bilməz,
Şahi-mərdan çatsın haraya, dağlar!

Tərlan quşu ovun almazmı sardan?
Dəli könül əl götürməz dilbərdən,
Yazıq Əhməd ayrı düşübdü yardan,
Onunçün batıbdı qaraya, dağlar!

Namaz Qaşqaçaya çatdı. Yaylaq damına girəndə baxdı ki, Əhməd ölməyib zarıyır. Namaz Əhmədin başını qolları üstə aldı. Olub keçənləri Əhmədə danışdı. Namaz onu da bildirdi ki, anan Tükəzbanla sevgilin Yamən Xatıncan dağında düşmənlərinin üçünü də öldürdülər. Əhmədi ata sarıyıb kəndə yola düşdülər. Yaralı Əhməd Güvəndik kəndinin başından girəndə kəndin ayağından gələn şivən səsini eşitdi. Onu evinə çatdırdılar. Ancaq gec idi. Əhməd sevgilisi Yamən xanımı qəmli-qəmli başdan-ayağa süzüb, göz qapaqlarını əbədi yumdu.

Kənddə şivən-şivənə qarışdı. Əhməd də onun düşmənləri də eyni gündə dünyadan köçdülər. Lakin Əhməd köçsə də, şerləri, sözləri qaldı. O şerlər ki, onu bu gün də yaşadır, sabah da yaşadacaqdır. Bunu Əhməd özü də bilirdi. Bilirdi ki, Yamən xanımla onun sevgi macərası əsasında yaranacaq "Güvəndikli Əhməd və Yamən xanım" dastanı dillər əzbəri olacaqdır.

Tükəzbanın Yamən xanımı düşmənə verməməsi, onu öz evində, yaxın qohumlarından birinə ərə verib toy etməsi,

“Yamən həm oğlumdur, həm də qızımdır” deməsi, əlində silah toyda oynaması və başqa əhvalatlar “Güvəndikli Əhməd və Yamən xanım” dastanının əsas məzmununu təşkil edir.

Aşıq Mayıs Gəncəlinin, Aşıq Alqayıtın, Aşıq Abuzərin, Aşıq Fətullahın, Aşıq Nərimanın, Aşıq Cümşüdün, Aşıq Yaşarın, Əli Tağıyevin və başqalarının köməyi ilə hazırda Güvəndikli Əhmədin yaradıcılıq irsini toplamağa başlamışıq.

*«Mədəni maarif işi»*
*№ 3, 1990-cı il.*

# Aşıq Bəsti

XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində yaşamış istedadlı xalq aşıqlarından biri Aşıq Bəstidir. Məşhur söz sənətkarları Aşıq Ələsgərin, Ağdabanlı Qurbanın müasiri olan Aşıq Bəsti faciəli həyat keçirmişdir.

Aşıq Bəsti təxminən keçən əsrin 30-cu illərində Kəlbəcər rayonunun Lev kəndində yoxsul bir ailədə anadan olmuşdur. Ağır maddi ehtiyac içərisində yaşayan Kərbəlayı Bayramalı öz övladlarını, xüsusən tay-tuşlarından öz ağlı, kamalı ilə fərqlənən qızı Bəstini kənd mollaxanasına belə, göndərə bilməmişdir. Bəsti savadsız olmuşdur. Eşitdiyi nağıllar, bayatı, qoşma və dastanlar onun mənəvi inkişafına dərin təsir etmişdir. "Qurban bulağı" məclislərində Aşıq Ələsgər, Ağdabanlı Qurban kimi ustad aşıqların "sehrli" mahnıları Bəstidə fikir və hisslərini şer dili ilə ifadə etmək arzusu oyatmışdır.

Xalq arasında deyilənə görə, Bəsti 17-18 yaşlarında Əyyub adlı bir çobanı sevmişdir. Onların sevgisi nakam olmuşdur. Əyyub öz hazırcavablığı üstündə kənd bəyləri tərəfindən xəncərlə doğranmışdı. Bu faciəli hadisə Bəstini sarsıtmışdı. O, saz götürüb kəndbəkənd, oba-oba dolaşmış, öz dərdini "dərdli ellərə" söyləməklə təsəlli tapmışdır.

Kədərli qoşmaların və sazın incə tellərindən qopan hüznlü ah-nalənin göz yaşları ilə müşayiəti onun gözlərini xeyli zəiflətmişdi. Ona görə də Bəsti el arasında "Kor Bəsti" adı ilə də tanınmışdı.

Bəsti hazırcavablığı, məlahətli səsi ilə məclislərdə üstünlük qazanardı. O, qoşmaları ürək dağlayan bir kədərlə oxuyardı. El arasında belə bir məsəl də var: "Bəsti oxuyanda daş da göz yaşı axıdırdı".

Zəmanədən şikayət, qəm-qüssə, ictimai həyatın ziddiyyətlərindən irəli gələn küskün əhval-ruhiyyə onun qoşmalarının əsas motivləri olmuşdur.

Bəsti gənclik illərini Lev kəndində keçirmişdir. O, sevgilisi Əyyubun – Xançobanın faciəli ölümündən sonra indiki Daşkəsən rayonunun Qabaqtəpə kəndinə köçmüş, ömrünün son illərində isə yenidən doğma Lev kəndinə qayıtmışdır. Bəsti 1936-cı ildə, təxminən yüz yaşında ikən vəfat etmişdir.

Bəstinin qəbri hazırda da Lev kəndindədir. Onun sazı Kəlbəcər rayonunun Yanşaq kəndində yadigar saxlanılır.

Aşıq Bəsti öz yaradıcılığında qoşma və gəraylı formalarından geniş istifadə etmişdir. Onun lirikasında ancaq sevgi motivləri deyil, dövrün, zamanın haqsızlığına qarşı çevrilmiş qoşmalar da mühüm yer tutur. Aşıq Bəstinin "Tapılmaz", "A bəy", "Zədə dəyməmiş" kimi qoşmaları bu cəhətdən səciyyəvidir.

Məlumdur ki, feodal patriarxal qayda-qanunlarının hökm sürdüyü bir dövrdə qadının saz götürüb oba-oba gəzməsi, məclislərdə oxuması asan deyildi. Yerli bəylərin təzyiqinə, avam adamların tənəsinə və təhqirinə sinə gərmək lazım idi. Aşıq Bəsti özü "Tapılmaz" rədifli qoşmasında bu barədə demişdir:

Üzülübdür canım el tənəsindən,
Hamı deyər, Bəsti evdə tapılmaz.
Bir sazıdı, bir sözüdü, bir özü,
Bir beləsi daha Levdə tapılmaz.

Bu qınağa, vallah, mənəm dözürəm,
Usanmışam, ölməyə də hazıram.
Dərdimi deməyə divan gəzirəm,
Yerdə axtarıram, göydə tapılmaz.

Göründüyü kimi, Bəsti haqq və ədaləti göylərdə də tapmadığını, dinin ehkamlarında həqiqət axtarmağın səmərəsizliyini çox incə mənalı bədii vasitələrlə ifadə etmişdir.

Aşıq Bəsti ayrı-ayrı vaxtlarda Samux, Daşkəsən, Gədəbəy və Basarkeçərdə aşıqlıq etmişdir. Həmin rayonlarda Bəstinin bir çox şagirdləri olmuşdur. Sarıyaqubda Aşıq Paşa və Aşıq Məmmədəli, Qabaqtəpədə Bayram və Cavad kimi aşıqlar saz çalmağı, məclis keçirməyi bu istedadlı el nəğməkarından öyrənmişlər.

Aşıq Bəstini tez-tez yerini dəyişməyə vadar edən bəylərin təqibi idi. Şairə, varlıları həcv edir, onlardan şikayətlənirdi. Onun dərin həyat müşahidələrinin məhsulu olan lirik qoşmaları ictimai ədalətsizliklərə qarşı etirazla doludur.

"A bəy" qoşmasında Bəstinin bəylərə, zülmkarlara hədsiz nifrəti, həyatdan, zəmanədən narazılığı çox təsirlidir:

A bəy, nə gəzirsən hallı-havalı,
Süleyman mülkünün yiyəsi kimi.
Nədəndir yaxşının başın kəsməyə,
Hazırsan xəncərin tiyəsi kimi?!

Güvənməynən dövlətinə, varına,
Lənət olsun qeyrətinə, arına,
Haqdan zəfər dəysin bürcü-barına,
Lüt qalginən palaz iynəsi kimi.

Ağladım doyunca, gülmədim haşa,
Bir ah çəksəm, dağlar gələr baş-başa.
Bəsti deyər: Səni də düş ataşa,
Yan Novruz şamının piltəsi kimi.

Aşıq Bəstinin şerlərində elat həyatının səciyyəvi xüsusiyyətləri mühüm yer tutur. Onun bənzətmələri, təşbeh və istiarələri də kəndlə, kənd təbiəti ilə bağlıdır. Bu xüsusiyyət Bəstinin bütün ömrünü kənddə, təbiət qoynunda keçirməsindən irəli gəlir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduğu zaman Aşıq Bəsti çox qocalmışdı. Buna baxmayaraq, xalq hakimiyyətinin qələbəsindən ruhlanan şairə xalqı səfərbər olmağa çağırmışdı. O, açıq-açığına, cəsarətlə qız-gəlinləri çadranı atmağa çağırır, onları ictimai həyatda fəal olmağa ruhlandırdı.

Aşıq Bəstinin "Ayrımın gözəlləri" adlı gəraylısı bu cəhətdən diqqətəlayiqdir. Bu əsər aşığın yaradıcılığında öz nikbinliyi ilə fərqlənir. "Ayrımın gözəlləri" aşığın yaradıcılığında ələmdən nəşəyə, bədbinlikdən nikbinliyə mühüm bir dönüş kimi qiymətləndirilməlidir. O, Azərbaycan qızlarına üz tutub deyirdi:

Yaylaq yolları yoxuşlu,
Əlləri dərmə naxışlı,
Hamısı maral baxışlı,
Bu Ayrımın gözəlləri.

Bəsti deyər, alma yaşmaq,
Eyibdir kişidən qaçmaq,
Lazımdır çarçovu açmaq,
Ay Ayrımın gözəlləri!

Yüz ilə yaxın ömür sürmüş Aşıq Bəstinin zəngin poetik irsi var. Onun əsərlərinin toplanılıb geniş xalq kütlələrinə çatdırılması vacibdir.

*"Azərbaycan" jurnalı,*
*1 yanvar 1968-ci il, №1.*

# Böyük el sənətkarı

Hüseyn Cavan! Bu ad kimə tanış deyil?! Kim onun ürək oxşayan şerlərini oxumamış, dağ seli qədər gur səsini dinləməmişdir?!

Hüseyn Cavan çətin, keşməkeşli, lakin şərəfli bir yaradıcılıq yolu keçmişdir. O, müasir ədəbiyyatımızın görkəmli simalarından biridir. Hüseyn Cavanın yaradıcılığı təhlil edilərkən bu cəhət xüsusi ilə nəzərə alınmalıdır ki, o, həm zil, məlahətli səsi ilə könüllər fəth edən, şifahi xalq ədəbiyyatımızı incəliyinə qədər bilən və bunun gözəl nümunələrini yaradan ustad aşıq, həm də ictimai-siyasi mövzuları həssaslıqla qələmə alan, humanizm və vətənpərvərlik duyğularını məharətlə tərənnüm edən həssas qəlbli, cəsarətli şairdir.

«Azadlıq mahnıları», «Şerlər», «Sədəfli saz», «Qoşmalar», «Aşığın arzuları», «Danış telli sazım» kimi maraqla oxunan kitabların müəllifi olan Hüseyn Cavan öz sənətinin qüdrəti ilə ümumxalq məhəbbəti qazanmışdır. Təsadüfi deyildir ki, onun səhnədəki çıxışları, mətbuatdakı bütün şerləri həmişə hərarətlə qarşılanır, nəşriyyatlar tərəfindən buraxılan kitabları az müddət içərisində satılıb qurtarır. Bu xoşbəxtlik az-az şairlərə müyəssər olur.

Hüseyn Cavan əsrimizin ən talantlı ustadlarındandır.

Ədəbi ictimaiyyətimiz bu görkəmli söz ustasının 50 illik yubileyini təntənəli şəraitdə qeyd etmək üçün geniş hazırlıq işləri görmüşdür.

Hüseyn Cavan yaradıcılığı zəngin və rəngarəngdir. Doğma Vətənə, elə bağlılıq, odlar ölkəsinin tarixi şöhrəti haqqındaləziz söhbətlər açmaq onun yaradıcılığında böyük yer tutur. Şairin Cənubi Azərbaycan, eləcə də İkinci Dünya müharibəsi dövründə Təbrizdə yaranan milli-azadlıq hərəkatı mövzusunda yazdığı şerlər İrandakı şah üsul

idarəsinə və beynəlxalq imperializmə qarşı ən güclü zərbədir.

Mən Cavan Hüseynəm elə bağlıyam,
Gərək bu eşq ilə dastan bağlıyam.-

deyən sənətkar bir an da olsa belə xalqını təsvir və tərənnüm etməkdən yorulmur. Vətəninin xoş gələcəyi uğrunda mübarizə aparan mərd oğullar şairin lirik qəhrəmanlarıdır.

Hüseyn Cavanın şerləri dərin ictimai-siyasi məzmunu ilə seçilir. «Təbriz», «Yoxdur», «Gördüm», «Ağlama, bacım», «Xəyala düşdüm», «Səttərxan», «Nəyin üstədir», «Kəkliklər», «Qardaş», «Bu gün həm fəxrimdir, həm vüqarımdır», «Bəs», «Ürəyimin parası», «Qızım», «Sinəsində» və sair onlarca bu kimi qoşmaları oxuduqca sanki qəmli bir dastanı varaqlayır, şah üsul idarəsinə qarşı mərdliklə mübarizə aparan qardaş və bacılarımızın kədərinə şahid olursan.

Təbrizdən aralı düşən, lakin onun kədərli halını ürək yanğısı ilə duyan, dərk edən şair deyir:

…Cavan Hüseyn gecə-gündüz intizar,
Yaralı qəlbində min bir arzu var.
Qoynunda quraydım xəzansız bahar-
Mən də öz borcumdan çıxaydım, Təbriz.

Şair şerlərində nə qədər kədərlənirsə, bir o qədər də qəzəblənir. Gələcəyə inam, Hüseyn Cavan yaradıcılığında aparıcı motivdir. Çox haqlı olaraq şair inanır ki, bir gün gələcək ki, şimallı qardaşlar kimi Cənubi Azərbaycan oğulları da azadlıq və istiqlaliyyət bayrağını yüksəklərə qaldıracaq, zülm və istismar yuvasını tarmar edəcəklər. Gəlinlik kəməri belindən düşən, könül telindən min şikayət

qopan, sevgisini ruzigar əlindən alan, düşmənlərlə döyüşdə sirdaşını itirən bacısına müraciətlə şair deyir:

Bir gün fərman verər doğma firqəmiz,
Həmişəlik çıxar yasdan ölkəmiz.
Toy paltarı geyər anamız Təbriz,
Baharla qovuşar torpağın, daşın.

Sənətinin mahir ustası olan şair yeri gəldikcə öz fikrini simvolik şəkildə məharətlə ifadə edir. Onun şirin təblə yazdığı «Kəkliklər» qoşması bü cəhətdən səciyyəvidir.

Hüseyn Cavan doğma Azərbaycan təbiətinə vurğun sənətkardır. Yurdumuzun bərəkətli torpağı, füsünkar təbiəti, mərdanə duruşlu dağları, iti axan çayları, ətirli yamacları onun qələmində daha canlı və obrazlı mahiyyət kəsb edir:

Cavan Hüseyn, nə axçam var, nə zərim,
Para qəlbi bir etməkdir nəzərim,
Bir qələmdir, bir də sinə dəftərim,
Yaz himnini  bizim Kürün, Arazın.

Çox təbii olaraq şair Kürdən söhbət açanda sevinir, çünki Kür üzərində cah-cəlal yaradan Sovet Azərbaycanının qüdrəti bütün dünyaya səs-soraq salıb.

Şairin qoşmalarında, gəraylılarında, təcnislərində, müxəmməslərində, ustadnamələrində, deyişmələrində və başqa şerlərində təbiətimiz böyük sənətkarlıqla tərənnüm edilmişdir.

Hüseyn Cavan kamil sənətkardır. Onun misraları yüz dəfə ölçülüb, bir dəfə biçilmişdir. O, həmişə mənasız sözünə çox bəzək vuran, özünü çəkərək qürurla duran, boş yerə mənəmlik edən şairlərə qarşı barışmaz olmuşdur.

Xalqının halına yanan sənətkar,
Ellərin qəlbində bilir - yeri var,
Min tufan qopsa da, tərpənməz çinar,
Kök atıb hər yana, dibi boş deyil.-

deyən sənətkar ən yüksək, bəşəri duyğuları qələmə alaraq müasir poeziyamızın parlaq incilərini yaratmağa müvəffəq olmuşdur.

Hüseyn Cavanın 50 yaşı var. O, yaradıcılığının ən dolğun bir dövründədir. Biz əminik ki, bu görkəmli söz ustası daha yeni-yeni əsərlərlə xalqımızı sevindirəcəkdir.

*«Daşkəsən» qəzeti,*
*20 iyul, 1967-ci il.*

# Aşıq Ələsgərin savadı olubmu

Oxucuları maraqlandıran məsələlərdən biri də Aşıq Ələsgərin savadlı olub olmamasıdır?

Xalq yazıçımız M. İbrahimov Aşıq Ələsgərin yaşadığı dövrü çox gözəl xarakterizə edərək yazır: «Aşıq Ələsgərin yaşadığı dövr Azərbaycan tarixinin siyasi mübarizələrlə dolu olan dönüş dövrü idi. Köhnəliklə yeniliyin, orta əsr feodal həyatı və vəziyyəti ilə yeni mütərəqqi görüşlər arasında mübarizələr qızışmışdı».

Bu mübarizə köhnəliyin rəmzi olan mollalarla, yeniliy in, mütərəqqi ideyaların carçısı olan aşıqlar arasında getdikcə kəskinləşirdi. Mollalar, el sənətkarlarını xalqın gözündən salmaq üçün onları dinin düşməni, sazı isə «şeytan əməli» adlandırırdılar.

Aşıqlar da öz növbəsində hər məclisdə mollaları ifşa edir, onları xalqa tanıdırdılar. O dövrdə xüsusilə Aşıq Musanın «Telli sazın» gəraylısının hər misrası din xadimlərini ifşa edirdi:

Yoldan çıxıb yolun azmır,
İblis kimi ara pozmur.
Molla kimi cadu yazmır,
Nə günahı telli sazın?

Aşıq Ələsgər də din xadimlərinə divan tuturdu. Biz bu inamı onun aşağıdakı beytində açıq görürük:

Mənim sözüm yoldan çıxan mollanı,
Qaytarıb yoluna müsəlman eylər.

Aşıq Ələsgərin yaşayıb yaratdığı Ağkilsə kəndinin sağındakı Zod, solundakı Sarıyaqub kəndlərində molla

məktəbləri açılmışdır. Müasirlərindən Mirzə Bəylər, Molla Tağı oğlu Məhəmməd, Şişqayalı Aydın, Zodlu Sənətkar Abdulla, Ağdabanlı Qurban, Növrəs İman və başqaları ilk təhsillərini burada almışlar. Lakin onların əksəriyyəti Aşıq Ələsgərin təsiri ilə aşıq-şair olmuşlar. Əlbəttə, belə bir mühitdə yazıb yaradan, savadlı sənət dostları olan Aşıq Ələsgər də onların təsirindən kənarda qala bilməmişdir.

Aşıq Ələsgər dövrünün elmli, qabaqcıl adamları ilə əlaqə saxlayırdı. O, həm də onların savadını, bacarıqlarını yüksək qiymətləndirirdi. Misal üçün zəmanəsinin təhsil görmüş sənətkarı olan Zodlu Mirzə Bəylər haqqında Aşıq Ələsgər deyirdi:

Firəng, rusi, farsı, türkü, ərəbi,
Beş dilinən var savadı Bəylərin.

Aydındır ki, elmə, savada belə yüksək qiymət verən bir sənətkar heç vaxt özü elmdən, sənətdən kənarda qala bilməzdi.

Aşıq Ələsgər zəkalı, zehinli, hafizəli bir sənətkar idi.

Aşıq Ələsgər «Quran»ı əzbər bilirmiş. Aşıq Ələsgərin belə məsələlərdən xəbərdar olmasını «Əliflam» şeri də təsdiq edir.

Aşıq Ələsgərin elmə, savada, hətta «Quran»a, başqa dini kitablara nə dərəcədə bələd olmasını ayrı-ayrı şerlərində də görmək mümkündür:

Əgər haqq aşıqsan, meydana gəl de!
Əgər əhli-ruhsan sözün gözəl de!
Farsiyyət bilirsən, şer-qəzəl de!
Ərəbxansan, gəl «Quran»dan danışaq.

Aşıq Ələsgər müəyyən bir məktəbdə təhsil almasa da, yazı-pozu bilməsə də, dövrünün, mühitinin alimi idi. O,

Aşıq Alı kimi kamil bir ustaddan dərs almış, köhnəliklə yeniliyin mübarizə apardığı, Göyçə mühitində yetişmişdir. Aşıq Ələsgər xalq akademiyasını bitirmiş, xüsusi istedada malik bir düha idi.

Aşıq Ələsgərin bu qədər məhşurlaşmasının, ədəbi irsinin xalq arasında geniş yayılmasının bir sirri də onun Naxçıvana, Qarabağa, Şınığa və başqa yerlərə müntəzəm səfər etməsi olmuşdur. «Qafqaz elini qarış-qarış gəzən» Aşıq Ələsgər həm də öz yaradıcılığının ən gözəl təbliğatçısı olmuşdur.

Gəzmək, görmək aşığın dünyagörüşünü zənginləşdirmiş və ona saysız-hesabsız mövzular vermişdir.

*«Kadr uğrunda» qəzeti,*
*25 may, 1972-ci il.*

# Ələsgər yada düşür…

Aşıq Ələsgər yazı-pozu bilməsə də, müəyyən bir məktəbdə təhsil almasa da, o xalq akademiyasını bitirmiş xüsusi istedada malik bir dühа idi. Aşıq Ələsgər aşıq yaradıcılığına yenilik gətirmək, onu bədii və şəkli cəhətdən zənginləşdirmək məqsədilə bütün qaynaqlara baş vurmuş və hər sərçeşmədən bir dürr əldə etmişdir.

Aşıq Ələsgər xalqın adət-ənənəsini, məişətini, yaşayış tərzini, xüsusilə onun şifahi xalq ədəbiyyatını çox gözəl bilirdi. Xalq yaradıcılığına bələd olması onu ilhama gətirir, düzüb qoşmağa çağırır, eyni zamanda istedadlı sənətkar bu bitib tükənməz xəzinədən gərəkli mövzular, obrazlı fikir və ifadələr alıb öz şerlərini yeni-yeni incilərlə bəzəyirdi.

«Tərlan özgə malıdı» adlı bayatı-hekayətlə tanışlıq ilk növbədə Ələsgəri yada salır, elə həmin anda onun «Düşdü» qoşmasının son möhürbəndi dilimizdə təkrar olunur.

Həmin-bayatı hekayətin məzmunu belədir: Bir kişi öz dostunu köçlü-külfətli qonaq çağırır. Qonaqlara çilov hazırladır.

Yemək-içmək başlanır. Qonaqların içində cavan bir oğlan da olur. Birdən ev sahibinin ay parçası kimi gözəl qızı içəri girir. Hamı qızın gözəlliyinə heyran olur, çilov əllərdə qalır. Görən kimi qıza ürəkdən vurulan cavan oğlan bir bayatı çəkir:

Mən aşiqəm, çil ovlar,
Çil kəkliklər, çil ovlar.
Gözə tərlan göründü,
Əldə qaldı çilovlar.

Qız bayatıya bayatı ilə cavab verir:

Mən aşiqəm, çilovdan,
Çil kəklikdən, çilovdan.
Tərlan özgə malıdı,
Ac qalma, ye çilovdan.

Oğlan bilir ki, qız özgəsinə nişanlıdır, o bundan məyus olur, Ələsgər demişkən, sınıb qol-qanadı yanına düşür:

Ələsgərəm, hər elmidən halıyam,
Dedim: sən təbibsən, mən yaralıyam.
Dedi: nişanlıyam, özgə malıyam,
Sındı qol-qanadım, yanıma düşdü.

Bu hekayət Ələsgər şerindən alınmış bədii parça ilə az qala eyniyyət təşkil edir, onları bir-birindən ancaq şer parçalarının ifadə tərzi, üslubu, müəyyən mənada dili, vəzn və forması ayırır.

Etiraz etməyə yer qalmır ki, deyəsən, bu hiss, bu fikir Ələsgərin şer çəməninə həmin qaynaqdan sızmışdır.

Aşıq Ələsgər, sözsüz ki, bu hekayətlə tanış ola bilmiş və ondan təsirlənmişdir.

Qafqaz ellərini qarış-qarış gəzmək, görmək Aşıq Ələsgərin dünyagörüşünü zənginləşdirmiş və ona bu cür – xalqın gözəl hisslərini, fikir və duyğularını ifadə edən, həmişə yaddaqalan, həmişə təzə-tər görünən qiymətli mövzular da vermişdir.

*«Yüksəliş» qəzeti,*
*30 sentyabr, 1973-cü il.*

# Müasirləri Aşıq Ələsgər haqqında

Kamil sənətkar olan Aşıq Ələsgər istər öz dövründə, istərsə də özündən sonra geniş xalq kütləsinin və saz-söz ustalarının diqqətini cəlb etmişdir. Təkcə bir faktı yada salmaq kifayətdir ki, Şəmkirli Hüseyn kimi bəstəkar-şair, aşıq atla neçə dağlar aşıb Göyçəyə, Aşıq Ələsgərin görüşünə gəlmişdir.

Aşıq Hüseyn öz dövrünün (XIX əsr) ən yüksək təhsil görmüş istedadlı sənətkarıdır. Hətta Aşıq Ələsgər onu özünə ustad hesab etmişdir. Bununla belə, Aşıq Hüseyn özündən çox gənc olan Aşıq Ələsgər sənətini yüksək qiymətləndirmişdir.

Öz dövrünün kamil təhsil almış sənətkarlarından biri də Göyçə mahalının Zod kəndindən olan Mirzə Bəylər idi.

Mirzə Bəylər (1837-1919) də Aşıq Ələsgər sənətinin, Aşıq Ələsgər poeziyasının pərəstişkarlarından biri idi. Mirzə Bəylər bu saz-söz ustasını ikinci Hafiz adlandırır, onu o böyük sənətkarla yanaşı tutur:

Aşiqəm mən sənin ixtilatına,
Nəzminə, fərdinə, xoş əbyatına,
Afərin, afərin, əsli zatına,
Sən isən Hafizi-sani Ələsgər.

Əgər XVIII əsrdə Molla Pənah Vaqifin böyük nüfuzunu, ədəbi mövqeyini düzgün qiymətləndirən, şairin müasiri Aşıq Əli ona xitabən:

Bu əsrdə şairlərin xanısan,
Müddərisə bərabərsən yəni sən.
Lütfün mədənisən, fəzlin kanisən,
Eşidənlər sözün səminə gəlmiş

-deyirsə, XIX əsrdə Aşıq Ələsgərin müasiri Mirzə Bəylər də:

Bu Azərbaycanda, türk arasında,
Sənin kimi şair hanı, Ələsgər?

-deyir.

Vaqif də, Ələsgər də böyük söz ustalarıdır. Bununla belə hər biri öz əsrinin, öz mühitinin böyük oğludur, böyük sənətkarıdır.

Ağdabanlı Qurban, zodlu sənətkar Abdulla, Aşıq Bəsti, Növrəs İman, qaracəmirli Qasım, şamaxılı Aşıq Bilal, Aşıq Şəmşir və başqaları Aşıq Ələsgərin istedad və bacarığını poeziya dili ilə yüksək qiymətləndirmişlər.

Ağdabanlı Qurbanın «söz sərrafı» adlandırdığı bu sənətkarı Növrəs İman Xəstə Qasımla, Şikəstə Abbasla yanaşı tutur, hətta bunlardan qeyri şairlərin üz gəlib getdiyini söyləyirdi:

Ələsgərlə Qasım, Şikəstə Abbas,
Qalan şair hamı üz gəlib gedib.

Bu o demək deyildir ki, Növrəs İman başqa aşıq-şairləri sevməmişdir, belə düşünmək səhv olar. İman, Şikəstə Abbasın, Xəstə Qasımın və Aşıq Ələsgərin aşıq poeziyasındakı mövqelərini qiymətləndirə bilmək üçün öz fikrini ifadə etmişdir.

Aşıq Ələsgərin müasiri və sənət dostu Aşıq Bəsti də aşıqları onu «yaxşı tanı»mağa, ondan öyrənməyə çağırırdı:

Yaxşı tanı Ələsgəri, Qurbanı,
Neçə belə nər aşığı bilginən.
Qiymət qoysan gəraylıya, qoşmaya,
Nəzmimdəki yaraşığı bilginən.

Göyçənin Alçalı kəndindən olan Aşıq Məhərrəm Aşıq Ələsgərin XIX əsrdəki ədəbi mövqeyini və fəaliyyətini daha yaxşı qiymətləndirmişdir:

Düşdü eşqin ataşına,
Yandı Səməndər kimi.
Söz sinədə cuşa gəldi,
Cəm oldu dəftər kimi.
Heç mahalda ustad yoxdur,
Aşıq Ələsgər kimi.
Yüz yerdən qətrə oynadı,
Belə ümman gəlmədi.

Aşıq Ələsgəri təkcə Şəmkirdə, Göyçədə və Kəlbəcərdə deyil, Azərbaycanın hər guşəsində, hətta «mən dolandım bütün Qafqaz elini»- deyən sənətkarı Ermənistanda da, Gürcüstanda da, Dağıstanda da yaxşı tanımışlar.

Hələ Aşıq Ələsgərin sağlığında onun söz sənətini yüksək qiymətləndirən müasiri Aşıq Bilal onu Şamaxıya qonaq çağırmışdır. Aşıq Bilal (1872-1938) böyük sənətkara yazıb göndərdiyi şerində deyirdi:

Salam göndərirəm sənə, Ələsgər,
Qədəm qoyub bu məqama gəlginən.
Dost olmaq istəsən mənimlə əgər,
Bir axşam yeməyə, şama gəlginən.

***

Neçə yerdən sorağını almışam,
Gəldiyin yollara xalça salmışam.
Gözləyirəm, intizarda qalmışam,
Qonağa hazırdı, xana gəlginən.

***

Ustadla istərəm bir qılım söhbət,
Sənətkar adına varımdı hörmət.
Bilal ariflərə eyləyir xidmət,
Şamaxıya, bizim yana gəlginən.

Aşıq Ələsgərin poeziyasını yüksək qiymətləndirən sənətkarlardan biri də Bozalqanlı Aşıq Hüseyn idi. O, Aşıq Ələsgəri ən çətin imtahanlardan cəsarətlə çıxa bilən sənət bahadırlarından biri hesab edirdi:

Xəstə Qasım, Məhəmmədhüseyn, Ələsgər,
Seçmək olmaz imtahana gələndə.

Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi, istedadlı aşıq-şair Şəmşirin dili ilə desək, Aşıq Ələsgər bu gün də başqa saz-söz sənətkarları ilə birlikdə «yazıb yaradır», «söz inciləri düzür»:

Qələm tutub atam Qurban,
Yazır mənim xəyalımda.
Ələsgər söz inciləri,
Düzür mənim xəyalımda.

Aşıq Ələsgər ona görə xoşbəxt sənətkardır ki, müasirləri də, ondan sonra gələnlər də, hətta gənc nəslə mənsub bu gün yazıb yaradan, çalıb çağıran aşıq - şairlər də onu özlərinə ustad hesab edir, ondan öyrənir, onun sənətini, onun poeziyasını zehinlərində, yaddaşlarında əzbər yaşadırlar.

*«Kirovabad kommunisti» qəzeti,*
*25 may, 1972-ci il.*

# Ağdabanlı Qurban

Aşıq Ələsgər ədəbi məktəbinin ən görkəmli nümayəndələrindən biri Ağdabanlı Qurbandır.

El şairi Qurban Qocayev 1868-ci ildə Kəlbəcər rayonunun Dəmirçidam kəndində anadan olmuşdur. O, 1880-1881-ci illərdə Göyçə mahalının Sarıyaqub kəndində molla məktəbində təhsil almışdır. Lakin bu təhsil onu ruhanilərin sırasına apara bilməmişdir. Məmmədhüseyn, Aşıq Alı, Aşıq Musa və Aşıq Ələsgər kimi məşhur söz ustaları yetişdirmiş Göyçə mühiti gənc Qurbanı başqa səmtə çəkmiş, aşıq sənətinin qüdrətli təsiri onun iliyinə işləmişdir.

Qurbanın Aşıq Ələsgər, Şişqayalı Aydın, Mirzə Bəylər və Zodlu Abdulla ilə ilk dostluğu da Sarıyaqub kəndindən başlamış və bu dostluq sonralar daha böyük məzmun kəsb etmişdir. O, klassik şer və musiqi irsini, Nizami və Füzulini, Vaqif və Zakiri dərindən öyrənmiş, onların gözəl ənənələrindən, kamil sənətkarlıq xüsusiyyətlərindən istifadə etməyə çalışmışdır. Sədinin «Gülüstan», «Bustan» əsərlərini oxumuş, Firdovsinin, Hafizin, Ömər Xəyyamın və başqa görkəmli şair və mütəfəkkirlərin yaradıcılığı ilə tanış olmuşdur. O, fars dilini dərindən bilmişdir.

Qurbanın «Əkinçi», «Yoxsulun» qoşmaları, «Üstündən», «Bir-bir» gəraylıları Göyçədə dillər əzbəri olmuşdur. Aşıq Ələsgər, Şişqayalı Aydın, Mirzə Bəylər, Zodlu Abdulla onun şairlik bacarığına yüksək qiymət vermişlər.

1905-ci ildə Qurbangilin ailəsi Kəlbəcərin Ağdaban kəndinə köçmüşdür. İndi burada «Qurban bulağı» deyilən bir bulaq var. Yaşlılar danışır ki, onlar tez-tez bir yerə cəm olub, bulağın üstündə şer məclisləri keçirərmişlər. Burada

Qurban görkəmli azəri və fars sənətkarlarının əsərlərindən də parçalar oxuyarmış.

Qurban yaradıcılığı rəngarəngdir. O, ədəbi-əxlaq məsələlərini, siyasi-ictimai mövzuları bacarıqla tərən-nüm etmişdir. Onun «Görəndə» qoşmasında xalqın ağır vəziyyətinə etiraz duyğusu və zəmanənin ədalətsiz zülmkar əməllərindən şikayət çox güclüdür.

Evimdən kənara çıxa bilmirəm,
Xəyalım dəryadı, axa bilmirəm.
İşıqlı dünyaya baxa bilmirəm,
Gözüm açıb bəyi, xanı görəndə.

Bir dərd ürəyimdə qaldı yadigar,
Çıxmaz xəyalımdan necə canım var.
Yoxsul üçün zəhər oldu samovar,
Gözüm dolur stəkanı görəndə…

Qurban Azərbaycanda Sovet hakimiyyəti qurulmasını ürəkdən alqışlamışdır. 1933-cü ildə vəfat etmişdir. O, 50 illik yaradıcılığı dövründə yüzlərlə qoşma, gəraylı, müxəmməs, təcnis, divani, qıfılbənd yazıb-yaratmışdır.

Şairin «Getmə» şeri sözün həqiqi mənasında aşıq poeziyasının ən qiymətli və nadir incilərindəndir. Həmin şerə nəzər yetirək:

Gözəllər karvanı yola düzüldü,
Kəpəzin kəkliyi, maralı getmə.
Gözlərin süzüldü, canım üzüldü,
Məni qoyub yaslı, yaralı getmə.

Ürəyimdə bir dərd var üzdü canım,
Bir də qəsd eylədi yar üzdü canım.

Bülbüləm qəfəsdə xar üzdü canım,
Bir gönçəsən səni xar alı getmə.

Qurban deyər dərdin azarım üstə,
Bir də güzar eylə güzarım üstə.
Mən öləndə bir gəl məzarım üstə,
Sən Allah, yar, ötüb aralı getmə.

Qurbanın gəraylıları böyük bədii dəyərə malikdir. Onun söz xəzinəsindən necə bacarıqla istifadə etdiyini «Üstündən» gəraylısında daha aydın görmək olar. Fikrimizi təsdiq etmək üçün beşbəndlik şerin iki bəndini misal çəkməklə kifayətlənəcəyik:

Zənəxdanda qoşa xal var,
Camalında nə cəlal var.
Ləblərində şirin bal var,
Süzülüb qaymaq üstündən.

Sənsiz bu Qurban sızıldar,
Cismim ağlar, can sızıldar.
Arı görsə şan sızıldar,
Olmaz ayırmaq üstündən.

Qurbanın özünəməxsus yaradıcılıq üslubu, söz sənəti vardır.O, yaradıcılığında yeni ifadə, yeni ahəng axtaran qüdrətli bir sənətkardır.

*«Azərbaycan gəncləri» qəzeti,*
*31 iyul, 1966-cı il.*

# Ağdabanlı Qurbanın həyat yolu

Məmmədalı kişi cütə qoşulmuş öküzləri açıb «Qırmızı güneyə» ötürdü, özü də «Kolavat yerinə», oğlanlarının yanına endi. Qurban ilə Əmrah da atalarına səmt gəldilər. Hər üçü münasib bir yer seçib əyləşdilər. Məmmədalı kişi sabahkı söhbəti davam etdirdi.

-Bəli, oğlanlarım. Bizim əslimiz Şəmşədinlidir, şair Miskin Abdal ulu babamızdır. Onun adı Məmmədcəfər-dir. O, qanlı düşüb Dağıstana qaçan zaman başı çox müsibətlər çəkib. Miskin təxəllüsünü orada alıb. Sonra nəsli ilə birlikdə Böyük Qarabulağa (bu kənd Gədəbəy rayonundadır) köçüb. Onun tayfası orada da dinc dayanmayıb. Oradan da Göyçənin Qanlı kəndinə köçüblər. Ən axırda Sarıyaqubda bina tutublar. Miskin Abdalın qəbri Hollavar-Pəmbəkdə, oğlu Əliqılıncın və nəvəsi Məmmədxanqocanın qəbirləri isə Sarıyaqubdadır. Sarıyaqub kəndində Miskin Abdalın ocağı var. İndi oranı molla məktəbi ediblər. Sonra da biz qanlı düşüb bura köçmüşük. Nə isə… Miskinin çox gözəl sözləri var. Atasına böyük maraqla qulaq asan gənc Qurban qeyri-ixtiyari dilləndi:

-Atacan, babamızın sözlərindən de, qulaq asaq.

Sizə dedim ki, Miskinin başı çox bəlalar çəkib. Bu səbəbdən də ona Abdal da deyirlər. Onun Dağıstanda qoşduğu bir sözü deyəcəyəm.

Atası şeri elə həvəslə dedi ki, son bənd Qurbanın hafizəsində silinməz izlər buraxdı. Qoşmanın son bəndi Qurbanın dodaqlarında yenidən təkrar olundu.

Bəd illərdən satın aldın pis günü,  
Çağırdın dumanı, tökdün çiskini.  
Gözü yaşlı qoydun Cida Miskini,  
Eylə gülə-gülə tamaşa dağlar.

***

Qurban sözə başladı:

-Atacan, olarmı ki, məni Sarıyaquba aparasan. Babamın məktəbində mən də oxuyam.

-Yaxşı fikirdir, oğlum.

***

O günün səhəri ata ilə oğul Sarıyaquba gəldilər. Məmmədalı kişi oğlunu əmizadəsi olan molla Hüseynə tapşırdı.

-Qurban sizin evinizdə qalacaq, Abdal ocağında oxuyacaqdır. Elə də oldu. Məktəblə evin arası 30-35 metr ancaq olardı.

Qurban dərsini alıb evə qayıdanda məclis üstə çıxdı. Molla Hüseynin evi ağzınacan dolu idi. Qurban evliyə girib bir az çörək-xörək yeyib özünü içəri təpdi. Ortada iribədəni olan bir aşıq solaxay əli ilə çalıb oxuyurdu. Arabir söhbət də edirdi.

-Camaat, biləsiniz ki, aşıqlıq sənəti Göyçəyə Miskin Abdalın sözləri ilə gəlib. Aşıqlığı şair Məmmədhüseyn, Aşıq Alı bu yerə çatdırıb. Yerdən neçə nəfər birdən dilləndi:

-Ay Ələsgər əmi, aşıqların gözü sənsən ki, varsan. Özündən də de.

Qurban məktəbdən sonra başqa aləmə düşdü. Aşıq məclisinin ardı-arası bu evdən kəsilmədi. Sən demə, molla Hüseynin arvadı Bəsti Aşıq Ələsgərin qızı imiş.

Bir gün Qurban xəlvətə çəkilib şer əzbərləyirdi. Bunu dərs verən molla gördü. Üstünü vurmayıb keçdi. Qurban məktəbə gələndə molla acıqlı-acıqlı soruşdu:

-Mənə de görüm, Sarıyaquba oxuyub molla olmağa gəlmisən, yoxsa aşıq?

-Molla əmi, hər ikisinə nabələdəm. Hansı yaxşı olsa onun da dalısıycan gedəsiyəm.

Amma Qurbanın dili deyirdi, ürəyi demirdi. Aşıq Ələsgərin şirin barmaqları, şirin ləhcəsi Qurbanı başqa səmtə çəkmişdi. Əlli il oxusa da ondan çətin ki, molla olardı. Olmadı da.

Qurban Aşıq Ələsgərlə daha yaxından tanış oldu. Zodlu Bəylərlə, Şişqayalı Aydınla görüşdü. Zodlu Abdulla ilə dostluq işlətdi.

Qurbanla Abdulla söhbət edə-edə Zoda gəlirdilər. Yolda Qurban soruşdu:

-Aşıq Ələsgərə o sazı harada düzəldiblər?

-Bilmirəm.

-Görəsən onu harada düzəldirlər?

-Zodda.

-Məni saz qayrılan yerə apar.

Evlikdə yaşlı bir kişi ağacları əyib saz düzəldirdi. Salam-kalam etdilər. Əvvəl Abdulla dilləndi:

-Usta, bu oğlan saz-söz həvəskarıdır. Saz almaq istəyir. Özü də Kəlbəcərin Dəmirçidam kəndindəndir.

-Nə olar. Heç söz bilirmi?

-Bilirəm. Yanaqları pul kimi qızardı. Özüm demişəm. Sazbənd Rəhimin, Abdullanın marağı daha da artdı. Qurban ilk qoşmasını, «Əkinçi» şerini oxudu.

Şer usta Rəhimin xoşüna gəldi. Yerdən bir saz götürüb Qurbana bağışladı. Pulunu da almadı.

-Ata oğuldan pul almaz – dedi. Siz ki, Abdulla ilə qardaşsınız.

Qurban dərk etdi ki, sazbənd Rəhim Abdullanın atası imiş. Qurban sazı çiyninə alıb Göyçənin yalını bəri aşdı. Məmmədalı kişi gözlərinə inanmadı. Mollalığa göndərdiyi oğlu aşıq olub gəlmişdi.

Məmmədalı kişi bircə kəlmə: əsli hu! – dedi.

Qurban çox cəhd etdi, amma telli sazı dilləndirə bilimədi. Məmmədalı kişi Levə at göndərdi. Aşıq Bəsti gəldi. Qurban əlinə saz götürəndə artıq Bəstini bir aşıq kimi Gəncədə, Qarabağda yaxşı tanıyırdılar.

Bəsti dedi:

-Bura bir yun darağı gətirin. Oğul, Qurban, sağ əlini daraqda oynat, hava çalmaq öyrən. Sağ əl usta olsa, sol əl buyruqçudur. Beləliklə, Bəsti yavaş-yavaş Qurbana saz çalmağı öyrətdi. Bəsti bir eyhamla Ələsgərə, Qurbana sataşdı.

-A Qurban, səni o solaxaymı yoldan çıxartdı?

Qurban güldü.

Az bir vaxt ərzində Qurbanın adı-sanı Göyçəyə, Kəlbəcərə yayıldı. Bəsti ilə birlikdə məclislər keçirdilər.

Qurban Güneypəyə kəndində toy məclisi keçirirdi. Birdən gözü Əlvəndin qızı Səlbiyə sataşdı. Dərdini Aşıq Bəstiyə dedi. Qurban o məclisdə «Kəklik» gəraylısını oxudu.

Gündə yüz min can sadağa,
Sən kimi canana kəklik.
Həsrətəm mən danışmağa,
Danış, deyim can, a kəklik.

Qurqal saçın aralanmış,
Elə bil ay paralanmış.
Ağ əllərin hanalanmış,
Yoxsa batıb qana kəklik.

Çox get-gəldən sonra, güc-bəla ilə varlı Əlvənd kişi qızını Aşıq Qurbana verdi. Səlbi ilə Qurbanın toyunu Aşıq Ələsgərlə Bəsti etdi. Qurbanın toyunda Aşıq Ələsgər «Əvəzdi» qoşmasını oxudu.

Gözəllər sultanı, ay Səlbi xanım,
Sallanışın bir mahala əvəzdi.
Gözlərinə qiymət qoya bilmərəm,
Qaşın min tümənlik mala əvəzdi.

Qurban Səlbinin eşqi ilə çox gəraylılar, qoşmalar yaratmışdır. Onun Səlbidən 6 oğlu, 2 qızı olmuşdur. Oğlanlarından Şəmşir, Bakı və Qara, qızlarından Tərə və Ceyran hazırda Ağdaban kəndində yaşayırlar.

Səlbi 1920-ci ildə vəfat etmişdir. Qurban bundan sonra Seyidlər kəndindən olan Qaratelin eşqinə düşmüş, qoşmalar qoşmuşdur. Lakin sevgiləri baş tutmamışdır. Qurban öz kəndlisi Tamamla evlənmiş, ondan da iki qızı, bir oğlu olmuşdur.

Qurbanın Zodlu Bəylərlə, Şişqayalı Aydınla görüşləri Göyçədən sonra davam etməmişdir. O, ömrünün axırına qədər Aşıq Ələsgərlə, Aşıq Bəsti ilə, el şairi Sənətkar Abdulla ilə dostluğunu davam etdirmişdir. «Qurban bulağı» məclisinin ilk iştirakçıları da bunlar olmuşlar. Həmin məclisi sonralar Çəpli Məmməd, Rüstəm, Ayrım Əhməd və Uğurlu davam etdirmişlər. Şer oxuyub, müzakirə etmək, kitablar oxuyub qulaq asmaq ənənəsini Növrəs İman, Aşıq Şəmşir sonralar geniş yaymışlar. Əli Bimar və Zal sələflərinin yaradıcılıq yolunu bacarıqla izləmişlər. Onlar bu yolla gedərək gözəl sənət əsərləri, qiymətli təcnislər yaratmışlar.

1918-1921-ci illərdə Aşıq Ələsgər Kəlbəcərin Qalaboynu kəndində yaşamış və ən yaxşı əsərlərini də burada yaratmışdır. Kəlbəcərlilər Aşıq Ələsgəri sevdiyi kimi, o da bu torpağı, onun adamlarını ürəkdən sevmişdir. Aşıq Ələsgər «Yaxşıdı» qoşmasında deyir:

Gəşt eylədim, bu dünyanı dolandım,
Kəlbəcərin xeyri, şəri yaxşıdı.
Məscid, minarası, məktəbxanası,
Torpağı şirindi, yeri yaxşıdı.

Aşıq Ələsgərlə Zodlu Abdulla ömürlərinin kamala çatmış dövründə Kəlbəcərdə yaşamışlar. Ən yaxşı şerlərini burada yazıb yaratmışlar. Hər ikisi Kəlbəcərdən evlənmişdir. Demək olar ki, Sənətkar Abdullanın, Növrəs İmanın bütün

yaradıcılıqları Kəlbəcərdədir. İman 1925-1926-cı illərdə Seyidlər kənd Sovetinin katibi olmuşdur.

Qurban öz müasirlərindən savadlı olması ilə fərqlənmişdir. Aşıq Ələsgərin elmə, savada meyl göstərməsində Zodlu Mirzə Bəylərin və ondan sonra Ağdabanlı Qurbanın böyük rolu olmuşdur.

Qurbanın söz sənəti indiyə qədər toplanıb nəşr edilməmişdir .

1961-ci ildən bəri Qurbanın 4000 misra şeri toplanılmışdır. Əlbəttə, bunun ən çoxu 1966-cı ilin aprelindən bəri əldə edilmişdir.

Qubanın bir neçə əlyazmasını oğlu Aşıq Şəmşir saxlamış, yerdə qalan sözlərini Mirzə, Əmrah, Aşıq Hüseyn, Şəmşir, Çəpli Məmməd, Ayrım Əhməd, Umud, Rüstəm, Zal, Qənbər, Əlqəmə, Gəray, İdris, Qardaşxan, Aşıq Ağayar, Göyçəli Pənah, Talıb, Nəcəf, şair Cavad, Miskin Vəli və başqa qocalar, şer-sənət həvəskarları sinələrdə, zehinlərdə yaşatmışlar.

Qurban Səlbinin ölümündən sonra «Qurban və Səlbi» dastanı yaratmaq fikrinə düşmüş, lakin xəstəliyi aman vermədiyi üçün dastan yarımçıq qalmışdır. Həmin dastanda Dilqəmin yaradıcılıq motivləri, sızıltıları açıq duyulur. Qurbanın qardaşı Əmrahın verdiyi məlumata görə o, Dilqəmin, Güvəndikli Əhmədin və Vaqifin yaradıcılığına böyük maraq göstərirmiş.

Qurbanın şerlərinə diqqətlə nəzər yetirdikdə görürük ki, o xalq yaradıcılığı çeşməsinin gözündən içib. Öz yaradıcılığında Azərbaycan dastanlarından, atalar sözlərindən, zərb məsəllərdən, atmacalardan çox geniş, ustalıqla, yerli–yerində istifadə etmişdir.

Bütün bu məsələlərin dərindən öyrənilməsi, böyük axtarışlar və ciddi tədqiqat tələb edir.

*«Yenilik» qəzeti,*
*9 oktyabr, 1966-ci il.*

# Ağdabanlı Qurban və Göyçə mühiti

XIX əsrin birinci yarısından başlayaraq Göyçədə aşıq poeziyası dirçəlir, inkişaf yoluna düşür, bir-birinin ardınca görkəmli el sənətkarları, aşıq-şairlər meydana çıxır. Aşıq yaradıcılığının belə təşəkkül tapması o zamankı Göyçə mühiti ilə çox əlaqədardır.

O zamankı Göyçə mühiti nə ilə əlamətdar idi? O dövrdə Göyçənin Sarıyaqub, Zod, Məzrə və başqa kəndlərində molla məktəbləri açılmışdı. Uşaqlar gündüzlər ruhani təhsili alır, gecələr isə aşıq məclislərində saza-sözə qulaq asırdılar. Gənclik iki yol ayrıcında qalmışdı. Onlar müəyyən edə bilmirdilər ki, ruhanilərin yolu ilə gedib mollamı, yoxsa Məmmədhüseynin, Aşıq Alının, Aşıq Musanın və Aşıq Ələsgərin yolu ilə gedib aşıqmı olsunlar.
Xalq yazıçımız M. İbrahimov, “Aşıq poeziyasında realizm” adlı kitabçasında aşıq Ələsgərin yaşadığı dövrü çox gözəl xarakterizə etmişdir: “Köhnəliklə yeniliyin, orta əsr feodal həyatı və vəziyyəti ilə yeni mütərəqqi meyillər və görüşlər arasında mübarizələr qızışmışdı”.

Bu mübarizə köhnəliyin rəmzi olan mollalarla, yeniliyin, mütərəqqi ideyaların carçısı olan aşıqlar arasında da getdikcə kəskinləşirdi. Mollalar, el sənətkarlarını xalqın gözündən salmaq üçün onları dinin düşməni, milli musiqi alətimiz olan sazı isə “şeytan əməli” adlandırırdılar.

Aşıqlar da öz növbəsində hər məclisdə mollaları ifşa edir, onların iç üzünü açıb xalqa göstərirdilər. Bu dövrdə yazılmış aşıq Musanın “Telli saz” adlı satirik gəraylısının hər misrası güclü bir sillə kimi din xadimlərinin ağzının üstünə dəyirdi:

Yeki şəcər, yeki dəmir,
Ara vurmur, yalan demir
Molla kimi rüşvət yemir,
Nə gunahı telli sazın?

"Mollalar şeytan, axundlar şeyidbaz, Məşədi, Kər-bəlayi lotu çıxmışdı" deyən Aşıq Ələsgər din xadimlərinə divan tutur. Aşıq Ələsgər öz mübarizəsinə, sözünün gücünə inanırdı. Biz bu inamı aşağıdakı beytdə açıq görürük:

Mənim sözüm yoldan çıxan mollanı,
Qaytarıb yoluna müsəlman eylər.

Yeri düşmüşkən demək lazımdır ki, o dövrdə Göyçədə açılmış molla məktəbləri mütərəqqi rol oynamışdır. O, məktəblər gəncliyə savad, habelə Sədinin, Firdovsinin, Hafizin, Ömər Xəyyamın və başqa Şərq sənətkarlarının ədəbi yaradıcılığı ilə tanış olmaq imkanı vermişdir.

Həmin məktəblərdə təhsil almış Mirzə Bəylər, Zodlu Məhəmməd, Ağdabanlı Qurban, Usta Abdulla, Növrəs İman və başqaları el şairi kimi şöhrət qazanmışlar. Onlar bu məktəblərə savad məktəbi, elm ocağı kimi baxmış, çox erkən aşıq poeziyasına maraq göstərmişlər. Sözün əsl mənasında, onlar böyük söz ustası Füzulinin əldə etdiyi poetik nəticəyə gəlmişlər. «Elmsiz şer, özülsüz divara bənzər».

Aşıq Ələsgər müəyyən bir məktəbdə təhsil almasa da, yazı-pozu bilməsə də, dövrünün alimi idi. O, Aşıq Alı kimi kamil bir ustaddan dərs almış, köhnəliklə yeniliyin kəskin mübarizə apardığı, oyanmış Göyçə mühitində yetişmişdir. Aşıq Ələsgər xalq akademiyasını bitirmiş, xüsusi istedada malik bir dühadır.

Elmə, savada yüksək qiymət verən bir sənətkar heç vaxt özü elmdən kənarda qala bilməzdi. El şairi Mirzə Bəylərə həsr etdiyi şerində Aşıq Ələsgər deyir:

Mövc edən dərya tək moc verir təbi,
Məddahi-mövladı, budur səbəbi,
Firəng, rusi, farsı, türkü, ərəbi,
Beş dilinən var savadı Bəylərin.

Aşıq Ələsgər dövrünün elmli, bilikli, qabaqcıl adamları ilə əlaqə saxlayırdı. O, hərtərəfli biliyə malik olmasaydı, Göyçə aşıqlarının böyük bir dəstəsi onun ətrafına toplaşmazdı. Aşıq-şairin dərinmənalı qıfılbəndləri, bitkin təcnisləri də onun şerimizin qanunlarına dərindən bələd olduğunu bir daha təsdiq edir. Onun elmli, məlumatlı bir sənətkar olduğunu öz sözlərindən də duyub hiss edirik. Aşıq Ələsgər deyir:

Adım Ələsgərdir, mərdi-mərdana,
On iki şəyirdim işlər hər yana.

Göyçənin bir sıra görkəmli aşıq-şairləri kimi, Ağdabanlı Qurban üçün də Aşıq Ələsgər yaradıcılığı bir örnək olmuşdur.

Gənc Qurban Kəlbəcərin Dəmirçidam kəndindən Göyçəyə ruhani təhsili almağa gəlir. O, iki il Sarıyaqub kəndində molla məktəbində oxuyur. Lakin o, molla olmur. Aşıq Ələsgərin sazı-sözü gənc Qurbanı başqa səmtə çəkir. Onu aşıq poeziyası ilə qovuşdurur. Qurban Aşıq Ələsgər ədəbi məktəbinin ən qabaqcıl nümayəndəsi kimi böyük şöhrət qazanır.

Göyçə aşıqlarının inkişafı Aşıq Ələsgərlə əlaqədar olduğu kimi, Kəlbəcər aşıqlarının, el şairlərinin yetişməsi də Ağdabanlı Qurbanın adı ilə bağlıdır. O, Kəlbəcərə

qayıdandan sonra «Qurban bulağı» məclisini yaradır. Məclisdə şer oxuyub müzakirə edirlər. Klassiklərin əsərlərindən parçalar oxuyub qulaq asırlar. Ağdabanlı Qurban, Aşıq Bəsti və Usta Abdulla bu məclisin ilk iştirakçıları olmuşlar. Sonralar bu məclisə el şairi Uğurlu, Çəpli Məmməd, Rüstəm, Ayrım Əhməd, Növrəs İman, Şəmşir, Əli Bimar və Zal da qoşulmuşlar.

Göyçə mühitinin tərbiyə edib yetişdirdiyi qüdrətli söz ustası Ağdabanlı Qurban Kəlbəcərdə böyük bir ədəbi məclis yaratmış və ölən günə kimi o, məclisə başçılıq etmişdir.

*«Kirovabad kommunisti» qəzeti,*
*6 aprel, 1967-ci il.*

# Aşıq Ələsgər və Ağdabanlı Qurban

Görkəmli folklorşünas alimimiz M. H. Təhmasib «Aşıq poeziyamızın tədqiqi» adlı məqaləsində yazır: «Ələsgər, doğrudan da, geniş tədqiq olunmağa layiq sənətkardır. Biz isə bu böyük şəxsiyyəti lap az öyrənmişik».

Aşıq Ələsgərin dillər əzbəri olan şerləri toplanılıb dəfələrlə nəşr edilmiş, həyat və yaradıcılığı haqqında elmi məqalələr, irihəcmli əsərlər yazılmışdır. Bütün bunlara baxmayaraq, hələ Aşıq Ələsgərin ədəbi irsi tam dəqiqliyi ilə öyrənilməmişdir. Hazırda aşığın oğul nəvəsi İslam Ələsgərov «Aşıq Ələsgər və Göyçə aşıqları» mövzusunda elmi iş üzərində çalışır.

Aşıq Ələsgər yaradıcılığının təsir dairəsi çox genişdir, o, təkcə Göyçə ilə məhdudlaşa bilməz.

Aşığın Kəlbəcər, Şamxor və Tovuz aşıqları ilə ədəbi əlaqəsinin, didaktik görüşlərinin öyrənilməsi çox zəngin, həm də böyük elmi əhəmiyyəti olan materiallar verə bilər.

Kəlbəcər Aşıq Ələsgər, Usta Abdulla və Növrəs İman yaradıcılığının, Göyçədən sonra, ikinci beşiyidir. Bu böyük ədəbi əlaqənin səbəbkarı, dövrünün alim-sənətkarı, el şairi Ağdabanlı Qurban olmuşdur. Qurban Göyçənin Sarıyaqub kəndində ikiillik ruhani təhsilini başa vurub Kəlbəcərə qayıdandan sonra da, adını çəkdiyimiz sənətkarlarla, xüsusən Aşıq Ələsgərlə əlaqəsini kəsməmişdir.

Birinci Dünya Müharibəsi illərində Aşıq Ələsgərin ailəsi ilə birlikdə Kəlbəcərə köçməsi bu əlaqəni daha da möhkəmləndirmişdir. Aşıq Ələsgər dörd il Kəlbəcərin Qalaboynu kəndində yaşamışdır. Aşığın «Yaxşıdı», «Müşkünaz», «Əvəzdi», «Şirindi» qoşmaları və başqa şerləri bu torpağın məhsuludur.

Kəlbəcərdə Aşıq Ələsgər dəyirmançılıq edirdi. Biz burada Qurbanın tez-tez dəyirmana gəldiyini, Ələsgərin

«Qurban bulağı» məclisində iştirak etdiyini görürük. Dediklərimiz hər iki sənətkarın yaradıcılığında öz əksini tapmışdır. Folklorşünas Əhliman Axundov «Telli saz ustaları» kitabında, «XIX əsrdə yetişmiş görkəmli aşıqlar» adlı məqaləsində aşıq Ələsgərlə Ağdabanlı Qurbanın dostluğundan, Qurbanın Azərbaycan və fars dillərində savadlı olmasından bəhs edir. Aşıq Ələsgərlə Qurbanı ömür boyu bir-birinə bağlayan, dost edən də bu mənəvi birlik, yaxınlıq olmuşdur. Onlar bir-birinin yaradıcılığından, Qurbanın oxuduğu yazılı ədəbiyyat-dan, Şərqin klassik şairlərinin əsərlərindən çox faydalanmışlar. Qurban müasirlərindən hazırlıqlı, savadlı olması ilə fərqlənirdi. Aşıq Ələsgər zəkalı, zehnli və hafizəli sənətkar idi.

Hər iki sənətkar bir-birinin yaradıcılığını yüksək qiymətləndirirdi. Aşıq Ələsgərlə Ağdabanlı Qurbanın deyişmələrində bu hiss dərindən duyulur. «Çəkməyə», «Dolansın», «Dünyada» rədifli deyişmələrdə biz hərbə-zorbaya, imtahana, sınağa rast gəlmirik. Bu deyişmələrdə bir-birinə yaxın və səmimi olan iki dost dövrdən, zəmanədən acı-acı şikayətlənir, xalqın dərdinə qalır, nicat yolu axtarır.

Ələsgər:

Bal bahalanıbdı, qırılıb arı,
Yağ satanlar mala saldı azarı.
Min manata qalxdı daraqan darı,
Nə gün çıxsın, nə sitarə dolansın.

Qurban:

Yükümüz möhnətdir, dağlardan ağır,
Ayaq altda qalıb füqara fağır.
Haqdan, ədalətdən bir kömək çağır,
Məzlum ellər tapsın çara, dolansın.

Birinci Dünya müharibəsinin törətdiyi müsibətlər hər iki sənətkarın yaradıcılığında real cizgilərlə təsvir olunmuşdur.

Aşıq Ələsgər kimi böyük bir sənətkarın ehtiyac üzündən dəyirmançılıq etməsi Qurbanı düşündürür, onun qəlbini ağrıdır. Qurban zəmanədən şikayətlənərək yazırdı:

Bilmirəm nədəndi arif olanlar,
Niyə üzün bu zamana döndərib?
Düzəlmir nizama, gəlmir mizana,
Yükünü əyibdi, yana döndərib.

Sözüm düzdür, söyləmərəm lafını,
Görün bu fələyin siz insafını,
Elm dəryasını, dürr sərrafını,
Dəyirmanda pərişana döndərib.

Yaradıcılıqları eyni dövrü əhatə etsə də, ədəbi əlaqələri nə qədər möhkəm olsa da, bu sənətkarların hər birinin özünəməxsus orijinal yaradıcılıq yolu vardır. Qoşmadan söz düşəndə aşıq Ələsgər, müxəmməsi dilə gətirəndə Qurban yada düşür.

*«Kirovabad kommunisti» qəzeti,*
*11 aprel, 1967-ci il.*

# Ağdabanlı Qurban və Usta Abdulla

Hər iki sənətkar Aşıq Ələsgər ədəbi məktəbinin yetirməsidir. Əminə Eldarova «Aşıq sənəti haqqında tarixi oçerk» adlı məqaləsində haqlı olaraq Göyçə və Gəlbəcər aşıqlarını eyni zonaya aid etmiş və yaradıcılıqlarının bir xətlə inkişaf etdiyini göstərmişdir.

Göyçədə təşəkkül tapmış Aşıq Ələsgər ədəbi məktəbinin təsiri ilə Kəlbəcərdə «Qurban bulağı» məclisi yaranmışdır.

Əminə Eldarova aşıqları ifaçılıq formaları, yaradıcılıq və istedadları cəhətindən əsasən aşağıdakı ərazi qruplarına bölür:

1. Şamxor, Tovuz, Kirovabad və Qazax aşıqları.
2. Göyçə və Kəlbəcər aşıqları
3. Şamaxı və Salyan aşıqları.

Ayrı-ayrı zonalarda yetişmiş aşıqların söz sənətindən və musiqi yaradıcılığından danışan müəllif ümumi nəticəyə gələrək yazır: «Böyük bir məktəb yaratmış olan Aşıq Ələsgərin yaradıcılığı bütün Azərbaycan aşıq sənətinin zirvəsini təsvir edir».

Haqqında danışdığımız Ağdabanlı Qurban və Usta Abdulla Aşıq Ələsgərin müasiridirlər.

Ağdabanlı Qurban Göyçənin Sarıyaqub kəndində, Abdulla isə doğma kəndi olan Zodda molla məktəbində təhsil alırdı. Təsadüfi bir görüş onları ömürlük qırılmaz tellərlə bir-birinə bağladı.

Aşıq Ələsgər Sarıyaqubda qızı Bəstinin evində məclis keçirirdi. Balaca Qurban bu evdə yaşayırdı. Abdulla da atası sazbənd Rəhimlə bu evə qonaq gəlmişdi.

Aşıq Ələsgərin saz çalan solaxay barmaqları, şair Məmmədhüseyndən, ustadı Aşıq Musadan etdiyi dadlı-duzlu söhbətlər, oxuduğu qoşma və gəraylılar balaca

Qurbanı başqa səmtə çəkdi, ruhanilik ideyasından uzaqlaşdırdı, ömürlük onu aşıq sənətinə bağladı.

Qurbanla Abdullanın tanışlığı və dostluğu da o məclisdən başlandı. Onların arasında bu möhkəm səmimiyyəti görən sazbənd Rəhim balaca Qurbana doqquz telli bir saz bağışlamışdır.

Qurban Göyçənin Sarıyaqub kəndində iki il molla məktəbində oxuduqdan sonra Kəlbəcərə qayıtmışdır. O, 1905-ci ilə kimi Dəmirçidam kəndində yaşamış və ondan sonra Ağdabana köçmüşdür. O, bir müddət Aşıq Bəsti ilə aşıqlıq etmişdir.

Qurban Aşıq Ələsgərlə, Zodlu Abdulla ilə heç zaman əlaqəsini kəsməmişdir. O, gah Göyçəyə onlara qonaq getmiş, gah da onları Kəlbəcərə qonaq dəvət etmişdir. Aşıq Ələsgərin Kəlbəcərin Yanşaq kəndindən, Abdullanın Bağarsaq kəndindən evlənmələri, nəhayət Birinci Dünya Müharibəsi illərində hər iki sənətkarın köçüb Kəlbəcərdə yaşaması bu əlaqəni daha da möhkəmləndirmişdir.

Azərbaycan və fars dillərini mükəmməl bilən, Şərq klassiklərinin şerlərini, Sədini, Hafizi, Firdovsini və Vaqifi mütaliə edən Qurban dövrünün sənətkarları arasında böyük nüfuz qazanmışdır. Xüsusilə Aşıq Ələsgər onun savadına, bilik və bacarığına yüksək qiymət verirdi. Bu böyük sənətkarlar tez-tez görüşürdülər. Görüş məclisləri çox zaman Ağdaban kəndində Təkarmudun dibindən çıxan bulağın üstündə olurdu. Sonralar bu «Qurban bulağı» məclisi kimi formalaşdı. Aşıq Ələsgər, Qurban, Aşıq Bəsti və Usta Abdulla bu məclisin ilk iştirakçıları olmuşlar. Həmin məclisdə hər bir sənətkar öz təzə qoşduğu şerini əzbər söyləyir, sonra da Qurbanın kitablardan oxuduğu bədii parçalara qulaq asırdılar.

1921-ci ildə Aşıq Ələsgərin ailəsi yenidən Göyçəyə köçüb getmişdir. Lakin Abdulla Kəlbəcərdə qalmış, bir

müddətdən sonra Bağarsaq kəndindən Sınıqkilsə kəndinə köçmüşdür.

Usta Abdulla üç böyük sənətkarın: Aşıq Ələsgərin, Ağdabanlı Qurbanın və Növrəs İmanın yaradıcılığını yüksək qiymətləndirmişdir .

Aşıq Ələsgərin ölümü Abdullanın varlığını sarsıtmışdı. O «Varmı» rədifli qoşmasını da bu münasibətlə yazmışdı:

Minək qəm atına, çıxaq cahana,
Görək bu dünyada şad olan varmı?

Abdullanın Növrəs İmanla «Əvəzində» rədifli səmimi bir deyişməsi də vardır.

Abdulla sənət aləmində Sənətkar Abdulla, Zodlu Abdulla və Usta Abdulla kimi tanınır. O, qoşmalarında bu barədə tez-tez söz açır:

Mahalım Göyçədi, sakinim Zoddu,
Sənətkar Abdulla deyilən mənəm.

Abdulla Kəlbəcərin kəndlərində dülgərlik edirdi. O, öz zəhməti ilə yaşayır, heç kəsin minnətini götürmürdü. Hər kəsin eybini çəkinmədən üzünə deyən sənətkara «dəli Abdulla», «səy Abdulla» deyən bədxahlar, riyakarlar da var idi. O, belələrini də cavabsız qoymurdu.

Deyilənlər gerçəkdimi,
Doğrudanmı dəliyəm mən?
Ağıllının içüzünü,
İstəyirəm əliyəm mən.

Rəvan təbə, zəngin biliyə, gözəl əməksevərliyə malik olan sənətkar özünün həqiqi mənada kim olduğunu tor görənlərə düzgün nişan verirdi.

Dəzgahımla yarışıram,
Qan tərimə qarışıram,
Leyli-nahar çalışıram,
Abdullayam, ləliyəm mən.

Sənətkar «ləliyəm» sözünü şərti olaraq işlətmiş, o, bununla sadəyəm, zəhmətimin müqabilində kim nə versə ona qailəm demək istəmişdir.

Usta Abdulla ömrünün kamala çatmış dövrünü Kəlbəcərdə yaşamış və ən gözəl qoşmalarını burada yazıb yaratmışdır. Aşıqlar tərəfindən sevilə-sevilə oxunan «Minayə», «Çəkirəm», «Yaxşıdı» və başqa qoşma və gəraylılarını Kəlbəcərdə yazmışdır.

Qurbanla Abdullanı birləşdirən əsasən təcnis yaradıcılığıdır. Qurban yaradıcılığını oğlu Şəmşirdən sonra Abdulla kimi əzbər bilən ikinci bir sənətkar olmamışdır.

Aşıq sənətinin görkəmli tədqiqatçılarından biri olan Əhliman Axundov «XIX əsrdə yetişmiş görkəmli aşıqlar haqqında» adlı məqaləsində yazır: «Aşıq Qurban Aşıq Ələsgərdən sonra ən yaxşı təcnis yazan el şairlərindən hesab olunur».

Qurbanın təcnis yaradıcılığı Usta Abdulla üçün bir örnək olmuşdur. Onun görkəmli təcnis ustası kimi yetişməsinə böyük təsir göstərmişdir. Lakin Abdulla təcnis yaradıcılığında çox irəli getmiş və ustad sənətkarlarla bir səviyyədə dura bilmişdir.

Abdulla aşıq şerinin belə bir çətin növünü yaradarkən böyük ustalıqla işləmiş, şerin məna və forma gözəlliyini qoruyaraq, aydın cinaslar yaratmışdır. Onun

təcnislərini oxuyanda «təcnisdə məzmun formaya qurban verilir» deyən tədqiqatçılarla razılaşmaq olmur.

Ovçusan gəzirsən dağ damanında,
Sən allah, öldürmə, sayadam məni.
Mən gəzirəm Leyli-Məcnun ünündə,
Salma mərhəmətdən say adam məni.

Göründüyü kimi bu bədii parçada həm forma, həm də məzmun istənilən səviyyəyə qaldırılmışdır.

Aşıq şerlərini təkcə məzmun və forma gözəlliyinə görə qiymətləndirmək düzgün olmaz. Aşıq yalnız şer yaradıcısı deyil, o, həm də musiqi yaradıcısıdır. Çox zaman yeni formalı musiqi tələb edir. Təcnis özü də zəngin bir musiqi aləmidir. Onun qoynunda həzin bir melodiya yatır. Usta Abdullanın aşağıdakı bir yarpaq təcnisində onun musiqi dilini aydın görürük.

Qəmər qan ağladı neştər yeridi,
Yaram sızıldadı, neştər yeridi.
Məcnunun qoluna neştər yeridi,
Axdı qanı çöldə Leylini yazdı.

Abdulla el şairidir. O, heç bir vaxt aşıqlıq etməmişdir. Lakin bu o demək deyildir ki, böyük sənətkar saz çalmağı, aşıq şerinin musiqi dilini bilmirdi.

Çox ehtimal ki, «rədif» sözü də «ritm» sözündən əmələ gəlmişdir. Rədif sözün əsl mənasında sazla söz arasında nəqarət kimi səslənir, şerdə musiqi ahəngdarlığını yaradır.

Əminə Eldarovanın el şairləri haqqında dediyi aşağıdakı fikrində natamamlıq vardır: «Aşıq-şair. Bunlar o aşıqlardır ki, yeni musiqi əsərləri yarada bilmirlər, saz çalıb, oxumağı və ədəbi əsərlər yaratmağı isə bacarırlar».

Qoşmaları dillər əzbəri olan Dilqəm el şairidir. O, ömründə aşıqlıq etməmişdir. Lakin onun adı ilə bağlı olan «Dilqəmi» havası vardır. Ona görə də bu fikri bütün el şairləri haqqında demək olmaz. Tədqiqatçılara çətinlik verən odur ki, yaradıcı aşıqların şerləri, musiqi əsərləri vaxtında yazıya alınmamış və çap olunmamışdır.

Usta Abdullanın şerlərini toplayıb nəşr etdirmək təşəbbüsünü ilk dəfə onun qız nəvəsi Nağı Əbdüləzimov ortaya atmış və şairin 600 qatardan çox şerini toplamışdır. O, topladığı qoşmaların bir neçəsini «Ədəbi Ermənistan» məcmuəsinin səhifələrində çap etdirmiş və yerdə qalanlarını respublikamızın xalq yaradıcılığı evinə təqdim etmişdir. Folklorşünas Əhliman Axundov «Telli saz ustaları» kitabında el şairinin qısa tərcümeyi-halını və beş qoşmasını vermişdir.

Sənətkar Abdullanın yaradıcılığı öyrənilməyə, şerləri toplanıb nəşr olunmağa və tədqiq edilməyə layiqdir.

*«Tərəqqi» qəzeti,*
*15 iyul, 1967-ci il.*

# Sənətkar Abdulla

Tanınmış el sənətkarlarından biri də Sənətkar Abdulladır. Abdulla Rəhim oğlu Namazov 1865-ci ildə Göyçə mahalının Zod kəndində dülgər ailəsində anadan olmuşdur. 1943-cü ildə vəfat etmişdir. Onun atası Göyçə mahalında adlı-sanlı dülgər olub. Xüsusən saz bağlamağı ilə başqa sənətkarlardan fərqlənirdi. Bu sənət (saz qayırmaq) sazbənd Rəhimin ailəsi ilə dövrün məşhur aşıqları arasında qırılmaz əlaqə yaradırdı. Onların evində həmişə Aşıq Ələsgəri, Ağdabanlı Qurbanı (Aşıq Şəmşirin atası) və başqalarını görmək mümkün idi. Bütün bunlar Abdullanın gələcək inkişafına kömək etməyə bilməzdi. Lakin Abdulla onların aşıqlıq yolunu deyil, atasının dülgərlik sənətini özünə peşə seçdi. Ancaq dülgərlik onun şairliyinə mane olmadı.

Sənətkar Abdulla üç böyük sənətkarın: Aşıq Ələsgərin, Ağdabanlı Qurbanın və Növrəs İmanın yaradıcılığını yüksək qiymətləndirmişdir. Aşıq Ələsgərin ölümü Abdullanın varlığını sarsıtmışdır. O, «Varmı» rədifli qoşmasını bu münasibətlə yazmışdı:

Minək qəm atını, çıxaq cahana,  
Görək bu dünyada şad olan varmı?

Abdulla sənət aləmində Sənətkar Abdulla, Zodlu Abdulla və Usta Abdulla adları ilə tanınır. O, özü də qoşmalarında bu barədə tez-tez söz açıb deyir:

Mahalım Göyçədi, məskənim Zoddu,  
Sənətkar Abdulla deyilən mənəm.

Zodlu Abdulla kəndinin adına, Usta Abdulla dülgərliyinə, Sənətkar Abdulla isə aşıq-şairliyinə, bitkin təcnislər yaradan sənətkar olduğuna görə deyilmişdir.

Abdulla Kəlbəcərin kəndlərində dülgərlik edirdi. O, öz zəhməti ilə yaşayır, heç kəsin minnətini götürmürdü. Hər kəsin eybini çəkinmədən üzünə deyən sənətkara «dəli Abdulla» deyən bədxahlar da var idi. Ancaq o, belələrini də cavabsız qoymurdu:

Deyilənlər gerçəkdimi?
Doğrudanmı dəliyəm mən?
Ağıllının iç üzünü,
İstəyirəm əliyəm mən.

Sənətkar Abdullanın şerlərini toplayıb nəşr etdirmək təşəbbüsünü ilk dəfə onun həmyerlisi və qohumu Nağı Əbdüləzimov ortaya atmış və şairin xeyli şerini toplamışdır. O, topladığı qoşmaların bir neçəsini «Ədəbi Ermənistan» məcmuəsinin səhifələrində çap etdirmiş və yerdə qalanlarını respublikamızın xalq yaradıcılığı evinə təqdim etmişdir. Folklorşünas Əhliman Axundov «Telli saz ustadları» kitabında (1964) el şairinin qısa tərcümeyi-halını və beş qoşmasını vermişdir.

Sənətkar Abdulla haqqında Basarkeçər rayonunda çıxan «Bolluq uğrunda» qəzetində N. Əbdüləzimovun «İstedadlı şair, gözəl xarrat» adlı məqaləsi dərc edilmişdir.

Müəllif Abdullanın gənclik illəri haqqında yazır: «Ata körpənin adını Abdulla qoydu. Bu ad Rəhimin ən çox sevdiyi adlardan idi. O, istəyirdi ki, onun da oğlu məşhur Aşıq Abdullaya oxşasın. Qayırıb hazırladığı sazlardan birini də onun oğlu çalsın.Körpə gözünü açıb evlərində böyük sənət adamlarını gördü. O, gah Qurbanın gəraylısına, gah Alının qoşmalarına, gah da Ələsgərin gözəlləmələrinə qulaq

asır, öz kəndliləri Molla Tağı oğlu Məhəmmədin söylədiyi şirin rəvayətlərdən həzz alırdı».

Sənətkar Abdullanın ədəbi irsinin tam toplanmasında, tərcümeyi halının dəqiqləşdirilməsində gənc folklorçu Rəşid Mehdiyevin xidməti əvəzsizdir. O, şair-aşığın şerlərini toplamış, ona müqəddimə yazmış və «Usta Abdulla» adı ilə (1976) ayrıca kitab nəşr etdirmişdir.

Sənətkar Abdulla fitri istedad sahibi olmuşdur. O, Azərbaycan xalqının əsrlər boyunca yaratdığı, qoruyub saxladığı xalq incilərini öyrənirdi. Şairin əsərlərinin dərin ictimai mənası vardır. O, ara-sıra gördüyü ədalətsizlikləri satirik bir üslubda tənqid və həcv etməkdən çəkinməmişdir:

Abdullayam, dostlar, ara dəyibdir,
Çünki ölüb bəxti qara dəyibdir.
Sinəmə hesabsız yara dəyibdir,
Qərar tutsan bir zənburun şanıcan.

Burada bir növ, Qasım bəy Zakirin zəmanəyə tənqidi ruhu hiss edilməkdədir.

Abdulla gözəl bir dilə malik, xalq ifadə formalarını mükəmməl mənimsəmiş bir sənətkar idi. Məhz bu səbəbdəndir ki, onun yaratdığı təcnislər söz ustalığı nöqteyi-nəzərindən başqa görkəmli sənətkarların təcnisləri ilə müqayisə edilə bilər.

Ovçusan gəzirsən dağ damanında,
Sən allah, öldürmə sayadam məni,
Mən qalmışam Leyli-Məcnun ünündə,
Salma nəzərindən, say adam məni.

Sayadam-ovçuyam öldürmə məni, Leyli-Məcnun ünündə bu günə düşmüşəm, salma nəzərindən məni adam say.

Gəzdim, seyr elədim adam içində,
Dəryayi-mühitəm adam içində,
Salma nəzərindən, say adam içində,
Seçər el içində, say adam məni.

Əgər sayıl kimi adamlar içində gəzsəm, say adam-arif adam seçər, bilər mən kiməm.

Abdulla aşıq şerinin belə çətin növünü böyük ustalıqla işləmiş, şerin məna və forma gözəlliyini qoruyaraq, aydın cinaslar yaratmışdır. Onun təcnislərini oxuyanda «təcnisdə məzmun formaya qurban verilir» deyən tədqiqatçılarla razılaşmaq olmur. O, aşıq şerinin bu çətin formasında yazıb yaradarkən məzmun gözəlliyinə, fikir yeniliyinə xüsusi diqqət yetirir. Təcnislərində ona qədər işlənməmiş, orijinal cinaslar işlədilir.

Abdülla şerlərində zəhmətin, insanın, təbiətin gözəlliyni tərənnüm etmişdir. Onu daha çox sənətkarlıq, xüsusilə təcnis yaradıcılığı maraqlandırmışdır.

Abdullaya göstərginən bağı sən,
Tax boynuma gülabatın bağı sən.
Naz elə gir, seyr elə gəl bağı sən,
Süsən-sünbül qönçə gülü yüz dərdə.

«Dərdə», «Ağını sən» təcnislərindən Tufarqanlı Abbasın məşhur qoşma və təcnislərinin ətri gəlir. Hətta Abdullanın «Kənarında» rədifli qoşması tamamilə Aşıq Abbasın şerinin təsiri ilə yaranmışdır:

Abdulla:

Məhbus edir göydə gəzən quşları,
Dağıdır xəyalı, alır huşları.
Ucu əbrişimli siyah saçları,
Cığa pərvazlanır tel kənarında.

Bağban olan gül becərər bağlarda,
Xəstə olan gözü qalar sağlarda,
Ovçu olan gedər gəzər dağlarda,
Abdulla dolanar el kənarında.

Abdulla yaradıcılığının əsasını, özəyini qoşmalar və təcnislər təşkil edir. Abdullanın təcnisləri dilinin sadə və rəvanlığına görə özündən əvvəl yazılmış təcnislərdən fərqlənir:

Ərş üzündə gün, ay daim üzərmiş,
Müxənnətin dolandığı üzərmiş,
Dərdin məni incəldərmiş, üzərmiş,
Ya böyündü, ya sabahdı, ya indi.

Ay-gün ərş üzündə üzərmiş, görünərmiş, müxənnətində dolanmağı yalandan aşkar görünürmüş, sənin dərdin məni elə incəldib, üzüb ki, ölməyim ya «böyündü, ya sabahdı, ya indi».

Abdulla düşübdü qara, ayaza,
Katib gərək mənim dərdim ayaza.
Zimistanda ilqar verdin a yaza,
A bimürvət, gözləyirəm yay indi.

Abdulla qara, ayaza düşüb, katib gərəkdir, onun dərdini yaza. Ona cörə ki, qışda yaza ilqar verən gözəl yay gəlib çatıb, əhdinə düz çıxmır.

Aşıqlar arasında geniş yayılmış «Leyli niyə azdı» adlı təcnisi Sənətkar Abdullaya təcnis ustası kimi əbədi şöhrət qazandırmışdır.

Bihuda dolandım, əfsanə gəzdim,
Canım dost yolunda leyli niyazdı.

Etibar kəsilib, ilqar pozulub,
Əvvəlki məhəbbət, Leyli, niyə azdı?

Qəmər qan ağladı, neştər yeridi,
Yaram sızıldayır, neştər yeridi.
Leylinin qoluna neştər yeridi,
Məcnun qanı çöldə Leylini yazdı.

İstedadlı el şairi Sənətkar Abdulla aşıq poeziyasının gəraylı, qoşma, təcnis, cığalı təcnis, müxəmməs və başqa şəkillərində də çoxlu şerlər yazıb yaratmışdır.

Abdulla qoşmalarında el gözəllərinin tərənnümü, təsviri mühüm yer tutur.

Qələm qaşın, ay qabağın, gül üzün,
Açılıb dağların  lalası təki.

Və yaxud:

Baxtımın qapısın bağlar qoyubsan,
Çəkib sinəm üstə dağlar qoyubsan.
Sən ki, Abdullanı ağlar qoyubsan,
Çəkirəm Kərəmin nalası kimi.

El şairinin konkret məsləhəti budur ki, «həqiqət axtaran qoçaq» qulağınla eşit, gözünlə gör, sonra inan.

Onun nəsihət dolu elə qoşmaları vardır ki, onlar məclisdə ustadnamə kimi söylənilir.

Ağac bəlli olar yaxşı barından,
İgidlər seçilər düz ilqarından.
Abdulla, dağ qurma dağlar qarından,
Yazda gün əridər selə qarışar.

*«Kirovabad kommunisti» qəzeti,*
*6 may, 1989-cu il.*

# Sinələrdə çox söz var.

Çəpli aşıq Məmməd gözəl bir xatirə danışdı. O, dedi:

-Ağdabanlı Qurbana şəyirdlik edirdim. Bir gün Aşıq Bəsti, Qurban əmi və mən Yanşaq kəndinə toya getdik. Toyun yarısında Aqıq Ələsgər də gəldi. Həmişə olduğu kimi Aşıq Bəsti öz atmacalı dilini işə saldı:

-Ay Ələsgər, arvad istədin verdik, üstəlik gərək şabaş da verək. Aşıq Ələsgər də onu cavabsız qoymadı:

-Kürəkənin gözü qaynata evinin təhnəsində olar, - dedi. Aşıq Ələsgər Yanşaq kəndindən evlənmişdi.

Aşıq Ələsgər sazı köynəkdən çıxardı. Sazlar bir-birinin üstə köklləndi. Bəsti dedi:

-Əvvəl bir çoban bayatısı çəkəcəyik.

Aşıq Ələsgərlə Qurban dedilər, Bəsti o sənin işindir. Onu deyim ki, Aşıq Bəsti hər qoşmanın, gəraylının, oxuduğu hər sözün əvvəlində, axırında yanıqlı bir bayatı çəkərdi. Bəstinin səsi bütün aşıqların səsindən gur və zil idi. O, oxuyanda: «daşdan da göz yaşı çıxarardı».

Əzizinəm o yan yeri,
Nə yatmısan oyan, yeri.
Yüz il sel oya bilməz,
Bir gün qəm oyan yeri.

Ömrünü meşəbəylikdə keçirmiş, el şairi Rüstəm Xəlilov da Aşıq Bəstiyə, Ağdabanlı Qurbana şəyird olmuşdur. Rüstəm maraqlı bir əhvalatı xatirəsində canlandırdı:

-Yay zamanı idi. El dağa köçmüşdü. Mən isə qışlaqda idim. Günorta olardı. Aşıq Bəsti ilə Qurban əmi bizə qonaq gəldilər.

Aşıq Bəsti Yanşaq bəylərinin onun başına gətirdiyi müsibətlərdən danışıb ağladı. Sonra da özünün «Bu dünya» qoşmasını oxudu. Qoşmanın son bəndi yadımdadır:

Qəmdən pay götürdüm, naladan qismət,
Görmədim bir ləzzət, çəkdim əziyyət.
Canda eşq ataşı, dildə məhəbbət,
Bəstini odlara salan bu dünya.

Bəstinin sözləri can evimə od saldı. Telli sazı dilə gətirib «Kərəmi» havası üstə ona təskinlik verən aşağıdakı qoşmamı oxudum.

Könül bağçasının kal meyvəsini,
Dərib sərxoş olan tək sən deyilsən.
Fələyin qəhrindən, qəm libasını,
Geyib sərxoş olan tək sən deyilsən.

Çoxları istədi yapdırsın xana,
Qərq oldu dəryaya, düşdü ümmana.
Çağırdı haraya ana, ay ana,
Deyib sərxoş olan tək sən deyilsən.

Vəfasız dünyadı kim çıxıb başa,
Gözəl mənzərədi, sonsuz tamaşa.
Neçəsinin qəlbi ox kimi daşa,
Dəyib sərxoş olan tək sən deyilsən.

Çoxları qayıdıb yol yarısından,
Yarımçıq divarın ev barısından.
İncəlib üzülən, qəm sarısından,
Doyub sərxoş olan tək sən deyilsən.
Rüstəməm düşgünü bir etibarın,
Oxu daşa dəyib çox kamandarın.

Pozulmuş bağçada gül budaqların,
Əyib sərxoş olan tək sən deyilsən.

El şairi Ayrım Əhməd, Aşıq Umud və başqa saz-söz həvəskarları da Aşıq Bəsti, Ağdabanlı Qurban, Uğurlu, Sənətkar Abdulla, Aşıq Ələsgər, Növrəs İman və Əli Bimar haqqında gözəl əhvalatlar bilirlər.

Hələ sinələrdə yazılmamış çox dəyərli sözlər var.

*«Yenilik» qəzeti,*
*5 dekabr, 1966-cı il*

# Ağbulaqlı Aşıq Aqil

Aşıq poeziyasında öz sözü və yeri olan sənətkarlardan biri də Ağbulaqlı Aşıq Aqildir. Niftalı Qafar oğlu Qafarov 1900-cü ildə Göyçə gölü yaxınlığındakı Ağbulaq kəndində anadan olmuşdur. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra kənddə müəllim işləməyə başlayan Niftalı Aqil təxəllüsü ilə qoşmalar yazmışdır. Lakin o, sənət aləmində Ağbulaqlı Aşıq Aqil kimi tanınır. Aqil aşıqlıq sənətini həmkəndlisi Kazımdan öyrənmişdir. O, Azərbaycanda Sovet hakimiyyətinin qələbəsini, yeni həyatın başlanmasını ürəkdən alqışlayır. Şair-aşığın "Yaşasın" qoşması bu dediklərimizə ən gözəl misaldır.

Sovet gülü ölkəmizi bəzədi,
Qönçələnsin yeni güllər yaşasın.
Ölkəmizdə yeni həyat quruldu,
Bu Sovetlər milyon illər yaşasın.

Aqil yeni quruluşun savadsızlığı ləğv etmək, elmə, sənətə yiyələnmək məramını da dərindən duyur.

Üç sözüm var, gərək dosta deyəsən,
Biri oxu, biri öyrən, biri yaz.

Aqilin də dədə Ələsgər kimi, aşıqlıq sənəti haqqında özünəməxsus fikirləri vardır. Aqilə görə el arasında gedən sənətkar etibarı, həyanı, təmiz adı qoruyub saxlamağı bacarmalıdır.

Könül gəşt eyləyib, ağır elləri,
El içində namus, arı unutma.

Həyalı gəz, təmiz saxla adını,
Dost yanında etibarı unutma.

Aqil ustad sənətkarlardan Xəstə Qasımın, Vaqifin və Şəmkirli Hüseynin yaradıcılığı ilə ciddi maraqlanmışdır. Dilqəm kimi eşqinin oxu daşa dəyəndən sonra, Aqilin yaradıcılığına da birdən-birə Dilqəm sızıltısı, Dilqəm yanğısı gəlmişdir.

Yaradıcılığının ilk dövründə Vaqif və Aşıq Hüseyn kimi görkəmli sənətkarların qoşmalarından ilham alan bu sənətkar yazırdı:

İltimaz eylərəm, toy adamları,
İzin verin, deyim, kimlər oynasın.
Üzü xallı, ləbi ballı filankəs,
Ay qabaqda siyah tellər oynasın.

Şair-aşığın "Görüncə" rədifli qoşmasında Xəstə Qasımın təsiri açıq şəkildə duyulmaqdadır.

Xalqlar ayı gördü bayram eylədi,
Mənə bayram olmaz, yarı görüncə.
Sinəm mövca gəldi, tüğyan eylədi,
Ölüm yeydi bu dağları görüncə.

Köysüm üstə həsrətinin dağıdır.
Qaşın cəllad, gözün mənə yağıdır,
Əcəl gəlsə indi ölüm çağıdır,
Gül pərində Aqil xarı görüncə.

Aqilin ustadnamələri də vardır.

Ustaddan dərs alan heç olmaz naşı,
Dosta kəc baxanın ucalmaz başı.

Sərraf yüz bəzəsə qiymətsiz daşı,
Tanınar cövhəri zər ola bilməz.

Aqil təcnisdə də qələmini məharətlə sınamışdır. Onun "Bu yaza" rədifli təcnisinin bircə bəndinə diqqət yetirmək kifayətdir.

Saz gözəlsən, səni sevən sağalar,
Sağ məməni, sağ gözümə sağalar.
Aqil dərdin yəqin bil ki, sağalar,
Əgər dərdin dəftərinə bu yaza.

"Eylədi", "Gözəl" müxəmməslərinin hər biri ayrı-ayrılıqda qiymətli sənət incisidir.

Bu gün bir gözəl görmüşəm,
O məni candan eylədi,
Kirpiyi keçdi sinəmdən,
Bağrımı şan-şan eylədi.

Belə cəllad görməmişəm,
Nahaq yerdən qan eylədi,
Məni bu zalım balası,
Lap Şeyxi-Sənan eylədi.

Şərq ədəbiyyatına yaxından bələd olan sənətkar axırda "Yusif-Züleyxa" əfsanəsindəki quyu, Yaqubun gözlərini sağaldan köynək əhvalatlarını yada salmaqla, şerinin gücünü, siqlətini artırır.

Aqilə gəl, qəm eyləmə,
Hər Leylinin naharı var.
Hər gecələr sübh olacaq,
Hər çillənin baharı var.

Yusif quyudan çıxacaq,
Misir kimi məzarı var.
O, Yusifin köynəyini,
Yaquba dərman eylədi.

Aqil sevdiyi gözəli müxəmməslərində ürəklə tərənnüm edir, misraları qəlbinin qanı ilə bəzəyir.

A qardaşlar, a yoldaşlar,
Hanı cahanda beləsi?
Təbriz, Maku, Tiflis, Bakı,
Yoxdur, heç yanda beləsi.
Sinəsi qar, məməsi nar,
Dövrü-zamanda beləsi,
Çox aranıb, tək yaranıb,
Azərbaycanda beləsi,
Zülfü kəmənd, Aqil pəsənd,
Tən edib xublara gözəl.

Daxili qoşa qafiyələrdən istifadə ustalığı şerin musiqiliyini artırır.

Aqilin "Dilqəm və Telli xanım"a bənzər, qısa süjetli "Aqil və Qönçə" adlı bir dastanı vardır. Bu dastan, eləcə də Aqilin şerləri məşhur aşığımız Ağbulaqlı Məhərrəmin repertuarında özünə layiqli yer tutmaqdadır. Elə məclis olmaz ki, Aşıq Məhərrəm orada Aqildən bir qatar şer oxumasın.

Bu dastan təkcə qısasüjetli olması ilə deyil, məzmunca, ruh etibarı ilə də "Dilqəm və Telli xanım"a çox yaxındır. Dilqəm Telli xanımı sevir, evlənir, sonra ondan erkən ayrılır. Aqil isə Qönçəni sevir, lakin ona qovuşa bilmir, istəyi, arzusu gözündə qalır. Aqilin eşqinin harayı, yanğısı şerlərində bu gün də yaşayır, qəlbləri riqqətə gətirir.

Qönçəsini qonşu kəndin oğluna nişanlayırlar. Qız ağlamaqdan başqa çarə tapmır. Onun bu vəziyyətini Aqilə çatdırırlar. Aqil bu münasibətlə "Neyçün ağlayır?" rədifli qoşmasını yazır:

Bənövşə ətir alır, zülfü muyundan,
Baxan doymaz, qamətindən, boyundan,
Layiq deyil qurban kəsəm qoyundan,
Aqil, qurban canım, neyçün ağlayır.

Bir gün Qönçə fürsət tapıb xəlvətcə Aqilin görüşünə gəlir, lakin özünün dediyi kimi, "beyiman qarı" onları danışmağa qoymayır. Lakin o görüşdən "Gəlmişdi" rədifli qoşma bizə yadigar qalır.

Bu şənbə günündə, günorta çağı,
İstəkli bir dostum bizə gəlmişdi.
Alma yanaq, bülul buxaq, gül üzlü,
Gətirib ləbində, məzə gəlmişdi.

Aqil dərdin xalqa söylər hər zaman,
Sirr sözün əğyara eyləmə bəyan,
Qoymadı danışaq, qarı beyiman,
İnankı söhbətə, saza gəlmişdi.

Qönçənin başqa elə gəlin köçməsi zamanı ayrılıqdan ağlaması Aqilin qəlbini qanatmışdır.

Ağlama, a Qönçə hamıdan baş sən,
Axıtma gözündən gəl, qanlı yaş sən.

Məlumdur ki, hər aşiqin taleyi bir cür tamamlanmış, bəzisi öz yurdunda, bəzisi də qərib-qürbət eldə dəfn

olunmuşdur. Aqil arzu edirdi ki, onun qəbri Göyçə gölə, onun sahilinə düşsün.

Haqdan aşiqlərə olubdur təqdir,
Qəriblik yazılıb, belə düşübdür.
Kərəmi Qeysərə, Sənan Tiflisə,
Mənim qəbrim Göyçə gölə düşübdür.

Lakin Aqilin dediyi kimi olmadı. Quduz Hitler Sovet gülüstanımızı bəd nəfəsi ilə soldurmaq istəyəndə, vətənimizə hücum edəndə Aqil də cəbhəyə yollandı, cəbhədən qayıtmadı. Onun sevgisi, məhəbbəti kimi "qəbrinin Göyçə gölə" düşməsi arzusu da baş tutmadı, Aqilin eşqi də, sevgisi də, arzuları da yalnız onun nəcib duyğularla bəzənmiş şer incilərində yaşamaqdadır.

*"Kirovabad kommunisti" qəzeti,*
*16 fevral, 1988-ci il.*

# Tifil Əsəd

Aşıqlar tərəfindən tez-tez yad edilən, şerləri dillər əzbəri olan ustad sənətkarlardan biri də Tifil Əsəddir. İran Azərbaycanının Hisar kəndindən olan Əsəd inqilabdan əvvəl Şamxor rayonuna gəlmiş, Alabaşlı kəndində yaşamış, saz çalıb-oxumagı həmin kəndin sakini Aşıq Hümbətdən öyrənmişdir.

Gözəl səsi və təbi olan bu gənc az vaxt ərzində yaradıcı sənətkar kimi şöhrət qazanmışdır.O, Tifil Əsəd, Miskin Əsəd təxəllüsləri ilə çoxlu şerlər yazmışdır.Əsəd klassik ədəbiyyatla da ciddi maraqlanmışdır. Bu onun gözəl divanilər yaratmasına kömək etmişdir. Beləliklə, Tifil Əsəd el sənətkarları arasında divani aşıq şerinin mahir ustası kimi tanınmışdır.

Tifil Əsədin ədəbi irsindən bir cığalı təcnisi və bir neçə divaniləri qalmışdır. Aşıqlar arasında "Bir saat" rədifli divanisi xüsusilə məşhurdür. Bu şer səmimi, pak bir hissin məhsuludur:

Cəl əyləş, söhbət edək,
Mehribanım bir saat.
Qoy gəlsin öz yerinə,
Din-imanım bir saat.
Həmişə sən gələsən,
Ey əziz mehribanım.
Görüm sənsiz heç olmasın,
Xanimanım bir saat.

Aşıq-şairin öz mehribanı ilə söhbəti baş tutmamış, hətta, həyatda bir saat belə dinc , qayğısız yaşamağa vaxt tapa bilməmişdir:

Gör bir necə bəlakeşəm,
Öz canımdan bezmişəm.
Yaranandan zülmdəyəm,
Hər cəfana dözmüşəm,
İsmimdir Tifil Əsəd,
Vəsfi halın yazmışam,
Çox incitmə çərxi-fələk,
Qoy dolanım bir saat.

Sovet hakimiyyətinin qələbəsindən sonra Əsədin də üstünə gün doğmuş, yaradıcılığında xoş əhval-ruhiyyə yaranmışdır. Bundan sonra yazdığı şerlərində, o cümlədən "Olmasa", "Saz", "Aşıq", "Mənim" adlı divanilərində həyatın müxtəlif məsələlərinə toxunmuşdur. Aşığın elə beytlərinə, bəndlərinə rast gəlmək olur ki, oradakı aforistik ifadələr, hikmətlər adamı heyran edir:

Tərlan qalxıb şikar alar,
Quzğun qonar leş üstə.
Qara quşdan xof edərdim,
Dayısı sar olmasa.

Tifil Əsəd aşıqlıq sənətini yüksək qiymətləndirirdi. Ona görə:

Hər yetəndən aşıq olmaz,
Ustaddan dərs almasa-deyir.

Çünki aşıqlıq sənətinin də özünəməxsus çətinlikləri vardır. Bu barədə şair öz fikrini belə ifadə edir:

Aşıqlıqda qayda budur,
Əvvəlcə mərifət bilə.
Öyrənə ustad kəlamın,

Şirincə söhbət bilə.
Çünki ola el anası,
El içində dərd bilə.
Saxlaya hörmətini,
Gəzməyə lobbaz aşıq.

İstedadına, yaradıcılıq qabiliyyətinə inanan sənətkar sənət yoldaşlarına deyir:

Ya öyrən nəsihətim,
Ya götürmə saz aşıq!

Onun "Ya səndədi, ya məndə" rədifli cığalı təcnisini qiymətli bir sənət incisi, eyni zamanda çap olunmamış şer nümunəsi kimi bütöv şəkildə oxuculara çatdırmaq, bizcə çox yerinə düşərdi:

Ala gözlüm, dərdə girifdar oldum,
Dərdə dərman ya səndədi, ya məndə.
Aşıq deyər: ya məndə,
Gözüm qaldı Yaməndə.
Ləl üstündə həmayıl,
İşıq salır Yaməndə.
Dedim: gözəl,məni qoyma Yaməndə,
Dedi təqsir, ya səndədi, ya məndə.

Eşq ucundan mən də oldum ya dəli,
Görən deyər: ya divanə, ya dəli,
Aşıq deyər: ya dəli,
Ya divanə, ya dəli,
Xanimandan keçərəm,
Yara dəysə yad əli,
Dedim: gözəl, səndə tutsam yad əli,
Onda ölüm, ya səndədi, ya məndə.

Görən olmaz mənim kimi yananı,
Nə keçirər eşq oduna yananı?
Aşıq deyər:yananı,
Yandırmayın, yananı,
Mərd igidlər gözləyər,
Ya süfrəni, ya nanı.
Kim görübdü Əsəd kimi yananı,
Eşq atəşi ya səndədi, ya məndə.

Aşıq Əsəd əsrimizin birinci rübündə təxminən 38 yaşında Güney Azərbaycanın Hisar kəndində vəfat etmişdir.O, inanırdı ki, aşıq yaradıcılığı tarixində qalacaq, şerləri zaman-zaman yaşayacaqdır.

Desələr ki, Tifil Əsəd,
Sözün dildə qalmadı.
Bil o zaman alovlanar,
Yanar məzarım mənim.

Tifil Əsədin arzu etdiyi kimi sözü dillərdə əzbərdir.

*«Kirovabad kommunisti» qəzeti,*
*16 yanvar, 1988-ci il.*

# Ayrım Əhməd

“Ayrım” sözünü təxəllüs kimi ilk dəfə XVIII əsrin el şairi İsmayıl işlətmişdir. Ayrım İsmayıl özünün “Bərabəri ” adlı məşhur qoşmasında ayrım köçünü, ayrım gözəlini tərənnüm edir:

Haceydil girməsində, ayrım köçündə,
Bir gözəl görmüşəm can bərabəri.
Ağ çara bürünmüş anquya bənzər,
Qabaqda telləri xan bərabəri.

Bizim dövrümüzdə ayrım təxəllüsü götürmüş iki el sənətkarı tanıyırıq. Bunlardan biri Kəlbəcər rayonunun Seyidlər kəndində yaşayan Ayrım Əhməd, ikincisi Daşkəsən rayonunun Qabaqtəpə kəndində yaşayan Ayrım Cavaddır. Bu sənətkarların şerlərində “ayrım” sözünə tez-tez rast gəlirik. Ayrım Cavadın dillər əzbəri olan “Çiçək dərən” qoşması belə tamamlanır:

Dər doyunca bu dağların gülündən,
Dəstə bağla, bir tel ayır telindən.
Mən Aşıq Cavadam ayrım elindən,
Sənin adın nədir, ay çiçək dərən?

Ayrım Əhməd isə “Çıxıb” adlı qoşmasında özünün kim olduğunu belə nişan verir:

Xəyal ürəkdədi, ağıl sərdədi,
Ağılda almaz var, iş kəsərdədi.
Xalqı düz tanıyır Ayrım Əhmədi,
Neçə-neçə dəfə sınaqdan çıxıb.

Yəqin ki, bu sənətkarların təxəllüsləri ilə əlaqədar olaraq oxucuları “ayrım” sözünün mənşəyi, yaranma tarixi, mənası maraqlandıracaqdır. Odur ki, bu barədə olan bəzi faktlardan danışmağa dəyər.

“İnqilab və mədəniyyət” jurnalının 1928-ci ildə çap olunmuş 3-cü nömrəsində Qaraqaşlının “Ayrımlar” adlı məqaləsi dərc edilmişdir. Müəllif “ayrım” sözünün mənasını dürüst izah edir. O, deyir: “Ayrım türkcə bir kəlmədir. Mənası “ayrı yaşayan” deməkdir”.

“Ayrım” - ayrılmalar, dağlılar, bax belə başa düşmək lazımdır.

“Bolşaya Sovetskaya ensiklopediya”nın birinci cildinin 556-cı səhifəsində göstərilir ki, ayrımlar vaxtı ilə Qazax rayonundan ayrılıb.

Hazırda onlar əsasən Daşkəsən və Gədəbəy rayonlarında, Tovuz, Kəlbəcər, Goranboy və Xanlar rayonlarının dağlıq hissələrində yaşayırlar.

Professor H. Araslı Firudinbəy Köçərlinin əsərlərinə istinad edərək yazır: “Həmin əsrin (yəni XVIII əsrin – S. P.) təxminən 59-cu illərində Gürcüstan sərhədində baş verən toqquşmalar nəticəsində Qazaxdan bir neçə kənd Gəncə və Qarabağ xanlıqlarına köçməyə məcbur olur.

Həmin ildə Molla Pənah Vaqif də öz ailəsi ilə birlikdə köçüb Tərtərbasarda məktəbdarlıqla məşğul olmağa başlayır.

Nəhayət, Vaqif oradan da Pənahabad (Şuşa) şəhərinə köçür… ”.

Çox ehtimal ki, Vaqif köçən zaman “Ayrım” adı ilə yaşayan nəsillər də respublikamızın şimal-qərb rayonlarına köçmüşlər. XIX əsrin körkəmli el sənətkarı olan Ağdabanlı Qurban da öz şerlərində bu fikri təsdiq edir:

Qurbanam mahalım Qazax, Şəmşəddin,
Deməræm dünyada bir kəsin bədin.

Dilim, qadağandı nə danış, nə din,
Nə sirr açmaq, nə söz soruşmaq olmaz.

Xalq şairimiz Səməd Vurğun 1955-ci ilin avqust ayında İstisu kurortunda olan zaman Aşıq Şəmşirə demişdi:

-Vaqif Qarabağa köçəndə sizin babalarınız da bu dağlara gəlib. Atan Qurban bu dağlarda eloğlusu Vaqifin qoşmalarını sazda çalıb, oxuyub.

Gətirdiyimiz misal və mülahizələrdən belə nəticə çıxır ki, ayrım adı ilə yaşamaqda olan nəsillər XVIII əsrin ikinci yarısında Qazax rayonundan getmişlər. Bunu adlarını çəkdiyimiz rayonlarda “Qazaxlar” adlı kənd və nəsillərin mövcud olması da sübüt edir. Ayrımlar uzun illər köçəri həyat keçirdikləri üçün kəndlərində məscidləri yoxdur. Bu səbəbdən də onların tarixən dinə inam və etiqadları da zəif olmuşdur. Yerli əhali uzaq keçmişdə namazın, orucun, məhərrəmliyin nə olduğunu bilməmişdir.

Biz ayrım nağıl və lətifələrinə diqqətlə yanaşdıqda görürük ki, çox zaman ayrımlar qonşuları tərəfindən tənəyə məruz qalmışlar. Bu isə şifahi xalq ədəbiyyatında öz əksini tapmışdır.

Fikrimizi əsaslandırmaq üçün nümunələr göstərək. Ayrım lətifəsi:

Bir ayrıma tənə ilə deyirlər ki, sən müsəlman deyilsən. Belə olmasaydı, sən də namaz qılardın. Ayrım üzə düşür. O da quru yerdə namaz qılmağa başlayır. Ayrım ikicə dəfə əyilib-qalxır, üçüncüdə onun gözünə çöp batır. Ayrım üzünü göyə tutub deyir: ey allah, namaz qılma deyirsən, qılmıram. Daha gözümü niyə çıxardırsan?!

Həmin əhvalatı Ayrım Əhməd şerə gətirmişdir:

Söz keçmir isbata, xoş gəlmir avaz,
Qəbulsuz ərzəni ha oxu, ha yaz.

Dönüb ibadətə qılıram namaz,
Toxunub gözümə şax dəyib keçir.

Başqa el sənətkarları kimi Ayrım Əhməd də xalq yaradıcılığından çox faydalanmışdır. Ayrım Əhməddə aşıq sənətinə meyil və marağı el şairi Ağdabanlı Qurban oyatmışdır. O, Əhmədin xalasının əri idi. Balaca Əhməd tez-tez Ağdabana – xalası Səlbigilə gedər Qurbanın sazına, sözünə qulaq asardı. O, savadı da Qurbandan öyrənmişdi.

Əhməd Abbas oğlu Nəbiyev 1895-ci ildə Kəlbəcər rayonunun Seyidlər kəndində yoxsul kəndli ailəsində doğulmuşdur. O, kəndlərində kolxoz yaradılan kimi oraya daxil olmuş və ömrünü faydalı əməyə bağlamışdır. Əhməd hazırda pensiyaçıdır. O, aşıq deyil, saz da çala bilmir, yalnız qoşmalar qoşan, gəraylılar yaradan el şairidir.

Əhməd az savadlı el sənətkarıdır. O, özü haqqında da gözəl demişdir:

Ayrımlı Əhmədəm beysavad kimi,
Sözlərim dolaşıq, zarafat kimi.

Əhməd elin qəlbindən keçənləri doğru-düzgün qələmə alır. Bu isə onun şerlərinin xəlqiliyini gücləndirir.

Yaşının 70-i keçməsinə baxmayaraq, o yenə də odlu-alovludur, ürəklərə yol tapan gözəl qoşmalar yaradır.

*"Kommunist əməyi" qəzeti,*
*8 oktyabr, 1967-ci il.*

# Aşıq Ələsgər nəslinin nümayəndəsi

1918-ci ildə  müsavatçı və daşnaqların törətdiyi milli qırğın sayəsində yüzlərlə ailə ilə birlikdə Aşıq Ələsgər nəsli də doğma Ağkilsəni buraxıb Kəlbəcərin Qalaboyunlu kəndinə köçmüş, 1921-ci ilin sonuna qədər burada yaşamışdır. Aşıq Ələsgər ailəsi bu kəndə köçəndə onun qardaşı Məşədi Salahın oğlu İman 15 yaşında idi.

Xüsusi istedada, çoşğun təbə malik olan İman yaradıcılığa hələ uşaq ikən başlamış, kamil ustadnamələr, təcnislər, divanilər, qoşma və müxəmməslər yaratmışdır. İman ən ustad aşıqların aça bilmədiyi bir sıra qıfılbəndləri açmışdır.

Qardaşı Qurbanın vaxtsız ölümü İmanı sapsıtmış, onda bədbinlik və ümidsizlik əhval-ruhiyyəsi yaratmışdır. 1926-cı ildə 23 yaşı yenicə tamam olarkən İmana daha ağır bir itki üz verir, onun sevimli əmisi, həm də ustadı Aşıq Ələsgərin çoşğun qəlbi əbədilik susur. Bu vaxt İman Kəlbəcərin Seyidlər kəndində kənd şurasının katibi idi.

Həmin vaxtda el aşığı Rüstəm Xəlilov qonşuluqdakı Qamışlı kəndində şura sədri, Ağdabanlı Qurban isə onun katibi işləmişdir. Eyni xüsusiyyətli işdə çalışmaları bu üç istedadı tez-tez görüşdürür, onların yaradıcılıq mübadiləsi etmələrinə, birlikdə çalıb-oxumalarına imkan yaradırdı.

1926-cı ildə Qasım İsmayılov rayonunun Safıkürd kəndində kənd Soveti katiblərinin bir aylıq kursu keçirilərkən Qurban və İman Dəstəfur rayonunun  Qabaq Təpə kəndindən olan el şairi Cavad Hüseynovla tanış olurlar. İman toplanmış bir məclisdə «Gəlib Gedibdir» rədifli qoşması ilə çıxış edib, aşıq ədəbiyyatının nəzəriyyəçisi kimi el sənətkarlarını yada salmışdır:

Oyub ciyərimi möhnət alması,  
Viranə könlümün açılmaz pası.

Ələsgər, Qasım, Şikəstə Abbası,
Qalan şair hamı üz gəlib gedib.

Yaxşı bəyənmişəm Miskin Abdalı,
Cəm imiş başında huşu, kamalı.
Vaqif qarışdırıb çox qeyli-qalı,
Sözlərində gəlin, qız gəlib gedib.

İmanın nikbin xalq şairi Vaqifi belə qiymətləndirməsi heç də təsadüfi deyildi. Çünki o dövrdə qardaşı Qurbana, əmisi Ələsgərə yas saxlayan İman Vaqifdən daha çox bədbinliyə qapılan Vidadiyə meyl götərirdi.

İman Azərbaycanda Sovet hakimiyyətinin qurulmasına sevinən xalq sənətkarlarından idi. O, vətəni azad, xalqını xoşbəxt gördükcə coşa gəlmiş, nikbin qoşmalar yaratmışdır. İman həmin günlərdə üzünü xalqına tutub iftixarla deyirdi:

Bir gün doğub işıq kimi aləmə,
Dahi Lenin bu cahana gəlibdir.
Tutub şan-şöhrəti eli, obanı,
Gözəl adı dil-dəhanə gəlibdir.

Təəssüf ki, İmanın günəş kimi parlayan istedadı çox tez sönmüşdür. O, 1926-cı ildə Gəncə ətrafında itmişdir. Buna görə də onun bizə ancaq 23 yaşına qədər yaratdığı əsərlər çatmışdır. İman yaradıcılığı az vaxt sürsə də, öz dərin mənası, azalmaz təravəti ilə ciddi öyrənilməyə layiqdir.

*«Mingəçevir işıqşları» qəzeti,*
*27 iyun, 1967-ci il.*

# Əli Bimar

Əli İbrahim oğlu Əsgərov 1906-cı ildə Kəlbəcər rayonunun Sınıqkilsə kəndində yoxsul kəndli ailəsində doğulmuşdur. Əli gənc yaşlarında Şuşa pedaqoji texnikumunu bitirib kəndlərinə qayıdır və burada dərs deməyə başlayır.

Əli qonşu kəndlərində bir qıza vurulur. Lakin onun ilk məhəbbəti uğursuz olur.

Bu münasibətlə Əli «Tərsinə döndü» qoşmasını yazır. Təkcə bu bir şer ona aşıqlar arasında böyük nüfuz qazandırır.

Aləm fəryadımdan zinhara gəlib,
Həsrətin çəkməkdən canım incəlib.
Tərsinə əsəndə badi müxəllif,
Rəqs etdi tellərin, tərsinə döndü.

Azərbaycanda bu qoşmanı əzbər bilməyən tək-tək aşıq tapılar.

Bundan sonra o, «Bimar» təxəllüsü ilə şerlər yazmağa başlayır və qısa bir dövrdə təcnis ustası kimi şöhrət qazanır. O, aşıq şerinin bu çətin formasında yazıb yaradarkən məzmun gözəlliyinə, fikir yeniliyinə xüsusi diqqət yetirir. Təcnislərində ona qədər işlənməmiş, orijinal cinaslar yaradır.

Ax, deyərsən, vay deyərsən bir zaman,
Keçən günlər daha düşməz bir də ələ.
Səd heyif cavanlıq, aman, əl aman,
Buraxmaram yaxan keçsə bir də ələ.

Göründüyü kimi, onun bu üslubda yazdığı şerlər forma və məzmun gözəlliyinə malikdir, özü də insanı cəlb edən hikmətlərlə doludur. Hər beyt bizə yeni bir şey deyir.

Cərrah üçün asan olsa bir yara,
Lazımdır ki, min düşünə bir yara.
Əgər kələk gəlsə bir yar, bir yara
Salar öz başını ha qala-qala.

Əl çək bu fitnədən, Bimar, fən arı,
Bivəfanın heç olmadı fən arı.
Gər yanmasa məhəbbətin fənarı,
Özü sönər, xod ver, ha qala-qala.

Bimar təcnis yaradıcılığında çox irəli getmiş və ustad sənətkarlarla bir sırada dayanmaq haqqı qazanmışdır.

Əli Bimar iki mənbədən: ustad aşıqların qoyub getdikləri ədəbi irsdən və xalq yaradıcılığı xəzinəsindən bəhrələnmişdir. Bu səbəbdən də onun şerlərində xəlqilik çox güclüdür.

Bimarın yaradıcılığında ustadnamə xarakteri daşıyan şerlər də mühüm yer tutur.

Yaltaqdan kənar gəz, eylə sən haşa,
Bir məqsədi düşün, doğru çıx başa.
Hamıyla mehriban, həm sadə yaşa,
Dilinlə ürəyin bir qərar olsun.

Namərdə zərbə vur, mərdə ol fəda,
İlqarın, imanın heç getməz bada.
Şad yaşamaq arzun varsa dünyada,
İstəmə kimsədə ahu-zar olsun.

Bimarın səhhətinin birdən-birə pozulması onun şer gülşəninə qəm, qüssə gətirmiş, nikbinliyi bədbinliklə əvəz etmişdir. Lakin bu da o böyük sənətkarın qaynar bulaq kimi çağlayan yaradıcılığına kölgə sala bilməmişdi. Əli Bimar 1948-ci ildə ağır xəstəlikdən vəfat etmişdir. Onun şerlərini oğlu Arif qoruyub saxlamışdır.

El şairi Əli Bimarın yüz qatara yaxın gəraylı, qoşma, müxəmməs və digər formalarda şerləri toplanmışdır.

*«Yenilik» qəzeti,*
*20 iyul, 1967-ci il.*

# Qurban ocağının külaltı közü,
# Vurğun nəfəsindən alışan Şəmşir

Bu söz Kəlbəcərdə artıq bir el məsəli kimi işlədilir. Diqqətlə araşdırdıqda görürsən ki, bir beytdə nə qədər böyük məna ifadə edilmişdir.

İki böyük sənətkarın, ata və oğulun dadlı-duzlu sözləri dildən dilə gəzirdi, aşıqlar məclislərdə oxuyurdular. Lakin Ağdabanlı Qurbanın və Aşıq Şəmşirin ədəbi irsi öyrənilib nəşr edilmirdi. Bu məsələ Kəlbəcər zəhmətkeşlərini, o cümlədən onların yaradıcılığına yaxından bələd olan adamları təəssüfləndirirdi.

Böyük xalq şairimiz S.Vurğunla Aşıq Şəmşirin görüşü, sözün həqiqi mənasında, «külaltı közü» qalan ocağı əbədilik alovlandırdı. «Vurğun nəfəsindən alışan Şəmşir»in kitabı bundan sonra nəşr olundu. Ağdabanlı Qurbanın yaradıcılıq irsi bundan sonra toplanıb öyrənilməyə başlanıldı.

Qurban irsinin öyrənilməsi prosesində onun müasirlərinin də bir çox əsərləri əldə edildi. Aşıq Bəsti kimi böyük sənətkarın adı da bu dövrdə meydana çıxdı. Onun bir yaradıcı, peşəkar aşıq kimi Gədəbəy rayonunun Böyük Qarabulaq kəndində, Daşkəsən rayonunun Qabaqtəpə kəndində və Göyçənin Sarıyaqub kəndində yaşadığı, o yerlərdə yaradıcılığını davam etdirdiyi qismən öyrənildi.

Habelə Aşıq Ələsgərlə, Sənətkar Abdulla ilə, Aşıq Bəsti ilə, Növrəs İmanla, Ağdabanlı Qurbanın ədəbi əlaqəsi məsələlərinə dair xeyli məlumat əldə edildi. Qurbanın müasirlərindən Çəpli Məmmədin, Ayrım Əhmədin, Rüstəmin, Əli Bimarın, Zalın və başqalarının şerləri toplanıldı. Bütün bu yuxarıda qeyd olunan işlərin görülməsi

üçün xalq şairimiz S. Vurğunla Aşıq Şəmşirin görüşü yol açmışdır.

Atasının sədəfli sazını sinəsində gəzdirən Aşıq Şəmşir onun ədəbi irsini göz bəbəyi kimi qoruyur. Gənc şair Həbib Əhmədov görkəmli el sənətkarları haqqında yazdığı qoşmanın bir yerində deyir:

Abdullah dünyadan getdi narazı,
Zimistana döndü Dilqəmin yazı.
Aşıqlıq irsini, sədəfli sazı,
Şəmşirə tapşırıb Qurban yatıbdı.

Aşıq Şəmşirin daha geniş miqyasda tanınması, əsərlərinin nəşr olunması Qurban irsini öyrənməkdə böyük imkanlar yaradır. Axı, Şəmşirin şer çəməni «Qurban bulağı»nın həyatverici suyu axan bu çəmənin gülləri heç vaxt solmayacaqdır. Çünki bu çəmənə Aşıq Ələsgərin, Səməd Vurğunun ayağı dəyib.

Qədirbilən Aşıq Şəmşir xalq şairimiz Səməd Vurğunun xatirəsini, xüsusən şairin Kəlbəcərə səfərini mənalandıran, ədəbiləşdirən «Vurğun dağlarda» adlı dastanı tamamlamaq üzrədir. Əsərdə vətənpərvər şairimizin xeyirxah əməlləri, Azərbaycanın ecazkar təbiətinə vurğunluğu gözəl boyalarla verilmişdir. Dastanda verilmiş qoşmaların birində deyilir:

Hər məclisdə söhbəti var, sözü var,
Bir qızıldı hər kəlməsi Vurğunun.
Qərinələr keçər, illər dolanar,
Getməz bu dağlardan səsi Vurğunun.

*«Tərəqqi» qəzeti,*
*22 oktyabr, 1966-cı il.*

# Dəlidağın qonağı

***Hörmətli şairimiz, Azərbaycan sovet şerinin bayraqdarı Səməd Vurğun respublikamızın dağlarını, təbii gözəlliklərini sonzuz məhəbbətlə sevərdi. O, 1955-ci il avqust ayının 5-də səfalı Kəlbəcərə gəlir, aşıq Şəmşirlə tanış olub görüşür, onun sazına, duzlu sözünə qulaq asır. Həmin görüş dildən-dilə gəzir. Şairin Dəlidağda olması haqda Kəlbəcərdən aldığımız məktubda daha aydın yazılmışdır. Aşağıda həmin məktubu dərc edirik.***

Şair təbiətin gözəl guşələrindən biri olan İstisuya istirahətə gəlmişdi. Ovçu xəyalı onu rahat buraxmırdı. O öz otağından təbiətin seyrinə çıxdı. Turşsuya gəldi, Dəlidağa qalxdı. Ceyran bulağının üstündə geniş məclis qurdu. Lakin bunların heç biri onun ürəyindən olmadı. Şair nə isə axtarırdı. O elə bir şey axtarırdı ki, bu dağlarla, şəfa verən qaynar bulaqlarla, başı qarlı, sinəsi müxtəlif rəngli yamaclarla həmahəng olsun, onun zövqünü oxşasın.

Şairin llk sözü bu oldu:

-Ay uşaqlar, sazlı-söhbətli bir aşıq tapsanız çox yaxşı olar.

Dost-tanışlar Ağdabanlı şair Qurbanın oğlu aşıq Şəmşirin adını çəkdilər. Şair şəhadət barmağını dodağına toxundurdu. – Sonra da:- Mən onun adını eşitmişəm,- dedi. Əlavə olaraq Şəmşirin “Vədəsində” adlı qoşmasından bir beyt əzbər dedi:

Səni qoca gördüm qəlbim qan oldu,  
Mənim saqqalımın çal vədəsində.

Aşığın gəlişi, hörmətli şairlə yerlilərin görüşü toy-bayrama çevrildi. Gözəl bulaqlardan biri olan Turşsuda şirin, sözlü-söhbətli bir məclis düzəldi; şer-sənət məclisi.

Tərtərin yaxasında şairlə aşığın şer mətahı bir-birinə qovuşdu. Kürlə Xəzər qovuşan kimi.

Aşıq Şəmşir şairə ithaf etdiyi "Xoş gəlib" şerini bu məclisdəkilərə sazla oxudu:

Minnətdarıq kamil söz ustadına,
Şan-şöhrət yaraşır onun adına.
Bizim Kəlbəcəri salıb yadına,
Çəkib bu yollarda cəfa, xoş gəlib…

Səməd Vurğun da aşığı cavabsız qoymadı. O da "Yada sal məni" qoşmasını sazla dedi. O, el sazını sinəsinə elə sıxdı, barmaqlarını şirmayi sədəflər üstündə elə gəzdirdi ki, hamı ona heyran qaldı.

Aşıq Şəmşir, Dəlidağdan keçəndə,
Kəklikli daşlardan xəbər al məni.
Ceyran bulağından qızlar içəndə,
Saz tutub, söz qoşub, yada sal məni.

Aşıq Şəmşir bu gözəl məclisdə şairin şərəfinə ikinci bir qoşma da söylədi:

Qoşqarla yanaşı duran adın var,
Bizim el tanıyır uca dağ səni.
Yanır yurdumuzda sənət çırağın,
Bilirik şerdə bir mayaq səni.

Bundan sonra şair rayon mərkəzindəki klubda, İstisuda, neçə-neçə yerlərdə aşıqların məclisini keçirdi. Saza-sözə qulaq asdı. Olduğu müddət ərzində şair aşıq Şəmşiri yanından buraxmadı. Düz bir ay Dəlidağın qonağı oldu. Taxtadüzü, Sultan Heydəri, Keyti dağını dönə-dönə gəzdi. Keyti dağının ecazkar təbiəti S.Vurğuna unudulmaz

təsir etdi. Avqust ayında bu dağın zirvəsində qar, ətəyində isə altı rəng çiçək görməsi onu çox məftun elədi. Dəlidağın qonağını Keytidə bir hadisə yaman mütəəssir etdi. Qayada kəklik oxuyurdu. Elə bu zaman şair tüfəngi üzünə qaldırmış bir ovçu gördü. Qeyri-iradi olaraq səsləndi:

-Ayə, vurma!

Ovçu Səfiyar tez geri dönüb baxır və şairi görür. Əlini saxlayır. Şair sağında aşıq, solunda da ovçu bir qara daşın üstündə oturub xəyala dalır. Sonra onlardan soruşur:

-Görəsən, Aşıq Ələsgərlə Ağdabanlı Qurban da Dəlidağın qonağı olublarmı?

-Bəli, olublar-deyə qocaman el aşığı cavab verir.

Üzünü aşıq Şəmşirə tutub deyir:

-Aşıq Şəmşir, qismət olsun, gələn baharda Aşıq Ələsgərin və Qurbanın qəbirlərini ziyarət etməyə gedərik.

Onlar razılaşırlar.

Həmin ilin sentyabr ayında Dəlidağın qonağı Bakıya getdi. Son sözü bu oldu: "Aşıq qardaş, şerlərini Bakıya gətir, çapa verək. Məni isə gələn bahar Dəlidağda gözlə".

Aylar dolandı, il keçdi, bahar öz vədəsində gəldi. Dəlidağ bəzəndi, lakin şair gəlmədi…

Dağların bir günü də şairsiz keçmədi. Onun sözləri ağızda-dildə gəzdi, ürəklərə yol açdı. Özünün dediyi kimi:

Vaxt məni bu yerə qonaq göndərdi,
Gedirəm, yamandı ayrılıq dərdi,
Demə Səməd Vurğun gəldi - gedərdi,
Unutmaz bu oba, bu mahal məni.

Tarixdən yüz illər gəlib keçsə də Dəlidağın qonağını, böyük söz ustadını bu oba, mahal unutmayacaqdır. Hörmətli şairin hər ürəkdə bir heykəli vardır. İndi Aşıq Şəmşir dostunun xatirəsini əbədiləşdirərək, "Vurğun" adlı gözəl bir dastan yaratmışdır. Bu dastan şairin xatirəsini

əbədiləşdirən ən qiymətli bir incidir. Harada bir məclis olur, aşığı ora çağırırlar. - Vurğun haqqında təzə nə yazmısan onu oxu!- deyirlər. O isə "Bir də gəl" qoşmasını şerlərinə nəqarət edərək sədəfli sazını dilləndirir:

Çəkir həsrətini bizim Kəlbəcər,
Böyük şair, şiş dağlara bir də gəl,
Dedin: demə Vurğun gəldi gedərdi,
O verdiyin düz ilqara bir də gəl!

Səməd Vurğun bir daha bu yerlərə gəlməsə də, onun arzuları, şirin xəyalları hər bahar fəslində Dəlidağın sinəsində min bir çiçək açır. O çiçəkdən qızlar, oğlanlar dəstə bağlayır, çələng hörürlər. Şer-sənət bağının solmayan çələnglərini.

*«Qalibiyyət bayrağı» qəzeti,*
*4 avqust, 1966-cı il.*

# «Əli və Mehriban» dastanı

Gəncəbasarın Balçılı elatında dünyaya göz açıb Çəmən. Zəhmətkeş Hilal kişinin doqquz uşağından biridir. Kiçik yaşlarından şerə, saza, el havalarına vurğun olan Çəmənin bu sonsuz marağı orta məktəbdə oxuduğu zaman daha da güclənmişdi. O, məktəb kollektivi qarşısında tez-tez rəngarəng musiqi nömrələri ilə çıxış edir, dinləyicilərini heyran qoyurdu.

Məktəbi yenicə bitirən Çəmənin həyatında qəribə və gözlənilməz hadisə baş verdi: o, Kəlbəcərin Zar kəndində yaşayan bir gənclə qiyabi tanış oldu və bu hadisə qızın sonrakı taleyini müəyyənləşdirdi.

Hər iki gözü şikəst Seyid Əli Xudaverdi oğlu fəhmli və istedadlı bir gənc idi. Kor olsa da dünyanın və bəni-insanın gözəlliyini fəhmilə dərk edib, şerlərində ustalıqla əks etdirirdi. Çəmən qəzetdə onun fotoşəklini gördü, şerlərini oxudu. Şerlərdən bal kimi süzülən şirin sözlər, mənalı kəlamlar iki gəncin arasında mənəvi körpü yaratdı. Onlar məktublaşmağa başladılar. Hər ikisi də məktubu şerlə yazırdı. Seyid Əli zərfin içərisinə həmişə dağ çiçəkləri – bənövşə, nərgiz qoyardı. Bir-birini görməsələr də, bu çiçəklər vasitəsilə sevgi bulağının ətrini duyardılar. Çəmən ona öz şerlərində «Əli» deyə müraciət edir, Əli isə çəməni könlündə yaratdığı bir insan kimi duyur və onu «Mehriban» adlandırırdı.

İki gəncin şerləşməsi tezliklə çoxlarına əyan oldu. Aşiq və məşuqun ülvi diləyi kəndbəkənd dolandı, Azərbaycan ellərinə yayıldı. Günlərin bir günündə Çəmən Kəlbəcərin Zar kəndinə gəldi. Bir azdan təzə gəlini çiyni səhəngli görəndə Zar kəndinin adamları təəccüblənmədi-lər, «Bizim şair Seyid Əlinin Gəncə gözəlidir!» - dedilər.

Əli ilə Çəmən bir müddət xoşbəxt yaşadılar. Onların məhəbbəti «Əli və Mehriban» dastanını yaratdı. Yurdumuzun sənətsevərləri Kəlbəcərə – şer və musiqi ocağına gəldilər, görkəmli aşıqlar yurdunu ziyarət etdilər. Xalq şairimiz Bəxtiyar Vahabzadə, Söhrab Tahir, Nəriman Həsənzadə, Sabir Həsənzadə, Sabir Rüstəmxanlı, Seyid Əlinin həmyerlisi Məmməd Aslan iki gəncin sənət dünyasıyla tanış olub yüksək qiymət verdilər. Düzələn məclislərdə Əli sazda çaldı, Çəmən məlahətlə oxudu. Qoşmanın biri Əlinin olanda, digəri Çəmənin idi.

Əlinin gözləri şikəst olsa da, qəlbinin gözü, istedadının gücü və dərin fəhmi ilə Çəmənin daxili və xarici aləmini tam duyub öz şerlərində gözəl əks etdirirdi. Seyid Əlinin və Çəmənin qoşmalarında sevən ürəklərin həyəcanları dolğun ifadə olunurdu.

Heyhat, sevgililərin sevinci, səfası uzun sürmədi. Altı il sonra Seyid Əli dünyadan köçdü, dəftəri bağlandı, telli sazı qara geyib susdu. Amma Çəmənin bu sazlı-sözlü gəncə bəslədiyi sevgi sönmədi, soyumadı. Bu sevgi ürək yanğısına çevrildi, Çəmənin canına və ruhuna aşılandı. O, şair olaraq qalmadı, şaqraq səsi qəmə, kədərə bələnib «Dilqəmi» üstündə kökləndi.

İndi Çəmən «Dilqəmi» havasının ən mahir ifaçılarındandır. «Dilqəmi» onu qanadları üstə alıb, təzədən doğma elatına qaytarıb.

Çəmən Gəncəyə gələndə burada «Aşıqlar evi» təzəcə yaranmışdı. «Aşıqlar evi» Çəmənin həm işi yeri, həm də ocağı-sığınacağı oldu. Burada ilk gündən işə ürəkdən girişdi, muzeyi nadir eksponatlarla zənginləşdirmək üçün qüvvəsini əsirgəmədi və indi də əsirgəmir. Aşıq məktəbinə istedadlı gəncləri cəlb etməkdə də onun xidməti böyükdür.

«Dilqəmi»nin yanıqlı səsi, Çəmənin ətrafında toplanmış qızların avazlı ifası Gəncə aşıqlar birliyi nəzdində orijinal «Kərəm gözəlləməsi» ansamblının

yaranmasına səbəb oldu və həmin ansamblın şöhrəti elimizə-obamıza yayılıb artıq.

Bu ansamblın ilk, həm də ən mahir ifaçısı Çəmən özü olub. O, el yaradıcısıdır. Aşıq dünyasının həqiqi sakinidir. Aşiqin də, məşuqun da dərd-sərinə dərindən bələddir. Axı, özü də nakam məşuqdur! Və Çəmən öz nakam eşqini unutmur. Onun «Dilqəmi» saz havasına məftunluğu bununla əlaqədardır. Bir sözlə, Çəmən «Əli və Mehriban» dastanının təkamülünü davam etdirən, onu yaşadandır. Bu gün də o, könlündən süzülüb gələn qoşmaları cilalamaqla, həm sözə ifadə şirinliyi, məna dərinliyi verməklə məşğuldur. Telli sazından, «Dilqəmi»ndən də ayrılmır.

Çəmən bu yaxınlarda «Kərəm gözəlləməsi» ansamblının tərkibində yeni, zəngin repertuarla Türkiyəyə, Qazaxıstana, Orta Asiyaya, Dağıstana səfərlərə hazırlaşır.

*«Körpü» qəzeti,*
*№ 7, 24-30 noyabr, 1991-ci il.*

# Seyfəli Aşıq Pənah

El sənətkarı kimi tanınan aşıq həmişə xalqa yaxın olmuş, onunla birgə sevinib, birgə kədərlənmişdir. Xalqın sevinci onun sazında şən mahnılara çevrildiyi kimi, qəmi, kədəri, qəhrəmanlığı da mübariz ruhlu mahnılarında parlaq şəkildə tərənnüm edilmişdir. Bu mövqedə dayanan, əsl xalq sənətkarlarından biri də Seyfəli Aşıq Pənah (1876-1921) olmuşdur.

Çox erkən ata-anasını itirmiş Pənahın uşaqlıq illəri məşəqqətli keçmişdir. Əvvəllər kəndlərində bir bəyə çobanlıq etmiş, sonralar mahir el sənətkarı kimi məşhurlaşmışdır. Pənah əvvəlcə Şəmkirli Aşıq Hüseynə, onun ölümündən sonra isə Hüseynin oğlu Aşıq Çobana şagirdlik etmişdir. Aşıqlığından ziyada cəsur bir igid olan Pənah həm də hər yerdə yoxsulların mövqeyində dayanardı ki, bu da bəylərin narazılığına səbəb olardı.

Bir gün Aşıq Pənah öz kəndləri Seyfəlidə məclis keçirirmiş. Qara camaat deyir:

- A Pənah, dərdli adamlarıq, «Tahir və Zöhrə»nin nağılını başla, qoy qulaq asaq!

Bəylərsə Pənahdan «Alı xan»ın nağılını danışmağı tələb edirlər.

Pənah deyir:

- A bəylər, həmişə siz deyən olur, qoy bu dəfə də camaat deyən olsun.

Bu sözdən sonra Zeynal bəy və Salman bəy məclisdən çıxırlar.

Nəhayət, bir gün Aşıq Pənah məclisdən çıxıb gələrkən Salman bəy onu güllə ilə vurur.

Pənahı al-qan içərisində evinə aparırlar. Məlum olur ki, güllə sərrast dəyməyib, ancaq Pənahın sağ çiynindən keçib.

Salman bəylə Zeynal bəy pristavın yanına qaçırlar. Pristav Həsən deyir ki, həkimi görün, yaralını zəhərləyib öldürsün, Pənah yataqdan qalxsa, işin dalı uzun çəkəcək.

Şəmkir ərazisində bircə həkim vardı. Nüzgərli erməni Süleyman. O da ki, Aşıq Pənahla dost idi. Bəylər həkimə iki inəyin pulunu verib, onu yola gətirirlər.

Bu tərəfdən də Pənah Süleymana adam göndərib çağırtdırır. Süleyman Pənahı bu vəziyyətdə görəndə ağlayır. Onun daxilində iki hiss mübarizəyə başlayır: öldürsünmü, yoxsa, yaşatsınmı?

Həkim Süleyman aşığın yarasına baxıb deyir:

-Səninki allaha qalıb.

Pənah ölümdən də qorxan deyildi. Odur ki, arvadı Gövhərə deyir:

- Mən həmişə həkim Süleymanı sazla-sözlə qarşılamışam, sazı gətir, sən çal, mən də oxuyum.

Gövhər sazı kökləyib dilləndirir. Pənah özü yaralı, qəlbi yaralı yanıqlı-yanıqlı oxumağa başlayır:

Nə ahı-fəğan elərsən,
Qəm bəhrinə dalan canım,
Əzəldən gül kimi açdın,
Axırında solan canım.

Ustadam sözlər vəçində,
Aciz qalarmış laçın da,
Qüvvətli düşmən içində,
Meydanda tək qalan canım.

Hər kim Pənaha toxuna,
Toxunsun fələk oxuna,
Soran yoxdu günahı nə?
Beytaxsırdan ölən canım.

Həkim Süleyman qəhərlənir:

-Aşıq Pənah, yaran zərərsizdir. Səni zəhərlə öldürəcəydim, amma sözlərin qəlbimi kövrəltdi. Mənim oğurlanmış vicdanımı geri qaytardı. Qorxma, səni müalicə edib sağaldacağam.

- A Gövhər, o sazı bir də dilləndir. Sinəmə bir qatar söz gəldi.

Namərd dostdan kəs aranı, kənar ol,
Salamat başını məlamət eylər.
Mərd adama ilticalıq eyləsən,
Bağışlar təqsirin, əyanət eylər.

Ataların nəsyətindən qaçmayın!
Namərd ilə şirin şərbət içməyin!
Müxənnətlə nanı-süfrə açmayın!
Durmaz ilqarında, xəyanət eylər.

Dolandım dünyanı söznən, bəsinən,
Saznan, söhbətinən, eşq həvəsinən,
Biqeyrət qohumnan, binamus dostnan,
Pənah aşna olmaz, ədavət eylər.

Həkim Süleyman Pənahın yarasını sarıyıb gedir.

Pənah əvvəlcə işdən halı olmadığı üçün pristav Həsənə adam göndərmişdi. Pristav Həsən başının dəstəsi ilə gələndə görür ki, camaatdan kiminin əlində bel, kiminin əlində yaba, balta Pənahın qarşısında durub. Yoxsullardan Məmmədəli kişi irəli yeriyib deyir:

-Pristav Həsən, biz hər şeyi bilirik. Pənahın başından bir tük əskik olsa, özünüzdən küsün. Sən pristav ol, biz də qara camaat…

Pristav Həsəni Aşıq Pənah da soyuqqanlıqla qarşılayır. Aşıq Pənah deyir:

- A Gövhər, utanmaqdan keçib, bir sazı çal, pristava deyiləsi sözüm var. Gövhər saz çalır. Pənah da oxuyur:

Sənə deyim, ay pristav,
Bir zamana gələcəkdir.
Gülən kəslər ağlayacaq,
Ağlayanlar güləcəkdir.

Bizim bu qara kəndçilər,
Fəqir-füqara kəndçilər,
Dönəcək mara kəndçilər,
Bir gün səni çalacaqdı.

İşlərindən oldum halı,
İtirdin ərkani-yolu.
Bəylərdən aldın qan pulu,
Dedin: Pənah öləcəkdi?

Bu hadisələrdən bir il sonra Azərbaycanda Sovet Hakimiyyəti qurulur. Aşıq Pənah azad bağın bülbülü kimi cəh-cəh vurur, yeni dövranı tərənnüm edir:

A yoldaşlar, qulaq asın,
Hökm gəldi bu zamana,
Azad oldu fəhlə-kəndli,
Bəylər qaldı yana-yana.

Cəbr çəkən ellərimiz,
Qabarlıydı əllərimiz,
Qıfıllıydı dillərimiz,
Açar gəldi dil-dəhana.
Pənaham etdim inadlıq,
İnadlıqdan tapdım şadlıq.

Yayılacaq bu azadlıq,
Hər yerdə, cümlə-cahana.

Lakin düşməndən aldığı yara Aşıq Pənahı çox yaşamağa qoymadı. 1921-ci ilin əvvəllərində vəfat etdi.

Qısa ömürlə böyük yaradıcılıq yolu keçmiş Aşıq Pənah aşıq poeziyamızı öz gözəl şer inciləri ilə zənginləşdirmişdir. Lakin bu fədakar aşığın ədəbi irsi toplanıb ayrıca kitab şəklində nəşr olunmamışdır. Onun şerlərini həmyerlisi Aşıq Pərvanə Həsən yığıb saxlayır. O, mübariz aşığın həyat və yaradıcılığından bəhs edən dastan üzərində işləyir ki, bu da aşıq yaradıcılığımız üçün yeni hədiyyə olacaqdır.

*«Elm və həyat» jurnalı,*
*№6, 1985-ci il.*

# Sözdən çələng hörənlər

***«Aşıq Pəri» məclisinin yaradıcısı şairə Narınc Xatunla ilk tanışlığımız 1982-ci ilin fevralında olub. Neftçalalı Narınc Xatun Gəncədə yaşayan rəfiqəsi Ələmzər müəllimgilə qonaq gəlmişdi. Mərhum el şairi Mikayıl Azaflının qızı Gülarə də Ələmzər xanımgildə qalırdı.***

Bizim ilk görüşümüz aşıq sənəti üstə kökləndi. Narınc Xatun öz arzusunu bildirdi ki, mən də təbli, tutumlu bir kişi aşığı ilə deyişib, «Valeh və Zərnigar», «Şəmkirli Hüseyn və Reyhan xanım» kimi bir məhəbbət dastanı yaratmaq istəyirəm. Arada Hüseyn Saraclı ilə Azaflı Mikayılın adları dolaşırdı. Axırda dastan bağlanmasından ötrü Mikayıl Azaflının üstündə bənd alındı. Həmin günün səhəri Narınc Xatunla Gülarə Tovuza üz tutdular. Narınc Xatun bu səfərdən sinəsi dolu döndü. Elə həmin gündən Narınc Xatunla Mikayıl Azaflının deyişmələrinin, şerləşmələrinin, məktublaşma-larının ağzı açıldı… «Mikayıl Azaflı və Narınc Xatun» adlı tutarlı bir məhəbbət dastanı meydana çıxdı.

Gülarə Azaflının mənim rəhbəri olduğum «Çeşmə» folklor teatrının aparıcı üzvlərindən olması, Narınc Xatunun bu teatrın tamaşalarına baxmağına şərait yaradırdı. «Çeşmə»də musiqiylə, xalq mahnıları ilə bağlı istedadlı tələbə qızlar Gülarə Azaflının başına toplaşırdılar. Mənim Ağbabadan, Göyçədən, Dəvəçidən, Laçından, Gəncədən, Aşqabaddan topladığım itib-batmaqda olan mahnıları Gülarə Azaflı «Çeşmə»nin qızlarına öyrədirdi.

Gülarə Azaflının böyük və kiçik nailiyyətləri Narınc Xatunu sevindirirdi. Bununla belə, hiss edirdim ki, Narınc Xatunun qəlbində yeni bir arzu baş qaldırır. Mən, Narınc Xatun, Gülarə Azaflı və Ələmzər xanım bir yerdə olanda həmişə qadın aşıqlardan – Ağcaqızdan, Həmayıl-dan, Maralyanlı Pəridən söz düşürdü. Narınc Xatun Aşıq Pərinin öz dövründə müasirləri ilə deyişdiyini, şerləşdiyini dərindən

duyandan sonra, «Aşıq Pəri» məclisini yaratmaq istəyini ortaya qoydu. Gəncəbasardan, əli çatan rayonlardan öz ətrafına istedadlı aşıq və şairə qızları topladı. Narınc Xatunun səsinə ilk səs verən, saz çalan, söz oxuyan Gülarə Azaflı oldu. «Aşıq Pəri» məclisinin ilk çıxışları da məhz Gəncədən başladı. Belə bir məclis ilk dəfə olaraq H. Zərdabi adına GDPİ-nin dil-ədəbiyyat fakültəsində keçirildi. Bu məclisdə ilk olaraq Gülarə Azaflı Aşıq Bəstinin «Lalə» şerini, Aşıq Pakizə Musagöylü isə «Koroğlu»dan oxudu. Şairə Səadət Buta, Xəzangül, «Aşıq Pəri» məclisinin rəhbəri Narınc Xatun yeni yazdıqları şerlərini oxudular. «Aşıq Pəri» məclisinin ilk addımları uğurlu oldu, tamaşaçılar tərəfindən rəğbətlə qarşılandı (Bax: «Yüksəliş» qəzeti, 22 fevral 1985-ci il).

«Aşıq Pəri» məclisinin ikinci görüşü S. Ağa-malıoğlu adına Kənd Təsərrüfatı Akademiyasında keçiril-di. Bu görüşdə Narınc Xatunun qoşmaları,Gülarə Azaflı ilə Pakizə Müsagöylünün deyişmələri gurultulu alqışlarla qarşılandı.

Toxuculuq kombinatının salonu ağzınacan dolmuşdu. «Aşıq Pəri» məclisinin üzvləri də əvvəlki günlərə nisbətən xeyli çoxalmışdı. Narınc Xatun, Gülarə Azaflı, Pakizə Musagöylü ilə yanaşı, məclisə Tərlan Göyçəli, Gülnigar Rəhimli, mahir saz ifaçıları Zülfiyyə xanım, Gəncədən şairə Rəna, Çiçək, Rəmziyyə və b. gəlmişdilər.

«Aşıq Pəri» məclisinin şöhrəti göz qamaşdırırdı. Onun çıxışları, səsi-sorağı yurdumuza yayılmışdı. Müəyyən bəhanələrlə «Aşıq Pəri» məclisini onun yaradıcısı olan Narınc Xatunun əlindən almağa çalışırdılar. Narınc Xatun mənə dedi ki, mənim bu yolda nə qədər zəhmət çəkdiyimi siz yaxşı bilirsiniz, adamlarda insaf yoxdur, ay müəllim…

Mən istedadlı şairimiz Narınc Xatuna bildirdim ki, aşıq sənəti səyyar sənətdir, gəzərgi sənətdir. Sənin paytaxta qaçmağın hələ tezdir. Yurdumuzun müxtəlif guşələrinə, qonşu respublikalara səfərlər et, hansı arealda çıxışın olsa, onu yerli mətbuatda çap etdir. Getdiyin yerlərdə yeni istedadlar axtar, tap, məclis üzvlərinin sayını artır. Bundan sonra Narınc

Xatunun başçılıq etdiyi «Aşıq Pəri»nin Borçalıya, Göyçəyə, Tovuza, Qarabağa səfərləri başlandı. Bu səfərlər zamanı Borçalıda Aşıq Sona, Tovuzda Aşıq Zeynəb kimi unudulmuş yaşlı yaradıcı aşıqlar nəinki üzə çıxarıldı, Narınc Xatunun təşəbbüsü ilə yaşadıqları rayonlarda onların yubileyləri keçirildi.

Artıq «Aşıq Pəri» məclisi özünü təsdiq edib. O, nəinki yurdumuzda, hətta Türkiyədə, İranda belə yaxşı tanınır. 1993-cü ilin iyulunda (1-dən 7-yə qədər) Ankarada «İpək yolu Uluslararası xalq ədəbiyyatı simpoziumu» keçirildi. Mən o simpoziumda «Türk xalqlarının ozan-aşıq sənətinin əski və çağdaş durumu» mövzusunda məruzə etdim. Məndən sonra folklorşünas Zeynalabdin Makas mənim topladığım lətifələrə və araşdırmalara söykənərək «Azərbaycanın Nəsrəddin Xocası - Karağan Usub» möv-zusunda məruzə etdi. Simpoziumda türk alimi İrfan Ünver Nasrattinoğlunun «Azərbaycanda «Aşıq Pəri» Məclisi» adlı geniş məruzəsi mənim üçün gözlənilməz oldu. O qeyd etdi ki, Tükiyədə də aşıq qadınlar olub və indi də var. Bunlardan Nurşah bacı, Sarıcaqız, Adilə Çağlayan, Arzu, Şahsənəm və b. adlarını qeyd etmək olar. Lakin Azərbaycandakı qadın aşıq sənəti başqadır. Narınc Xatun adlı istedadlı şairə böyük «Aşıq Pəri» məclisi yaratmış, 40-a yaxın qadın aşıq və şairlərini bu məclisdə birləşdirmişdir. Onlar bu məclisdə əski və çağdaş mahnıları dilə gətirirlər. İndi Azərbaycanın hər guşəsində onların pərəstişkarları var. Onlar yalnız saz çalmaqla, mahnı oxumaqla kifayətlənmirlər, sözdən çələng hörürlər. «Aşıq Pəri» məclisinin türk mətbuatında da özünə yer tapması bizi sevindirir. Bu, Azərbaycan aşıq sənətinin böyük qələbəsidir.

*«Azərbaycan XXI əsr» qəzeti,*
*1-7 sentyabr, 1999-cu il.*

# Dağ çiçəkləri

El şairlərinin yaradıcılığını dağ sərvətlərinə bənzətmək mümkün olsaydı, deyərdim ki, şerin, sözün ən zəngin yatağı Kəlbəcərdədir. Nəğmələri ağızdan-ağıza gəzən, aşıqlar tərəfindən sevilə-sevilə oxunan Kəlbəcərin el aşıqları – Ağdabanlı Qurbanı, Aşıq Bəstini, Şəmşiri, Bimarı, Uğurlunu, Rüstəmi, Ayrım Əhmədi, Zalı, Milli Nəbini kim tanımır?

Zənn edirəm ki, bu aşıqların içərisində Bəstinin yaradıcılığı oxucular üçün daha maraqlı ola bilər, çünki Aşıq Bəsti haqqında əldə material çox azdır. Aşıq Bəsti Kəlbəcərin Lev kəndində anadan olmuş və yüz ildən artıq ömür sürmüşdür.

Gənc yaşlarından aşıqlıq etməyə başlayan Bəsti ömrünün ilk çağları Daşkəsən rayonunun Qabaqtəpə kəndində yaşamış, ömrünün son günlərində isə yenə də Levə köçmüş və orada da vəfat etmişdir.

Deyilənlərə görə Bəsti çox hazırcavab, zil səsə malik bir aşıq olmuşdur. Onun hazırda əlimizdə «Ayrımın gözəlləri», «Zədə dəyməmiş», «Yaylağa» şerləri, ərlə-arvadın deyişməsi, saat haqqında qıfılbəndi və digər söz yarpaqları vardır.

Bəsti öz yaradıcılığında yalnız qoşma və gəraylı formalarından istifadə etmişdir. Onun «Ayrımın gözəlləri» gəraylısı ilə üslub xüsusiyyətlərini müəyyənləşdirmək olar:

Yaylaq yolları yoxuşlu,
Əlləri dərmə naxışlı.
Hamısı maral baxışlı,
Bu ayrımın gözəlləri.

Bəsti həm də öz dövrünün açıqfikirli bir qadını olmuşdur. O, həmin şerin son bəndində üzünü qadınlara tutaraq deyir:

Bəsti deyər: alman yaşmaq!
Eyibdir kişidən qaçmaq.
Lazımdır çarçovu açmaq,
Ay ayrımın gözəlləri.

Aprel inqilabının ilk günlərində bu cür kəskin söz demək, kənd-kənd gəzmək, saz götürüb söz oxumaq azərbaycanlı bir qadın üçün əlbəttə böyük bir hünər idi.

Bəstinin el arasında dildən-dilə gəzən sözləri çoxdur, onu toplamaq və yaşatmaq lazımdır.

Sevindirici haldır ki, el şairlərinin sırasına yeni istedadlı gənclər də gəlmişdir. Şamil Əsgərovun, Bəhmən Abbasovun, Məmməd Aslanovun və Qafar Verdiyevin şerlərindən dağ çiçəklərinin ətri duyulur.

Şüurlu, ardıcıl olaraq orijinal yaradıcılıq yolları axtaran Şamil Əsgərov tər-təzə təşbihlər, bənzətmələr və obrazlı fikirlər müəllifidir. O, «Ceyran bulağı» adlı şerində deyir.

Solun yol, izi var yüz at nalının,
Sağında qaralır qoyun arxacı.
Ətrafa sərdiyin gözəl xalının,
Çiçək ilməyidir, göy ot arğacı.

Onun «Döndərər» gəraylısında insan əməyinin qüdrəti bədii cəhətdən nə qədər də qüvvətli və canlı verilmişdir.

Hikmətdirmi arı şanı?
Şamil, onda hünər hanı.

İnsan əli boz tikanı,
İstəsə gülə döndərər.

Seyidlər kəndi Murov dağının lap ətəyindədir. Gənc Bəhmən bu kənddə doğulmuşdur. Kəndi əhatə edən dağlar, ətrafdakı yaşıllıqlar, şəlaləli çaylar, güneylərdəki buz bulaqlar onun şerlərinin bəzəyidir. Bəhmən bu yerlərə qəlbən bağlıdır. Bəhmənin şerlərinin bu qədər təbii və təravətli olmasına səbəb də məhz onda vətənpərvərlik duyğularının qüvvətli olmasıdır. Onun «Düşdü nə düşdü», «Dağlar», «Qaldı», «Olaydı» və başqa qoşmaları böyük ilhamın məhsuludur. Bəhmənin şerlərində təsvir olunan obyektlər bir tablo kimi göz önündə canlanır.

Silindi köksündən Murovun qarı,
Ağ kalağay kimi başında qaldı.

O, Murovu canından da çox sevir. Bəhmən «Olaydı» şerində deyir:

Bəhmənəm çıxaydım vətən dağına,
Yetəndə ömrümün axır çağına.
Yönüm Qiblə deyə Kür qırağına,
Murovun başında qəbrim olaydı.

Məmməd Aslanovun şerləri bizə böyük yaradıcılıq ümidləri verir. O, öz şerlərində yeni sözlər deməyə, fikrini ümumiləşdirməyə çalışır. Onun «Ürəyimdə» şeri buna misal ola bilər. O, yazır:

Loğmanımsan gözəl məkan,
Sənsən verən cismimə can.
Səndən özgə, Azərbaycan,
Nə var mənim ürəyimdə?

Qafar Verdiyevin şux və duzlu qoşmaları vardır. Onun «Nə olar» qoşması bu cəhətdən çox səciyyəvidir.

Sinən dağlar qarı, saçların ipək,
Gözəllik çəməndir, sənsə bir çiçək.
Ahəstə yeriyib, yorğun maral tək,
Gözümün önündən keçsən nə olar?!

Gənclərimizin bu cür qiymətli əsərlər yaratması hamımızı sevindirməlidir. Kəlbəcər dağlarının bu solmaz çiçəkləri, təp-təzə el nəğmələri şer-sənət bağı üçün yeni rövnəq, təravət və gözəllik deyilmi?

*«Yeni həyat uğrunda» qəzeti,*
*7 sentyabr, 1961-ci il.*

# Şehli çiçəklər

Yolum Kəlbəcərin Seyidlər kəndinə düşmüşdü. Baş-başa çatılan çiçəkli dağlar, yaşıl meşələr, zirvəsi qarlı Murov məni özünə elə cəlb etmişdi ki, varlığımı unutmuşdum. Xəyal dənizində üzdüyüm yerdə dağ döşündə quzu otaran bir uşağın aşıqsayağı oxuması özümü özümə qaytardı. Onun səsi də, sözü də aydın eşidilirdi:

İllər gəlib keçdi, Dəlidağ yenə,
Ərşdəki buludun tuşunda qaldı.
Silindi köksündən Murovun qarı,
Ağ kalağay kimi başında qaldı…

Müsahibim şerin məni mütəəssir etdiyini duydu.

-Sözlər həmyerlimiz Bəhmən Abbasovundur, - dedi.

Biz kəndə yaxınlaşdıqca təbiətin gözəllikləri bir-birini əvəz edirdi. «Buz» bulağın başında dayandıq, əyilib çeşmənin gözündən içdim. Sanki bulağın suyu şer – nəğmə olub qəlbimə axdı. Sinəmdə yeni duyğular baş qaldırdı. Öz-özümə dedim: bəlkə Bəhmən heç şair deyil, mahir bir rəssamdır. Bəlkə bu şair dağların sözünə – söhbətinə vurğun bir insandır. Bəlkə biz onun, o da bu qoca dağların yaradıcılığına heyran qalıb. Nə bilim?…

Seyidlərə çatdıq. Bəhmən kənddədir – dedilər.

Biz onunla görüşüb tanış olduq. Bəhmən ilk dəfə «Gəlmişəm» adlı qoşmasını oxudu. Yeri düşmüşkən deyim ki, bircə kərəm yanımızda oxuduğu şeri yadımızda əzbər qalırdı. Onun şerlərinin əsas məziyyətlərindən biri elə budur.

Deyin, bu yerlərin varmı əvəzi?
Gəzmişəm Qoşqarı, o şah Kəpəzi.

Dolanmışam Çiçəklini, Çilgəzi,
Tərtər çayın qırağına gəlmişəm.

O, bizə «Gedəydim», «Ay illər», «Ömür var», «O dağların mən», «Ellərdən ayrı» qoşmalarını əzbər dedi.

De, nəyə gərəkdir maral meşəsiz,
Ceyran, ceyran olmaz çöllərdən ayrı.
Hər quş gözəl olur öz yuvasında,
Sona, sona deyil göllərdən ayrı.

Bəhmən nə qədər şer deyir – desin, biz onun söz-söhbətindən hələ doymamışıq.

Arı bu dağların minbir çiçəyindən bal-şan çəkir. Belə bal ələ düşməz. O hər dərdin dərmanıdır. Bəhmənsə o çiçəklərdən rəng alıb şerinə min bəzək vurur. O, şer deyəndə insan özünü təbiətin ən gözəl guşəsində, şehli çiçəkləri hələ dərilməmiş çəməndə-çöldə hiss edir. Onun şerləri billur bir çeşmənin şəffaf suyu kimi şehli çiçəklərin arası ilə hey axır-axır. «İtirdim» adlı qoşmanı oxuyanda inanırsan ki, Bəhmən bu dağlara, durna gözlü bulaqlara bütün varlığı ilə bağlıdır.

Yüz axtarsam, yüz arasam tapılmaz,
Gəncliyimi uzaqlarda itirdim.
Qatmadım bürküyə, toza, dumana,
Nə yaxşı ki, o dağlarda itirdim.

Ürəyimi öz başına bağlayan,
Neçə yorğun yolçuları saxlayan.
Əsrlərin nəğməsi tək çağlayan,
Durna gözlü bulaqlarda itirdim.

Vətəni tərənnüm onun əsas mövzusudur. O, azad dünyamızda, günəşli günə, çiçəkli bahara çıxmış elimizdə-

obamızda yazıb-yaratmaqdan usanmır. Bu dağları, onun əmək qəhrəmanlarını sevə-sevə qələmə alır. Elə yazıb yaradır ki, insan hər qoşmada, gəraylıda odlu bir ürəyin çırpındığını duyur, hiss edir.

Gərək dərd əhlinin yana ürəyi,
Əsər bala üstə ana ürəyi.
Əzəldən bağlıdı ona ürəyi,
Bəhmən doğma balasıdı dağların.

Bəhmən yaradıcılığı sal qayanın qəlbindən süzülən bir bulaqdır. Özü isə Murovun ətəyində kiçik bir təpə. Bizim arzumuz isə daha böyükdür. Biz istəyirik ki, o başı qarlı Murovla yanaşı dursun.

*«Yenilik» qəzeti,*
*20 aprel, 1966-cı il.*

# Aşıq Nabat

Aşıq, özünün təzəcə düzüb qoşduğu üç bəndlik «O yerləri» adlı şerini oxuyub qurtarandan sonra dedi:

- Mən ömrümdə nə elə gözəl dağ görmüşəm, nə də kənd…

Bu sözdən mütəəssir olan bir pirani kişi soruşdu:

-Ora haradı, ay aşıq Nabat?

- O kənd Naxçıvanın Parçı kəndidir, əmi, gül-çiçəkli Əyricə yaylağı.

Aşıq Nabat (Nabat Paşa qızı Cavadova) 1914-cü ildə Şərur rayonunun Parçı kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. O, erkən yaşlarında çalıb-oxumağa meyl göstərmişdir. Parçı kəndinin qocaman sakinləri Nabatın uşaqlıqda oxuduğu mahnıları indi də xatırlayırlar.

Nabat ata-anasını lap uşaqlıq çağlarında itirmişdir. Yaxın qohumları ona öz yerlərində müğənnilik etməyə imkan verməmişlər.

Nabat 1934-cü ildə müğənnilər və bəstəkarlar diyarı Qarabağa köçüb gəlir. O, bir müddət görkəmli müğənnilərimizdən Xan Şuşinski, Seyid Şuşinski, Zülfü Adıgözəlov və tarzən Qurban Pirimovla bir yerdə müğənnilik edir.

Nabat Qarabağa ürəkdən vurulur və ömürlük bu torpağın sakini olur.

Lakin Nabat müğənnilik yolunu çox tez dəyişir, yavaş-yavaş saza meyl göstərir və aşıqlığı özünə peşə seçir. O, üç il aşıq Ələsgərin qardaşı oğlu aşıq Musaya şagird olur. Nabat, aşıq Musadan 30 saz havası, «Alıxan və Pərixanım», «Abbas və Gulgəz», «Lətif şah», «Aşıq Qərib», «Leyli və Məcnun» dastanlarını öyrənir.

Bundan sonra Nabat müstəqil aşıqlığa başlayır. Qarabağda ad-san qazanmış istedadlı sənətkar 1938-ci ildə

aşıqların ikinci qurultayında iştirak edir. Nabat getdikcə ustad bir aşıq kimi tanınmağa başlayır.

Azərbaycanın ədəbiyyat və incəsənət xadimləri 1940-cı ilin may ayında xüsusi qatarla Moskvada keçiriləcək ongünlükdə iştirak etməyə gedirdilər. Həmin nümayəndələr arasında aşıq Əsəd Rzayev, aşıq Teymur Hüseynov və aşıq Nabat da var idi.

Aşıq Nabat o günü gözəl xatırlayır:

«Şair Səməd Vurğun yanımıza gəldi, repertuarımızla maraqlandı. Sonra mənə üç bəndlik bir qoşma yazıb verdi və dedi: - aşıq Nabat, bax xoşuna gəlsə bunu oxuyarsan!..

Mən şairin «Danışaq» qoşmasını əzbərlədim və «İravan çuxuru» saz havası üstündə oxudum:

Aşıq, bağrına bas sədəfli sazı,
Min cavablı bir sualdan danışaq;
Meydan quraq, söhbət açaq, saz tutaq,
Gül yanaqda qoşa xaldan danışaq.

Qoy söz alım bir günahsız dodaqdan,
Düşmən baxıb həsəd çəksin uzaqdan,
Yar bəzənib çıxan zaman otaqdan,
Başındakı güllü şaldan danışaq!

Vurğun deyər bir dərd bilən yar olsun
Zülfü bulud, ağ sinəsi qar olsun,
Yaxşı gündə, yaman gündə var olsun,
Qədir bilən əhli-haldan danışaq.

«Bilmirəm mənim ifama görəmi, yoxsa xalq şairimizin hörmətinə görəmi bu mahnı ürəklərə yol tapdı, hamı tərəfindən sevildi və şer repertuarıma qızıl xətlə yazıldı».

Aşıq Nabat getdikcə məşhurlaşır, xalqın məhəbbətini qazanır. Bundan sonra onun məlahətli səsi kolxoz tarlalarında, fermalarda, konsert salonlarında eşidilir.

Doğma Vətənimizə ürəyinin bütün telləri ilə bağlı olan Nabat nəhayət yaradıcı bir aşığa çevrilir. Vətəni, xalqı tərənnüm edən gözəl qoşmalar qoşur, gəraylılar yaradır. Aşığın «Kür çayı», «Sinəmdə», «Bizim vətən», «Bahara», «Gülür» və başqa şerlərində bahar donlu Azərbaycan torpağı tərənnüm olunur.

Nabat özünün «Var» adlı qoşmasında azəri xalqının odlar diyarına, onun coşqun çaylarına, dağlarına, humanist oğul və qızlarına olan məhəbbətini şer dili ilə söyləmişdir:

Gəlin, seyrə çıxaq Kür qırağına,
Mənim o yerlərə ziyarətim var.
O, Vaqif dolanıb, gəzən torpağa,
Əzəldən bağlıyam, məhəbbətim var.

Nabat, köklə sazı, zilə çək sazı,
Başla ağ günlərdən söhbəti, sözü,
Dağlartək gül açır ömürün yazı,
Sənin xoş əməlin, xoş niyyətin var.

Aşıq Nabatın şerlərində müasirlik ruhu, müasirlik ab-havası duyulmaqdadır.

Aşıq Nabat Oktyabrın 50 illiyinə həsr etdiyi şerində öz fikrini daha parlaq, daha poetik bir dillə ifadə edə bilmişdir:

Şair qardaş, sən qələmlə, mən sazla,
50 yaşlı bu bahardan danışaq!
Min gül açıb Azərbaycan torpağı,
Tükənməyən arzulardan danışaq.

Gözəllikdə qənirsizdi bu diyar,
Sərvəti var, neməti var, varı var.
Yurdumuzda əbədidi xoş bahar,
Aradakı düz ilqardan danışaq.

Gəz dağları, Muğana gəl, Milə gəl!
Telli sazım bəmdə durma zilə gəl.
Nabat deyər: könül sən də dilə gəl,
Bu xoş gündə dostdan, yardan danışaq.

Aşıq Nabat «İravan çuxuru», «Orta sarıtel», «Göycə gülü», «Ürfani» və «Dilqəmi» saz havalarının ən yaxşı ifaçılarındandır.

Azərbaycan aşıqlarının II və III qurultayının iştirakçısı olan Nabat 35 ildir ki, aşıqlıq edir.

Aşıq Nabatın çöhrəsində gənclik təravəti yaşayır və səsi zildən düşməmişdir. O, son vaxtlarda gözəl şerlər yazıb yaradır.

Biz bu istedadlı azəri qızına yaradıcılıq yollarında müvəffəqiyyətlər arzu edirik.

*«Azərbaycan qadını» jurnalı,*
*№ 7, 1968-ci il.*

# Aşıq Nabatın mahnıları

Bir gün Kirovabad rayonlararası xalq yaradıcılığı evində Aşıq Nabatla görüşdüm. Soruşdum:

- Nabat xanım, yeni qoşmadan,gəraylıdan nə düzüb qoşmusan?

Nabat güldü və dedi:

- Siz qəzetçilərə, alimlərə neçə dəfə istəmişəm bir söz deyim, amma deyə bilməmişəm, sözümü boğazımda saxlamışam.

Mən yaradıcı aşıq deyiləm, peşəkar ifaçı aşığam. Yaradıcı aşıq əsasən özünü, öz yaradıcılığını yaşadır və yayır. Amma ifaçı aşıq özündən əvvəl yaşamış sənətkarların yaratdıqları çoxsaylı şerləri, saz havalarını, dastanları sinədəftər edib, elbəel yayır, yaşadır, ağızdan-ağıza, nəsildən-nəsilə verir, onları uzun ömürlü edir. Bundan böyük xidmət!

Demirəm yazmamışam yazmışam. Beş, üç qoşma, gəraylı ilə nə olar? Mən öz xidmətimi ifaçılığımda görürəm. Siz gözəl bilirsiniz ki, mən əvvəl xanəndə yanında, sonra da aşıq yanında dərs almışam. Xalq mahnılarını aşıq mahnıları qədər həvəslə ifa edirəm.

Ayrılarkən dedi:

-Mənim sənətimə tam bələd olmaq istəyirsənsə, Yevlaxa qonaq gəl, mədəniyyət evində təşkil etdiyim qızlar ansamblının işi ilə tanış ol, o sənə çox şey deyər.

Bu söz mənim marağıma səbəb olmuşdu. Mən Nabatın yaratdığı qızlar ansamblını görmək arzusunda idim. Bir istirahət günü Yevlaxa getdim. Nabat evdə yox idi. Qızı dedi ki, mədəniyyət evində qızlara mahnı öyrədir. Deyəsən lap yerinə düşmüşdü.

Birbaşa mədəniyyət evinə getdim. Musiqinin sədası eşidilirdi. Yavaşca qapını açdım, xəbərsiz arxa cərgədə əyləşdim.

Nabat kişi qiyəfəsində idi, deyəsən hələ özünə bığ da düzəltmişdi. Nabat Kərəmin «Durna teli» mahnısını qızlar xoru ilə birlikdə ifa edirdi:

Yolçusudur bu yolların,
Gen açar qanad-qolların.
Ərmağan eylər tellərin,
Durnam tel tökər, tel tökər.

Bəndin sonunda nəqərat olaraq aşağıdakı misralar təkrar olunurdu:

Durnam, durnam, durnam, durnam,
Durnam tel tökər, tel tökər.

Son nəqərat oxunanda yuxarıdan balaca qız uşaqları oxuyan qızlara quş ləlləkləri atdılar, onlar bu ləlləkləri bir-bir başlarına sancdılar.

Birdən qızlardan biri məni gördü və Nabata xəbər verdi. Nabat gülə-gülə:

- Görürsənmi, müəllim, indi də dönüb Kərəm olmuşam.

Sonra Nabat mahnının yurdunu danışdı.

…Kərəm ki, gəlib Ləl追si ilə Osmanlı torpağına çatdı, Əslinin sorağını Qeysəriyyə vilayətindən aldı. Axtara-axtara Kərəm Əslini tapdı. Əsli dedi:

- Evin yıxılsın, atam keşiş eşitsə, məni əlli-ayaqlı itirəcək. Sən indi də bura gəlib çıxmısan? – Əsli bir məktub yazıb Kərəmə verdi ki, Süleyman paşaya çatdır, haqq aşiqi olduğunu bildir və de ki, keşiş bizə zülm edir.

Məktub paşaya çatan kimi keşişi yanına çağırdı və dedi:

- Niyə bu gəncləri incidirsən?

Keşiş dedi:

- Əgər Kərəm həqiqi haqq aşiqidirsə, bax, odur, o dağın başından bir qatar durna dağı aşhaaşdı, elə söz oxusun ki, durna qatarı geri qayıtsın, silkinib bu bağa tel töksün, Əslinin toyunda iştirak edəcək qızlar başlarına taxıb gözəl görünsünlər.

Kərəm oxudu, durna qatarı dağdan aşhaaşda geri döndü, dağın üstündə dövrə vurub, silkələndi və yerə xışmınan tel tökdü.

Görürsünüzmü, saz havası da bənzərsizdir, o biri «Kərəmilər» dən seçilir. Buna «Osmanlı Kərəmisi» deyilir. Bunu cavanlığımda Ağbabada qoca bir aşıqdan eşidib öyrənmişəm. Amma bunu xora ilk dəfə mən gətirmişəm.

Sonra Nabat sözünə davam etdi:

- Dünyada iki sənətkarın şerini, sözünü yığıb-yığışdırmaq olmaz: Dədə Kərəmin, bir də Tufarqanlı Abbasın. Bunların dastanı da var, qoşması da var, xalq mahnıları da.

Sonra bildirdi ki, ikinci mahnının məşqinə başlayırıq:

-Amma bizimki bu gün Kərəmdən gəlib. Bu mahnı çox kütləvi olduğundan sizə tanış gələcək. Əsl kökü, əsasən, ilk bəndi xalis xalq mahnısıdır. Ancaq eyni ruhda, eyni məzmunda, eyni adda Qaraca oğlan da, Vaqif də, hətta Aşıq Ələsgər də qoşmalar düzüb qoşmuşlar. Ancaq bu gün öyrənəcəyimiz «Bulağın yolu» mahnısı «Əsli və Kərəm» dastanına daxil edilmiş eyni adlı qoşmanın özündən də əsaslı şəkildə fərqlənən bir variantdır. Biz onu «Kərəmi» havaları üstündə deyil, Borçalı aşıqlarına məxsus "Dastani" adlı hava ilə əlaqəli öyrənirik.

Solonu sazda çala-çala Nabat özü oxuyurdu:

Birinci bənd:

Başına döndüyüm bulağın yolu,
Gedəndə boş gedir, gələndə dolu,
Ağ sinə üstündə bənövşə kolu,
Dərsəm öldürərlər, dərməsəm ölləm,
Yar yolunda canı verməsəm ölləm.

Birinci bəndin nəqəratını qızlar xoru oxuyurdu.

Bənövşə kolların dər oğlan,oğlan,
Yar yolunda canın ver, oğlan, oğlan.

İkinci bənd:

Yollara baxıram, yollar boyunca,
Bir yanı lalədi, bir yanı yonca,
Gəl ey sərvi boylum, görüm doyunca.
Görsəm öldürərlər,görməsəm ölləm,
Yar yolunda canı verməsəm ölləm.

İkinci bəndin nəqəratı:

O sərvi boylunu gör oğlan, oğlan,
Yar yolunda canın ver, oğlan, oğlan.

Üçüncü bənd:

O ala gözlərə heyranam, heyran,
Yaxın gəl, yaxın gəl, mən sənə qurban.
Yasəmən zülflərin, a nazlı ceyran,
Hörsəm öldürərlər, hörməsəm ölləm,
Yar yolunda canı verməsəm ölləm.

Üçüncü bəndin nəqəratı:

Yasəmən zülflərin hör, oğlan, oğlan,
Yar yolunda canın ver, oğlan, oğlan.

Nabat və qızlar ansamblı təkcə oxumurdu, onlar böyük bir teatr tamaşası yaradırdılar.

Nabat bildirdi ki, Xan Şuşinski, Zülfi Adıgözəlov və tarzən Qurban Pirimovla gəncliyində Qarabağ toylarında bu cür çox mahnı öyrənib.

Nabatla sonrakı görüşümüz Xoşbulaq yaylağında oldu. Öyrəndim ki, Nabat Aşıq Cavan Teymurla Xoşbulağa gəlib. Axtarıb onları tapdım.

Nabat Teymura dedi:

- Sazı mənim sazımın üstə köklə, müəllimə yaylaq mahnıları oxuyacağam. – Nabat əvvəl sazları qoşalaşdırdı, sonra Teymura müraciətlə sözünə davam etdi: - Sən çal, mən oynaya-oynaya mahnını oxuyacağam. – Saz «Hicaz gülü» havasına köklənmişdi. Nabat böyük şuxluqla, oynaya-oynaya mahnıya başladı. «Hicaz gülü» havasında rəqs ünsürləri çox güclüdür.

Yaylağıma gəl,
Ovlağıma gəl,
Gül bağıma gəl,
Öz bağıma gəl.

Nəqərat:

A gül dərən qız,
Könül verən qız.
Dolan dağ-daşı,
Könül sirdaşı,
Bir maral gördüm,
Ovçusu naşı.
Maral mənimdi,
Öz çəmənimdi,
Gəl, yanıma gəl,
Yaxşı günümdü.

Bütün məclisdəkilər heyrət içərisində idi. Teymur dedi:

- Nabat, belə mahnılardan heç bizim yanımızda oxumursan?

- Bu mahnıları müəllimə pay saxlamışam, - cavab verdi.

Mən onda hiss etdim ki, aranın öz mahnısı var, dağın, yaylağın da öz mahnısı. Bu şux, oynaq mahnı laləzar dağlara çox yaraşırdı. Ümumiyyətlə, insanın əhval-ruhiyyəsindən də çox şey asılıdır.

Ayrılmaq məqamında Nabat dedi:

- Qoy sizə Xoşbulaq yaylağı ilə bağlı bir mahnı da oxuyum.

Mahnının özü də, havası da başqa aşıq mahnılarımızdan çox fərqlənirdi. Qənimət bildiyim, Nabatdan eşitdiyim o mahnını da oxuculara çatdırmağı özümə borc bilirəm.

Mahnı belə adlanır: «Ay sarı qız, sarım qız».

Ay sarı qız, sarım qız,
Gəl ol mənim yarım qız.
Dolaydan gəl, dolaydan,
Bir üzünü görüm qız,
Gül üzünü görüm qız.

Ay sarı qız, sarım qız,
Saçlarını hörüm qız.
Ayaq saxla, çəməndə,
Sənə bir gül dərim, qız,
Sənə bir gül verim qız.

Ay sarı qız, sarım qız,
Dağlardakı qarım qız,
En gəl Daşlı bulağa,

Gəl səni aparım qız,
Sən ol mənim yarım qız.

Mahnının sözləri mənə tanış olsa da, musiqisini eşitmədiyim üçün təzə idi. O mahnının havası hələ də qulaqlarımdan getməyibdir, yaddaşımda həkk olub qalıb, hafizəmdə bu gün də yaşayır.

Mən indi başa düşürəm ki, Nabat böyük sənətkar imiş.

*«Azərbaycan qadını» jurnalı,*
*5 may 1984-cü il.*

## Dərbənd inciləri

Şifahi və yazılı ədibiyyatımızın ölməz abidəsi olan «Kitabi-Dədə Qorqud»da adı çəkilən Dəmirqapı Dərbəndi gəzmək, onun qədim qalalarını görmək, bü yerlərin folkloru ilə tanış olmaq mənim çoxdankı arzum idi.

Əzəmətli qalalarını və Xəzər dənizinin içərilərinə qədər uzanıb gedən qala divarlarını gördükdə təsdiq edirsən ki, doğrudan da Dərbənd çox qədim şəhərdir. Dərbəndin yeddi qala qapısı – Bayat qapı, Carçı qapı, Orta qapı, Yengicə qapı, Daş qapı, Qala qapı və Quba qapı mühafizə olunub saxlanılmaqdadır. Bu daş darvaza-qapıların hər biri vaxtı ilə bir məhəlləyə açılırmış. Biz bu daş tağlı, dəmirqapılı darvazaların və yeraltı yolların əhəmiyyətini yenə də ağızda-dildə gəzən folklor nümunələrinin köməyi ilə öyrənə bilirik. Yeraltı yolların mənası bu imiş ki, Dərbənd qalasına gələn hər bir elçi gözü bağlı yeraltı yolun biri ilə içəri daxil olar, o biri yeraltı yolla qaladan çıxarmış. Bu qalanın sirrini möhkəm saxlamaq və onu düşməndən qorumaq üçün edilirmiş. Qapılar da qaranlıq düşən kimi bağlanarmış. Hətta şər qovuşandan sonra Dərbəndin öz adamları da bu yeddi darvaza qapısından içəri buraxılmazmış. Çünki qaranlıqda hər hansı bir cəsus içəri daxil olub, qalanın sirrini öyrənə bilərmiş. Dərbənd qalasının qədim əzəməti, yerli əhalinin ölməz adət və ənənələri şifahi xalq ədəbiyyatının ayrı-ayrı nümunələrində, xüsusilə bu qalaların özünə bağlı yaranıb-yaşayan xalq əfsanələrində əbədiləşmişdir.

***Birinci əfsanə***. Bir oğlan bir qızı ürəkdən sevir. Qız da oğlanı sevir. Lakin qızın yeddi qardaşı varmış. Onlar bacılarını oğlana vermirlər.

Oğlan yenə də ümidsizləşmir. Qıza xəbər göndərir ki, «elə dərd olmaz ki, ona çarə tapılmasın». Qız da böyük ümidlə yaşayır.

Bir gün oğlan da, qız da işdən gec qayıdırlar. Gəlib görürlər ki, darvaza qapıları bağlanıb.

Qaranlıqda oğlan qızı, qız da oğlanı tanımır. Axşamdan xeyli keçir. Oğlan deyir:

-Məndən çəkinmə. Sən ol ölən günə qədər mənim bacım. And içirəm ki, sən bu gündən bacımsan. Qız bu anddan sonra oğlanın yapıncısının altına girib yatır.

Sabah açılır. Yeddi qardaş hamıdan tez darvazadan çıxır ki, bu gecə bacıları bayırda qalıb. Onlar görürlər ki, bacıları oğlanın yanında qalıb. Qardaşlar bu qərara gəlirlər ki, bir halda ki, bacımız bir gecə onunla qalıb, daha verək getsin. Bu zaman oğlanla qız da bir-birini tanıyır. Lakin oğlan etiraz edib deyir:

-Artıq gecdir. And içmişəm, o mənim bacımdır.

Qız da görür ki, artıq gecdir, hər şey bitdi. Belə deyirlər ki, qız o gündən sonra dağlarda oğlanın: «elə dərd olmaz ki, ona çarə tapılmasın» sözünü yadına salıb bu bayatı-mahnını oxuyarmış:

Dərbənd üstə qala var,
Ürəyimdə yara var.
Mən ölürəm dərmansız,
Bəs deyirdin çarə var?

***İkinci əfsanə.*** Dərbənd qoşunları Sarıyolda keşik çəkirmiş. Qalaya da həmin dağın bulaqlarının suyu gətirilibmiş. Eyni zamanda onlar suyu da düşməndən qoruyurmuşlar.

Bir gün yadelli bir xan Dərbəndə basqın edir. Yad xan çox gənc imiş. O, öz atlıları ilə aralıda dayanıb Dərbənd

qalasına tamaşa edirmiş. Dərbənd xanı da qala bürcünün birində öz sevimli qızı ilə dayanıb ətrafa göz gəzdirirmiş.

Qız cavan yad xanı tez görür, atasından ayrılıb qalanın o biri bürcünə keçir. Atasının bundan xəbəri olmur.

Qız bir məktub yazıb oxa bağlayıb, gənc xana tərəf atır. Gənc xan məktubu açıb oxuyur ki, Dərbənd xanının qızı yazır: «Əgər əhdinə düz çıxıb məni alsan, qalanın sirrini sənə deyərəm».

Gənc xan vaxt itirmədən tez qıza bir məktub yazır, oxa bağlayıb ona tərəf atır. Qız oxuyur ki, gənc xan əhdinə vəfa qılacağına and içir.

Qız yazır: «Atamın qoşunu Sarıyoldadır. Qalaya su da o dağdan gəlir. Oraya getmə. Qaladan bir qədər aralıdakı dik daşı qaldırın, su tüngü oradan keçir. Suyun üstünü azca açın, yüz qoyun kəsib qanını su ilə axıdın. Qan, yayın günüdür, həm suyu zəhərləyəcək, həm də atam vahiməyə düşəcək ki, dağda bütün qoşunu qırılıb qan su yerinə axır.»

Gənc xan fürsətdən məharətlə istifadə edir.

Dərbənd xanı su istəyir. Ona deyirlər ki, hovuzun suyu tamam qandır. Xan hovuzlara özü bir-bir baxır, görür ki, hamısı al qandır, su borusu ilə yenə də qan axır.

Dərbənd xanı deyir:

-Hər şey bitdi. Dağda bütün qoşunum qırılıb. Xan ailəsi ilə birlikdə yeraltı yolla Dərbənd qalasından çıxır. Xanın qızı isə gizlənib qalada qalır.

Düşmən xanı və onun ailəsini məhv edir, qalanı çox asanlıqla ələ keçirir.

Yadelli gənc xan Dərbənd xanının qızı ilə evlənir. Xan bir gün qıza deyir:

-Qalanın hansı bürcündən ki, ox atıb mənə məktub göndərdin, həmin bürcə çıxaq, Dərbənd şəhərinə bir doyunca baxaq. Qız sevinir. Onlar qala burcunə çıxırlar.

Xan deyir:

-Bu doğma diyarına doyunca bax. Çünki bu sənin son baxışındır. Atasına vəfa qılmayan qız, mənim üçün vəfalı ola bilməz. Dünən atasını satan qız, bir gün də məni satar. Bu sözləri deyib gənc xan qızı qala bürcündən atır.

***Üçüncü əfsanə.*** Dərbəndin hökmdarı yox imiş. Ağsaqqallar belə bir şərt qoyurlar ki, Bayat qapısına bir papaq asaq. Kim atın üstə onu oxla vurub yerə salsa və atdan düşmədən yerdən papağı götürüb başına qoysa, o gənc Dərbəndin xanı olsun.

Yüz altı gənc meydanda at çapır, ox atır. Lakin papağı oxla vurub yerə salan, onu atın üstündən götürüb başına qoyan üzü niqablı bir gənc olur.

Gənc üzünün niqabını götürəndə görürlər ki, Tuti Bikədir.

Qəhrəman qız Dərbəndin xanı olur. Tuti Bikə Dərbəndi yadellilərdən qorumaq üçün qoşun toplamağa başlayır. Belə bir vaxtda Quba xanı Fətəli Dərbəndə hücum edir. Vəziyyətin ağır olduğunu bilən Tuti Bikə atın belində özü tək qabağa çıxır və Fətəli xana deyir:

-Niyə nahaqdan qan axıdırsan, iki tərəfdən də çox adam ölsün. Gəl, ikimiz döyüşək. Kim üstün gəlsə, o qalib hesab edilsin.

Fətəli xan deyir:

-Mən gəlmişdim Dərbəndi almağa, fəth etməyə. Lakin mən məğlub oldum. Sənin qoşa uzun hörüklərin məni kəməndə saldı, əsir elədi.

Tuti Bikə ilə Fətəli xana toy edirlər. Tuti Bikə özünə vəfalı arxa tapmağına sevinir.

Tuti Bikə toy mərasimindən sonra Dərbənd qalasının uca bürcündə Fətəli xanla qoşa dayanaraq belə deyir:

Dərbənd üstü barıdı,
Əlçatmaz yuxarıdı.

Düşmən gəlsə basılar,
Tək deyil, arxalıdır.

Tuti Bikənin və oğlanlarının türbəsi Dərbəndin «Qırxlar» qəbristanlığındadır.

Əlbəttə, bir yazıda bunların hamısından danışmaq olmaz. Məqsədimiz isə oxucuları ancaq bir neçə Dərbənd incisi ilə tanış etməkdir.

Onu da unutmaq lazım deyil ki, xalq bu əfsanələri yaradarkən sadəcə olaraq tarixi hadisənin üzünü köçürmür, əksinə, onu öz təxəyyül və təfəkkürünün gücü ilə bədii boyalarla bəzəyir.

*«Kirovabad kommunisti» qəzeti,*
*14 aprel, 1973-cü il.*

# Nəsimi və folklor

Böyük Nəsiminin yubileyi onun ədəbi irsinin və yaradıcılığının daha da geniş şəkildə öyrənilməsinə yol açmışdır. Ədəbiyyatşünaslarımız şairin ədəbi irsini dərindən öyrənir, onun əsərlərinin nəşr tarixini araşdırır, naməlum qəzəllərini axtarıb tapırlar. Dilçilərimiz, ədəbiyyatşünaslarımız öz dəyərli yazıları ilə böyük sənətkarın ədəbi irsinə öz münasibətlərini bildirirlər.

Folklorşünas üçün də çox maraqlıdır ki, haqqında söhbət açılan sənətkar hansısa ədəbi mühitdə pərvəriş tapmış, yaradıcılığa başlamış və şifahi xalq ədəbiyyatının hansı sahəsindən daha çox faydalanmışdır.

Nəsimi öz poeziyasında əsasən, qəzəl, qəsidə və rübai formalarından istifadə etmişdir. Bəs belə isə Nəsiminin xalq poeziyası ilə yaxınlığını nə ilə izah etmək olar?

Hər şeydən əvvəl, bilmək lazımdır ki, klassiklərimiz xalq ədəbiyyatı nümunələrindən çox ustalıqla istifadə etmişlər. Hətta çox zaman bu əlaqə heç sezilməmişdir.

Bu yaradıcılıq qaynağından aldıqları təsir ilk növbədə onların iliklərinə, qanlarına işləmiş, daxili aləmlərində öz mənəvi sərvətlərinə çevrilmiş, qaynayıb qarışmış, ürək qanları ilə birlikdə onların poeziyalarına gəlmişdir.

Tədqiqatlar göstərir ki, hansı sənətkar xalq yaradıcılığı çeşməsinin gözündən içmiş, həmişəyaşıl, həmişəbahar, həmişə təzə-tər olan xalq ədəbiyyatından faydalanmışsa, həmin sənətkar öz əsərlərinə əbədi, ölməz bir həyat bəxş etmişdir.

Nəsimini xalq ədəbiyyatına münasibətini, xalq poeziyasının hansı janrlarından faydalandığını bilmək üçün, hər şeydən əvvəl, onun xalq çalğı alətləri ilə əlaqəsini aydınlaşdırmaq lazımdır. O zaman öyrənmək olar ki, o

şerlərini hansı çalğı alətlərinin kök və pərdəsi, ahəngi üstə qurmuşdur. Bizə görə hər bir şer növü müəyyən bir çalğı aləti ilə əlaqəli şəkildə meydana gəlmiş, təşəkkül tapmış və inkişaf edib formalaşmışdır. Məsələn, qəzəl tarla, söy qopuzla, qoşma sazla və i. Nəsimi də öz şerlərində bu qəbildən ona yaxın olan çalğı alətlərinin adını çəkir. O, «Olsun» qəzəlinin bir beytində deyir:

Dəfü cəngü çəqanə, nayü təmbur,
Düzülsün ahəngi zilu bəm olsun.

Bu çalğı alətlərindən bizim üçün ən maraqlısı təmburdur. Musiqişünaslar təmburu setarın, sazın və tarın, ümumiyyətlə, simli çalğı alətlərinin ulu əcdadı hesab edilirlər.

Təmbur daha çox bayatıların inkişafında mühüm rol oynamışdır. Təmbur çalğı aləti Zaqatala rayonunun Göyəm və Tala kəndlərində, Balakənin Qabaqçöl hissəsində indi də mövcuddur və bu çalğı alətinin müşayiəti ilə mahnı şəklində bayatılar ifa olunur.

Təmbur çalğı aləti ilə yaxınlıq Nəsimi şerinə musiqililik, oynaqlıq, axıcılıq gətirmişdir. Bu bir həqiqətdir ki, cinas və cinaslı qafiyələr aşıq təcnislərinə və cığalı təcnislərinə bayatılardan gəlmişdir. Yazılı poezi-yamızın qabaqcıl nümayəndələri də bayatılardan az faydalanmamışlar. Biz bu meyli Nəsimidə də görürük.

Düşdü yenə dəli könül gözlərinin xəyalinə,
Bilməyirmi bu könlümün fikri nədir, xəyalı nə.

Bu cinaslar onun şerinə xüsusi bir təravət verir:

Gər irəsən surətin mənasına,
Biləsən surət nədir, mənası nə?

Əhli-məna şişəsinə atma daş,
Heyf ola kim, şişeyi-mənasına.

Nəsimi öz yaradıcılığında əfsanə və rəvayətlərdən öz fikrini daha açıq şəkildə ifadə etmək üçün istifadə etmişdir.

«Gənci-Qarun», «Mülki-Süleyman», «Yusifi-Kənan», «Cəmşidi-Cəm», «Rüstəmi-Zal və Zöhrab» və başqa əsatir və əfsanə – qəhrəmanlarının adlarına Nəsimi poeziyasında sıx-sıx rast gəlirik.

Lakin bu bir həqiqətdir ki, Nəsimi folklordan geniş ölçüdə istifadəni bir məqsəd kimi qarşıya qoymamış, bəlkə də bu yaradıcılıq qaynağına daha çox şifahi xalq ədəbi dilindən istifadə etmək məqsədilə yaxınlaşmışdır.

Nəsimidə folklordan çox, Nəsimini folklorda görürük. Nəsimi özü folklorda mərdlik, fədakarlıq, sədaqət və mətin iradə rəmzi kimi şöhrət tapmış və əfsanəvi qəhrəmana çevrilmişdir.

Sarı Aşıq bayatılarının birində öz iradəsini Nəsiminin faciəsi ilə müqayisədə vermişdir:

Gözəllik soy iləndir,
Şahmar da soy ilandır.
Nəsimi tək bu aşıq,
Yolunda soyulandır.

Bundan sonra, XIX əsrin əvvəllərində Şəmkirli Aşıq Hüseyn «Aşıq Hüseyn və Reyhan xanım» dastanında Nəsimini yad edir

Reyhan xanım:

O nədir ki, yemədilər, doydular?
O nəydi ki, qiyamətə qoydular?
O kimiydi dərisini soydular?
O nəydi ki, atəşi yox, daşar hey?

Aşıq Hüseyn:

O xəyaldı, yemədilər, doydular,
Xeyir-şərdi, qiyamətə qoydular.
Nəsimidi dərisini soydular,
Zəmzəmdi ki, atəşi yox, daşar hey.

Şəmkirli Hüseynin müasiri olan Aşıq Ələsgər də başqa bir münasibətlə təcnislərinin birində böyük Firdovsi, Füzuli və Hafizlə yanaşı Nəsiminin də adını çəkmişdir:

Yox sazımın nə pərdəsi, nə simi,
Onu çalıb, kim tərpədər nəsimi?
Firdovsi, Füzuli, Hafiz, Nəsimi-
Onlar da yazdığı ayə, məndədir.

Bəstəkar aşıqlarımız Mənsur Həllacın, Nəsiminin ölüm faciəsini ifadə edən «Mansırı» adlı bir saz havası da yaratmışlar.

Nəsiminin və onun məslək yoldaşlarının adı cəsarət və mərdlik rəmzi kimi həmişəbahar, həmişəyaşıl, həmişə təzə-tər olan xalq ədəbiyyatımızda ölməzlik hüququ qazanmış, yaşamış, yaşayır və bundan sonra da yaşayacaqdır.

*«Kirovabad kommunisti» qəzeti,*
*15 sentyabr, 1973-cü il.*

# Atalar sözlərində mifoloji izlər

Əsrlərin sınağından keçə-keçə gələn atalar sözü və məsəllər xalq müşahidəsinin, onun xarakterinin, fəlsəfi dünyagörüşünün, məişətinin, əmək məşğələsinin, dilinin, obrazlı təfəkkürünün məntiqi nəticəsi kimi meydana çıxır, zaman-zaman cilalanır, aforistik ifadələr hesabına zənginləşir, yaşamaq hüququ qazanır, bundan sonra həyata ölməzlik vəsiqəsi alır.

Bu yazıda məqsədimiz xalq müdrikliyini özündə təcəssüm etdirən atalar sözü və məsəlləri tədqiq və təhlil etmək, yaxud da onun gündəlik həyatımızdakı, canlı danışığımızdakı təsir dairəsinə, tərbiyəvi roluna toxunmaq deyildir. Məqsədimiz xalqımızın mənəvi varlığından doğan atalar sözlərinin bir cəhətinə, onun qədim əsatir və əfsanələrlə əlaqəsinə diqqət yetirməkdir.

«Süleymana qalmayan dünya heç kimə qalmaz», «Divin canı şüşədəydi, o da sındı», «Göydə asiman daşı var, kim özünü pis bilsə, başına düşər» («zəmbil daşı» da deyilir), «Buğdanı yeyib cənnətdən çıxıb», «Allah yaratdı, gün qurutdu bilmir» kimi atalar sözü və məsəllərdə mifoloji izlər qorunub mühafizə olunmuşdur.

Bəzi atalar sözünün fikir açımı onun əsatirlə bağlı əlamətlərini dərhal üzə çıxarır. Özündən çox razı, təkəbbürlü, qeyri-adi davranışa malik adamlar haqqında belə deyilir: «Elə bil alçaq dağları bu yaradıb». Həmin atalar sözü ona görə belə işlədilir ki, qədim bir əsatirə görə uca və böyük dağları Allah özü yaratmışdır. Güclü etiraz və istehzanı özündə ifadə edən atalar sözünün məntiqi nəticəsi, mənası budur ki, böyük dağları Allah, kiçik dağları da bu təkəbbürlü adam yaratmış, ucaltmış, əlçatmaz etmişdir.

«Qamışlıqda sirr danışmazlar» kəlamında «İsgəndərin buynuzu var, buynuzu» əsatir-əfsanəsinə işarə

vardır. Həmin əsatir-əfsanədən dahi şairimiz Nizami Gəncəvi «İsgəndərnamə» əsərində istifadə etmişdir. Deməli, bu əsatir-əfsanə və məsəl Nizamidən də çox əvvəllərə aiddir. Bu qəbildən olan atalar sözləri və zərbi məsəllər Nizamidən əvvəl də, onun dövründə də, ondan sonra da neçə-neçə böyük sənətkarın əsəri üçün zərzivər rolu oynamışdır.

Yuxarıda Nizaminin əsərləri ilə bağlı adını çəkdiyimiz əsatir-əfsanənin qısa məzmunu belədir: «Belə söyləyirlər ki, İsgəndər Zülqərneynin başında buynuzu varmış. Hər hansı bir dəllək onun başını qırxıb qurtaran kimi qətlə yetirilirmiş ki, sirr açılmasın. Nəhayət, bir sirr saxlayan dəllək tapılır. Lakin bu dəllək də sirr saxlamaqda çətinlik çəkir, çöl-biyabana düşür, çox gəzəndən sonra bir quyu tapır, ağzını quyuya tutub deyir: İsgəndərin buynuzu var, buynuzu.

Quyudan qamış göyərir, o tərəflərdə qoyun otaran bir çoban qamışdan kəsib ney düzəldir. Ney ötdükcə bircə hava çalır və aşkarca deyir: «İsgəndərin buynuzu var, buynuzu».

Ümumiyyətlə, qamışla bağlı çoxsaylı əfsanə və rəvayətlərdən, atalar sözlərindən belə anlaşılır ki, qədim dövrlərdə qamış-çətən əcdadlarımızın məişətində mühüm rol oynamışdır. Bunu aşağıda misal gətirəcəyimiz aforistik ifadələrdən də görmək olar. «Qamış olub yapışdı, qopmur», «Boyuna qamış ölçüm», «Qaraca Çobanın qamış evi kimi», «Ney qamışdan olar». Hətta yerli əhali qamışın bitməsi, göyərməsi üçün yağış arzulamış və bu münasibətlə deyilmişdir: «Yağar yağış, bitər qamış», «Yağmaz yağış, bitməz qamış», «Yağmadı yağış, bitmədi qamış». Hətta «Bir-birinə qamış oxu atır» məsəlindən aydınlaşır ki, xalqımızın məskun olduğu ərazidə dəmir uclu oxlardan çox-çox əvvəl döyüşlərdə qamış oxundan istifadə olunmuşdur.

«Mən oğru oldum, ay dana qaldı» məsəlində isə müqəddəs insanı Ay qoruyur, ləkələnməyə qoymur. Bu

məsəl qəribə bir əhvalatın məğzi kimi meydana çıxır. İki bacanaq olur. Biri oğurluq edir, hər gün uşağı qoyun qovurması yeyir, o biri bacanaqsa, zəhmət adamıdır, əkir, biçir, tər tökür, halallıqla çətin güzəran keçirir. Böyük bacanaq onu da öz pis əməlinə qoşmaq istəyir. Bu, mümkün olmadıqda arvadı ilə baldızını işə qoşur. Arvadı bildirir ki, əgər yeznəmlə oğurluğa getməsən, səndən boşanacam, çarəsiz qalan pak insan razılıq verir. İki bacanaq gecə oğurluğa getməli olurlar. Oğurluğu qaranlıqda edərlər. Lakin həmin gecə Ay buluda girmir, aləmi süd kimi işığa qərq edir. Ay pak insanı qoruyur, dana qədər, səhər açılana qədər batmır. Oğurluq üçün şərait yaranmır. Odur ki, pak insan deyir: «Mən oğru oldum, Ay dana qaldı».

Burada Ay müqəddəsliyin, paklığın hamisi kimi çıxış edir, oğrunun ideal insanı pozmaq cəhdinə mane olur.

Bizcə Ayla bağlı mülahizə ibtidai insanın yozumundan, düşüncəsindən qopub qalan əlamətlər və mifoloji izlərdir.

Yurdumuzun dağı, daşı, qalaları, əsatir və əfsanələri, atalar sözü və məsəlləri, onun uzaq keçmişindən, maddi və mənəvi dünyasından xəbər verir. Məhz, əsl vətənpərvərlik vətəni, onun maddi və mənəvi zənginliklərini öyrənməkdən başlanır. Qədimlərdən bizə miras qalmış bir atalar sözümüz də var. Orada deyilir: «Əsl halal övlad əcdadının doğulduğu yeri, törəmə övlad isə qarnının doyduğu yeri vətən bilər». Biz torpağımızın, xalqımızın tarixini, etnoqrafiyasını, folklorunu, mifolo-giyasını əsl varis kimi durmadan ardıcıl, həssaslıqla, diqqətlə öyrənməliyik. Bu bizim vətənpərvərlik borcumuzdur.

*«Kirovabad kommunisti» qəzeti,*
*23 sentyabr, 1988-ci il.*

# Səməd Vurğun və aşıq sənəti

Böyük şairimiz Səməd Vurğun ölməz dramlar, poeziya, bir-birindən qiymətli şer inciləri yaratmaqla yanaşı, aşıq yaradıcılığının inkişafına da kömək etmişdir. İstedadlı sənətkarın böyük ilhamla yaratdığı "Danışaq", "Dilcan dərəsi", "Yadıma düşdü", "Ceyran", "Yada sal məni", "Dağlar" və başqa qoşma və gəraylıları aşıq poeziyasının nadir incilərindəndir. Azərbaycanda bu şerləri əzbər bilməyən, öz repertuarına daxil etməyən aşıq tapmaq çətindir. Eyni zamanda bu şerlər xalq arasında da geniş yayılaraq kütləviləşmiş, ürəklərdə yurd-yuva salmışdır. Bunun başlıca sirri ondadır ki, xalqımızın tarixi keçmişini, məişətini, adət-ənənələrini gözəl bilən Səməd Vurğun aşıq yaradıcılığının özünəməxsus qanunauyğun-luqlarına da dərindən bələd idi. Doğrudur, böyük şairimiz aşıq şeri tərzində çox şer qoşmamışdır. Lakin bu azlığın özündə də bir böyüklük, sənətkarlıq vardır.

Səməd Vurğun nəinki gözəl qoşmalar və gəraylılar yaratmağa səy göstərirdi, hətta saz çalır, yaradıcı ustad aşıqlarla qabaq-qabağa bədahətən söz deməkdən belə çəkinmirdi. Çünki, o, aşıq havalarını, dastanlarımızı, ifaçılıqla əlaqədar bütün qayda-qanunları gözəl bilirdi. Axı, onun özü aşıq yaradıcılığına dərin hörmət bəslənilən mühitdə yetişmişdi.

Səməd Vurğun 1937-ci ildə məşhur Aşıq Hüseyn Bozalqanlı ilə, 1955-ci ildə aşıq Şəmşirlə görüşüb böyük el yığnağı qarşısında bədii cəhətdən mükəmməl, saz havalarına uyğun qoşmalar yaratmışdı. "İravan çuxuru" saz havası üstə "Danışaq", "Nəcəfi" üstə "Yada sal məni" qoşmaları dinləyicilərə xoş təsir bağışlayır.

S.Vurğunun Aşıq Hüseyn Bozalqanlı ilə görüşü zamanı yazdığı "Danışaq" qoşması 1938-ci ildən ta ömrünün sonuna qədər, düz otuz il Aşıq Nabatın ifasında

özünə layiqli yer tutmuşdur. Aşıq Nabat da bu qoşmanı həmişə "İravan çuxuru" saz havası ilə oxuyurdu.

Saz havasına uyğun söz seçmək mühüm məsələdir. Bu ifaçı aşıqdan, hər şeydən əvvəl, böyük istedad, həssaslıq, yüksək zövq, musiqi duyumu tələb edir. İfaçı aşıq hər bir şer mətninin musiqi parçasını düzgün tapmağa çalışmalıdır, əks təqdirdə sazla sözün əlaqəsi pozular, şer və musiqinin bədii, emosional təsir gücü itər. Məhz S. Vurğun kimi, saza, sözə bələd sənətkarlar öz qoşma və gəraylılarını müəyyən saz havasının ahənginə uyğun şəkildə yaratmışlar. Bunu duymağın, şairin öz şerini hansı ahəng üstə qurduğunu tapmağın, seçməyin özü də ifaçı aşıqdan böyük məharət tələb edir.

Səməd Vurğun şerlərinin özünəməxsus pərəstişkarları və ifaçıları vardır. S. Vurğun şerlərinin gözəl ifaçıları kimi Aşıq Əkbər, Aşıq İmran əvəzsiz sənətkarlardır. Aşıq Ədalət "Dübeyti " çalanda elə çalır ki, Vurğunun "Dağlar" şeri misra-misra, bənd-bənd yada düşür. Saz həm çalır, həm də oxuyur.

S.Vurğunun bəzi əsərləri də müəyyən saz melodiyası üçün bir tapıntı olmuşdur.

S.Vurğunun "Şair, nə tez qocaldın sən!" şeri ilə "Təxmis" saz havası özünün əsl mətnini tapmışdır. Ona qədər aşıqlar çox vaxt həmin havaya az uyğun olan gəraylılar seçib oxuyardılar.

"Şair, nə tez qocaldın sən!" şerinin misra ölçüsü səkkiz hecalı olsa da, qafiyə sistemi tamamilə gəraylıdan fərqli şəkildə qurulmuşdur. Şerə diqqət yetirək:

Dünən mənə öz əlində,
Gül gətirən bir gəlin də,
Gözlərində min bir sual,
Heykəl kimi dayandı lal…

O bəxtəvər gözəlin də
Mən oxudum gözlərindən:
Şair, nə tez qocaldın sən!

Şerin hər bəndi yeddi misradır. Əslində hər bənd beş misradır, son beyt nəqaratı əvəz edir. Birinci və ikinci beytlər öz aralarında, beşinci misra isə birinci beytlə həmqafiyə olur, altıncı və yeddinci misralar da bir-biri ilə öz aralarında qifiyələnmələri isə qoşmanı, hər misranın səkkizhecalı olması isə gəraylıları və xalq mahnılarını xatırladır.

İlk beş misranın ikinci beyti bayatı və rübailərdəki üçüncü sərbəst misranı əvəz edir. Göründüyü kimi bir şerdə xalq şerinin necə ünsürü iştirak edir.

Aşıqlar yalnız "Təxmis" saz havasının "Misri" dən ayrıldığını və bu havaya səkkizlik şer – gəraylı oxundu-ğunu yadlarında saxlamışlar. Onlar saz havalarına görə mətnlərin seçilməsinə, qoşma və gəraylıların mürəkkəb quruluşa malik olduqlarına lazımi əhəmiyyət verməmişlər. Unutmaq olmaz ki, misralar arasındakı bölgülərin özü də musiqinin ahəngini dəyişir və müxtəlif şəklə salır, rəngarəng melodiyanın alınmasına kömək edir. Sazın kök və pərdələrinə yaxşı bələd olan, şerin və musiqinin qanunauyğunluqlarını gözəl bilən Səməd Vurğun xalq şerinin şəkli xüsusiyyətlərindən yaradıcı surətdə istifadə edərək, "Təxmis" saz havasının dəqiq mətnini yarada bilmişdir.

"Təxmis" cəngi havasıdır və aşıqdan oxumaq üçün zil səs tələb edir. Belə bir səs və gözəl ifaçılıq qabiliyyəti olan aşıq Əkbər Cəfərov həmin havanı "Şair, nə tez qocaldın sən!" şeri üstündə oxuyur.

"Dilcan dərəsi", "Yadıma düşdü" və başqa qoşmalar aşıq İmranın ifasında öz yüksək bədii ifadəsini tapır.

Borçalı aşıqları müəyyən qəmli havaları, həsrət dolu şerləri dərin emosionallıqla ifa edirlər. S.Vurğunun ikinci “Dağlar” şerini aşıq Əmrah “Borçalı dübeyti” üs-tündə olduqca gözəl ifa edir. Belə gözəl ifa yalnız ona müyəssərdir.

“Ceyran”ı isə Aşıq Şakir Hacıyev daha gözəl ifa edərdi. Özü də “Aşıq Hüseyni” havacatı üstündə.

Yeri gəlmişkən deyək ki, “Aşıq Hüseyni” müəyyən bir inkişaf prosesi keçirərək xeyli inkişaf etmiş, “Ceyran” qoşması ilə birləşdikdən sonra isə zəngin bir saz havasına çevrilmişdir. Deməli, böyük şairimiz Səməd Vurğunun qoşmaları təkcə aşıq poeziyasının deyil, eyni zamanda saz havalarının da inkişaf etməsinə güclü təsir göstərmişdir.

*“Azərbaycan gəncləri” qəzeti,*
*8 iyun, 1982-ci il.*

# El şairləri

Bacarıqlı el şairi odur ki, o, yaradıcılığa böyük məsuliyyət hissi ilə yanaşır, az yazır, qiymətli yazır, onun şerləri müasir həyatla səsləşir. Gədəbəy dağlarının ecazkar qucağında yetişmiş şair Vəlinin, Cəlal Süleymanovun, Zülfüqar Hüseynovun və Əli Coşqunun şerlərində məhz bu dediyimiz məziyyətlər vardır.

Məlumdur ki, el şairlərinin yaratdıqları qoşmalar, gəraylılar, divanilər, müxəmməslər, təcnislər, dodaqdəyməzlər, dildönməzlər, qıfılbəndlər və ən böyük dastanlar aşıqlar tərəfindən sazla tərənnüm edilir. El şairi Cəlal Süleymanov aşıqlıqdan söz düşəndə deyir: - aşığın tükənməz söz xəzinəsi, məlahətli səsi və yaxşı saz çalmaq bacarığı olmalıdır. O, bu fikri «Yaxşıdır» adlı qoşmasında belə ümumiləşdirir:

Aşıq odur, ləhcəsində bal olsun,  
O, oxusun bağda bülbül lal olsun.  
Aşıqlıq elmindən pürkamal olsun,  
Narın-narın saz dindirsə yaxşıdır.

Cəlal deyər: aşıq olmaz həm nadan,  
Dərs almasa o, bir kamil ustadan.  
Aşıqlıq bağında bitən laladan,  
Özü-öz əliylə dərsə yaxşıdır.

Şair Vəli aşıqların kimdən öyrənmələri sualına «Bilginən» adlı qoşması ilə daha dəqiq cavab verir:

Nağıllarda şirin dillər əzbəri,  
Divarqan Abbası tanı, bilginən.  
Öyrənmək istəsən sinə dəftəri,  
Ələsgəri, o İmanı bilginən.  
Xəstə Qasım danışmazdı hədyandan,

Öyrən Qurbanidən, həm də Qurbandan,
Hazırcavab, çəkinməyən meydandan,
Cavad kimi pəhləvanı bilginən.

Səməd Vurğunu da dinlədim hərdən,
Alimdi, sözləri təmizdi zərdən.
Ellər dərs alır yazdığı əsərdən,
Hər kəlməsin gövhər-kanı, bilginən.

Şair Vəli 17 bəndlik bu şerində 30-dan artıq sənətkarın adını çəkir. O, bununla onu demək istəyir ki, aşıqlar öz ustadlarının yaradıcılığını mükəmməl öyrən-məli və hər bir sənətkarı dürüst tanımalıdırlar.

70 yaşlı Zülfüqar Hüseynov kəskin satirik qoşmalar müəllifidir. O, Oktyabr sosialist inqilabından əvvəl yazdığı «A bəy» adlı qoşmasında deyir:

A bəy, nə durmusan elin qəsdinə,
Pozular dəmlərin, çağ belə qalmaz.
Çox da fəxr eyləmə qol-qanadınla,
Həmişə köməyin sağ belə qalmaz.

A bəy, hamı bilir əyri işini,
Axırda çəkərlər bir-bir dişini.
Məzarda görərsən lovğa başını,
Alınar qisaslar, dağ belə qalmaz.

Aşıq yaradıcılığında, xüsusilə ustadnamələrdə mərd və namərd məsələsinə daha çox toxunulur. Hər yerdə də üstünlük mərdə, yaxşıya, düzə verilir. El şairləri bu səpgidə yazılmış şerlərdə öz simpatiyalarını ifadə edir, xeyirxah qüvvələr tərəfində olduqlarını bildirirlər. Əli Coşqunun «Bilməsin» şeri buna misal ola bilər:

Dost olub, dostuna xain çıxanı,
Elə dərdə düşsün dözə bilməsin.
Dörd-bir yanı çəmən, çiçək, gül olsun,
Əlləri qurusun, üzə bilməsin.

Gədəbəyin el şairləri sırasına təzə gələn gənclərdən Əcaib Vəkilovun, Salman və Məhərrəm Babayevlərin, Fərəməz Bağırovun, Tofiq Rzayevin, Nazim Məmmədovun, İsrafil Allahverdiyevin və Ariz Hacıyevin şerləri bizə böyük yaradıcılıq ümidləri verir.

Aşıq yaradıcılığı tükənməz bir xəzinədir. Bu zəngin xəzinənin nadir incilərini toplamaq və ya yaşatmaq lazımdır. Hələ 1906-cı ildə «Həyat» qəzetinin 6-cı nömrəsində dərc etdirdiyi məqaləsində H. Zərdabi aşıqların və el şairlərinin yaradıcılığına böyük əhəmiyyət verərək qeyd etmişdir ki, «şer bir böyük alətdir ki, onunla bizim yuxuda olan qardaşlarımızı ayıltmaq çox asandır». H. Zərdabinin həmin məqaləsində yaradıcı aşıqların və el şairlərinin şerlərini toplayıb çap etmək məsələsinə də toxunulmuşdur. Alovlu vətənpərvərin el şairlərinin şerlərini toplamaq haqqındakı təklifi bizim üçün bu gün də qiymətlidir.

*«Yeni Daşkəsən» qəzeti,*
*17 sentyabr, 1961-ci il.*

# Tambur və Tala mahnıları

Elmi məxəzlərdə qopuz və tambur haqqında məlumatlara rast gəlmək olur. Bir yazıda qopuz belə təsvir edilir: «Qopuz (komus) mandolini andıran şeydir. İri bir qaşıq (çömçə) kimi olur, üzü dəri qablıdır. At qılından iki tellidir. Çox zaman bu tellərin biri qara, digəri ağ olur. Komusun (yəni qopuzun) uzunluğu 80 santimetrdir».

Başqa bir yazıda qopuzun keçirdiyi təkamüldən bəhs edilir: «Qopuzda giriş yerinə tel (yəni sim) taxılması onu dəyişdi, əvəzində «tel tambur», «bağlama», «meydan sazı» deyilən çalğı alətləri meydana gəldi».

Təbəddülatda təkcə simlər əsas götürülür ki, bu da tamburun və sazın yalnız bir elementidir. At qılının, kiriş və ipək tellərin simlə əvəz edilməsi özlüyündə qopuzu dəyişə bilməzdi. Onu da inkar etmək olmaz ki, simlər çalğı alətinin kar (lal) səsini cingiltili etməkdə misilsiz iş görmüşdür. Lakin qopuzu əsasən tamburun qolundakı bəndlər və sazın qoluna bağlanmış pərdələr, müstəqil (danışan) pərdələrlə əlaqəli köklər (musiqi ahəngləri) dəyişmişdir.

Biz bu məqalədə yalnız tambur haqqında danışmaq fikrindəyik. Gənc folklorşünas İsrafil Abbasov yazır: «Tambur… bir sıra Şərq, habelə türk xalqları içərisində geniş yayılmış qədim musiqi aləti olmuşdur». Həmin musiqi aləti, yəni tambur Balakən rayonunun Qabaqçöl, Zaqatala rayonunun Car, Göyəm və Tala kəndlərində indi də mövcuddur.

Qopuzun uzunluğu 80 santimetr olduğu halda, tamburun uzunluğu 100-110 santimetrə çatır. Tamburun qoluna bəndlər əlavə edildiyindən o bir qədər uzanmışdır. Talalılar tamburun pərdələrinə bənd deyirlər.

Hazırda Zaqatalada tambur qayıran usta Osman Şaban oğlu Kamalayevdir. Onu Göyəm kəndində «Tambur

Osman» deyə çağırırlar. O, özü də, həyat yoldaşı Səmrət də tambur çalıb oxumağı bacarırlar. Osmanın deməsinə görə, 1938-ci ilə kimi tambura barama ipəyi teli qoşulurmuş. Həmin tarixdən sonra ipək tellər simlə əvəz olunmuşdur. Bu isə tamburun lal səsini bir qədər cingiltili etmişdir.

Tambur əsasən cökə və çəkil (gər) ağaclarından düzəldilir. Tamburun əsasən iki simi, yeddi bəndi və iki kökü vardır. «Tək tel» kökü ilə əsasən mahnılar çalınıb oxunulur, «Cüt tel» kökü ilə isə bəzi oyun havaları çalınır. Tamburun telləri mizrabla, təzənə ilə deyil, barmaqlarla ehtizaza gətirilir.

Zaqatalada və Balakəndə oxunan azəri mahnılarının əsasını Tala mahnıları təşkil edir. Birinci və Üçüncü Tala kəndlərinə nisbətən İkinci Talada azəri dilində oxunan mahnılar tambur çalanların repertuarında daha geniş yer tutur.

Tamburla əsasən bayatılar oxunur. Lakin talalılar bu bayatıları mahnı adlandırırlar. Doğrudan da talalılar bayatıları mahnı kimi ifa edirlər. Saz aşıqları bayatıları başqa cür, tambur çalanlar isə özünəməxsus tərzdə oxuyurlar. Həqiqətən bayatı tambur çalanların ifasında mahnı təsiri bağışlayır.

Güllü bağda oturram,
Güldən çeşni götürrəm.
Yar məhləyə gələndə,
Şirin dillə ötürrəm.

Tambur çalanlar tambur haqqında da gözəl mahnılar qoşmuşlar. Həmin mahnılarda tamburun nişanələri, ayrı-ayrı xüsusiyyətləri təsvir olunur:

Tambur çalan beş barmaq,
Beşi də qızıl qarmaq.

Hər igid işi deyil,
Dostluğu başa vurmaq.

Tala mahnıları özünəməxsus orijinallığı ilə, bədii təsvir vasitələri ilə seçilir:

Bu bulaq oyma bulaq,
Suyundan doyma bulaq,
Bura bir qız gələcək,
Getməyə qoyma, bulaq!

Və yaxud:

Bulağı buz bağladı,
Yanı yarpız bağladı.
Qolumdan gəlin tutub,
Yaramı qız bağladı.

Tarix boyu Zaqatalada və Balakəndə heç bir tambur çalan bunu özü üçün peşə saymamış, tambur çalıb pul almamışdır. Tambur olan kəndlərdə gimgə (çalıb çağırmaq) gecələri keçirilir. Ortaya bir neçə tambur gətirilir. Bacaranlardan kimisi çalır, kimisi də oxuyur. Tamburu həm kişilər, həm də qadınlar çalır.

Hazırda Zaqatalada tamburla ən yaxşı mahnı oxuyan və yeni mahnılar qoşan talalı Ayişə Camaləddin qızı Süleymanovadır. Ayişə azsavadlıdır. O, mahnı qoşarkən qələm-kağızdan istifadə etmir, tambur dilə gələndə onun mahnıları bədahətən deyilir, yaranır. Ayişə müasir mövzularda bu gün də gözəl mahnılar düzüb-qoşur.

Bəli, qopuzun yadigarı olan tambur bu gün də yaşayır və yeni bayatıların və mahnıların yaranmasına kömək edir.

Qopuzu və tamburu axtarmaqda yalnız bir məqsədimiz vardır.

Bizə görə hər bir şer janrı müəyyən bir çalğı aləti ilə əlaqəli bir şəkildə meydana gəlmiş, təşəkkül tapmış və inkişaf etmişdir. Ozan söyləri qopuzla, qoşma sazla, qəzəl tarla əlaqəli yarandığı kimi, bayatıların və mahnıların yaranmasında və formalaşmasında da bizcə tambur az rol oynamamışdır.

*«Daşkəsən» qəzeti,*
*9 sentyabr. 1969-cu il.*

# Biz qonşu deyilik, qardaşıq

***Sentyabrın 8-də Mahaç-Qalada keçirilən folklor bayramına qədim ozanlar diyarı Gəncədən gəlmiş qonaqlar arasında folklorşünas Sədnik Paşayev də vardı. Qəzetimizin əməkdaşı Azərbaycan folklorşünası Sədnik Paşayevdən folklor əlaqələrimizlə və Mahaç-Qalada keçiri-lən folklor bayramı ilə bağlı müsahibə almışdır. Həmin müsahibəni oxucularımıza təqdim edirik.***

**Müxbir: - Bu sizin Dağıstana ilk səfərinizdirmi?**

S.Paşayev: - Bu mənim Dağıstana bəlkə də onuncu gəlişimdir. Hələ iyirmi il bundan əvvəl Dağıstanın Dərbənd, Tabasaran aullarını gəzib, əfsanələr, rəvayətlər, aşıq şerləri, Rükəl kəndində aşıq Aslan Əflan oğlundan "Yetim Aydın" dastanını toplamışam. Həmin dövrdə topladığım Dərbənd qalalarının əfsanələri 1973-cü ildə çap etdirdiyim "Yaşayan əfsanələr" kitabına daxil edilmişdir.

**Müxbir: - Siz Azərbaycan və Dağıstan folkloru arasında nə kimi fərq görürsünüz?**

S.Paşayev: - Təkcə bizim torpağımız, daşımız, dağlarımız deyil, xalqlarımızın mənəvi dünyası, dini əqidəsi, adət –ənənəsi, qədim flokloru, saz-aşıq sənəti də bir-birinə bağlıdır, eyni qaynaqdan su içir. İmam Şeyx Şamil təkcə Dağıstanın deyil, biz azərbaycanlıların da milli qəhrəmanıdır. Daha konkret desək, biz qonşu deyilik, qardaşıq. Bizim toyumuz da, bayramımız da bir-birinə bənzəyir. Bizim şənliklərimizdə bir-birindən fərqlənməyən qara zurna, tar, kamança, ulu saz eyni əzəmətlə səslənir.

**Müxbir: - Siz Azərbaycan – Dağıstan folklor əlaqələri sahəsində hansı tədqiqatçıları yüksək qiymətlən-dirirsiniz?**

S.Paşayev: -Mən ilk dəfə Dağıstan folkloru ilə filologiya elmləri doktoru, professor U.B.Dalqatın

"Dağıstan xalqlarının folkloru və ədəbiyyatı" adlı dərin məzmunlu monoqrafiyası vasitəsilə tanış olmuşam. Monoqrafiyada Azərbaycan-Dağıstan aşıq yaradıcılığı əlaqələrinə xüsusi yer verilmişdir. Mən orada on səkkizinci yüz illikdə yazıb-yaratmış Səid Koçkurskinin, İrçi Kazaqın, Yetim Eminin, Mahmudun yaradıcılıqları ilə tanış oldum. Bu məndə Dağıstan xalqının aşıq yaradıcılığına böyük maraq oyatdı. 1959-cu ildə Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən buraxılmış "Dağıstan ədəbiyyatı antalogiyası" kitabı Dağıstan xalqlarının ədəbiyyatı və folkloru ilə bir qədər ətraflı tanış olmağıma şərait yaratdı. "XX əsrin Homeri" (M.Qorki) olan Suleyman Stalskinin şerləri, xüsusi ilə "Bülbül" rədifli qoşması məni heyran etdi.

Yaşıl budaqların arasında sən,
Yenə başlamısan fəqana, bülbül!
Təravət duyular nəğmələrindən,
Sən coşub gəldikcə zəbana, bülbül!

İndiki dövrdə Azərbaycan-Dağıstan ədəbi əlaqələrinin ən yorulmaz tədqiqatçısı Mövlud Yarəhmədovdur. Mövlud Yarəhmədov həm Azərbaycan folklorunu gözəl bilir, eyni zamanda Dağıstan xalqlarıının folklorunu gözəl bilir. Əsgi əlifbanı gözəl bilməsi əlyazmalarını oxumaqda ona kömək edir. Bu keyfiyyət onu bir sıra folklorçulardan fərqləndirir. Mövlud Yarəhmədovun "Azərbaycan – Dağıstan ədəbi əlaqələr tarixindən" adlı monoqrafiyası bu sahədə atılan ən böyük addımdır və bu tədqiqatın mühüm elmi əhəmiyyəti vardır.

Biz Mövlud Yarəhmədovun tədqiqatlarından öyrənirik ki, "Aşıq Qərib", "Şah İsmayıl ", "Əsli və Kərəm", "Valeh və Zərnigar", "Xançoban" dastanları el arasında geniş yayılmışdır.

**Müxbir: - İndiyə qədər Dağıstan folkloru, eləcə də onun ayrılmaz qolu olan aşıq yaradıcılığı haqqında mətbuatda hansı yazılarınız çap olunub?**

S. Paşayev: - 1968-ci ildə "Kirovabad kommunisti" qəzetində "Azəri aşıq poeziyası və Dağıstan aşıqları" adlı məqaləm çap olunmuşdur. Orada Dağıstan aşıqlarınıın yaradacılığından geniş söhbət açılmışdır. "Azərbaycan" jurnalının 1973-cü il tarixli 11-ci nömrəsində "Xəstə Qasım" haqqında geniş yazım çap olunmuşdur. Mən fürsətdən istifadə edərək həmin yazıda Dağıstanın Məhərrəmkənd rayonundakı Sovetski kənd sakini, qocaman folklorçu Əli Mücrim Tağızadənin topladığı folklor materiallarına da öz münasibətimi bildirmişəm.

Hazırda məndə onun qırxbeş səhifəlik əlyazması vardır. Həmin əlyazmada Axtı, Rutul və Doqquzpara ləzgiləri arasında geniş yayılmış folklor nümunələri vardır. Keçən ilin iyun ayında Gəncədə Qazaxıstan, Orta Asiya, Zaqafqaziya və Dağıstan Ozanlarının yaradıcılıq müsabiqəsi keçirildi. Mən bir müşahidəçi kimi münsiflər heyətinin tərkibində idim. Müsabiqə qurtardıqdan sonra "Azərbaycan gəncləri" qəzetində "Ozan –aşıq məktəbləri" adlı məqalə ilə çıxış etdim. Həmin müsabiqədə yüksək nəticələr qazanmış Dağıstan aşıqlarından Osman Məmmədrəhimov, Nəsrəddin Mahmudov və balabançı Əhəd Davudov haqqında da geniş söhbət açdım. Dağıstan aşıqları bənzərsiz ləhcə ilə Qarabağ "Qaytağılarına" və Şirvan "Şeşəngilərinə" uyğun tərzdə çalıb oxuyurdular.

Onu da qeyd edim ki, mən bunlardan çox əvvəl Soltanın və onun həyat yoldaşı Qəndabın, aşıq Nüsrətin çalıb-oxumalarına çox qulaq asmışam. Neyin Dağıstanda sazın yanına gəlməsi son illərin hadisəsidir. Lakin buna baxmayaraq, ney gözəl səslənir. Məsələn:

Gögdə uçar gövərçin,

Yerə düşər yem üçün,
Bir ər öləcəkmusa,
Men ölermen sen için,

Ak çayda, kara çayda,
Guzeller oynar yayda.
Mənim sevdigim sensen,
Sənin sevdigin kayda?

**Müxbir: - Sizin Mahaç-Qalada keçirilən folklor bayramı haqqında təəssüratınız?**

S.Paşayev: - Mən bunu yalnız alqışlaya bilərəm. Bu tək sizin yox, bizim də folklorumuzun bayramıdır. Dağıstan haqqında, onun bu günkü folklor bayramı haqqında, bu torpağın adamlarının qonaqpərvərliyi haqqında ürək sözlərimi yəqin ki, başqa bir yazımda geniş şəkildə ifadə edəcəyəm.

Mən bu müsahibəmi sizin aşıq Sakitin "Dağıstan" adlı şerinin daha əzəmətli səslənən bir bəndi ilə tamamlamaq istəyirəm.

Dağlarının qarlı başı,
Ərşə çatan Dağıstandır,
Ovlağında Şamil gəzən,
Şirlər yatan Dağıstandır.

*Dərbənd*
*"Leninçi" qəzeti, IX- 90 il.*

# Arazdan keçən də var…

## *(Alim səfərdən qayıtmışdır)*

1992-ci il dekabrın 1-dir. Araz körpüsünün üstündə dayanmışam. Çox körpüdən keçmişəm. Kürün körpüsündən, Almaniyanın Frankfurt şəhərini ikiyə bölən Mayns çayı üzərindəki körpüdən, Türkiyənin Yaşıl İrmaq, Qızıl İrmaq üzərindəki körpülərindən və iki qitəni birləşdirən asma körpüsündən. Amma heç vaxt belə həyəcan keçirməmişəm. Tamam sehirlənmişəm, yerimdəcə donub qalmışam. Arazın göy sularında ördəklər, qazlar, sonalar üzür. Onlar öz aləmindədir, mən də öz aləmimdə. Duyğularımı cilovlayıb ağ vərəqə köçürdüm. Araz körpüsü üstündə keçirdiyim duyğular beşbəndlik bir gəraylıya çevrildi.

Mənim Təbriz həsrətim var,  
Üstündən keçimmi, Araz?

Sirli-sehirli, tilsimli Araz körpüsünü keçdim. İran Astarasına ayaq basanda qərinələrdən bəri xalqımızın qəlbini göynədən bir bayatı quş olub dodaqlarıma qondu:

Arazdan keçən də var,  
Suyundan içən də var.  
Çəkmə Təbriz adını,  
Ürəyi keçən də var.

Məni İran Astarasında Tehranın tanınmış aşığı Kövsərəli Şahbazi qarşıladı. Biz Zəncan, Qəzvin istiqamətində yola düşdük. Qəzvin yaxınlığındakı çayda mənə Tahir Mirzənin qalasının qalıqlarını göstərdilər. Bildirdilər ki, "Tahir və Zöhrə" dastanının yurdu İran torpağıdır. Xan Tahir atılan Rubar çayı Xəzər dənizinə tökülür. Bizim "Şəhri və Mehri" adlı dastanımız var. İranda

iri bir şəhərin adı Şəhrimehridir. Yolboyu dastan və nağıllarımızın coğrafi atlası vərəqlənir, bizi ovsunlayan əfsanə və rəvayətlər dil açırdı. Tehrana axşam çatdıq.

Səhər çayxanalara gedib aşıqlarla görüşüb tanış oldum. İkinci gün Tehranın rəsmi dairələri, mədəniyyət işçiləri ilə görüşüb, aşıqların müsabiqəsini keçirməyə icazə aldım. Bizə xüsusi tağ (mədəniyyət ocaqları, klublar belə adlanır) ayrıldı. Saat 4-dən gecə 1-ə qədər otuzdan artıq aşıq öz ifaçılıq bacarığını nümayiş etdirdi.

Tehran aşıqları içərisində ən yaşlısı Yədulla Rəzzabidir. O, tək, yəni balabansız, qavalsız, "Baş dübeyti" havasına S.Vurğunun "Dağlar" gəraylısını oxudu. Yol Tovuz-Qazax aşığının yolu idi. Gənc aşıq, məlahətli səsə malik Çingiz ( Cəngiz deyirlər) Biriya da həmin yolla getdi. Səyyad Cəfərzadə sazda "Dəmir gözəlləməsi" ni ifa etdi. O, Aşıq Ədalət Nəsibovun xallarını, güllərini işlətməyə güclü meyl göstərirdi. Neylə, qavalla sazını qoşalaşdıran Aşıq Səbrəli Şirvan aşıq yolunun mahir davamçısıdır. O, "Şirvan Şeşəngisi "ni elə gözəl çalıb oxudu ki, Aşıq Şakir, aşıq Hacalı gəlib gözümüz önündə dayandı. Aşıq Zülfəli "İrəvan çuxuru", Aşıq Səttar (Babayi) "Osmanlı divanisi", Aşıq Behbud "Qəhrəmani" havaları üstə çalıb oxudular. Aşıq İltifat və Aşıq Əzbər "Yayma gözəlləməsi" adı ilə çalıb oxuduqları saz havası "Duraxanı" idi. Aşıq Heydər və Aşıq Məmməd "İncə gülü", Aşıq Təvəkkül " El havası", Gövsərəli Şahbazi "Sultanı", Aşıq Təhmasib "Azaflı dubeytisi",Aşıq Həqqi "Ağır Şərili", Səməd Əsbəci "Koroğlu qaytarması", (onlar "Şahsevəni" havasını belə adlandırırlar), Əmrəli Şeyxi "Şirvan şikəstəsi",Aşıq Fərhad "Qaradağ təcnisi" saz havaları üstə çalıb oxudular. Burada Təbriz, Qaradağ, Göyçə, Şirvan, Gəncə, Şəmkir yolları bir-birinə qarışmışdı, hamısı da bir-birindən gözəl. Burada istedadlı aşıqlarla yanaşı Cəlil Həmidi, Eşqəli, Cəfərqulu, Əkbər kimi balabançılar, Mürvət Əmin, İltimas kimi qaval

vuranlar yetişmişdir. Aşıq Cəmşidin, Əhməd Həmidinin, Hüseyn Namavərinin, Aşıq Vəli, Aşıq Çapar, Aşıq Cabbar, Aşıq Ayaz, Aşıq Vahid, Aşıq Zeyqal, Aşıq Bulud və başqalarının ifasında "Qaradağ təcnisi", "Qaradağ şikəstəsi" (ikinci adı "Üzüm- dil şikəstəsi"dir), "Ağaxan şikəstəsi", "Əliqulu şikəstəsi", "Xalxalı şikəstəsi" kimi eşitmədiyimiz saz havalarını dinlədik. Bundan əlavə, Xəstə Qasımın nadir şerlərini əldə etdik. "Tahir və Zöhrə", "Əsli - Kərəm" dastanlarının yeni variantları ilə tanış olduq.

Məni qabaqda böyük bir ziyarət gözləyirdi. Xəstə Qasımın məzarını ziyarət etmək.

Tikmədaşa çatdıq. Arxada qədim məzarıstan, ortada Tikmədaş, qənşərdə Qasım dağları, bu dağların arasında qədim Pirsultan kəndi. Qəribədir, böyük şair-aşıq Pirsultan Abdalın məzarı Türkiyənin Sivas vilayətindədir, onun adını daşıyan Pirsultan dağı Daşkəsəndədir. Pirsultan kəndi isə Tikmədaşın altı kilometrliyində Qasım dağlarının arasındadır.

Aşıq Şahbazı, Aşıq Səttar (Babayi) və Tikmədaşda Xəstə Qasımın şerlərini toplayan, məzarını qoruyan, araşdırıcı Hüseyn Siyami ilə sənətkarı ziyarətə getdik. Mən Xəstə Qasımın 1975-ci ildə şerlər kitabını nəşr etdirdim. Nəşriyyat işçilərindən xahiş etdim ki, Xəstə Qasımın şer kitabı "Qızıl cildli " olsun, belə də oldu. Həmin kitabı bu səfərdə Xəstə Qasımın məzarı yanında onun yorulmaz araşdırıcısı Hüseyn Siyamiyə bağışladım. Xəstə Qasımın məzarı üstə yazdığım üçbəndlik "Gəldim" rədifli gəraylını da öz xəttimlə xatirə kitabına köçürdüm.

Arzum mənə qanad verdi,
Axır Tikmədaşa gəldim.
Görüşünə tək gəlmədim,
Həsrətimlə qoşa gəldim.

* * *

Çəkilib güldən gülabın,
Yerə-göyə sığmaz təbin.
Əlimdə qızıl kitabın,
Ustad, coşa-coşa gəldim.

* * *

Güzar etdim güzarına,
Baş əyməyə məzarına.
Sədnik, Qasım dağlarına,
Mahnı qoşa-qoşa gəldim.

* * *

Axşam Təbrizə çatdıq. Səhər aşıqların toplaşdıqları Gülüstan bağındakı çayçıya gəldik. Burada ustadlarla görüşdüm və bir saatdan artıq aşıq sənəti haqqında söhbət apardım. Günortaüstü bir otağa toplaşıb aşıqların çalıb oxumalarına qulaq asdıq.

Əvvəl meydana sinəsi dolu ustad sənətkarlardan Əziz Şahnazi, Həsən Qafari, Hacı İbadiyan, Fətulla (Məşi belə çağırırlar) Paşayi meydana girdilər. Onların danışdıqları "Əsli-Kərəm" dastanı və "Ceyranı Kərəm" saz havasından burada geniş danışmaya bilmərəm. "Əsli-Kərəm" dastanının sonu Təbriz variantında necə də gözəl tamamlanır. Keşiş görür ki,Kərəmdən qurtara bilməyəcək, Qeysərə Süleyman paşanın yanına gedir və bildirir ki, bir düzdən tutmanın biri onun qızından əl çəkmir. Süleyman paşaya deyir ki, Əsli ələ düşməyən incidir, onu öz oğluna al. Süleyman paşa razı olur və keşişin arzusu ilə təcili toya başlayır. Kərəm aşıq kimi toy məclisinə gəlir. Oxuduğu sözlərdə Əsli onun nişanlısı, eyni zamanda özünün də Gəncəli Ziyadxanın oğlu olduğunu bildirir.

Süleyman paşa deyir:

-Mən həyatım boyu Ziyadxana borcluyam. Gənclikdə məni zindandan azad edib. Amma onun bircə

oğlu vardı, adı da Mahmud. Kərəm olmuş. Mahmud olub keçənləri, keşişin onun başına gətirdiyi müsibətləri Süleyman paşaya söyləyir.

Hər şeyi yerli-yataqlı öyrənən Süleyman paşa qardaşı oğlu kimi toy edib Əslini Kərəmə alır. İşi belə görən keşiş qızı Əsliyə tilsimli don geydirir. Sazla, sözlə tilsimin sındığını görməyən Kərəm fikirli-fikirli yuxuya gedir. Ona yuxuda deyirlər ki, üç kəlmeyi-şəhadət tilsimi açar. Kərəm durub yuxusunu Əsliyə, Əslinin anası Məryəmə danışır. Əsliylə Məryəm müsəlmançılığı qəbul edirlər. İlk kəlmeyi-şəhadəti Əsli, ikincini Məryəm, üçüncünü Kərəm oxuyur, tilsim sınır, donun yaxası açılır. Səhər keşiş adam göndərir ki, gedib yoxlasın Kərəm yanıb kül olubmu? Xəbər gəlir ki, üç kəlmeyi - şəhadət sənin qurduğun tilsimi sındırıb. Əsli ilə Məryəmin də müsəlmançılığını eşidən, meydanda tək qaldığını görən Qara keşiş eşşəyə minib meşəyə qaçır.

Əsli ilə Kərəm evlənir, ekiz oğulları olur. Uşaqlar xeyli böyüyür. Uşaqlar çölə oynamağa gedirlər. Kərəm uşaqlardan ötrü təlaş keçirir.

Əsli deyir:

-Kərəm, bəs sənin atan-anan daşdan yaranıb, sən balaca oğlanların üçün darıxırsan, onlar sənin üçün darıxmır? Söz Kərəmi tutur. Vətənə yola düşürlər. Gəncə yaxınlığında görürlər ki, çadırlar qurulub. Kərəm oğlanlarını burada bir qarının yanında qoyub, Əsliylə şəhərə gəlir. Kərəmə deyirlər ki, Ziyadxan öldü, arvadı Qəmərbanu isə oğlu Mahmuddan bir xəbər çıxmadığı üçün Gəncədəki mülklərini satıb, yaxın adamları ilə Kərbəlaya köç eylədi. Kərəm başa düşür ki, yoldakı çadırlar anasının köçüdür.

Kərəm geri dönəndə arvad şikayət elədi, dedi: bala, bu uşaqları tərlana öyrətmə, onlar bayaqdan Tərlan quşu ilə oynayırlar. Axı mənim Mahmudumu Kərəm eyləyən, onu yurdundan didərgin salan da belə bir tərlan olub.

Kərəm anasını tanıdı, boynuna sarıldı, zülüm-zülüm ağladı. Kərəmlə Əsli minnət etdilər ki, qayıdaq Gəncəyə. Qəmərbanı dedi ki, oğul, mən Kərbəla səfərindən geri dönmərəm, bəlkə, elə səni mənə yetirən Kərbəladır. Onlar gəlib Kərbəlanı ziyarət etdilər. Sonra da Bağdad yaxınlığında Kərkükdə bir Gəncə kəndi saldılar. Dastana görə, Kərkükdəki Gəncə kəndi Ziyadxan nəslinə mənsubdur. Kərkük türkləri arasında iki dastan geniş yayılmışdır. "Arzu-Qəmbər" adlı bayatı dastanı, bir də "Kərəm-Əsli" (onlarda dastan belə adlanır). "Arzu-Qəmbər" Güney Azərbaycandakı Sarabla, "Kərəm-Əsli" dastanı isə Gəncə ilə bağlıdır.

Biz Təbriz variantlarını topladıqdan sonra dastanlarımızın elmi nəşrini hazırlaya biləcəyik. Dastanların müqayisəli tədqiqi Azərbaycan folklorşünaslığına çox şey verəcəkdir.

Rəhim Nəzərinin "Dəmir gözəlləməsi" üstündə oxuduğu "Gəlmişəm" qoşması, "Vaqifi" havasına oxuduğu şair Süleyman Salisin şeri hələ də qulağımda cingildəyir. Tale elə gətirsin ki, Tehranda, Təbrizdə neçə belə-belə görüşlər, müsabiqələr keçirək.

Yaddaşımdan silinməyən "Ceyranı Kərəm" saz havasının Borçalı aşığının oxuduğu "Mansırı"ya, Şirvan aşığının ifasındakı " Şirvan şikəstəsi"nə bənzəri vardır.

Ərdəbil tarixi şəhərdir. Burada Şeyx Səfiəddin məqbərəsi, Fərhad Şirinlə bağlı əfsanələr, "Dağda tonqal yansa, sən Şirini ərdə bil" kimi kəlamları bu torpağın nişanəsidir.

Bu şəhər Şeyx Cüneydin (məzarı Qusar rayonunun Həzrə kəndindədir), Şeyx Heydərin, Şah İsmayıl Xətainin yurdudur. Elə həmin gün İran Astarasından Arazın üstü ilə keçib, Quzey Azərbaycan torpağına gəldim. Sinəmdə bir yox, iki ürək çırpınırdı. Güney və Quzey Azərbaycan. Dünyaya iki gözlə baxırdım: Güney və Quzey Azərbaycanın

gözüylə. Var olsun Azərbaycan milli dövləti, var olsun İran İslam Respublikası, var olsun onların əlaqəsi, əməkdaşlığı. Bu əlaqələr həsrətimizi əritsin. Bu əlaqələr bizi azman-azman sazın-sözün işığına çağırsın.

*"Gəncənin səsi" qəzeti,*
*3 fevral, 1993-cü il.*

# Alimin İran səfəri

Həmyerlimiz, filologiya elmləri doktoru, professor, respublikanın əməkdar mədəniyyət işçisi, şair, folklorşünas Sədnik Pirsultanlı keçən ilin dekabr, bu ilin fevral ayında İranda səfərdə olmuş, Tehran və Təbriz aşıqlarının müsabiqəsini keçirmiş və onlardan bir qrupunu Gəncəyə dəvət etmişdir. Folklorşünas alim rəsmi səfər zamanı «Əsli-Kərəm», «Şah İsmayıl və Gülzar», «Tahir və Zöhrə» dastanlarının yeni variatlarını toplamış, özü isə yeni qoşmalar, gəraylılar yazmışdır. Həmin səfərdən təəssüratlarını və şerlərindən bir neçəsini oxuculara təqdim edirik.

## Gəlmişəm

Ay Şahbazi, mən İranı görməyə,
Göyərdi göy daşım, təzə gəlmişəm.
Gözlərimdən Araz boyda çay axıb,
Qurudu göz yaşım, təzə gəlmişəm.

Baxmamışam Xan Araza doyunca,
Qəm yemişəm həsrətimin boyunca.
Gəlib torpağına qədəm qoyunca
Ağarıbdı başım, təzə gəlmişəm.

Sədniki hicranın üzdü, əritdi,
Nənələr qalmadı, babalar getdi.
Səni gördüm, gözlərimdə gül bitdi.
Ay mənim, yaz-qışım, təzə gəlmişəm.

## Savalan

İllərnən həsrətini çəkmişəm,
Qucaqlaşaq, gəl sarışaq, Savalan!
Sevincdən gözümdən yağar yağışlar,
Yaz selinə gəl qarışaq, Savalan!

Göz yaşlarım yanağından axdımı?
Ağlayanda düşmən bizə baxdımı?
Kim bağlayar, fələk açıb baxdımı,
Gülə-gülə gəl danışaq, Savalan!

Sən mənim Tanrımsan dağlar içində,
Sədnikin sən boyda dağ var içində.
Kim belə dərdini ağlar içində,
Eldarlardan gəl soruşaq, Savalan!

Güney Azərbaycanda aşığa eldar deyirlər. Təbriz yaxınlığındakı Tikmədaş kəndinin arxasındakı qəbiristanlıqda Xəstə Qasımın məzarıdır. Bu kənddən 6 kilometr aralıda qənşərdə Qasım dağlarıdır. Qasım dağlarınn arasında qədim Pirsultan kəndi yerləşir. Maraqlıdır ki, XVI əsrin şair-aşığı Pir Sultan Abdalın məzarı Türkiyənin Sivasındadır. Onun adını daşıyan dağ isə Daşkəsəndədir. Bu adı daşıyan kənd isə Güney Azərbaycandadır. Əsil həqiqəti öyrənmək üçün Türkiyənin Banaz köyündə Daşkəsənin Qazaxyolçular, Təbrizin Pirsultan kəndində yaşayan soyadlarını qeydə almaq, toponimik adlara xüsusi diqqət yetirmək lazımdır. O zaman əsl həqiqətlər üzə çıxacaq, bunların qohumluq əlaqələri dəqiqləşdiriləcəkdir.

Tikmədaşda Xəstə Qasımın məzarı üstündə «Gəldim» adlı bir gəraylı da yazdım. 1975-ci ildə Xəstə Qasımın şerlərini toplayıb nəşr etdirərkən bir mətləb diqqətimi cəlb etmişdir. Xəstə Qasım təəssüflənirdi ki,

sağlığımda «Qızıl cildli kitabı»mı itirib tapmadım. Xəstə Qasımın həmin kitabını mən də tapmadım. Lakin onun qızıl sözlərini toplayıb qızıl cildli kitab çap etdirdim.

## Gəldim

Arzum mənə qanad verdi,
Axır Tikmədaşa gəldim.
Görüşünə tək gəlmədim,
Həsrətimlə qoşa gəldim!

Çəkilib güldən gülabın,
Yerə-göyə sığmaz təbin.
Əlimdə qızıl kitabın,
Ustad, coşa-coşa gəldim!

Guzar etdim guzarına,
Baş əyməyə məzarına.
Sədnik, Qasım dağlarına,
Mahnı qoşa-qoşa gəldim.

Təbrizdə mənim şerlərimin gözəl ifaçısı Rəhim Nəzəri adlı gənc bir aşıq var. Ona Qüzey Azərbaycandan iki qoşma yazıb göndərmişəm.

## Qaldı

Al, əmanət saxla, Rəhim Nəzəri,
Qəlbimin parası  o tayda qaldı.
Doyammadım avazından, sazından,
Gözüm  o qismətdə, o payda qaldı.

Sənətin də qəlbin kimi durudu,
Üzündəki Təbrizimin nurudu.
Sizi gördüm göz yaşlarım qurudu,
Axdı, Araz adlı bir çayda qaldı.

Bir məclisdə qucaqlaşdıq, öpüşdük,
Həsrət idik, həsrət kimi görüşdük.
Sədnik deyər: qardaş, yenə gen düşdük,
Canımda niskillər nə boyda qaldı.

## Təbrizə yetir

Göynən gedən topa-topa buludlar,
Mənim salamımı Təbrizə yetir.
Orda qardaşım var, Rəhim Nəzəri,
Mənim salamımı Təbrizə yetir.

Harda nənə görsən, nənə mənimdi,
Harda baba görsən, yenə mənimdi.
O tay da, bu tay da öz Vətənimdi,
Mənim salamımı Təbrizə yetir.

Qasım dağlarında bir nişan qalıb,
Dağlar arasında Pirsultan qalıb.
Sədnik xeyli vaxtdı pərişan qalıb,
Mənim salamımı Təbrizə yetir!

*«Daşkəsən» qəzeti,*
*14 may 1993-cü il.*

# “Könlümün sazı”nı vərəqləyərkən

Aşıq İsmayıl Mahirin “Yazıçı” nəşriyyatı (1986-cı il) tərəfindən çap olunmuş ilk kitabı “Könlümün sazı” adlanır. Kitabı vərəqlədikcə İsmayılın sazlı-sözlü gənclik illərini xatırladım. İsmayıl Mahiri 30 ildən artıqdır ki, eldə-obada, toyda, mağarda çalıb-çağıran peşəkar aşıq, sazbənd, həm də ali təhsilli aşıq-şair kimi tanıyırlar.

Başqa aşıqlar məclisi “Baş divani” ilə açıb. “Müxəmməs”lə bağlayanda İsmayıl Meydana təcnislə çıxır. Təcnis onun ən çox sevdiyi şer formalarındandır. Hətta “Könlümün sazı” kitabında cəmləşmiş şerləri içərisində də çoxluğu onun təcnisləri təşkil edir. Dirili Qurbanidən (XI əsr), Tufarqanlı Abbasdan (XVI əsr), Tikmədaşlı Xəstə Qasımdan (XVII-XVIII əsr) üzü bəri bütün dövrlərdə təcnis yaratmaq hər sənətkara müyəssər olmamışdır. Təcnisin, cığalı təcnisin ən gözəl nümunələrini yaratmış Xəstə Qasım da bu şer şəklinin çətinliklərindən dönə-dönə söz açmışdır.

Hələ Aşıq Ələsgəri demirik ki, o təcnisin bütün şəkillərini sınaqdan çıxarmış, hətta bir çoxunun ilkin nümunəsini yaratmışdır. Aşıq İsmayıl Mahir də Aşıq Ələsgər bulağının gözündən içmiş, onun yaradıcılığından bəhrələnmişdir.

İsmayıl aşıqlar diyarı Göyçənin İnəkdağı kəndində Bahan kişinin ailəsində dünyaya göz açmış, bu sənətə başlayanda da onun ustadı məşhur aşıq Ələsgərin oğlu Talıb və qardaşı oğlu Nəcəf olmuşdur. Lakin o, bununla belə, aşıqlıq sənətinin sirlərini Gəncədə öyrənmiş, ali təhsili də burada H. Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunda almışdır. O, püxtələşmiş ustad sənətkarlarla ağır toylar keçirmiş, dəfələrlə sənət imtahanına düşmüşdür. Belə bir yol keçəndən sonra İsmayıl Mahirin səsi

Azərbaycan radiosundan, "Bulaq"dan gəlmiş, şerləri qəzet səhifələrinə yol tapmışdır.

"Könlümün sazı" kitabının ilk səhifəsi "Lenin" şeri ilə başlayır. Lenin "Azadlığın sönməz mayağı", "Cahana dayaq" bir rəhbər kimi təsvir və tərənnüm olunur:

Hər vuran ürəyə, hər görən gözə,
Əbədi məşəlsən, çıraqsan Lenin.

İsmayıl Mahir boya-başa çatdığı yurdumuzla, onun təbii mənzərəsi ilə öyünür:

Göy göldə yuyunur Kəpəzin əksi,
Bir aləm bəxş edir hər mənzərəsi,
Qoy düşsün dağlara Mahirin səsi,
Qolu telli saza dolananda gəl.

İsmayılın qoşmalarında elə misra və beytlər vardır ki, atalar sözlərini, zərb məsəlləri xatırladır. Məsələn:

Dünyada biganə yaşayan kəsin,
Yüz illik həyatı bir ana dəyməz…

İsmayıl Mahirin bəzi qoşmalarında bir niskil, bir həsrət duyulmaqdadır. Müharibə heç kəsə sevinc bəxş etməmiş, çoxlarının gözünü yollarda qoymuşdır. Böyük Vətən müharibəsi İsmayılın da iki qardaşını əlindən almışdır. "Hardasız", "Qardaş", "Elə dağam mən" adlı təcnis və qoşmaları bu həsrətdən yaranmışdır:

Yeri-göyü ələk-vələk eylədim,
Gəlmədi - səs-soraq, qardaş hardasız?
Cüt getdiniz, cüt də qayıtmadınız,
Axdı gözlərimdən qan-yaş hardasız.

“Könlümün sazı” kitabında “İsmayıl və Qəmzə” adlı bir dastan da verilmişdir. Dastanın qısa məzmunu belədir: İsmayıl Mahir gənclik illərində Bərdə şəhərinə səfər edir, toy məclisində Qəmzə adlı bir qıza aşiq olur. Qərib aşıq Tərtərbasarın Buruc kəndində toy məclisi keçirərkən Qəmzəni sevən başqa birisi onu pisikdirmək üçün özü ilə üç aşıq gətirir. İsmayıl Mahir həmin məclisdə Aşıq Səlim, Aşıq Şəmistan və Yəhya Qaramanlı ilə deyişir və onlara qalib gəlir. Qəmzənin anası Tavat lap məclisin əvvəlindən İsmayılın tərəfində durur. Aşıq İsmayıl öz yaradıcılığına sadiq qalaraq həmin aşıqlarla təcnis vasitəsilə deyişir. Müxtəlif forma və şəkilə malik olan təcnislərində dilimizin əlvan boyalarından bacarıqla istifadə edir. İsmayıl cığalı təcnisini belə tamamlayır:

Can əyilsə, şəfa olan nə zərdən?
Şeş verməsə nə baxdan küs, nə zərdən,
Aşıq deyər nə zərdən,
Haqq saxlasın nəzərdən.
İsmayıl, elinlə ol,
El salmasın nəzərdən.

Aşıq Ələsgər və Aşıq Şəmşir kimi İsmayıl Mahir də öz şerlərində Sarı Aşığın adının Yetim olduğunu söyləyir.

Seyidəli kişinin etirazını nəzərə alaraq, Qəmzəni Bərdədən Dərələyəzə qohumlarının yanına aparırlar. İsmayıl Mahir əhdindən dönmür, diyar-diyar gəzir və öz sevgilisinə qovuşur. Dastan xoş sonluqla bitir.

“İsmayıl və Qəmzə” dastanında “Valeh və Zərnigar”la, “Aşıq Hüseyn və Reyhan xanım”la, eləcə də “Aşıq Alının Türkiyə səfəri” ilə səsləşən məqamlar, oxşar motivlər çoxdur.

İsmayıl Mahir doğulub boya-başa çatdığı yerlərin yaylaqlarını tərənnüm etməkdən doymur. Boyasını təbiət vuran dağlar onu vəcdə gətirir:

Tilsimli gədikləri,
Könül istər aşa, dağlar.
Təbiət vurub boyasın,
Hər qaya, hər daşa dağlar.

İsmayıl Mahir bu dastanla öz sevgi məcarasını əbədiləşdirmişdir. O, "Çətindir" adlı qoşmasında bir xalq müdriki kimi çıxış edir.

Arifsənsə, dərk eylə bu dünyanı,
Yüz illər yaşamış babalar hanı?
Bir vəfalı yarı, bir sağlam canı,
İtirmək asandır, tapmaq çətindir.

İsmayıl Mahirin şerləri təkcə "Könlümün sazı" kitabında toplananlardan ibarət deyildir. Onun dillər əzbəri olan qoşmaları və təcnisləri çoxdur.

İnanırıq ki, şair İsmayıl Mahir yaradıcılıq yollarında daha uğurlu addımlar atacaq, yeni-yeni kitabları ilə öz pərəstişkarlarını sevindirəcəkdir.

*"Kirovabad kommunisti"qəzeti,*
*9 dekabr, 1987-ci il.*

# *Alim səfərdən qayıtmışdır*

## Türkiyə xatirələri

***H. Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitu-tunun professoru, filologiya elmləri doktoru Sədnik Paşa Pirsultanlı yenicə Türkiyə səfərindən qayıtmışdır. Bu səfərlə və başqa xarici səfərlərlə əlaqədar olaraq qəzetimizin əməkdaşı bir neçə sualla Sədnik Paşa Pirsultanlıya müraciət etmişdir.***

**Müxbir: -Xarici səfərlərinizlə bağlı xatirələrinizi yazıya alırsınızmı?**

S.P.P: - Almaniya, Təbriz, Tehran səfərlərimlə əlaqədar xatirələrimi yazıb jurnal və qəzetlərdə nəşr etdirmişəm. Həmin xarici ölkələrdə yazdığım şerlər də mətbuata çıxa bilmişdir. Xatirələrim və şerlərim Hollandiya, Qazaxıstan və Türkiyə mətbuatında daha geniş işıqlandırılmışdır.

**Müxbir**: - İpək yolu uluslararası xalq ədəbiyyatı simpoziumuna çağırılmanız Sizin Türkiyəyə neçənci səfəriniz idi?

S.P.P: - Bu, mənim Türkiyəyə səkkizinci səfərim idi.

**Müxbir: - İpək yolu simpoziumu əvvəlki elmi konfranslardan nə ilə fərqlənirdi?**

S.P.P: - İpək yolu simpoziumunun elmi tutumunun siqləti, coğrafiyası çox geniş idi. Bu simpoziumda dörd gün ərzində əlli məruzə dinlənildi. Türkiyəli İlhan Başgöz (hazırda Amerikada işləyir), Fikrət Türkmən, Saim Sakaoğlu kimi tanınmış professorlar ilə yanaşı Rumıniyadan Əkrəm Mehmet Ali, Yuqoslaviyadan Nemətullah Hafiz, Makedoniyadan Həmidi Hasan, Rumıniyadan Nedret Mahmud, Çindən Abdulkərim Rahman (uyğur), Kıbrısdan Mahmut İslam oğlu,

Özbəkistandan Malik Muradov, Türkmənistandan Nazar Kulla, Qırğızıstandan Yumakun Suyudukov və başqa alimlər dəvət olunmuşdular.

Azərbaycandan mən və Naxçıvan universitetinin dosenti Məhərrəm Cəfərov iştirak edirdik. Mənim mövzum "Türk xalqlarının ozan-aşıq sənətinin əski və çağdaş qurumu", Məhərrəm Cəfərovun mövzusu "Məhəbbət dastanlarında yardımçı surətlər" idi. Məhərrəm Cəfərovun mövzusu ətrafında çıxış edən türk professoru Fikrət Türkmən onun araşdırmalarını yüksək qiymətləndirərək bildirdi ki, bu, olduğca orijinal mövzudur. "Məhəbbət dastanlarında yardımçı surətlər" mövzusu nə Türkiyədə, nə də Azərbaycanda lazımınca tədqiq olunmamışdır. Halbuki, "Əsli-Kərəm"də Lələ, "Mahmud və Nigar"da Abid Qəmbər kimi surətlər həmin dastanlarda açar rolu oynayırlar. Bunlar yardımçı obraz olsalar da, dastanların süjet xəttində aparıcı qüvvəyə malikdirlər.

Simpoziuma görkəmli alimlərlə yanaşı, sənət adamları da dəvət olunmuşdular. Bunların arasında Naxçıvandan aşıqlar birliyinin sədri Aşıq Cəbrayıl Gilənçaylı, Türkiyə aşıqlarından Murad Çobanoğlu, Aşıq Reyhani, Şərəf Daşdıoba, Qazaxıstandan akın Əslixan və başqaları var idi. Həmyerlimiz Aşıq Cəbrayıl Gilənçaylı məlahətli səsi, sənətkarlıq məharəti ilə dinləyiciləri heyran qoyurdu. "Duman salamat qal, dağ salamat qal", "Nənəm sənə qurban ay sarı köynək", "Ümid körpüsü" qoşmalarını maraqlı havalar üstə oxuyur, yeri düşdükcə bədahətən qoşmalar düzüb qoşurdu. Bir sözlə, o, hər dəfə istedadlı şair-aşıq olduğunu əyani şəkildə təsdiq etdirirdi.

**Müxbir: - Bəlkə, İpək yolu məsələsini bir qədər açıqlayasınız?**

S.P.P:- İpək yolu və onun üzərində yaranan foklor ədəbiyyatı haqqında geniş yazım olduğundan müxtəsər şəkildə aşağıdakıları deyə bilərəm. Bu yolun adı "Çin-Türk-

Avropa yoludur". Çin sözünün yunanca mənası ipək, maçın isə yol deməkdir. Klassik aşıq ədəbiyyatımızda tez-tez işlənən Çini-maçin məhz, İpək yolunun adına işarədir.

Nə üçün Çin türk İpək yoludur. Məlumdur ki, Çindəki əfsanəvi Kaşqar (Kaşi) şəhəri bu gün də gerçəkdən bir Orta Asiya ticarət və mədəniyyət mərkəzi olaraq qalmaqdadır. Ticarət karvanları Kaşqarda ikiyə ayrılmış, onlardan biri ilə Əfqanıstan obalarından Xəzər dənizinə, digəri ilə Daşkurqan üzərindən Qaraqurum dağlarını aşaraq İran və Anadolu obalarına, oradan da Antakiya və Trabzon limanlarına daxil olurmuş.

"İpək yolu" Çin, Orta Asiya və Avropanı bir-birinə bağlayan ticarət yolu üzərində yaşayan insanların iki min ildir ki, bu bölgələrdə mədəniyyətlərinin, dinlərinin və irqlərinin izlərini qoruyub saxlamaqdadır.

Türk soylarından olan uyğurların Sincan vilayəti "Türk yolu"nun düyün nöqtəsidir. Haqlı olaraq uyğurları "İpək yolu" mədəniyyətinin "karvan başı" adlandırırlar. "Uyğur on iki mukamı" da bu yol ilə bağlı yaranmışdır. "Məsim və Diləfruz", "Müğüm şah" kimi Azərbaycan dastanlarında da İpək yolu ilə əlaqədar məqamlar çoxdur. Müğüm şah bəzirgandan Çində uyğurlar yaşayan Xanbalıq şəhərini belə soruşur: "Xocam, bu yol Xanbalığa gedirmi?" Məni Çinin Urumçi şəhərinə dəvət etmiş, əslən uyğur olan professor Abdulkərim Rahman bildirdi ki, qədim Xanbalığın adını dəyişib Cimisar qoyublar. Bu alimə görə, Şincan İpək yolunun anasıdır. O, hətta bu yolun güney hissəsinin Altaya, Sibirə keçdiyini, Çaçən, Sarça və başqa uyğur şəhərlərinin tarixi rolunu dönə-dönə qeyd edirdi. Uyğurlar barama becərməkdə, ipək istehsalında dünyada birinci olmuşlar. Elmi ədəbiyyatda Azərbaycanın baramaçılıqda altıncı yerdə dayandığını oxumuşam. Gəncə, Şəki, Omuz, Ağdam bölgələri barama yetişdirməkdə, Gəncə

və Şəki ipək istehsalında məşhur olmuşlar. Xəstə Qasımın "Kimi" rədifli gəraylısında oxuyuruq:

Gəl gedək Çini-Maçinə,
Qurbanam zülfün ucuna.
Al məni qoynun içinə,
İstəkli balalar kimi.

Elə Xəstə Qasımın kəndi Tikmədaş Qızılözən çayının yaxınlığındadır. Bu çay elə bil ki, qədim karvan yolunun bələdçilərindən biridir.

Belə misalların sayını istənilən qədər artırmaq olar.

Lakin bizə görə, uyğur alimləri Çinin və Maçinin etimologiyasını belə izah etsələr də, çin əslən türk sözüdür, düz və möhkəm deməkdir. Maçin ərəb şəkilçisi olan "ma" ilə birləşmiş, onun da mənası Çinin o biri üzü deməkdir. Necə Qafqaz, onun o biri üzü Zaqafqaziya olduğu kimi.

Deməli, Xəstə Qasım "Gəl gedək Çini-Maçinə" dedikdə Çinə gedək, lap Çinin o biri üzünə də mənasında bu misranı işlətmişdir. Çinin qədim adı Xətaydır, ruslar və başqa xalqlar tələffüzdə onu dəyişərək Kitay şəklinə salmışlar.

**Müxbir:-Bundan əvvəlki səfərlərinizdən yaddaşınızda qalan, oxucular üçün daha maraqlı olan nələri xatırlaya bilərsiniz?**

S.P.P:- İlk səfərimdə Türkiyənin Trabzon, Samson, Amasiya və Sinop şəhərlərində oldum. Samson universitetində, Sinopda maraqlı mövzularla çıxış etdim. Amasiyada "Fərhad və Şirin", "Həsən və Hürqız" əfsanələrini topladım, dünyada ən böyük möcüzə olan qaya məzarları ilə tanış oldum. İkinci səfərimdə Rizə və Trabzon, üçüncü səfərimdə İstambul, Ankara, Nevşəhr, Gülşəhr, Qırşəhr kimi şəhərlərlə tanış oldum. Nevşəhrdə Hacı Vəli Bəktaşin məzarı yanında "Hacı Vəli Bəktəşi,

bəktaşilik və ozan aşıq sənəti” mövzusunda geniş elmi məruzə ilə çıxış etdim və bu səfər zamanı Qırşəhrdə Türkiyənin XIII əsrdə yaşayıb yaratmış şairi Yunis İmrənin məzarını ziyarət etdim. Dördüncü səfərim zamanı Qeysəriyyə, Yozqat və Sivas, beşinci və altıncı səfərlərimdə İqdır, Xorasan, Ərzurum, Qazıman, Qars şəhərləri ilə tanış oldum. Yeddinci səfərimdə Ankarada və Nevşəhrdə oldum və Hacı Vəli Bəktaş yubileyində çıxış etdim.

Bu səfərlər zamanı Yozqat, Şah İsmayıl və Sultan Səlim haqqında əfsanələr topladım, yaddaqalan şerlər yazdım.

Səkkizinci səfəri – yəni İpək yolu simpoziumunu onlarn heç biri ilə müqayisə edə bilmərəm. Dördgünlük simpoziumdan sonra beşinci gün Ağsaray şəhərinə avtobusla yola düşdük. Ankara – Konya yolu “Göl başı” adlanan gölün yanı ilə uzanıb gedir, göl duzlu olduğu üçün canlı yaşamır. 60 km uzunluğu olan bu göl Van gölündən sonra öz böyüklüyünə görə ikinci yerdə durur. Dərin yerləri 100 metri keçir. Ümumiyyətlə, Anadolu gölləri içərisində ən böyüyüdür. Gəlib Ağsaray şəhərinə çatdıq. Bura Orta Anadoludur. İhlara vadisində qədim Roma, Yunan mədəniyyətlərinin nişanələri bu gün də mühafizə olunub qorunur. Dünya xalqlarının mədəniyyətini bizcə, heç bir xalq belə qayğı ilə qoruyub yaşada bilməz. Dağların döşündəki kiçik kahalar elmi ədəbiyyatda abidə qalıqları kimi qeyd olunsa belə xalq onu “Pəri bacfları” deyə xatırlayır. Ağsarayla üz-üzə dayanan Həsən dağı ilə bağlı yerli sakinlərdən gözəl folklor örnəkləri topladım. Topladığım əfsanə və şerləri Türkiyənin məşhur folklorşünasları Saim Sakaoğlu, Doğan Kaya, Zeynalabdin Makas, Ocal Oğuz və başqaları yüksək qiymətləndirdilər və bunu xüsusi məharət saydılar. İki dərviş Həsən dağına gəlir, biri kəşkülünün (xurcunun) gözünü qarla-buzla, o biri isə qorla-közlə doldurur. Nə qar-buz ərimir, nə də qor xurcunu

yandırıb yerə tökülmür. Böyük və Bala Qoşqar kimi Həsən dağı da çataldır, hətta başı qarlıdır. Xalq arasında belə bir şer parçası da vardır:

Hasan dağı çatal-matal,
Arasında aslan yatar.

Hasan dağının nəğmələri, şərqiləri, əfsanələri bu deyilənlərdən ibarət deyildir. Yerli sakinlər iftixarla deyirdilər: İç Anadoluda Koroğlu, Qaracaoğlan, Dadaloğlu çox dolanıb, onların bu dağlarda izləri, ünləri qalıb.

Anadolunun hər yanında türkmən boyları, türkmən köyləri, karaman-türkmən tayfaları yaşayır. Yaşlılar yenə də əski geyimlərini qoruyub yaşadırlar. Qədim İpək yolu bu yerlərdən keçir.

Bu gün aşağıdakı sözlər bir el məsəli kimi səslənir:

İpək yolu kültür yolu,
İpək yolu ozan yolu.

Xalq Kültürlərini Araşdırma və Gəlişdirdirmə Genəl müdiri Yəhya Ağsoy bu beyti tez-tez iftixarla təkrar edirdi.

Mən bu beytə cavab olaraq, Azərbaycan türklərinə məxsus mənzum bir atalar sözünü dilə gətirdim.

Karvan keçər izi qalar,
Alim köçər sözü qalar.

Bizim bu Ata sözümüzü bəyənən və dəftərinə köçürənlər çox oldu.

İhlara vadisi (uzunluğu 15 km-dir), buradakı “Pəri bacaları”, Mələndiz çayı, Selime köyü Allahın və İnsanın möcüzəsidir.

Hasan dağı da bir möcüzədir.

Hasan dağı qarlı-buzlu,
Ətrafısa, gəlin-qızlı.

Daha başqa nümunə:

Hasan dağının ətəyi,
Burası bülbül yatağı.
Ozan oğlu düyün qurmuş,
Yoxmu bizə oxuntusu?

Bu şerlərin bədii cəhətdən mükəmməl olub olmaması şərt deyil, bizi düşündürən bu elatın öz dağına-daşına sonsuz məhəbbətidir. Bu bədii nümunələr sətir-sətir, misra-misra məhəbbətdən yaranmış, məhəbbətlə yoğrulmuşdur.

Hasan dağı hər annamın anılır,
Ayağından mor bənövşə yığılır,
Küz gələndə gözəllərin dağılır,
Sırtın yerə gəlsin yat, Hasan dağı.

Küz-payız, sırt-kürəyin mənalarında işlənmiş, Hasan dağına qarğışın özündə də bir səmimiyyət və doğmalıq duyulmaqdadır.

Aşıq dağlarda qurulu sazlar,
Çox olur gözəldə nöqtəli sözlər .
Ağ gərdən üstündə gül kimi üzlər,
Gəlin ağ bağlayır morun üstünə.

Və yaxud:

Şah Hasan dağının yazımı olur?
Suvalı evlərin tozumu olur?

Sevdiyinə varmayan qızların,
Vardığı Xocada gözümü olur?

Suvalı-suvaqlı mənasında işlədilən ifadədir. Şerin son beyti bir daha təsdiq edir ki, Dədə Qorqud söyü-şeri, deyim tərzləri, əski ifadələri Anadolu köylərində bu gün də öz arxaik formalarını xalqın dilində qoruyub yaşatmaqdadır.

Sevdiyinə varmayan qızların,
Vardığı Xocada gözümü olur?

Bundan sonrakı nümunələr də bir başqa şer örnəklərindən qopub qalmış bədii parça təsiri bağışlayır.

Hasan dağlarına qara gedəlim,
Heyvadan usandıq, nara gedəlim.
Buranın gözəli könül əyləməz,
Könül əyləyəcək yerə gedəlim.

İhlara vadisində, Selime köyündə çoxsaylı manilərə, yəni bayatılara rast gəldik.

Daş başında oturur,
Çıxmış qapı süpürür.
Sənin o baxışların,
Beni bir gün öldürür.

İhlara çitlik kibi,
Uzanar iplik kibi,
Şu İhlara qızları,
Xınalı kəklik kibi.

Küverçinin süd bəyaz,
Genə gəldi bahar-yaz,
Qurban olduğum allah,
Sevəni sevənə yaz.

Ara-sıra atmaca nümunələrinə də rast gəlmək olur.

Tirən gəlir yanaşır,
İçi dolu çamaşır,
Bu göyün qızları,
Erkək deyü ağlaşır.

Nərdivəli qırx ayaq,
Qırxında verdim dayaq.
Baxdım İhlaralı gəlir,
Yüyürdüm yalın ayaq.

Tirən-dəmir yoluna deyirlər. Rübai təsiri bağışlayan örnəklər də mövcuddür.

Evlərinin önü çimon, ta pinar,
Əlimi yumadan yüzlərim donar,
Oturub diz-dizə qonuşmayınca,
Quru salamlara könülmü qonar?

Üç misralı şer nümünələri ailə-məişət məsələləri ilə bağlı olmaqla yanaşı, gözəl hisslər aşılayır.

Səlvinin boyuna bağlı deyilim,
Vallah bekarım evli deyilim,
Al boxçanı, düş arxama gedəlim.

Və yaxud:

Sabah loyun doğar ülkər, tərəzi,
Bizəymişmi bu allahın qərəzi?
Qopardılar dalda bitən kirazı.

Türklər subay oğlana, qıza bekar, meyvəyə, xüsusən gilasa kiraz deyirlər.

Bütöv qoşmalardan, deyişmələrdən yaddaşlarda ilişib qalmış bəndləri də yazıya ala bildik.

Gəlin deyər: kaş gedəlim bazara,
İncə beli verdirərim hizara.
İki dəstə gül yolladım bazara,
Bilməm açılmışmı, solmuşmu?

Odun kəsənə, baltaçıya "hizar"deyərlər. "Bilməm açılmışmı, bilməm solmuşmu?" bədii sualı şerə xüsusi rövnəq vermişdir.

İhlara vadisində oxuyan bir dəstə qızın uzun-uzadı mahnısından bir parçasını dinləyib tuta bildim.

Bitər Qırşəhri, güllərin bitər,
Çırpınar dalında bülbüllər ötər.
Gülüm aman, aman,
Əfəndim aman, aman.

Aşıq Şərəf Daşdıoba gülə-gülə dedi:

- İhlara qızlarından mani toplayırsan. Gözəlin yaxşısı da sizin Gəncədədir, manisi də. Yaz bir mani də mən deyim. Onlar bayatıya mani deyirlər:

Əzizinəm gəncəli,
Aşiq, könlüm gəncəli.

Nerdə bir gözəl gördüm,
Sordum, dedi: gəncəli.

Ağsaraydan sonra Mövlana Muhammed Cəlaləddin Ruminin (1207-1273) vətəni olan Konyaya gəldik. "Mövlana Konya, Konya Mövlana deməkdir". Mövlana deyir: "Birləşin, mən bölməyə deyil, birləşdirməyə gəldim". Mövlana deyir:

"Şövkət və mərhəmətdə günəş kibi ol,
Başqalarının qüsurnu və ayıbını
örtməkdə gecə gibi ol,
Yardım və comərdlikdə axar su kibi ol".

Konyanın bəzəyi olan böyük Mövlana camesini gəzdik, buradakı qədim əşyaları, qılıncları, qalxanları, xalıları, çoxsaylı əlyazmalarını gördük, onun məzarını ziyarət etdik. Camenin ilk girəcəyində Mövlananın bu kəlamları yazılmışdır:

"Gəl, gəl, nə olursan gəl,
Kafir, bütpərəst, atəşə tapan
Yüz kərə tövbəni pozmuş
Məcusi olsan da gəl, olsan da gəl,
Bizim qapımız ümid qapısıdır, necəsən
öylə gəl".

Humanist mövqedə dayanaraq, Mövlana dini əqidəsindən, inamından asılı olmayaraq hər kəsin onun dərgahından qovulmasının əleyhinədir. Mövlanaya görə, insanı sevmək Allahı sevməkdir. Mövlananın fəlsəfi qənaəti belədir: "Olduğun kimi görün, göründüyün kimi ol".

Həmin axşam Mövlana Camesinin həyətində açıq havada "Səma təranələri"nə baxdıq. Mən bir neçə dəfə

Nevşəhrdə Hacı Vəli Bəktaşın “Səma təranələri”nə də baxmışam. Bunlar xeyli fərqlidir, Mövlanada musiqi sədaları altında rəqs edən dərvişlərdir, Bəktaşidə isə oğlanlar və qızlardır. Bəktaşidə saz, söz və rəqs var. Mövlanada isə ilahiyə can atmaq güclüdür.

Konyadan sonra Ağ şəhərə gəldik. Burada Xoca Nəsrəddinin məzarını ziyarət edib, yubiley toplanışına yollandıq. Burada mən də çıxış etdim. Nə qədər düzdür, bilmirəm. Koroğlu ilə Xoca Nəsrəddini müqayisə etdim. Dedim ki, harada güc var, qılınc var, orada türk soyundan olan Koroğlu var, harada ağılın, zəkanın qələbəsi var, orada Xoca Nəsrəddin var.

Gecə Sultan dağının qoynunda yerləşən Hoteldə qaldıq. Hər uca dağın başı qarlı olur. Sultan dağı belə deyil, onun başı da, döşü də yamyaşıl ormanlıqdır. Sultan dağı məni ilhama gətirdi, üçbəndlik bir gəraylı yazdım, onun ilk haçabeytini nümunə verirəm.

Qarlı dağlar həsəd çəkər,
Yaşıl orman Sultan dağı.
Hər daşında bir gül bitər,
Dərdə dərman Sultan dağı.

Həmin günü Poladlı şəhərinə gəldik və öynə (günorta) yeməyini orada yedik.

Günün ikinci yarısında Atatürk mavzoleyinə ziyarətə gəldik. Burada Atatürkə həsr etdiyim şeri söylədim.

Bülbül tək sızlaram gül budağında ,
Üç gözəlim qalır türk torpağında.
Yaşılirmaq, Qızılirmaq, bir də sən.

Həsənim boylanar, hürdağa baxar,
Üç gözəl canımı yandırar, yaxar,
Sinopda Sinopə, Hürqız, bir də sən.

Ürəyimdə amanım var, ahım var,
Üç ilahi sevgim-bəndərgahım var,
Hacı Bəktaş, Pir Sultanım, bir də sən.

Yerimdi, göyümdü, yeddi qatımdı,
Mənim görən gözüm, kainatımdı,
Tək Allahım, Atatürküm, bir də sən.

Şer hamının diqqətini cəlb etdi, həmin günün səhəri onu mətbuat səhifələrində gördüm.

İki gün tanınmış folklorşünaslarla ayrı-ayrı janrlar barədə, xüsusilə aşıq sənəti haqqında söhbətlərimiz, mübahisələrimiz oldu.

Türk aşığı şagirdə çıraq, deyişməyə atışma deyir. Qarslı Aşıq Murad Çobanoğlu bildirdi ki, keçmişdə bəylər, xanlar aşıq saxlarmış, kimin aşığı atışmada, çox dastan bilməkdə, ifaçılıqda üstünlük qazanarmışsa, onun ağası o gecənin, toyun-düyünün ağsaqqalı – dədəsi, rəhbəri olarmış. Azərbaycanda isə Gəncədə XVI əsrdə Dədə Yediyarla Dirili Qurbaninin tarixi deyişməsindən sonra Gəncəbasarda çox dastan bilən, sözə, saza bələd adamlar aşıq məclislərində Dədə Ozan olmuşlar. Əsrin əvvəllərinə qədər Gəncəbasarda soruşarlarmış: «Bu gecənin dədəsi kim, ozanı kim?».

Axırda söhbət «Yaralı Mahmud», «Mahmud və Nigar» dastanları üzərinə gəldi. Bu dastanların Türkiyədə müəyyən variantları nəşr olunmuşdur. Bu dastanlar haqqında tədqiqatlar da var. İstər aşıqlar, istərsə də, araşdırıcılar «Yaralı Mahmud» dastanı ilə «Qul Mahmud» dastanlarının süjet xəttini bir-birinə qarışdırır, hətta bəzən süni surətdə birləşdirirlər. «Yaralı Mahmud» dastanı İstanbullu Mahmudla gəncəli Məhbub xanım arasında olan cəngdən, savaşdan və məhəbbət macərasından bəhs edir. Daha doğrusu, bu macəra coğrafi ərazi olaraq İstanbulla Gəncə arasında tamamlanır.

«Yaralı Mahmud» dastanının müxtəsər süjet xətti, qısa məzmunu belədir: İstanbul Sultanı eşidir ki, Gəncə xanının iki Şöyçıraq daşı var, gecələr sarayı işıqlandırır. İstanbul Sultanı deyir ki, ən azı o iki Şöyçıraq daşından biri mənim sarayıma gəlməlidir. Lakin işin bir çətin tərəfi var, Gəncə xanının Məhbub adlı pəhləvan qızı var, ona yaxın düşmək çətindir. Öyrənirlər ki, İstanbulda Mahmud adlı bir çayçı köməkçisi var. Mahmud yaraqlanıb bir dəstə atlı ilə Gəncəyə gəlir. Məhbub xanımla qılıncla, sazla-sözlə deyişib, Mahmud qalib gəlir. Şöyçıraq daşının birini və Məhbub xanımı götürüb, İstanbula yola düşür. Məhbub xanım Gəncə dağlarından ayrılarkən qəhərlənib üç qatar «Gəncə» rədifli qoşma söyləyir. Biz həmin qoşmanın ilk haçabeytini nümunə veririk:

Əylən, Mahmud, əylən iltimasım var,
Açılıb nərgizi, gülü Gəncənin.
Yar gəzən torpaqlar cənnətə dönsə,
Heç çıxmaz yadımdan eli Gəncənin.

Qaraman dağında bir qarı ovsun edib Mahmudu Məhbubun gözündə əcayib, qorxunc bir şəklə salır. Məhbub qılıncla Mahmudu yaralayıb Gəncəyə qayıdır. Bundan sonra dastanın dəhşətli səhnələri davam edir. Qaraman dağında onu yaralı tapan bəzirgan qızı Nərgizə Mahmud belə deyir:

Günortaynan ilkindinin çağında,
Bir gül bitmiş nazlı yarın bağında,
Viran qalmış Qaramanın dağında,
Bir qız yaraladı, yaram var mənim.

Günortaynan ilkindinin arası,
Yıxdı məni qaşlarının qarası,

Qılınc, yoxsa, bilməm, xəncər yarası,
Bir qız yaraladı, yaram var mənim.

Mahmud da bu qışı burda qışladı,
Yaralarım göz-göz oldu, işlədi,
Qan qurudu, can çıxmağa başladı,
Məhbub yaraladı, yaram var mənim.

Bu qoşmanı Konyada qarslı aşıq Mürad Çobanoğlundan yazıya aldım. Lakin «Yaralı Mahmud» dastanını bütövlükdə Ağbabalı Aşıq İsgəndər mənə vermişdir.

Şerdə «Günortaynan ilkindinin arası» günorta ilə axşamın arası mənasında işlənir.

Dastanda faciəli, kədərli səhnələrin, epizodların olmasına baxmayaraq xoş sonluqla bitir.

**Müxbir: - Türkiyədə nəşrlə bağlı nə kimi uğurlarınız olub?**

S. P. P: - Mən Türkiyədə çap olunmuş yazıları dəqiqliyi ilə oxuculara çatdırmaq istəyirəm. Məsələn:

1. Azəri-qazax əfsanələrində bənzərliklər, «Milli folklor» jurnalı, 1991, № 10.
2. Türk xalqlarında ozan-aşıq sənəti və onun milli xüsusiyyətləri, «Yeni düşüncə» qəzeti, 13 iyul, 1991.
3. Türk xalqlarında aşıq ənənələri bağlantıları, «Yeni düşüncə» qəzeti, 27 iyul, 1991.
4. Qazax folkloru haqqında , «Milli folklor» jurnalı, 1992, № 13.
5. Ozan-aşıq məktəbləri haqqında qeydlər, «Milli folklor» jurnalı, 1992, № 15.
6. Heca vəznli şer və mənzum atalar sözləri, «Türk dünyası» jurnalı, 1992, № 1.
7. Hacı Bəktaş Vəli, Bəktaşilik və ozan-aşıq sənəti, «Xalq ozanlarının səsi» jurnalı, 1993, № 2.

8. Türk xalqlarının ozan-aşıq sənətinin əski və çağdaş durumu, «İpəkyolu uluslararası xalq ədəbiyyatı simpoziumu» (tezislər), Ankara, 1-7 iyul, 1993.

Bundan əlavə, Türkiyədə çıxan «Xoca təpə» və «Kurses» qəzetlərində əlliyə yaxın şerim çap olunmuşdur. On beş çap vərəqi həcmində «Azərbaycan xalq əfsanələri» kitabımı professor Mühsine Helimoğlu Yavuz altı çap vərəqi həcmində «Pirsultan bulağı» adlı şer kitabımı isə kültür bakanlığı çapa hazırlamaqdadırlar.

«İpəkyolu uluslararası xalq ədəbiyyatı simpoziumu»ndakı elmi məruzəmə görə, Türkiyə Cümhuriyyəti Kültür Bakanlığının «Teşekkür belgesini» almışam.

Türkiyədə çıxan «Milli folklor» və «Dost-dost» jurnallarının redaksiya heyətində Azərbaycan təmsilçisiyəm.

İpəkyolu simpoziumundan sonra yenə də Türkiyənin Sivas bölgəsinə Aşıq Veysəlin yubileyinə dəvət olundum.

Aşıq Veysəlin «Milli folklor» və «Dost-dost» jurnallarına Məhərrəm Cəfərov da Naxçıvan təmsilçisi kimi daxil olmuşdur.

Aşıq Veysəlin poeziyasında özünəməxsusluq və qeyri-adilik» mövzusunda çıxış etməyə getdim.

Türkiyədən Qaracaoğlanla bağlı yeni dəvət almışam. Yeri düşmüşkən onu da xəbər verim ki, Türkiyədə və Azərbaycanda çap üzü görməmiş aşıq-şair Qaracaoğlanın dastan və hekayələrini toplamışam.

«Qaracaoğlan və Azərbaycan» mövzusunda yeni tədqiqat işi üzərində çalışıram.

**Müxbir: - Türkiyə torpağında yaddaşınıza iz salan hansı yerlər, çaylar, dağlar oldu?**

S. P. P: - Araz, Yaşılirmaq, Qızılirmaq, Selime, Daşlı (ikinci adı Dəli Əmrah) çaylarını, Ağrı, Hasan dağı və Duzluca köyünün üst yanındakı Quşqonmaz dağlarını çox yaxından seyr etmişəm.

Ağrı şəhəri Ağrı dağından xeyli aralıdır, Ağrı dağının vadisində yerləşən Doğu Bayazitdir. Duzlucada yollar boyunca Ayçiçəyi tarlalarına rast gəldim, türklər günəbaxana Ayçiçəyi deyirlər. Daşlı çayın Ağrı şəhərinin bərabərindən axan hissəsinə Dəli Əmrah çayı deyirlər. Əfsanəyə görə, Aşıq Əmrah axşam-sabah bu çayın sahilində saz çalıb oxuyanda çay coşub dəlilik edərmiş. Deyirlər, o vaxtdan bu ərazidə yaşayan əhali ata-babalarının dili ilə Daşlı çaya Dəli Əmrah deyirlər.

**Müxbir: - Müsahibəniz üçün sağ olun. Sizə uğurlar diləyirəm.**

*"Yüksəliş" qəzeti,*
*5 sentyabr, 21 oktyabr,13 noyabr,*
*1993-cü il.*

# «Çeşmə» necə yarandı?

«Çeşmə»nin ünvanına daha bir şad xəbər gəldi: ikinci respublika xalq yaradıcılığı festivalının Kirovabad üzrə zona baxış-müsabiqəsində «Çeşmə» folklor teatrı birinci yerə çıxmışdır.

Bu teatrın təşkili rejissor Hilal Həsənovla mənə tapşırılmışdı.

Çox düşündük, daşındıq, adını «Çeşmə» qoyduq. İndi isə bu çeşmənin «gözünü» tapmaq, orijinal proqram seçmək lazım idi. Otuzillik folklor arxivimi araşdırdıq. Nisbətən az səslənən bayatılardan, unudulmaqda olan xalq mahnılarından, ən kövrək aşıq qoşmaları və ozan söyləmələrindən nümunələr toplanmış qovluqları açdıq. Göyçədə, Borçalıda, Tovuzda, Şirvanda, Muğanda, Qarabağda, Dərbənddə, Aşqabadda maqnitofon lentinə köçürülmüş nadir qopuz və saz havalarını səsləndirdik.

Məqsəd sazla sözün vəhdətini yaratmaq, itib-batmaqda olan oxuma və söyləmələri, milli rəqsləri, nadir sənət nümunələrini bugünkü nəslə çatdırmaq idi. Belə qərara gəldik ki, folklor teatrının ana xəttində qızlar xoru dayansın. Bəs, xor özünü səhnədə tamaşaçılara necə təqdim etsin? Bunun üçün ümumi giriş sözü, proloq hazırlandı:

«Çeşmə» gəlir, «Çeşmə» gəlir,
Ayaq saxla, keçmə, gəlir.
«Çeşmə» hara çeşməsidir?
«Çeşmə»lərin seçməsidir.
Elin incə «Çeşmə»sidir.

Bəs ifaçılar? «Çeşmə» ilk gündən Kirovabad Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinin taleyinə yazıldı. Lap az vaxtda elə gözəl ifaçılar

yığışdılar ki… Kimi saz çalır, kimi söz deyir, kimi rəqs edir, kimi də oxuyur. Bu qoşub-düzmə dövründə hərə bir yandan əlimizdən tutdu – qədim sənət biliciləri, geyim ustaları, aşıqlar, rəssamlar. Ən qabil gənclərdən ikisini aparıcı seçdik.

…Aparıcıların hərəsi bir misranı deyə-deyə səhnəyə çıxır. «Çeşmə»nin üzvləri ayrı-ayrılıqda həmin günkü proqrama uyğun bayatı söyləyib, öz yerinə keçirlər. Sonra birgə ifada «Kərəm çeşməsi» çağlayır. Süjetli mahnılar ipə-sapa düzülür – «Çənlibellər yerindəmi?» mahnısı, daha doğrusu, səhnəsi.

Beləcə «Çeşmə» az vaxtda tanındı, özünə xeyli pərəstişkar tapdı. Onun səhnəsi gah Kirovabad Dövlət Dram Teatrı oldu, gah avtomobil zavodunun inşaat meydançası. Alqışlar gah Qasım İsmayılov rayonunun pambıq tarlalarından yüksəldi, gah da Xanlar rayonunun üzüm bağlarından… Bir gün «Çeşmə» «Ozan»ın da qonağı oldu, sədası mavi ekrandan gəldi.

Bir neçə il bundan əvvəl isə Bakıda, bədii özfəaliyyət kollektivlərinin baxış-müsabiqəsində uğurlu çıxışına görə Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyi və Sahə Həmkarlar İttifaqı Respublika Komitəsinin Fəxri - fərmanı ilə təltif edildi.

Kəndlərdən, qəsəbələrdən «Çeşmə»yə təzə dalğa-səhnə həvəsli oğlan və qızların yeni-yeni dəstələri gəlir. Çoxdu belə arzulu-istəkli gənclər.

İndi Böyük Oktyabrın şanlı yubileyinə hazırlaşırıq. Bayram şərəfinə zəngin proqram tərtib olunur. Bəzi nömrələr bəllidir. «Səhərim sülh nəğməsidir», «Bu bayramda», «Partiya», «Mənim dünyam» və «Gülər» rədifli müxəmməs. Ümumən «Oktyabr-70» konsert-tamaşa proqramı beş yaşlı «Çeşmə»nin ən məsul hesabatı olacaq.

*«Kommunist» qəzeti, 19 fevral, 1987-ci il.*

# «Elin söz ocağı»

Dağ döşündəki idman zalı və ona doğru gedən yollar bayramsayağı bəzədilmişdi. Qara zurnada çalınan «Koroğlu cəngisi» altında adamlar bölük-bölük idman salonuna dolurdular. Musiqiçilər və şənlik iştirakçıları öz yerlərini tutdular. Hamı həyəcanlı idi. Üzlərdən sevinc oxunurdu. Daşkəsən Rayon Partiya Komitəsinin birinci katibi A. M. Alıyev yoldaş məclisin iştirakçılarını təbrik etdi və dedi:

-Məlumdur ki, V. İ. Lenin xalqın şifahi söz sənətinə, onun zəngin yaradıcılığına böyük qiymət verərək göstərirdi ki, o, öz kökləri ilə geniş xalq kütləsinin ən sıx təbəqələri arasında yayılmalıdır. Bu yaxınlarda öz işini müvəffəqiyyətlə başa çatdırmış Azərbaycan Kommunistlərinin XXXI qurultayı zəhmətkeşlərin asüdə vaxtının səmərəli keçirilməsini, adamların mənəvi dünyasını zənginləşdirməyi, onların hərtərəfli ahəngdar inkişafına real təsir göstərən yeni adət və ənənələrin geniş təbliğ edilməsini nəcib bir məqsəd kimi irəli sürmüşdür. Bu gün dağlar diyarı Daşkəsəndə keçirilən «Elin söz ocağı» folklor məclisi belə məqsəd daşıyır. Azərbaycan xalqının bədii idrakının, ictimai fikrinin tükənməz sərvəti olan, Aşıq Ələsgərin, Şair Cavadın insanları azadlığa, vətənpərvər-liyə, ədalətə və mənəvi təmizliyə səsləyən kəlamları, şerləri bu günkü məclisin əsas leytmotivinə çevriləcəkdir. Yoldaşlar, icazə verin «Elin söz ocağı» folklor məclisini açıq elan edim.

Ocaq müqəddəsdir. Atalar,-ocaq başına –deyiblər. Bu gün Daşkəsən dağlarında keçirilən «Elin söz ocağı» folklor şənliyinin rəmzi mənası da buradan götürülmüşdür.

Ötən yazda keçirilən «Saz-söz» bayramının davamı kimi meydana çıxan «Elin söz ocağı» folklor şənliyi öz məzmunu və zənginliyi ilə tamamilə fərqlənirdi. Belə ki, «Elin söz ocağı» məclisi başdan-başa yerli folklor

materialları və motivləri əsasında qurulmuşdu. İdman zalının tərtibi də göz oxşayırdı. Yerli rəssamlardan Libarit Məmmədovun, Muradxan Həsənovun və başqalarının çəkdikləri şəkillərlə divarlar bəzədilmişdi. Bir tərəfdə əkin alətləri, xış, kotan, at yəhəri, kirkirə, bir tərəfdə hana, üstündə əriş, arğac, çiçəkləri xatırladan ilmələr, həvə, kirkid və digər əşyalar düzülmüşdü. Bütün tamaşa boyu mərkəzdə daim alovlanan ocaq və Dədə Çoban dayanırdı. Ayrı-ayrı deyişmələr, haxıştalar, gülüm heylər, rəqs və yallılar, bayatılı oğlan-qız deyişmələri ürəkləri riqqətə gətirirdi.

Daşkəsən dağlarında «Dədə Qorqud» boyları ilə, eləcə də «Koroğlu» eposu və Koroğlu dəliləri ilə bağlı, məşhur yer adları mövcuddur. Məsələn, hazırda Daşkəsən şəhəri salınmış yerin adı Çənlidağdır, Nigar yatan tala bu dağa yaxın ərazidir. Uzaqdan baxanda adama elə gəlir ki, orada Nigar yatıb, ağ kəlağayı çiynindən yerə sürüşüb, sol yanında isə Koroğlu çiynində yapıncı Nigara keşik çəkir. Belə deyirlər ki, Koroğlu yurdu başdan-başa gəzərmiş, «qüdrətdən səngərli, qalalı dağlardan» hansı xoşuna gəlsə o yeri dəlilərdən birinə tapşırarmış. Xalqın söylədiyi əfsanəyə görə Qoşqar dağına ona görə Dəli Qoşqar deyilir ki, o Koroğlu dəlilərindən biridir. Məclis də deyilən bayatılardan biri də həmin fikri ifadə edir:

Haray, Dəli Qoşqarım,
Saxla eli, Qoşqarım.
Koroğlunun dəlisi,
Vuran qolu Qoşqarım.

Məlumdur ki, Əmən «Kitabi Dədə Qorqud»da adı çəkilən Oğuz igidlərindən biridir. Zağalı kəndi yaxınlığında «Əməni bulağı» (yerli camaat onu «Amanı bulağı» şəklində işlədir), Xoşbulaq yaylağında «Əməninin düzü» (onu da Həməninin düzü şəkilində işlədirlər) və başqa yer adları bu

Oğuz qəhrəmanının adı ilə bağlıdır. Bundan əlavə Pirsultan dağının, Quşqara çayının axarındakı Kəndir qayalarının, Durnalı yaylağındakı Qara inək zağasının, Xoşbulaq yaylağındakı Çoban daşı və başqa yerlərin özünəməxsus yaddaşlardan silinməyən əfsanələri vardır.

Ozanlar ozanı Dədə Qorquddan sonra XVI-XVII yüzilliklərdə qədim Gəncədə ozanların son nümayəndəsi Dədə Yediyar, Dərbənddə Dədə Qürbət, Dədə Heykəlli, Dədə Gügü (bəlkə də Dədə Güzgü), dağlarda isə Dədə Çoban elin sözünə rəvac vermiş, ozan və aşıq sənətinin müştərək inkişafında iştirak etmişdir. Hətta bəzi folklor biliciləri Dədə Çobanı «Novruz və Qəndab» dastanının yaradıcısı hesab etmişlər. Əsrimizin əvvəllərinə qədər yerli aşıqlar ozanlara hörmət əlaməti olaraq məclisin başında bir el ağsaqqalı əyləşdirər və onu həmin gecənin ozanı adlandırardılar. Məsələn, qədim Gəncədə keçirilən aşıq məclisində soruşardılar: «Bu gecənin Ozanı kim, Dədə Yediyarı kim?». Dağlarda keçən aşıq məclislərində isə soruşardılar: «Bu gecənin Ozanı kim, Dədə Çobanı kim?». Yaşı səksəni keçmiş , yarım əsrdən artıq bu dağlarda aşıqlıq etmiş aşıq Bəylər də həmin qaydada məclislər keçirildiyini yaxşı xatırlayır. Bütün bunları qeyd etməkdə məqsədimiz odur ki, elin söz ocağı üçün od və Dədə Çoban təsadüfi seçilməmişdir. Qoy qışda da ağ qara bürünmüş Daşkəsən dağlarında, sənətin, sözün ocağı yansın, ocaq başında Dədə Cobanın nəvə-nəticələri qalsınlar, oxusunlar, rəqs etsinlər.

Yurdumuzun hər guşəsində Qaçaq Nəbi, Qaçaq Kərəm kimi Koroğlu nəvələri yaşamış, eləcə də dodağı gülüşlü Molla Nəsrəddin nəvələri olmuşdur. Daşkəsən dağlarında öz bəzəmələri, lətifələri ilə eldə tanınan Dəvral Ələsgər, Karağan Usuf yaşamışdır. «Elin söz ocağı» məclisində Ənvər Verdiyev onların lətifələrindən bir neçəsini məclisə çatdırdı, gülüş doğurdu.

Aşıq Məhəmməd Ayrım İsmayıl haqqında məlumat vermiş və qoşmalarını ifa etmişdir. Aşıq İlyas, Aşıq Mahmud, Aşıq Mürvət, Aşıq Sovqat və başqaları şair Cavadın qoşma və gəraylılarını yüksək məharətlə oxumuşlar. «Sarıtel» qızlar ansamblı Aşıq Bəstinin gəraylılarını səsləndirmişdir. Nəcibənin, Leylanın və Şövkətin ifasında Aşıq Bəstinin şerləri dağ çayını xatırladırdı. Firəngizin söylədiyi «Daş gəlin», Məryam Qurbanovanın söylədiyi «Çoban dağı» şerləri Bəstinin yaradıcılığını tamamladı.

«Daşkəsən bülbülləri» oğlanlardan ibarət aşıq ansamblının üzvləri Mahir, Arif, Qardaşxan xüsusi diqqət mərkəzində idilər. Texniki peşə məktəbinin şagirdi Bəhruz Həsənovun barmaqları ilə çaldığı «Sarı Bülbül», «Yanıq Kərəmi» havaları bir möcüzə kimi səslənirdi. Heç bir çalğı aləti olmadan o, barmaqları ilə neylə qaboyun qarışıq səsini ala bilirdi. İstər «haxışta», istərsə də «Gülüm hey…» mahnı rəqslərində S. Vurğun adına məktəbin və Bayan kənd orta məktəbinin şagirdləri xüsusi fəallıq göstərirdilər. Orta məktəb şagirdi Gülzar mahnı – rəqslərin parlaq ulduzu kimi çıxış edirdi. Firəngiz Qəribovanın oxuduğu şux «Sarıyaylıq» mahnısı zalı hərəkətə gətirdi. Hamını kütləvi şəkildə rəqsə cəlb etdi. Xalq çalğı alətləri ansamblı da bu məclisdə yeni maraqlı mahnı və rəqslərlə çıxış etdi. «Qoşqar» ədəbi birliyinin ocaq başına gəlişi alqışlarla qarşılandı. Saleh Qurbanov, Namazalı Paşayev, Vaqif Vüqar, Ramiz Çıraqlı, Fərhad Alıyev, Oqtay Abdullayev, Nəsrəddin Verdiyev, Sahib Əhmədov, Nuran Kərimov sosialist Daşkəsəninə və onun əməkçilərinə həsr etdikləri şerləri oxudular.

Yurdumuzun müxtəlif guşələrindən el şənliyinə gəlmiş qonaqlar adından respublika radio və televiziya verilişləri komitəsinin solisti Xədicə Abbasova Daşkəsən zəhmətkeşlərini «Elin söz ocağı» folklor şənliyi münasibəti ilə təbrik etdi və bir neçə mahnı oxudu. Rayon partiya

komitəsinin birinci katibi A. Alıyev yoldaş məclisin sonunda hamını təbrik etdi, el şənliyinə gəlmiş qonaqlara öz minnətdarlığını bildirdi.

«Koroğlu cəngisi» ilə başlanan «Elin söz ocağı» folklor şənliyi zurnada çalınan «Koroğlu cəngisi» ilə tamamlandı. Ona görə də adamlar məclisdən qol-qola, müsiqi sədaları altında rəqs edə-edə, mahnı oxuya-oxuya ayrıldılar.

*«Daşkəsən» qəzeti,*
*18 fevral, 1986-cı il.*

## Gənc ozanların müsabiqəsi

Martın 30-dan aprelin 5-nə qədər şəhərimizdə Zaqafqaziya, Qazaxıstan, Orta Asiya və Dağıstan xalqlarının gənc ozanlarının müsabiqəsi keçiriləcəkdir. Bu müsabiqəni keçirməkdə əsas məqsəd «əsrlər boyu davam edən ənənələrin epik irsini bütün gözəlliyi ilə qoruyub saxlamaq»dan ibarətdir.

Bu müsabiqədə gənc istedadlar; oxuyanlar-aydımçılar, ifaçılar – saz və dütar çalanlar, dastançılar üzə çıxarılacaqdır. Gənc ozanlar müsabiqəsində aşıq, baxşı, akın, qusan sənətinin gözəl ifaçıları ilə tanış olacağıq. Biz öyrənə biləcəyik ki, müasir dövrdə gənc ozanların saza, sözə və dastana münasibəti necədir, ayrı-ayrı regionlarda ifa tərzi, oxuma üslublarının oxşar və fərqli xüsusiyyətləri hansı şəkildə özünü göstərir.

Müsabiqənin xeyirli cəhətlərindən biri də o olacaq ki, «müxtəlif xalqların ozanları arasında yaradıcılıq əlaqələri» bir daha güclənəcək, bu sınaq meydanının nəticələri bir növ, həm də geniş təcrübə mübadiləsi etməyə şərait yaradacaqdır.

Üçüncü Ümumittifaq xalq yaradıcılığı festivalı çərçivəsində Zaqafqaziya, Qazaxıstan, Orta Asiya və Dağıstan xalqlarının gənc ozanlarının müsabiqəsi haqqında Əsasnamə qəbul edilmiş və orada müsabiqənin məqsəd və vəzifələri öz əksini tapmışdır.

Müsabiqədə yaşı qırxdan yuxarı olmayan ifaçılar iştirak edəcəklər. Bizə görə, imkan daxilində gənc ozanların ustadlarının da müsabiqənin gedişinə baxmağa gəlmələri vacibdir.

Əsasnamədə deyildiyi kimi, müsabiqə iştirakçıları-nın hər biri birinci dövrədə qəhrəmanlıq eposundan, ya da lirik-epik dastandan bir fraqment- parça, hissə (15 dəqiqəyə

qədər davam edən) ifa etməlidir. Əgər həmin regionda ansambl formasında müşayiəti ənənəvidirsə, (misal üçün Azərbaycanda: Şirvan-Muğan, Gəncə-Tovuz regionlarında) onda müsabiqənin çıxışını ansambl müşayiət edir. (Burada ansambl müsabiqəçilərinin yaşı nəzərə alınmır).

Əsasnamədə qeyd olunmasa da, bir məsələni də xatırlatmaq lazımdır ki, Azərbaycan aşıq ifaçılığının zənginləşməsində neyin-balabanın rolu olduğu kimi, türkmən baxşısının ifaçılığının kamilləşməsində də qıjakın (kamançanın) xüsusi rolu olmuşdur. Qıjakı ilk dəfə baxşı ifaçılığına Taşauz baxşısı gətirmişdir. Təxminən XIX əsrin başlanğıcında Taşauz baxşısının istifadəsində olan qıjak həmin əsrin ikinci yarısında Marı, XX əsrin əvvəllərində isə Göytəpə baxşısının ifaçılıq sənətinə daxil olmuşdur.

Bununla, onu demək istəyirəm ki, bizim Şirvan-Muğan, Gəncə-Tovuz zonalarında olduğu kimi, türkmən baxşı ansamblları da mövcuddur.

İkinci dövrəyə buraxılan müsabiqəçi (qonşu respublikalara da aiddir) əvvəlcədən təşkilat komitəsinə göndərilən ənənəvi motivlərdən ibarət siyahıda münsiflər heyəti tərəfindən seçilmiş bir aşıq mahnısı və instrumental hava ifa edilməlidir.

Müsabiqədə bu və ya digər respublikanın ərazisində yaşayan bütün xalqların, millətlərin və milli azlıq təşkil edən xalqların ozanları iştirak edə bilərlər.

Müsabiqənin proqramına görkəmli elm, incəsənət, ədəbiyyat xadimlərindən, ustad aşıqlardan ibarət münsiflər heyəti qiymət verəcəkdir.

Müsabiqə üçün üç mükafatlı yer təsis edilmişdir: bir –1-ci mükafat, iki – 2-ci mükafat, üç – 3-cü mükafat. Bundan başqa, müsabiqə iştirakçıları üçün əlavə mükafatlar və xatirə hədiyyələri nəzərdə tutulmuşdur.

1989-cu ilin mart-aprel aylarında Kirovabad şəhərində (üçüncü Ümumittifaq xalq yaradıcılığı festivalı

çərçivəsində) Zaqafqaziya, Qazaxıstan, Orta Asiya və Dağıstan xalqlarının gənc ozanlarının müsabiqəsini keçirməyi Azərbaycan SSR Mədəniyyət Nazirliyi Kollegiyası, AHİŞ və Azərbaycan LKGİ MK qərara almışlar.

Şəhərimizin gənc ozanları! Müsabiqədə fərqlənmək üçün bu saz-söz sınağına ustad aşıqlarımızdan Qurbani, Abbas, Xəstə Qasım, Aşıq Valeh və Dədə Ələsgər kimi gəlin. Onların adlarına layiq çalıb çağırın, saz-söz meydanında üzü dönməz olun!

*«Kirovabad kommunisti» qəzeti,*
*17 mart, 1989-cu il.*

# Dastan yaradıcılığı məsələləri

Azərbaycan dastanlarının təsnifatını aparan akademik H. Araslı bunları iki qismə ayırmışdır: qəhrəmanlıq dastanları, məhəbbət dastanları.

Yaradıcılığının çox hissəsini orta əsrlər məhəbbət dastanlarının tədqiqinə həsr edən professor M. H. Təhmasib isə dastanları əsasən üç yerə bölmüşdür: Qəhrəmanlıq dastanları, məhəbbət dastanları və ailə-əxlaq dastanları.

Lakin dastanların mövzusuna və tipinə görə təsnifatını aparmaqla yanaşı, onlarn yaranmasına görə də bölgüsünü aparmaq lazım idi. Bizcə bu bölgüyə əsasən dastanları iki yerə ayırmaq lazımdır: real tarixi dastanlar, xəyali dastanlar. Məsələn, «Qurbani», «Abbas və Gülgəz», «Xəstə Qasım», «Valeh və Zərnigar» dastanları real tarixi dastanlardır. Bu dastanların əsas qəhrəmanları olan Dirili Qurbani də, Tufarqanlı Abbas da, Xəstə Qasım da, Abdalgülablı Valeh də tarixi şəxsiyyət olmaqla yanaşı, onların yaşayıb yaratdıqları əsrlər də, yerlər də məlumdur. O da məlumdur ki, onların öz adları ilə bağlı dastanlar həmin sənətkarların həyat macəraları, qoşma və gəraylıları əsasında yaradılmışdır. Daha konkret desək, bu dastanların yurdu var, üstündə tarixi möhürü var.

Lakin eyni sözləri «Novruz», «Şah İsmayıl», «Nəcəfxan», «Alıxan və Pərixanım», «Dilsuz və Xəzəngül», «Məsim və Diləfruz» dastanları haqqında demək olmaz. Çünki bunlar qədim epos və dastanlardan, ən əsaslısı nağıllardan istifadə yolu ilə yaradılmış xəyali dastanlardır. Bunlar bir fərddən çox, bir neçə fərdin, hətta neçə-neçə ozan və aşıq kollektivlərinin yaradıcılıq məhsuludur. Bu dastanların mükəmməl yurdu olmadığı kimi, burada bir sənətkarın da dəst-xətti yoxdur.

Azərbaycan eposunun dastan yaradıcılığı mərhələsində də əsatir və əfsanələrdən az da olsa, istər xəyali, istərsə də real tarixi dastanlarda istifadə olunmuşdur. Məsələn, xəyali dastan olan «Nəcəfxan»da Nəcəf tilsimə düşür, daşa dönür, həmin daşa göyərçin qanı töküldükdən sonra insana çevrilir.

Real tarixi dastanlar olan «Qurbani» dastanının əsas qəhrəmanı Qurbaninin bircə ahı ilə göyə qara bulud gəlir, göy gurlayır, şimşək çaxır, bu tufandan qara vəzirin ev-eşiyi yerlə-yeksan olur. Abbası zəhər quyusuna salırlar, onun məhəbbət şərbəti içmiş nəfəsi zəhəri xoş ətirli gülaba çevirir.

Əlbəttə, bir qayda olaraq, əsrdən-əsrə dastanla-rımız real tarixi hadisələrlə bağlandıqca, əsatir və əfsanələrə müraciət azalmış, xəyali dastanlar əvəzinə, yurdu olan irihəcmli qəhrəmanlıq və məhəbbət dastanları əvəzinə, «Aşıq Alının Türkiyə səfəri», «Çoban Məhəmmədin Qars səfəri» kimi kiçikhəcmli qollar, «Qaçaq Kərəm», «Qandal Nağı», «Qara Tarıverdi» kimi tarixi qəhrəmanlıq dastanları yaranmağa başlanmışdır.

Real tarixi qəhrəmanlıq dastanlarında zaman və məkan qeyri-müəyyən deyildir. Real tarixi dastan kimi tanıdığımız «Qurbani» dastanının qəhrəmanı Qurbani Qaradağ mahalının Diri kəndindəndir və butası Pəri isə Gəncə şəhərində yaşayır. «Abbas və Gülgəz» də Abbas Təbrizin Tufarqan mahalındandır, sevgilisi Gülgəz Pəri Təbrizdəndir. Xəstə Qasım Tikmədaşdan Dağıstana, Aşıq Valeh Qarabağdan Dərbəndə səfər edir.

Xəyali dastanlarda isə vəziyyət dəyişir. Azərbaycan nağıllarında olduğu kimi, bu tipli dastanlarda qəhrəmanlar daha uzaq, qeyri-müəyyən istiqamətlərdə yad ölkələrə gedib çıxır. Məsələn, «Lətif şah», «Məsim və Diləfruz», «Alıxan», «Nəcəfxan» dastanlarının qəhrəmanlarını tale bilmədiyi, görmədiyi ölkələrə aparır, nağıllarda olduğu kimi, bunların başına olmazın oyunlar gəlir. Aydınca görünür ki,

eposlarda və qəhrəmanlıq dastanlarında özül, bünövrə əsatir və əfsanə, real tarixi dastanlarda isə söz-söhbətlə, qoşma və gəraylılarla əlaqədar düzəldilmiş yurdlar, xəyali dastanlarda isə nağıl əsas olur. Aşıq real tarixi dastanda söz yurdundan, söz yurduna, xəyali dastanda isə ölkədən-ölkəyə keçir, qürbətdən-qürbətə düşür.

Bəzən bir dastanın, real və xəyali dastanın variantları və versiyaları olur. Hətta bu variantların bəzən biri irihəcmli, o biri isə kiçikhəcmli olur. Hətta bu variantlarda bəzən coğrafi ərazi, məkan dəyişir. Bu nə ilə izah oluna bilər? Bu hər şeydən əvvəl, ayrı-ayrı aşıq məktəbləri ilə bağlı bir məsələdir. Göyçə və Şəmkir aşıq məktəblərindəki bir, üç, beş, yeddi günlük dastanlar, Şirvan-Muğan, Quba-Dərbənd aşıq məkətəblərində bir, üç, beş və yeddi saatla əvəz olunur. Bunlar hər şeydən əvvəl, özünəməxsus folklor mühiti ilə, yerli əhalinin əmək məşğuliyyəti, toy adətləri ilə bağlı bir şeydir. Göyçə, Şəmkir, Borçalı aşıq məktəbləri qismən öyrənildiyindən onların xalq dastanlarına münasibətləri aydındır.

Lakin Şirvan-Muğan, Quba-Dərbənd aşıq ənənə-ləri, məcliskeçirmə qaydaları, dastanlara münasibətləri lazımınca öyrənilməmişdir. Ona görə də bəzən yurdumuzun qərb zonasında dastanların irihəcmli, şərq zonasında kiçikhəcmli olması təəccüb doğurur. Bu cəhətdən, filologiya elmləri doktoru Azad Nəbiyevin «Azərbaycan dastanları» kitabı böyük əhəmiyyətə malikdir. Bu kitabda cəmlənmiş kiçikhəcmli dastanlar Şirvan-Muğan, Quba-Dərbənd aşıq məktəblərinin xalq dastanlarına münasibətlərini, konkretliyə diqqət yetirmələrini və sair xüsusiyyətləri öyrənməyə xeyli imkan yaradır.

XIX-XX əsrlərdə yaranmış tarixi qəhrəmanlıq dastanları daha başqa tərzdə, bənzərsiz şəkildə qurulmuşdur. «Qaçaq Kərəm», «Qandal Nağı», «Qara Tarıverdi» və başqaları saza bağlı yarandıqları halda,

«Qaçaq Nəbi» dastanındakı qoşmalar tütəyə bağlı şəkildə yaranmışdır.

Neyin, tütəyin nəfəsli çalğı aləti kimi, simli alətlərdən qədimliyi, bunların qopuz və saz qədər ozan və aşıq yaradıcılığının inkişafındakı rolu inkaredilməzdir. Qanunauyğun olaraq bir sıra bayatılar, mahnılar ney və tütəklə bağlı şəkildə yarandığı və ifa olunduğu kimi, əsasən beşmisralı, yəni nəqarətli «Qaçaq Nəbi» dastanına məxsus qoşmalar da neylə, tütəklə əlaqəli şəkildə meydana çıxmışdır. «Qoy sənə desinlər ay Qaçaq Nəbi, Həcəri özündən ay qoçaq Nəbi» və yaxud «Qoy sənə desinlər ay nadan Nəbi, tüfəngi havada oynadan Nəbi» kimi son beytlər tütəkdə nəqarət yerində ifa olunur. Qədim «Dərbəndi» havası üstə oxunan bu qoşmaların «Qaçaq Nəbi» dastanına bağlılığı izahsız da dərhal bilinir. Çünki bu üslub, bu oxuma tərzi bir orijinal yol kimi yalnız və yalnız «Qaçaq Nəbi» dastanına məxsus bir keyfiyyətdir. Bu tarixi qəhrəmanlıq dastanımızın ancaq özünəməxsüs məziyyətidir. Dastanı məşhurlaşdıran, yayan, ona ölməzlik bəxş edən, onun qəhərəmanlıq qürurunu qat-qat artıran həmin mahnılardır. Bu mahnılar ürəklərdə yurd-yuva salmış, zehinlərə, hafizələrə yazılmış və bu yolla da özünün ölməzliyini təmin etmişdir. Dastanın söylənmə və ifa tərzləri də dastanlarımızdan çox fərqlidir, bu cəhətdən o müstəsnadır, bənzərsizdir. «Koroğlu» epos-dastanını, «Abbas və Gülgəz» dastanını hər hansı aşıq tək ifa edə bilər. «Qaçaq Nəbi» dastanında isə bu mümkün deyildir.

Etiraf etmək lazımdır ki, dastanlarımız toplanıb nəşr olunsalar da, onların bir sıra xüsusiyyətləri hələ lazımınca tədqiq olunub öyrənilməmişdir. Bu dastanların quruluşu, ifa tərzi, şerlərinin şəkli xüsusiyyətləri, musiqi çalarları yarandıqları mühitlə, aşıq məktəbləri ilə əlaqəli şəkildə öyrənilməlidir.

Dastanların toplanma nöqteyi-nəzərindən coğrafi miqyası genişləndirilməlidir. Hətta aşıq yaradıcılığının az inkişaf etdiyi güman olunan zonalardan da həmin dastanların parçalarını, o dastanlara məxsus qoşmaları toplamaq lazımdır. Bunların tədqiqat üçün faydası çoxdur. Axtarış zamanı məlum olur ki, bəzən dastanın özünün yayılmadığı ərazidə həmin dastanla bağlı əsatir, əfsanə, rəvayət və ya hər hansı oxşar bir süjet mövcuddur. Yaxud da həmin dastana oxşar, lakin başqa adla bir dastan mövcüddür.

Ona görə də faktik materialın toplanması, tədqiq edilməsi, tədqiqatçının imkanlarını artırır, daha əsaslı, daha köklu, daha inandırıcı fikir və mülahizələr yürütməsinə şərait yaradır.

*«Kirovabad kommunisti» qəzeti,*
*17 mart, 1984-cü il.*

.

# Bir ömrün yaşıl yarpaqları

Əsl yaradıcı insanın, istedad sahibi olan şairin bir misrası da, kiçik bir şer parçası da qəlblərə hakim kəsilə bilir, zehnlərdə, yaddaşlarda zaman-zaman yaşayır, onun ədəbi irsi elin sərvətinə çevrilir. Belə sənətkar istər uzunömürlü olsun, istərsə də qısa. O, xalqının yaddaşında unudulmaz olur. Onun şeri yaddaşlara köçərək, şirin rəvayətlərə çevrilir, ağızdan-ağıza keçir, getdikcə yayılma coğrafiyası genişlənir. Gündən-günə pərəstişkarları çoxalır, onu sevənlərin sayı durmadan artır. Belə sənətkarlardan biri çox erkən, gənc çağlarında itirdiyimiz şair-tədqiqatçı Rəşid Poladoğludur.

Belə bir məsəl var, deyərlər: - o nədir ki, həm bilirəm, həm də bilmirəm. Doğrudan da insan öləcəyini bilir, lakin nə vaxt öləcəyini bilmir. Ona görə də ölüm heç kəs üçün xəbərsiz olmur.

Belə olduqda insan təlaş keçirmədən dünyasını dəyişir. Rəşid Poladoğlunun işıqlı dünyasından, dadlı həyatından ayrılması belə olmadı. Düşünə-düşünə ayrılmaqda olduğunu tam dərk edən Rəşid Poladoğlu az zaman içərisində bir ömrə bərabər, qəlbləri göynədən şerlər yazdı. O, həmin şerləri yazarkən özü də sarsıldı, bizi də sarsıtdı. Bu nakam qəlbin sızıltıları, şeriyyəti, mən deyərdim ki, az qala bütövlükdə Azərbaycanı ağlatdı. Rəşid Poladoğlu həyatının son anlarında onu öz ağuşunda böyütmüş dağlarla üz-üzə, göz-gözə, nəfəs-nəfəsə dayanır, çiçəklərin ətrini duyur, bulaqların həzin zümzüməsini eşidir, buludlara baxır, kəkliyin nəğməsinə qulaq asır. Bunların nə faydası. Rəşid dağlardan dərman istəyir. Lakin bunların bundan belə faydası olmadığını gördükdə ürəkləri yandırıb yaxan, misra-misra qana-iliyə işləyən «Dağlar» gəraylısını, dağların sinəsində dağların özünə söyləyir.

Dillərinə düyün düşsün,
Dillənmirsən niyə dağlar?
Nə bildin ki, yaralıyam,
Ahım çıxıb göyə, dağlar.

Mən gəldim ki, məlhəm eylə,
Səndə dərman bilə-bilə,
Bax, gedirəm indən belə,
Nə bilirsən elə dağlar.

Yol üstəyəm bala-bala,
Dünya görən kimə qala,
İnnən belə yüz harayla
Poladoğlu deyə dağlar.

Əgər Rəşid Poladoğlu «Dağlar» gəraylısından başqa bir şer yazmamış olsaydı belə, yenə də aşıq yaradıcılığında öz möhtəşəm mövqeyini saxlaya bilərdi. Rəşidin ölüm ayağında yazdığı ürəkləri göynədən qoşma və gəraylıları qəmli bir dastan üçün kifayətdir. Bundan əlavə, Rəşid Poladoğlu gənclik illərindən bəri bir kitablıq şer yazmışdır. Onun şerlərindən aşıq poeziyasının rahiyəsi duyulur, al-əlvan poetik naxışları görünür. Aşıq poeziyası Rəşid qəlbinə ana laylası qədər məlhəmdir. Fikrimizi əyaniləşdirmək üçün «Sarıtel» qoşmasının bircə bəndinə müraciət edək.

Simlər dilə gəldi, könül titrədi,
Elə bil bağlarda quşlar ötüşdü.
Utancaq-utancaq nazlı «Sarıtel»
Uçub pərdələrin üstünə düşdü.

Bu misralar Rəşid Poladoğlunun fitrətən şair olduğunu və bütün varlığı ilə aşıq poeziyasına bağlı olduğunu bir daha təsdiqləyir.

Rəşid rəssam kimi bədii sözün qüdrəti ilə elə lövhələr yaradır ki, insan uzun müddət sözün sehrindən, təsirindən qopa bilmir.

Gələndə ilk bahar çaylar daşanda,
Çalanda bulaqlar zümzüməsini,
Qayada kəkliklər qaqqıldaşanda,
Sanki dinləyirəm şirin səsini,
Sən yadıma düşürsən.

Rəşidin təbiət müşahidəsi yalnız onun özünə məxsusdur.

Yenidən göyərir yaylaq yerləri,
Bahara bənzəyir payız az qala.

Bu misraları oxuyanda İraq-Kərkük mənzum atalar sözlərinin bir yarpağını xatırlayırsan.

Nə bahardı, nə də küz,
Hardan gəldi bu nərgiz.

«Koroğlu» qalasından bəhs edən şair şerin içərisində diqqətimizi Koroğlunun Nigarına cəlb edir.

Dəstə gözəllərlə üç telli Nigar,
Baharda bənövşə, nərgiz dərərmiş.
Günəşin nuruyla yuyub üzünü,
Şəmkirin suyunda güzgülənərmiş.

Biz, Rəşid Poladoğlunun təbii, orijinal şerlərindən böyük estetik zövq alırıq. Bax şeri belə yazarlar. Ancaq belə şerlər uzunömürlü ola bilər.

Rəşid Poladoğlu saz qədər dağlara, dağlar qədər saza vurğundur. Dağa və saza olan məhəbbət, onun qəlbində ekiz övlad kimi baş-başa yatır. Ana yurddan Rəşid nə özü doyur, nə də bizi doymağa qoyur.

Yaşıl meşə layla çala yatasan,
Göy yarpaqdan başa çətir tutasan,
Çiçəklərin xoş ətrinə batasan,
Üz sürtəsən torpağına, bu yerin.

Rəşid Poladoğlu iki yüz səhifəlik «Dillənmirsən niyə dağlar» adlı şer kitabını yadigar qoyub getdi.

Rəşid hələ çox yazıb – yaradacaqdı, lakin amansız ölüm ona imkan vermədi.

Rəşidin vaxtıyla həmyerlisi, professor Qoşqar Əhmədlinin əziz xatirəsinə həsr etdiyi böyük çoxbəndli qoşmanın ilk bəndi elə bil ki, onun öz həyatından söz açır.

Sən getdin, quşlar da kəsdi səsini,
Sənsiz meşələrə boran, qar əsdi.
Bulaqlar çalmadı zümzüməsini,
Şəmkir nəğməsini yarımçıq kəsdi.

Biz yuxarıda şair-tədqiqatçı ifadəsini işlətmişdik. Ölüm aman versəydi, Rəşid Poladoğlu həm də istedadlı folklorşünas alim kimi də məşhurlaşa bilərdi. Rəşid Poladoğlu indiki Gəncə Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Rəşid hələ tələbəlik illərində məşhur el sənətkarı, Göyçənin Zod kəndindən olan Usta Abdullanın həyat və yaradıcılığına böyük maraq göstərirdi. Usta Abdullanın şerlərini topladı, həyatını öyrəndi. O, ilk dəfə olaraq Usta Abdullanın şerlərini 1976-cı ildə kitab şəklində nəşr etdirdi.

Rəşid 80 səhifəlik bu şer kitabı çapdan çıxandan sonra da öz axtarışlarını davam etdirməyə başladı.

Budur, Rəşid Poladoğlunun folklor arxivini nəzərdən keçiririk. Sənətkar Abdulla, Qul Abdulla adları ilə şerlər yazan el şairinin qoşma və gəraylıları toplanıb. Kitabdan kənarda, arxivdə qalan «Bülbül», «Daşım mənim», «Odum mənim» gəraylıları, «Çəkirəm» qoşması, «Hər gülə» müxəmməsi və başqa şerləri birinci kitaba düşməmişdir. Bunlar ikinci kitab üçün toplanmışdır. Özü də Usta Abdullanın bədii cəhətdən mükəmməl, daha nadir şerləri kitabın ikinci nəşri üçün hazırlanmışdır. Həmin şerlərdən tək birini oxucuların ixtiyarına buraxırıq.

Nə bezibsən şirin candan,
Tökürsən qan yaşı bülbül!
Belə gəlib əzəl gündən,
Bu dünyanın işi bülbül!

Heç olmadın şadi-xürrəm,
Ciyərimə doldu vərəm.
Sən ol Lələ, mən də Kərəm,
Gəzək dağı-daşı bülbül!

Qul sənətkar haqqı çağır,
Sözlərim gəlməsin ağır.
Bəndələrdən mənəm fağır,
Quş da yazıq quşdu, bülbül!

Bu şer sənətkar Abdulladan sonra yaradıcılığa başlamış neçə-neçə el şairinin yaradıcılığına öz müsbət təsirini göstərmişdir. Hətta bəziləri sənətkarın az qala «Sən ol Lələ, mən də Kərəm» misrasını diri-diri öz şerlərinə qatmışlar.

Rəşid Poladoğlunun şerlərinə çox sayda nəzirələr yazılmışdır. Hələ sağlığında Pirverdi Dağlaroğlu, Məhəttəl və başqaları ilə olan deyişmələri el aşıqlarının marağına səbəb olmuşdur. Şairlər, aşıq-şairlər, el şairləri Rəşid Poladoğlunun ölümü münasibəti ilə ürəkləri göynədən şerlər yazmışlar. Bunlar nakam ömrün qəmli dastanından yarpaqlardır. Rəşid Poladoğlu haqqında doğrudan da gözümüzün önündə qəmli bir dastan yaranmaqdadır. Bu dastanın təkamül və inkişaf prosesini biz aydınca görürük. Bax, beləcə bir ömrün yaşıl yarpaqları gözümüzün önündən getmir.

Rəşid Poladoğlu yaradıcılığının qoşa qanadı var:

-Şer yaradıcılığı, folklor araşdırmaları.

Rəşid Poladoğlunun nəşr etdirdiyi «Usta Abdulla» kitabı həmin sənətkarın şerlərinin akademik nəşrə daxil olmasına imkan yaratdı.

İkicildlik «Azərbaycan aşıqları və el şairləri» (Elm nəşriyyatı, Bakı, 1984) kitabının ikinci cildində yer tutmasına səbəb oldu.

Aşıq poeziyasının inkişafında və araşdırılmasında Rəşid Poladoğlunun xeyirxah xidmətləri inkaredilməzdir.

Biz Rəşid Poladoğlunun ədəbi irsinə və folklor arxivinə bundan sonra da dönə-dönə müraciət etməliyik.

*«Xalq yaradıcılığı örnəkləri»*
*(Elmi-bədii folklor toplusu)*
*«Agah», 2002-ci il.*

# Mündəricat


Müəllifdən…………………………………………… 3
Hacı Bektaş Veli, Bektaşilik ve Ozan-Aşık Sanatı……. 5
Pir Sultan Abdal……………………………………… 16
Pirsultan dağdımı, kənddimi, şəxsiyyətdimi?………….. 25
Aşık Veysel'in şiirlerindeki özgünlük………………….. 29
Güvəndikli Aşıq Əhməd……………………………... 38
Aşıq Bəsti…………………………………………... 44
Böyük el sənətkarı…………………………………… 48
Aşıq Ələsgərin savadı olubmu………………………… 52
Ələsgər yada düşür…………………………………… 55
Müasirləri Aşıq Ələsgər haqqında……………………... 57
Ağdabanlı Qurban…………………………………… 61
Ağdabanlı Qurbanın həyat yolu……………………….. 64
Ağdabanlı Qurban və Göyçə mühiti…………………... 70
Aşıq Ələsgər və Ağdabanlı Qurban…………………… 74
Ağdabanlı Qurban və Usta Abdulla…………………... 77
Sənətkar Abdulla…………………………………….. 83
Sinələrdə çox söz var………………………………… 89
Ağbulaqlı Aşıq Aqil………………………………….. 92
Tifil Əsəd……………………………………………. 98
Ayrım Əhməd……………………………………….. 102
Aşıq Ələsgər nəslinin nümayəndəsi…………………… 106
Əli Bimar……………………………………………. 108
Qurban ocağının külaltı közü,
Vurğun nəfəsindən alışan Şəmşir……………………… 111
Dəlidağın qonağı……………………………………... 113
"Əli və Mehriban" dastanı…………………………….. 117
Seyfəli Aşıq Pənah…………………………………… 120
Sözdən çələng hörənlər……………………………… 125
Dağ çiçəkləri………………………………………….. 128
Şehli çiçəklər………………………………………….. 132

Aşıq Nabat……………………………………………… 135
Aşıq Nabatın mahnıları………………………………… 139
Dərbənd inciləri……………………………………… 146
Nəsimi və folklor…………………………………….. 151
Atalar sözlərində mifoloji izlər……………………… 155
Səməd Vurğun və aşıq sənəti……………………….. 158
El şairləri……………………………………………… 162
Tambur və tala mahnıları……………………………… 165
Biz qonşu deyilik, qardaşıq………………………….. 169
Arazdan keçən də var………………………………... 173
Alimin İran səfəri…………………………………….. 179
"Könlümün sazı"nı vərəqləyərkən…………………… 184
Alim səfərdən qayıtmışdır
(Türkiyə xatirələri)…………………………………… 188
"Çeşmə" necə yarandı?……………………………… 205
"Elin söz ocağı"……………………………………… 207
Gənc ozanların müsabiqəsi………………………….. 212
Dastan yaradıcılığı məsələləri……………………….. 215
Bir  ömrün yaşıl yarpaqları………………………….. 220

**Sədnik Paşa Pirsultanlı**

**“Ozan-aşıq yaradıcılığına
dair araşdırmalar”**

**“Pirsultan” nəşriyyat-poliqrafiyası**

**Operator: Kəmalə Kərimqızı**

| | |
|---|---|
| Yığılmağa verilmişdir: | 15.10.2002 |
| Sifariş: | 21 |
| Tiraj: | 100 |
| Fiziki çap vərəqi: | 14,6 |
| Çapa imzalanmışdır: | 8.11.2002 |
| Qiyməti müqavilə yolu ilə: | |

Ünvan: Gəncə şəhəri, Dədə Qorqud küçəsi 33/35